ALLAHVERDİ EMİNOV

# QADIN MƏLAHƏTİNİN SİRRİ

(roman-esse)



BAKI – 2024

**Allahverdi Eminov. Qadın məlahətinin sirri.**
Bakı, "ADMİU", 2024, 236 s.

*Allahverdi Eminovun oxuculara təqdim olunan bu kitabı Dünya ədəbiyyatında, Dünya elmində və Dünya publisistikasında hələ də "açıq" qalan mövzuya həsr edilmişdir: İlahidən Yer üzünə göndərilən qadın aləminin sehrli möcüzələri, təkrarsız məlahiyyəti, ilğım şəhvət hissi. Müəllif bu essesində bütövlükdə qadın məlahətindən irəli gələn vərdişlərinə, yataq həzinliyinə, ruhi – cismani məhəbbətinə toxunmaq istəmişdir.*

*Fərdi yaradıcılıq psixologiyasından və bədii – elmi üslubundan qaynaqlanan təsvirləri, ricətləri oxucuların estetik tələbatlarına cavab verir, onlarda həyatsevərlik hissi aşılayır.*

*Əsər geniş oxucu zövqü üçün nəzərdə tutulmuşdur.*

## Müəllifdən ön söz

Mənim yazı dünyamda qadın obrazı xüsusi yer tutur və onları xoşbəxt görmək istəyirəm, baxmayaraq ərindən ayrılmışlar, ya da qəzada itirmişlər olsun. Qadında, zənnimcə, atılası heç nə yoxdur. Qadın az fikirləşməklə kişidən çox iş görür. Qadın Məhəbbəti bahar çağı özünə çiçək axtaran arıdır – kəpənəklə müqayisə etməzdim – sancır da! Son üç ildə qadın dünyası: onun cəmiyyətdə zorlanması, məişət əşyasına çevrilməsi, yalnız həyata uşaq gətirməsi gözüylə yanaşılması faciədir. Bu səbəblərdən "Madam Sofa və Qara at", "Balerinanın riski", "Kül olmuş qızılgül" romanlarını (hələki maddiyyatsızlıq ucbatından nəşr edilməmişdir) qələmə aldım: təxminən 5-10 il arasında fasilə ilə. Bu əsərlərdə qadın taleyini çalışmışam səadət yoluna qaytarım. Ötən əsrin 90-cı ilində böyük tirajla (təxminən 250-300 min) təkrarən nəşr olunan "Payıza qədər" roman – essem məni ruhlandırdı, eyni zamanda amansız tənqidlə üz-üzə qoydu, çünki Sovet dönəmində qadın – kişi münasibətlərindən bəhs edən ilk roman idi, sonralar mənim haqlı olduğum mətbuat dairəsində etiraf olundu! Az sonra "Naməlum qadına məktublar" romanım işıq üzü gördü.

"Qadın mövzusu əbədidir, eramızdan əvvəl də yazarlar, filosoflar, şairlər maraqlı əsərlər yazmışlar. Eləcə də Orta əsrlərdən üzü bizə XXI əsrdə qadın möcüzəsindən romanlar qələmə almışlar, bəs onlarda qadının hansı keyfiyyətləri yazmaq zərurəti doğurmuşdur?

Bəzisini xatırladardım öz yozumumda: Qadın bədəni Dünyanın ən qiymətli kapitalıdır, onu İsveçrə bankında gizlətməyə dəyməz. Qadın biləyi Kişi ovcunda qar suyu qədər soyuq deyildir. Ah qadın gözləri, kişini bəbəklərinizdə qoruduğunuz üçün tərifə layiqsiz. – Bu üç “seçilmiş” fikir yalnız qadının vücudu haqqındadır. Bəs onun ehtirası, yataq həqiqətləri səadəti, xəyanəti və ilaxır xüsusiyyətləri necə?

Son üç ildə müşahidələrim, düşüncələrim, eşitdiklərim “Kişi, payız gəlir”, “Qadınlar və daş hasarlar”, “Adsız roman” romanlarımı (məlum həqiqətdən nəşrini mümkün etməmişəm) ortaya gətirdi. Əsərlərin obrazları o qadınlardır: ehtiyatlı olun, çünki qadın yanaqlarını çiçək ləçəklərilə vurmayın – ətri çəkilər. Qadının yuxulu nəfəsindən kəpənəklər hürküşüb işığa doğru uçurlar. Qadın təmiz ehtirası üçün ömrü boyu ağlayar, amma bu hissini kişidən gizlədər.

Romanlarımdan aldığım müəllif təəssüratını xeyli yaşadım və acı-acı güldüm ki, nəşrlərinə nail olmamışam, çün pulsuzluqdur, vaxtilə qucaq-qucaq aldığım qonorarlar, ən yüksək məvacib (Sovet dönəmində) zamanı elmi kitabların nəşrinə və iki romana sərf etdim, (“Yuxuda dirilən adam” və “Payıza qədər”). Sadaladığım romanlarımı bir ovuc (müstəqilliyimiz dönəmində) maaşım ödəmədi! İnanıram, vaxt gələr onlar işıq üzü görər! Axı, mən pulsuzluğa layiq müəllif deyiləm!..

Qışın “ölmüş” günlərində qəfil fikrimə gəldi qadın məxluqu barədə mülahizələrimi: həqiqətləri və yalanları başqa bir janrda yazım: pritçamı, essemi, publisist düşüncəmi... janrında oxuculara çatdırım.

Qadın dünyasının fəlsəfəsinə vardıqca duydum və idrak etdim ki, mən heç bir şey bilməmişəm, əyani görsəm də proqnozlaşdırmaq təşəbbüsündə olmamışam. İlahidən Yer üzünə Adəm və Həvva adları ilə göndərilən qadın və kişi əfsanə, əsatir və mif imiş. İlahidən bəşər nəslinə hədiyyə edilmişdir və qismətinə nəsnələr düşmüş ki, ehtiyatlı olun, sizlər də mənim bəndələrimsiz. İlahidən kişi taleyilə yarıbayarı yaşayan qadın Dünyaya uşaq–övlad gətirir və Dünya boş qalmır.

Kitabda qələmim işlədikcə qadının iç – daxili səltənətinin əsrarəngiz işığını hiss etdim, yaşamağa çalışdım, yaşadımmı?! Suala tam, oxucularımı qane edəcək cavab tapmaq riskim çatmadı. Çün bu illərdə, kşi qadını ilə necə yaşayırsa sakit və konfliktsiz ötüşmür, “cüt”lərin üz–üzə gəldiyi məqamlar baş verir: haqlı və haqsız! Hər halda qadına – uşaqlarının anasına hörmətlə yanaşmaq lazım gəlir. Əlbbəttə, məni düzgün anlayın: qadın elə addım atar – kişisinin o anda dili kilidlənər, çapalayar və ölüm qərarını verər...

Mən kitabda ailə problemlərinə toxunmaq istəməmişəm, vaxtilə, “Şərq ailəsinin sirləri” (1992) və “Ailə paradoksları” (2014) iri həcmli monqrafiyalarımı nəşr

etdirdim yüksək tirajla, uğur qazandı. Bu essemdə – bütövlükdə qadının xarakterindən irəli gələn yaxşı və pis vərdişlərinə, yataqda həzinliyinə, kişisi üçün ruhi – cismani məharətinə toxunmaq istəmişəm. "İstəmişəm" sözünü elə belə yazıya gətirməmişəm. Bu sözün təyinatında müəyyən çalarlar gizlənmişdir. Yenə də təkrar edərdim ki, qadın sirlərinə hər adam: hər müdrik, hər filosof, hər yazıçı varid olmamışdır və bu cəsarəti öz üzərinə götürmək istəməmişdir. Tarix qarşısında borclu qalmağı özünə rəva görməmişdir!

Mən mövzuda konkretlik axtarmaqdan uzaq olmuşam, amma oxucularımın bədii – estetik zövqünü, tələbatını nəzərə almışam. Müasir gənclər, xüsusilə, qadının kişiyə ilğım təsiri üçün daima intizarda bulunmuşlar, nikbin əzablarla üzləşmişlər, təmasın şəhvaniliyinə can atmışlar. Qadını ilahiləşdirmişlər, möcüzələşdirmişlər və fetişləşdirmişlər? Təbii haldır, təbii istəkdir və instiktiv tələbatdır. Onların xoş və turşməzə gözləntiləri hələ irəlidədir, bu xaosdan baş çıxaranlara uğurlar diləyirəm, ipək tora ilişənlərə səbr, iradə və mətanət arzulayıram.

Tövsiyəm o olar qadın qəşəngliyini, onun zahiri estetikasını və daxili aləmini mənimsəməyi bacarsınlar. Bu sadaladığım "üçlük"lərdən muğayat olsunlar, sapmasınlar...

Mən qadından hansısa sirri açmasına təşəbbüs göstərməmişəm. Mən elə düşünmüşəm ürəyimdə tut-

duğum sirr açılarsa qadın gözümdən enər. Mən qadınlar haqqında nikbin fikrimi dəyişmək istəməmişəm, ən azı bu məxluq mənim həyatımda böyük rol oynamış, gözəlliyini əsrigəməmişdir. Kişi üçün bu hisslərdən uca nə ola bilər? Varsa müəllifin ünvanına göndərər, çox məmnun qalaram.

***13.07.2021.***



# Gözəlliyin sehrli hikməti

*Gözəllik qadına ləyaqət gətirir*
*Müəllif*

Hər halda xeyli həyat təcrübəm var və bunun altmış (60) ilini qədrini o qədər də qiymətləndirməyi bacarmadağım yaşam tərzinə həsr etdim, insanlarla qarşılaşdım, dostluğa inandım, ülfət bağladım, əks cinslə yol yoldaşı oldum, xeyli sonralar yetişmiş, özünə gəlmiş qızlara auditoriyada dərs dedim, nə az – nə çox: 30 il!

Kişilərlə dil tapdım müxtəlif vəzifələrdə işlərkən, razılaşdıq da, bir fikrə gəlmədik də – hər halda xoş ovqatla ayrıldıq. Amma qadın məxluqatı barədə bu sözləri deməkdə çətinlik çəkirəm, baxmayaraq səlis nitqim var, mühakiməmin lirik ovqatı yox deyil, ləyaqətlə yola verməyimin özəllikləri pis olmamışdır, xahişlərinə can – başla əməl eləmişəm. Tənha otağımda, yaxud ixtiyarıma verilən mənzildə şirin və acı (!) söhbətlərim baş verib, müəmmalı danışıb soruşmuşam: – Səbəbini açın arxayın olum, – demişəm. O isə: – Üz vurma, bu, sirrdir, – cavab veribdir.

Ovqatımızın vüsallı saatlarında xəbər almışam: – Səndəki bu, məlahətdirmi, yoxsa məharətdirmi? O isə: – Deyə bilmərəm, bu bəlkə? – Susub, halbuki, məharətliyin sirrini açardı! Üstəlik məlahətliyin müəmmasını!

Təkcə yataq sirrini nəzərdə tutmuram, sosial vəziyyətlərdə də mənə qaranlıq görünən nəyinsə səbəbini öyrənməyə həvəs göstərmişəm, istəyimə nail olmamışam: – Bu sirrdir, – cavabını almışam.

Neçə il ömür sürdüyü (!) gözəl qadının ərindən boşandığı mənə ağır təsir edib ki, hansı səbəbdən kimsəsiz mənzilimə ayaq basmısan? Cavabında: – çox dərinə varma, – pıçıldayıbdır .

Bu dəfə də uğursuzluq!

İllərlə həyatda ürəyimdən keçən "sirri" açmayan, yaxud özü də bacarmadığı sirrin səbəbindən xəbərsiz yaşamışam. Bu dəfə özümə sual vermişəm ki, yalnız ***İlahidən göndərilən sirr*** açılmır! Bu sirri İlahi qüvvə açar! Düzü, bu qənaətimə də şübhəli yanaşdım. İnsan məxluqatını İlahi gözəgörünməz varlıq xəlq etmişsə... nə səbəbdən sirr açılmasın?

Belə narazılığım, küskünlüyüm ilk dəfə beşinci sinifdə oxuyarkən müəllimimiz bir kitabın adını çəkdi və oxumağımızı məsləhət gördü: bu əsər dahi Nizaminin "Sirlər xəzinəsi" idi.

Evə aparıb (şəraitimiz yaxşı idi baxmayaraq müharibə sona çatmışdı, əmin – amanlıq başlamışdı) ləzzətlə oxumağa başladım, şeirlə qələmə almışdı böyük Gəncəvi. ***Müəllimimiz yəqin unutmuşdu ki,*** "Gəncə" adlı şəhərimizdə doğulubdur söz sərkərdəmiz, amma adını dəyişdirib "Kirovabad" qoyublar. ***Müəllimimiz yəqin unutmuşdu ki,*** bu Kirov ki yaşayıb Bakıda –

Azərbaycan neftinin gəlirini Moskvaya sordurub, ölkəyə rəhbərlik etmişdir. ***Müəllimimiz yəqin unutmuşdu ki,*** həmin Kirovun soyadı Kostrikovdur, ruslar işinin bir hissəsini görəndən sonra Leninqrada rəhbər vəzifəyə göndərdilər, elə bu şəhərdə başına bir güllə sıxıb cəhənnəmə vasil etdilər. Bizə isə yadigar olaraq məşhur parkda heykəltaraş Pinxos Sabsayın hazırladığı heykəli yapdılar əli Xəzərə uzanıla halda! Sonra da, II Müstəqilliyimizin ilk aylarında qranitə çevrilmiş Kirov traktorun təkərlərin altında əzişdirildi...

***Hə, onu deyəcəkdim,*** “Sirlər xəzinəsi”ni səhifə-səhifə vərəqlədim, sirli aləmə düşdüm, halbuki, sirlərin səbəblərinin açılması ümidində idim. Əksinə, zalım hökmdarların zülm etməkdən həzz aldıqlarını, qoca qarı Soltan Səncərin atının qabağına özünü atıb içindən gələni söylədiyini oxudum, başqa bir sirli aləmlə XX əsrdə qarşılaşdım: oxumuş, cibində partiya bileti gəzdirmiş, ali təhsil almış məmurların özbaşınalığının davamlılığından əsəbləşməyə bilmədim. Nəsə bu barədə müəllimimdən soruşacaqdım ki, Nizami dövrü ilə indiki dövr arasında fərq nədədir? Baxdım, dörd il əvvəl müəlimimizin bozarmış pencəyinin, qalın köynəyinin süzüldüyünü gördüm. Ayağında palçığa bulaşmış qaloşunu, arabir uzunboğaz çəkməsinə baxdım və nə xəbər alacaqdımsa içimdə sirr kimi saxladım...

***Hə, onu deyəcəkdim,*** mən qadınların açmadıqları sirrdən söz açmışdım, az – çox həqiqətə yaxın sirlərindən agah olacaqdım. “İkimiz bir köynəkdə, yaxası dar olaydı” xalqın dilində dolaşan bir məqamda yenə bir sirr açılmayacaqdı? Axı, bu diliqapalı, ağzıbütöv qadınlar bu xasiyyətlərilə nə qazanırlar? Budamı, İlahinin sirridir bu qulağın sözünü o qulaq eşitməsin?

***Hə, onu deyəcəkdim,*** böyük gözəllik aşiqi, qadın pərəstişkarı Nizami də o məxluqdan bir sirr öyrənə bilməmişdir, ancaq onları tərənnüm və vəsf eləmişdir, qəzəllərə ürəyini boşaltmışdır!

Nizamidən üzü bizə – əsrlərə doğru böyük dahi şəxsiyyətlər qadınlara can atmışlar, qadınlarla oturub–durmuşlar, qadınlara pərəstişkarlığı gizlətməmişlər, hətta görüşlərindən imtina etməmişlər, sevgi dolu məktublar yazmışlar – hər biri bütöv əsərdir, dost – tanışları nəşr etmişlər həzin məmnunluqla.

Qəribəsi odur şəhvət hissilə gözlərini açan şairlər, rəssamlar, filosoflar, heykəltaraşlar, yazıçılar, dövlət xadimləri, hərbçilər belə, bir şərqli, bir islamçı olaraq özlərindən sonra iz qoymamışlar, ancaq şeirlərində, çəkdikləri portretlərində, heykəllərində işarələr vurmuşlar, gələcək araşdırıcıları “işə” salmışlar, fərziyyələrlə üz-üzə qoymuşlar. Qərblilər isə şəhvət hisslərini, başqa bir qadına (yaxud qadınlara) vurulduqlarını gizlətməmişlər: bir də nə səbəbdən məxfi saxlamalıdırlar, pərdəarxası saxtakarlıqdan qaçmamışlar. Anton Çe-

xov, Fyodr Dostoyevski, Corc Sand, Lev Tolstoy, Viktor Hüqo, Onere de Balzak, İsaak Levitan, Konstantin Paustovski, Aleksandr Düma (ata) və generallar, marşallar, polkovniklər, başda Napaleon, Hitler, Stalin... Bu şəxslər bilirdilər belə intim sirləri "ulğuma" ilişib qalmır, arxivlərindən tapılır izləri.

Bu məsələ ilə arada maraqlandım, nə qədər materiallar topladım, yeri gələndə istifadə edəcəyəm...

Əgər bir şeydən xoşun gəlirsə (yaxşı nəsnə olmaqla) nə səbəbdən gizli saxlamalısan? Bir qadın gözəlliyi, yaxud qəşəngliyi (bunlar fərqli məfhumlardır) sənin idealına dönmüşsə, bu xanım sənə ölməyəcək həzinlik, rahatlıq, unudulmaz ləzzət bəxş edəcəksə, utanmağa hacət görmürəm: bu, tale qismətindir, boyun qaçırma, bir gün gələr zəhər dadı verəcək peşimançılıqla üzbəüz dayanarsan, utandığından onun üzünə baxmayacaqsan.

İlahidən vəhylə gələn sirri qadınlar min bir məharətlə açmaq qabiliyyətinə malik olsalar da israrında dayanırlar: – Bizi xaliq belə yaratmışdır, sənə nə lazımdır, ləzzət almaqmı? – Hələ ki əsirgəmirəm! – Astadan pıçıldayır.

– Necə yəni "həlalik"?! – Əsəblərimi boğub dillənirəm. – Müvəqqəti də var? Sabah məni həmişəlik tərk edərsən hə! Guya məni tanımırsan hə?

Qadın gülümsünür, dodaqlarından şirə süzülür ovcuma, bir damcısını içirəm, sonra dodaqları yarpaqlar

arasında işığa çıxan əriyin  iki bölümü kimi məst edir məni. Sevdiyim meyvədir, qadın məclisdə olanda əriyi ikiyə bölüb bir tayını ona uzadıram və şirəsi süzüləndə ən çox ləzzəti alıram. Əriyi buraxaq bir yana, bu, mənim təsvirimdir, bəs "ləzzət" məfhumunun fəlsəfəsində dayanan nədir ki qadınları məst edir, xumarlandırır, amma onlar bu sirri də gizlədirlər. Mən oxuduqlarıma inanıb belə düşünmüşəm ki, ləzzət (ayrılıqda predmetsizdir) almaq xoşbəxt yaşamağa insanı ruhlandırır, səadət haqqında fikirləşməyə vaxt tapır, həyatının mənasına varır, şən ömür sürmək istəyir, ləzzət bu zaman özünü irəli atır: həzz almaq istəmirsənmi? sualını özünə verir: – Bunu bacarmaq lazımdır, ona görə ki, ləzzəti duymaq bir nemətdir, kişinin və qadının sağlamlığına, ovqatının yaxşı olmasına imkan yaradır. Amma ləzzətalmanın o biri üzü də olur. – Son sözünü astadan deyir.

– Sənə arzulamazdım. – Səsini endirir. – Bu da bir sirrdir, – deyib məni qabaqlayır.

Çiyinlərimi çəkirəm. – Məsələn? – Soruşuram. – Səninlə ləzzət alanda yadıma norma – hədd düşmür. – Allanmış yanaqlarında tər puçurlayır. Sağ qolunu yanağının altında yastıqlayır. Ayağa qalxır, güzgüyə çatmamış geri qanrılır. İlk dəfə onun bükülmüş hərəkətsiz belinə baxıb heyifsiləndim, lap cavanlığını yadıma saldım. Bir sualı bilərəkdən verdim:

–Yerişin və duruşun xoşumca olmadı, nə üçün güzgüyə çatmadın? Sən ki aynapərəstsən.

– Bunundamı sirrini öyrənmək istəyirsən? – Ehtiyatla güldü, içəri axan meh onun saçlarına dolaşmışdı, pişik yumaqla oynayan kimi. – Qorxuram sirrini açam sən ruhdan düşəsən. Sənə xoşbəxtlik verməyəcəyəmsə... Bu nemətləri vaxtında verməyəcəksənsə!

– Sən ki bu iki neməti məndən əsrigəməmisən, başında isə ehtiraslar dayanır. Heç vaxt sənin ehtirasların həyat qaydalarını pozmayıb, ləzzət almağına xətər yetirməyib.

– Sənə belə gəlir, amma başqa cür düşünürəm. Ehtiraslarımın coşğunluğunda möhkəmcə azmışam.

Bu sözləriylə nəyə işarə vururdu? – Ürəyimdən keçdi və soyuducuya yaxınlaşıb qapısını açdım, stola "əl" gəzdirdim, hazır vəziyyətə saldım, içkini də unutmadım. Meyvələrdən əriyi seçib ayrıca nimçəyə qoydum. – Vaxtdır, bu vaxtlar sənin yeməyin hazır olur mənim tərəfimdən, baxmayaraq az qala "qrafikini" unutmuşam. – Yüngülcə özümdən gileyləndim.

– Çox yeməyəcəyəm, – dedi və badələri doldurmadı, ortasına qədər şərabı süzdü. Xarici səfərlərimin birində bu şərabdan üçünü almışdım. Yaxşı içilir, gərək çənəyə güc verməyəsən, ləzzət düyasan. İfrata uymayasan, ləzzətə – həzzə mane olan şeyə yol verməyəsən. Filosoflardan əvvəl yaxşı kişilər, dünya nemətlərindən həzz almağı bacaranlar təsdiqləmişlər ki, kişilər

"arası kəsilmədən" ləzzət ala bilməzlər, o, həmişə bu işin pərəstişkarına çevrilsə özünü itirər, ancaq bu iştahı üçün aclıq duyanda qərarını verməlidir, enerjisi müqabilində qıcıqlarını qavrayanda... qadın ona hava – su kimi gərəklidir, o halda yorulmur, orqanizminin funksiyaları "diri" qalır, ləzzəti solğunlaşmır, cana doyurmur. Bir şərti də unutmamaqla: kişinin ləzzət – həzz alması müxtəlif olmalıdır, eyni həzzin təkrarı ağır yükə çevrilir, xoşbəxt yaşamaq üçün ləzzətalmanın subyekti dəyişməlidir və arada interval yaddan çıxmamalıdır.

Həzzalma (ləzzətalma) həm kişi, həm qadın üçün elə bir tələbatdır, həyat tərzidir – hər iki tərəf onun davamlığını istəyir, rəngarəngliyini arzulayır, əlbəttə, baxır bu xoşbəxtlik kimin payına düşür. Belə vəziyyətdə daima qalmaq mümkünsüz cəhd olardı. Xüsusilə, kişi ehtirası, enerjisi müəyyən vaxta qədər hərəkət etməyə qadirdir, belə halda süni yollara əl atmaq iztiraba gətirir, əzabverici yükə çevrilir. Fikrimcə, həzzdən (ləzzətdən) doğan iztirab arasındakı məsafə çox yaxındır və iztirabın öz zövqü vardır, bura peşimançılığı əlavə etməzdim. Unutmayaq ki, belə labirintlər səltənətini qadın(lar) çox sevir, ehtiraslarını boşa vermək istəmir, həyatının o anını canlandırır: dəniz sahili, qumluğa bələnmiş kişi bədəni, gömgöy sudan tələsik çıxıb kişiyə qovuşmaq reallığı. Hövsələsiz kişinin təmkinsiz qadınla ilk döyüşü. Yarısı qumluğacan batmış şərab

dolu saxsı bardaq, yanında iki saxsı piyalə. Badələrini toqquşdursunlar, hələlik növbə bu cansız əşyalarındır.

– Nə fikirləşirsən? – Qadın sükutu oyatdı. – İçək o sağlığa. – Ərikdən bir yarımtayı əlinə aldı. – Həzzimizi öz zövqümüzə uyğun hesab edək, kişiylə yatağa girəndə təzələnsin. Amma – o, badəsini yarıyacan dodağına qədər aparmışdı, qızarmış dodaqları aralanmışdı, ağappaq şərabın güclə görünəcək qətrəsi süzülüb zənəxdanında toxdadı. Mən ona sarı əyilib çənəsini sıxdım, dodaqlarıma apardım, ilğım qoxu burnumu qıcıqlandırdı. – Kişi və qadın aldığı ləzzəti "ağlının köməyilə" yox, zövqü müqabilində seçməlidir, – fikrimi ona çatdırdım. "Ağıl seçimi" məsələsində filosoflar səhvdədirlər, onlar elmdən aldıqları ləzzəti qadının bəxş elədiyi zövqlə qarışdırırlar. Ona görə də ta qədimdən xoşbəxt filosoflar tapmaq müşküldür. Tarixi faktlar az deyil qəşəng qızlar, yaxud qadınlar məmnunluqla filosofa ərə gəlirlər, az sonra saçlarını yolub üz döndərirlər. Amma yazan şairlər, yazıçılar, şəkil çəkən rəssamlar qadın gözəlliyini əldən uçurmamışlar, onların köləsinə dönsələr də! Eşqdə, ehtirasda meyar bilik hər şey deyil.

Ehtirasını idarə etməkdə çətinlik çəkən qadın(lar) özünə münasibətdə vəzifəsinə hörmətlə yanaşmalıdır, çünki xoşbəxtliyə yol buradan başlayır, ifratdan qaçmaqdan sərbəstləşir. Soruşdum ki, otaqda ikimizik: sən və mən, yəni kişi və qadın. Sən əgər alçaldıcı ləz-

zətə və rəzalətə, sağlamlığına və rifahına mane olan pis hallara qarşı mövqeyini müəyyən etmişsənsə, özünü hansı durumda görərsən? Sualı qarşısında qoymaq istəmədim.

O, fikrə getdi, əlindəki büllur bakalı "doldurdu" və nə fikirləşdisə gözlərini mənə zillədi, bu, məncə korkoranəliyin diqtəsiydi. Düzgün hesablamışdım ki, qadın elmə uzaq deyil, açıqca yazmırsa, mənə oxumaq üçün bəzi əlyazmasını veribdir şəxsi rəyimi öyrənsin. Maraqlı odur qadınlardır obrazları, amma nə povestdir, nə romandır: qadınları müasirləridir, dediyi kimi, ağılı, azadlığı və kişini sevənlərdir. Özünün gəldiyi nəticəyə görə, qadın ehtiraslarının bu üç əlaməti onun ünsürləridir: "Zəkanın, ağılın və hərəkətin" təntənəsi bunlardır.

–Mənzilin seçimində ağılla addım atmısan, – deyib şanı üzümündən bir giləni salxımdan qoparıb ağzına apardı, əzdi və şirəsini uddu. – Mənim ehtiraslarımı həmişə təqdir eləmisən, eləmi? Haqlısan, çatdırmısan qadının mahiyyətindən bu hiss dayanıqlı deyilsə gec – tez atılacaqsan. Ona görə ki, qadın ehtirasları kişiyə sevinc və xoş iztirab verir, belə nemətdir.

Divanda son cümələni dedi və stolun arxasına qayıdıb oturdu:

– Ehtiraslar eyni zamanda özünümühafizədir, sağlamlıqdır, ancaq firavanlığı ödəmir. Mən səninlə ikilikdə ikən ağılın göstərdiyi yolu görməyi bacarmıram, emosiyalarımı irəli çəkirəm, önə verirəm.

– Şəxsi fikirlərinə həmişə istinad eləmisən, bu da mənim taleyimdə bir nemətdir, mən isə ağlımın rəhbərliyinə istinad eləmişəm, bu, olmasa qadını fəlakətə aparar. Gizlətmirəm, kortəbii meyillərim olub, bərabərləşdirməyi bacarmısan. Nə qədər ehtiras ağıllıdır fəzilət uzaqda olmur.

Xeyli dəqiqələr keçəndən sonra o, yenidən ayağa qalxdı və divanın külək vuran küncündə əyləşdi, qu tüklü girdə balışı belinə söykədi, sinəsi qabarıq göründü, döşləri "sakitləşdi".

Qadının sirri onun məlahətliliyində gizlənir, bunu qadınlarla ünsiyyətimdən müşahidə eləmişəm, mənimlə sərbəst davranan hələ cavanlıq "etiketi" bədənindən qoparılmayan Oyundaşım timsalında. İnsafən o, heç vaxt mənimlə tanışlığımda "fayda" anlamına gəlməmişdir, yaxud "mənafe" məfhumuna. Fayda kişinin qadınına, sevdiyi yad xanıma yanaşmasından asılıdır, elə zənn eləmişəm bu ideyanı mənimsəmişdir, demişdir ki, qadında, konkret məndə sənə ehtirasım, şəhvət hissim o zaman faydalıdır, heç bir şübhəm yoxdur: həqiqi, möhkəm və uzunmüddəltidir. Qadın olaraq hər təmasda duymuşam. Sonralar bunlar təhlükəyə çevrilə bilir, qadın gözəlliyini itirir, bədən boşalır, daha nə bilim.

Fikrinin yerinə düşüb düşmədiyini soruşdu və tamamilə fəlsəfi nəticə çıxartdığını başımla təsdiqlədim. O, arxayınlaşıb məmnunluq ifadə edən gözlərini geniş

açdı, fikrinin davamı kimi astadan dedi ki, mənafeni mən dünyasını dəyişmiş filosoflardan anlamışam: qadın və kişi bir varlıq, ikiparanın birləşmiş bir bütövü olaraq öz həyatlarını təmin etmək üçün vacib saydıqları ehtirasın ödənilməsidir. Həqiqi fayda odur qadın xüsusilə, özünə uzun sürən, hisslərini satmayan tərəf – müqabilinə qovuşmuşdur. Hər ikisində sonralar qadın və kişi tərəfindən təhlükə baş verməsin, əbədi ağrıya çevrilməsin. Unutmayaq ki, cərrah insana qısamüddətli verdiyi əzabdan sonra faydalı əməliyyat aparır.

Mən həmişə qadının mühakimələrinə müsbət baxmışam, ehtiraslı olduğu qədər də ağıllıdır.

Divanda arxayın təsiri bağışlasa da narahatdır, bədəni uçunur. Qadın ehtiraslarının yükü ağır olanda boşalmalıdır, xurcunun hər iki tayı ağırlığını bərabərləşdirməlidir.

Uçunması qorxudan deyildir, bədəninə çökən kişi təmasının ağrısı idi.

Birmərtəbəli evin bağçasından ərik ağacının budaqları yarpaqların xışıltısını içəri doldururdu. Ərik ağacının solunda yasəmən ağacı yuxuya dalmışdı, bülbülün ehtiraslı nəğməsindən hələ ayrılmamışdı.

– Solumda otur. – İlk müraciəti idi. – Nazik donunun yarımqolunu bir az da qaldırdı, ağappaq rəng almış əti titrədi və sağıma keçdi, bədəni sürətlə əsdi, ağacların artan xışıltısı mənimçün eşidilməz oldu.

*"Nə qəribə havadı, elə mənim havamdı...*
*Bir azacıq tutqundu, bir azca da işıqlı,*
*Bir azca dumanlıdı, bir azca da yağışlı...*
*Bir az donuq kimidi, bir az soyuq kimidi,*
*Bir azca da durğundu, bir azca da yorğundu.*
*Bir az ağ, bir az qara, bir az da boz kimidi...*

*Qəhərdən boğazıma ilişən söz kimidi...*
*Nə qəribə havadı, elə mənim kimidi..."*

Biz doğulmuşuq həyatı yaxşı mənada istədiyimiz tərzdə yaşayaq, cəmiyyəti idarə edən qruplar özlərinə nəyi rəva görürlər xalqa da o gözlə baxırlar. Amma tarixlər boyu idealın tamamilə əksi baş vermişdir. Bu faciənin də sirri açılmamışdır, gözləmək də artıq cəhddir. Eşitdiyimiz və təşviq etdiyimiz qiymətli sözlər var: Torpaqdan öyrən. Həyatı sev. Ünsiyyətdən ayrılma. Amma adamların içərisindən çıxan "seçilmişlər" olub, öz düşündüklərinin ardınca gediblər, onları isə başqa "seçilmişlər" nadanlıqda günahlandırıblar, hər addımda büdrəmələrini gözləyiblər. Bu da var ki, məzəmmət edənlər anlamışlar şən, xoşbəxt həyat, ilahi olan nə varsa kütlə üçün deyil, onların qismətinə dünyaya uşaq gətirməkdir, oğlanları əsgər yaşına çatdırmaq, hakim dairələrin hökmranlığını qorumaq, şəhidlik zirvəsinə ucaltmaq, sonra unudulmaqdır. Qızları evdarlıq ruhunda yetişdirmək, tale qismətilə ərə verməkdir.

Unutmayasan ki, sevincli, yaxud kədərli dəqiqələrində, saatlarında və günlərində yanında elə bir insan olsun – sənin hisslərinə şərik çıxsın, qəlbinin səsini eşitsin. Şöhrətpərəstlik bir qrup millətin qanına hələ də işləyir, anlamaq istəmir ki, bu təşəbbüs ötəridir, keçib unudulandır, onun sabahı yoxdur, nə qədər ki o ali nöqtəyə qalxmaqda təzəsən, yenicə gözə görünürsən maraqsızsan. Az sonra sən də "nimdaş" təfəkkürlülərin tökdüklərini ətəyinə yığacaqsan və olacaqsan nadanlardan biri, qulağına bərkdən qışqıracaqlar ki, kütlə üçün əl – ayağa düşmə, onların nəsibidir bu. Onlara bir qrup nadan rəhbərlik edir, fırladır yalandan vədlərilə, çünki əlli – yüz illərdir bu kütlə yuxuludur, belə bir psixologiyanı birinci sinifdən aşılamışlar. Bir tərəfdən də tənbəllik: "ver yeyim, ört yatım, gözlə canım çıxmasın" ətaləti.

Amma kütlə ilə siyasi və sosial oyunlardan ləzzət duyanlar pafosla danışırlar Azadlığın şirinliyindən, dişlərinin altında isə Azadlığın acısı gizlədilmişdir. Çünki, millət öyrənmişdir bir nəfərdən asılı olmağı – təbii böyük bədbəxtlikdir.

Həyat belə paradokslara o qədər alışmış ki, hey çalışır insanların sevgisinə nail olsun, necə olursa onu qazansın, qəlbən sevsin, bu isə ehtiram etmədən qeyri–mümkündür. Sevgi qapılarını qadınların ürəyinə (qəlbinə) aç, tərəddüd etmə, bir şərtlə, emosiyalara hədsiz üstünlük vermə, ağlına da yer saxla, qadının gözəlliyi-

nə qurban etmə. O qadına yaxınlaş kişi şəxsiyyətini, onun ehtiraslarını, gözəllik duyğularını qiymətləndirir, yatağının parlaqlığını təmin edir. İfrat zövqalmadan çəkin, iyrənərsən, yarı yolda susdalarsan, dizində taqət tükənər, qadına olan hissiyatın ölər. Ədəbsiz qadınlardan ehtiyat elə nə qədər qəşəng, cazibədar, yolagələn olsa da. Belə qadın dünyanın şər işlərindən xəbərdardır, halidir, axirət dünyasında iblislərlə əlaqəlidir.

Qadının qəzəbindən sağın – qorxuludur, alovlandırsan söndürmək müşkül işə çevrilər.

Gözəlliyi sevməyən kişini "divanə" adlandırardım və heç də peşimançılıq çəkməzdim: demək, o adam özünü də sevmir. Kişi qadınla, onun saçdığı gözəllik işığı ilə xoşbəxtdir. Bu məqamlarda yayın bir səhərində (28.06.2021) hər şey sükutun içində qəfil sual doğdu məndə "Qadın kimdir?" Və dərhal peşimanladım yersiz sualım üçün. Əgər Mən bu suala, çox yox, barı, iyirmi beş faiz, yəni dörddə biri qədər cavab taparsam, şübhəsiz Nobel mükafatı qismətimə düşər! Elə düşünülməsin ki, alababat cavabım üçün filosoflardan, psixoloqlardan, bioloqlardan, anatomlardan çəkinirəm, xeyr. Təcrübəyə gələndə özümdən razıyam, illərimçün heyifsilənmirəm, amma İlahidən Yer üzünə bir sirli məxluq varlığında göndərilmişsə, ən aqil və müdrik, ən sərvətli və kəhkəşanlı, ən bic və fəndkir kişiləri nazik barmaqlarında fırladırsa... Mən bu məsuliyyətin altına girməyə cəsarət etməzdim!

Filosoflar ən mürəkkəb və dəyişkən insanların toplusu olan cəmiyyətə tərif vermişlərsə, məsələn, maraqlı bir filosof yazmışdır: "Cəmiyyət bir-birinə xoşbəxtlik təmin etmək məqsədilə birgə əmək sərf edən böyük insan birləşmələridir". Belə paradoks sual beynimdə ildırım kimi çaxdı: "Əgər həmin o adamların arasından qadınları ayırsaq, cəmiyyətin tərifi qüvvəsini saxlarmı?" "Bəs yalnız birisini çıxarsaq necə, cəmiyyətin tarazlığı pozularmı?" Bəli!

Cəmiyyətin içində olan qadın özünü qorumağı, firavanlığı və səadəti təmin etməkdən əlavə nəyi arzular, ona can atar – sualsız pıçıldayıram. Ən yaxşısı, optimalı o olar oxucularım cavab tapsınlar, qadınlar da istisna deyil, ürəyimi oxuya bilsələr... Hər bir qadın həyatda xoşbəxt yaşamaq üçün yaranmışdır, bunun təminatı üçün İlahi ona qəşənglik, gözəgəlimlik, həlimlik və s. bəxş etmişdir. Kişi vurğunluğunun "dərmanı" – çətin tapılan həbi. Kişi daima qadının gözəlliyinə möhtacdır: bədənin bütün nöqtələrinə səpələnən qiymətli mirvarilərinə! Bunlar yoxsa, bəzi kişiləri ağıl, idrak, təfəkkür əsla maraqlandırmır.

Qadının mərhəmətli olması, bu ruhda kişini sevməsi öz ərini sevməsidir, öz taleyini ayırmamasıdır, xoşbəxtliyə yardımçı olmasıdır. Kişi isə qadının təbii qabiliyyətindən və təbii tələbatından yararlanması deməkdir. Qadın varlığının üstünlüklərindən söz açırıqsa, bunu qadın istəklərindən ayırmamalıyıq, gözəlliyin

hikmətini yerində qiymətləndirməliyik. Qadın və kişidə tələbatlar mənəvi şəhvətə, maddi – bədən gözəlliyinə bölünür. Qadınsız insan heç nəyə qadir deyil, ətrafın gözəlliyini görürsə də biganə qalır, özünü budaqlarda dişilərini axtaran, cinsi yaxınlığına güvənən sərçədən də aciz hesab edir. Kişisiz də yaşaya bilməz, köməyə möhtacdır, ömrü işgəncələrdə keçər! Müqabilində sevinclərə və əyləncələrə şərait yaradar! Demək, hər iki cinsdə bir-birindən asılılıq şəraiti zərurətə çevrilir: bu isə qadına və kişiyə öz qüvvələrini birləşdirmək, kam almaq, öz tələbatlarını ödəmək üçün lazımdır. Qadın fəzilətinin mahiyyətində dayanan “bilməcə”lərin, müəmmaların, sirlərin açılması ehtimalı XXI əsr üçün gözlənilən deyil, çağdaş zamanın qismətinə gözlənilən kəşf düşməyəcəkdir. Qadın kişi qarşısına çıxmazdan qabaq düşünməlidir onun müəyyən vəzifələri yerinə yetirməsi vacibdir, bilavasitə onun sağlam şəhvət fenomenilə bağlıdır, o cümlədən, seçdiyi kişi zövqüylə, sağlam eros, Ali müdriklik hissi, gözəlliyin hikməti kişiyə həyat bəxş etməkdən, onun yatağına gecələr ulduzların işığını çəkib gətirməkdən, aynanın qarşısında tül, ağ xalata bükülüb saçlarını sərbəst buraxmaqdan, “mərmər sinəsi”ndə çapalayan döşlərindən saçan ehtirasa biganə qalmamaqdır.

Qadın fəziləti şəhvaniliyə laqeyd olmamışdır, bu isə Oyundaşının xeyrinə, sağlamlığına və təhlükəsizliyinə yönəldilməlidir. Fəlsəfi yanaşanda şəhvanilik ki-

şinin həyat iskiridir, insaniyyətinin mənbəyidir. Bu tarazlıq pozulanda qadında olan gözəllik, cazibədarlıq hikmətliliyini itirir, qadın hətta yatağında havası boşalmış şar kimi olur. Şəhvanilik hissi sağlam olanda qadında xoş duyğular baş qaldırır, başqa adamlara yaxınlaşdırır, məhəbbət yaranır, oda, işığa çırpınan kəpənəklərin, pərvanələrin xətrinə oyundaşını ağuşunda bəkləyir. Ağıllı və emosianal qadınlar başa düşürlər ki, şəhvanilik qorunmalı nemətdir və kişilərin arzusundan doğulur, "cüt"lərin xeyrinədir.

Qadın gözəlliyinin hikməti birmənalı olmamışdır tarixən. Bir qrup zövqlü kişilər üçün səadətə qovuşma sənətidir, bunun üçün bir vasitədir. O qadın kişini xoşbəxt edir, ruhunu canlandırır, dirçəldir: digərləri üçün o qadın kişiyə bəla gətirir, əbəs deməmişlər ki, gözəllik başa bəladır. Gözəl qadının onun yaşadığı və işlədiyi makromühitdə oyatdığı duyğular əvvəlcə mehribanlıq adı ilə özünü göstərir, qılığa rəvac verir, yaxşı vəzifə təklif olunur, qadın şöhrətpərəst və ehtiraspərəstdirsə belə vədlərin ağuşuna, sonra kişinin qucağına atılır. Mükafatları belə "xeyirxahlıq", "qayğı" və fərdi "bəxşiş" olur. Məntiqlə yanaşanda qadın gözəlliyinin hikməti cəmiyyətin faciəsinə çevrilir. Əslinə qalsa həmin qadın öz hisslərini idarə edirdi, bir yatağın kəniziydi, indi isə qadın şəxsiyyətini nəinki xoşbəxt etməmiş, əksinə, onun bədbəxtliyinə şərait yaratdı: bir yatağını dəyişən qadın üçün daha üçüncü, beşinci... adiləşir.

Böyük analitiklər belə halı cəmiyyətin üzərinə atırlar və qismən haqlıdılar, dövlət sistemi bir məmurun ciblərini göy əskinazlarla, barmağını cüt brilyant üzüklə "bəzəyəndə", ən qiymətli yüngül minik maşınına otuzduranda qadın yatağa o kişidən daha çox darıxır. Məşhur filosof, fransız Pol Anri Holbax (1723-1789) belə iyrənc olaylarda cəmiyyətdəki ədalətsiz qanunların qeyri – leqal fəaliyyətində görmüşsə, insafını da unutmamışdır, yazmışdır ki, ədalətsiz cəmiyyətdə də ədalətli insanlar olur...

Qadının gözəlliyinə fərdi zövqü daxilində yanaşmasında şəhvaniliyə uyması, bədəninin hikmətini anlamamasında sosial əksikliklərin günahlandırılmasında ifrata varmaq düzgün olmazdı. Bunu çağdaş məmurlar anlamaqdan çox uzaqdırlar, hissləri korlaşmışdır. A.Holbaxın bir fikrini xatırlatmağa dəyər: "İnsanda qanuni özünə hörmət, iftixar hissini öldürmək onu xeyir işi görməyə sövq edən ən güclü yayı qırmaq demək olardı".

Mikromühitə atılan gözəllikdən "məhrum", "hikmətdən" uzaq qadınların hissləri daha sağlam və güclüdür, saxta qayğılardan, davamsız təkliflərdən, bir gecəlik yataqdan uzaq xanımlar (belə düşünürəm) məhrumiyyətlərlə az qarşılaşmırlar, hətta böhtan hədəfinə də dönürlər. Belə qadınlar istədikləri oyundaşları ilə öz dünyalarını yetərincə yaşayırlar, hsslərinə dayaq tapırlar.

İnsanların xarakterlərinin müşahidəsi, etirafları diqtə edir ki, təbiətə yaxın olanlar, təbiətin kortəbii (yazılmamış) qanunlarına riayət edənlər xoşbəxt doğulub sakit həyatlarını yaşayırlar. Bu qənaəti filosoflar irəli sürmüşlər: "Təbiət bir qayda olaraq xoşbəxt adamlar yaradır: tərbiyə, təhsil, düşüncə təbiətin yaratdığı şəraiti yaxşılaşdırır və ona, yaxşı meyvələr yetişdirmək imkanı verir".

O qadınlar Təbiətin qanunlarından nəticə çıxarır – düz yoldadırlar. Təbiətin elə gücü, hökmü var bütün kürreyi–aləmi yandıra bilər, sel – suyun altında boğar. Lakin O torpağa həyat verir, havanı oksigenləşdirir. Bu məsələni düşünən filosofların fikrincə: "Xoşbəxt doğulmaq – təbiətdən sağlam bədən, dəqiq fəaliyyət göstərən adamlar, sağlam düşüncə və ürək, taleyimizə qismət olan şəraitə uyğun ehtiraslar və arzular almaq deməkdir".

Qadın gözəlliyinin hikməti haqqında fikirlərimdə onu düşünürəm ki, qadının arzu və tələbatının vəhdətinə ayrıca diqqət yetirilməlidir, kişinin fəaliyyət dairəsində olmalıdır, başqa sözlə, arzu, tələbat və hərəkət bir-birini tamamlamalıdır. Qadın kişiyə gözəlliyini verirsə və bundan şövqlənirsə, ruhən rahatlanırsa o, yaşadığından qürurlanır, amma bir şərti unutmur: hər şeyi Oyundaşına asanlıqla "təqdim" etmişsə Oyunun ömrü qısalacaqdır, asan başa gələn həsrət, vüsal kişilərin şəhvət hissinin yolunu "daş – kəsəkdən" təmizləmiş

olur. O kişilər üçün o qadınlar istəklərini yerinə yetirirsə maraq sönür, bəlkə də adiləşir, məqsədi uğrunda mənəvi mübarizəsi, həqiqi canfəşanlığı, maneələri aradan qaldırması, ona olan müqavimətləri qırıb atması qadın tərəfindən özünüfəda kimi qəbul olunur. Qadın gözəlliyinin hikmətinin fəlsəfəsini başa düşən kişi ruhunun həqiqi ünsürü kimi mənimsəyir, iztirab keçirir. Ruh candır, iki bədən (can) qovuşursa iztirab müsbət amilə çevrilir, ağrıları aradan qaldırır. Demək, o nəticəyə gəlmək caizdir – hər iki cinsin arzusu, səyi, iztirabı yaranan erosun impulsiv (təkan) fəaliyyətini ödəyir və orqazm fenomenində ilahiləşir, bu isə insan nəslinin çoxalmasını şərtləndirir. Belə ki, fiziki "məşqlər", "yataq istəkləri", "ləzzətalma" onlarda (oyundaşlarda) impulsiv rolu optimallaşdırır, ruhu sakitləşdirir. Unutmayaq ki, Həyata verilən saysız təriflərdən biri də: insanda yaranan və ödənilən arzuların əbədi dairəsidir. Erotik qüdrətə malik bu hiss (şəhvətlik) bir əvəzsiz nemətdir, üzüntünü, iztirabı, darıxmağı və s. aradan qaldırır. Qadın qəşəngliyini duyub mənimsəmək, ona sahib kəsilmək, ləzzət almaq, nəşələnmək – yaşamaqdır, həyatın hələ çox şey vəd etməsinin intizarını çəkməkdir. Kişi – dominant tərəf – qadın gözəlliyinin möcüzəsinin beşdə birini (az deyil a) mənimsəməyi yox, utilitar psixologiyasına üstünlük verirsə, fikrimcə, iztirabını, arzusunu yaşamsına nail olandan qat-qat bədbəxtdir. Səadəti duymaq arakəsil-

məzliyi xoşlamır, sevmir. Qadının şəhvət fantaziyasına hörmətlə yanaşan Oyundaşa fasiləsiz həzz alma vacibdir, burada müəyyən etik davranışa qısılmağa ehtiyac qalmır (heyvani instikdən danışmırıq), hər iki cinsin bədəni fiziki işə həmişə ehtiyac duyur, təmin olunmamaq, xüsusilə, kişinin həyat tərzinin tonunu tündləşdirir, hətta yaradıcılıqdan beyni soyuyur, şəhərə çıxır gəzinti üçün, elə bil qalın meşədə aslan (şir) dişi tayını itirmişdir, ən qüvvətli canlı ("vəhşi" yazmağa qələmim rəva görmədi) nərəsindən utanmır, baxmayaraq səsindəki acizliyinə dovşanlar gülür!

Cinslər: qadınlar və kişilər həyatı erotikadan qidalandığını təbiətin pozulmaz qanundan ibarət olduğunu təsdiqləyir.

Diqqəti ona yönəltməyi məqsədəuyğun hesab edirəm ki, cinsi – erotik tələbatın insanın yaşam varlığında oynadığı rola biganə qalmağa zəmanət verilmir və onu astadan pıçıldardım: kişi və qadının şəhvani tələbatları yüksək ovqatla ödənilsə, təxəyyülü təzələnir, stereotiplərdən uzaqlaşır, onu qane edir, çünki zövqü də yenilənmişdir, qadın gözəlliyinə kompleks şəklində baxır, ən kiçicik atributları paltarının altından sanki görür, erotik fantaziyası köhnə istəyinə yeni baxışla qiymət verir, aldığı, yaxud alacağı zövqü zəifləşdirir. Gözəlliyi duymağın beləcə dəyişməsi və incəliyi görməsi fərdlərini ortaya – cəmiyyətə göndərdiyi bir mesajdır sanki. "Sanki" deyil, həqiqətdir. Sosial cəmiy-

yətin "davranış xəttinə" təsirini göstərir, gənclərin gündəlik məişətinə çevrilir. Təbiblər və psixoloqlar, filosof və sosioloqlar bu yanaşmanı zəruri edir, daima yenidən törənən, çox vaxt ödənilməsinə hədd qoyulan istəklər cəmiyyət həyatının prinsipinə çevrilir. Axı, kişi, yaxud qadın tələbatlarını öz qüvvəsilə asanlıqla ödəsəydi, yaşamağa ehtiyacı qalmazdı. Bu məişət sferasında cəmiyyətdə kortəbii şəkildə cinsi istəklərin reallaşması bir–birindən asılı etməsəydi, hər bir insanın öz mənafeyi hegemonluq edərdi, qadından həzz almaq istəyini fetişləşdirərdi, bu halda başqa bir prinsip ortaya çıxır: "Kimin tələbatı azdır, kiminsə tələbatları ödəməsi vasitələri yetərincədir"...

Qadın və kişi münasibətlərində hər ikisinin gözəlliyi mənimsəməsi tələbatının sabit qalması müsbət haldır, Oyundaşların xasiyyətinə əsaslanır. Təbii gözəllik kişinin əhvalını yüksəldir və o, xəyalında süni gözəllikdən uzaqlaşır. Qadınlar (cavanları nəzərdə tuturam) "min bir oyun"dan çıxmağa çalışırlar, hətta bu tərzi zərurətə çevirirlər. Deyək ki, Qərbdə çılpaq görünmək imkanı verən vərdişlər yaranmış, bunu sivilizasiyanın tələbatı ilə əlaqələndirirlər. Lakin Şərq sivilizasiyası rədd edir, milli koloritdən doğan gözəlliyə üstünlük verir. Əgər hər iki qəşəng görüntünü tutuşdursan – sadə, səliqəli qadının bədəninə münasib paltar daha yüksək effekt yaradır. Lakin ilboyu bu libasda kişinin diqqətində olmaq, onun zövqünə düşmək tərəf

müqabili coşdurmur, qıcıqlandırmır. Hər fəsildə paltarı dəyişdirmək gözəlliyin hikmətini əyaniləşdirir. Varlı, imkanlı qadınların erotik həvəsinin coşğunluğuna dəlalət edən heç də paltar deyil, onun bədəninin harmoniyasıdır, halbuki, məşhur fəlsəfi yanaşma hələ də öz qüvvəsini saxlayır: “Dəbdəbəli və bərbəzəkli paltar geyinməyə vərdiş etmiş, zənginliyin bu əlamətindən məhrum edilmiş varlı geyinməyə heç bir paltarı olmayan yoxsul qədər bədbəxtdir. Ona görə ki, varlının xoşbəxtlik barədə təsəvvürü məhz bu cür geyim və buna bənzər hallara vərdiş etməsidir”.

Maraqlı cəhəti qabarıq görməyə çalışdım: Qərb (Avropa) filosofları, maarifçilik missiyasını üzərlərinə götürən ziyalılar, yazıçılar, məktəbdarlar və sair təbəqələr, məsələn Con Lokk (1632-1704), Benetik Spinoza (1632-1677), J.J.Russo (1712-1778), Fransua Volter (1694-1778), Deni Didro (1713-1784), Klod Helvetsi (1715-1771), Bertran Rassel (1872-1978) və başqaları.

Bu ənənə Şərqdə daha çox irəliyə düşmüşdür, “Avesta”dan başlamışdır, həyatda yaşamaq tərzi, ləzzətalma zövqü, gözəlliyin ecazkarlığı və ilaxır prinsipləri belə, sistemləşdirilmişdir. Bu ənənə “Qobusnamə”də inkişaf etdirilmişdir: Şərq əxlaqının hikməti bu cür təqdim olunmuşdur. İyirminci əsrdə Bakı neftinin Avropanın, Rusiyanın, Amerikanın, İngiltərənin bazarlarına ayaq açması böyük qism ziyalıların, maarif-

çilərin gözünü açdı, yeni savadlı nəsil yetişdirməklə bahəm, onların davranış stilini yaxşı mənada yeniləşdirməyə yönəltdi: adamlar – sadə və zəhmətkeş təbəqənin nümayəndələri xoşbəxt yaşamağın "düsturu"nu bilməlidir, bunun əsasında dayanan amilləri idrak etməlidir. Elitar dairə anlamalıdır ki, həzz, sərvət və hakimiyyət ötəridir, şərtidir, xoşbəxtliyin simvolu deyil, bu fenomenə canatma yalnız qadın bədənini mənimsəmə ilə ölçülmür. Bizim Bakı milyonçuları "qara qızıl"ı tonlarla əcnəbi qadınların qızıl saçan bədənlərinə bağışladılar, onların sarışın saçlarını doyum-doyum qoxuladılar, ağappaq sinələrində titrəyən döşlərini mələs nar giləsi hesab elədilər, iynədən keçən belləri ilə neftə (kerosinə) bulaşmış əllərini sildilər. ***Anlamaq istəmədilər*** bu, gözəl və yad xanımların kişiləri onları uzaq diyarlara göndərəcəklər, qadınları milyonerlər üçün uşaq doğmayacaqlar (tarixin şahidliyidir). Şovinist qadınlar azəri–türklərindən daima ehtiyatlı davranmışlar, onlar yataq üçün Bakıya gəlmişlər, yatağın kövrək macərasını yazmaq üçün köklənmişlər. ***Anlamaq istəmədilər*** rus, fransız, ingilis qadınları hakimiyyətin rəmzi deyillər, şəhvət rəmzidilər. ***Anlamaq istəmədilər*** qadın gözəlliyinin hikməti pul – sərvətlə ölçülmür, nəşələnmək sənətdir, peşə deyil.

Yenə filosoflara üz tutmalı olacağam: "insana – kişiyə və qadına gözəllikdən ləzzət, həzz almaq, nəşələnmək sənəti az məlumdur. Onu arzu etməkdən əvvəl

bu ecazkar sənətə yiyələnmək lazımdır. Cütlər tələbatlarına qovuşmaq, gözəllik sənətindən xumarlanmaq üçün sərvət və hakimiyyət qazanmaq kifayət edər”... Təbii istəkdir, lakin hər şey deyil, ideal ola bilməz. Həzzalma, sərvət toplama və hakimiyyətə yiyələnmədən düzgün, yerində istifadə edərsə subyektlər yerinə düşər, hər iki tərəf bunu özlərinə layiq bilər və şərdən uzaqlaşarlar.

Qadın gözəlliyində (kompleks mənasında) ləzzət almaq, həzz duymaq, nəşələnmək sənətinin mahiyyətində “cütlər”in arzusu və yaranan şəraitin bir-birini tamamlaması vacib şərtlərdən sayılır: bu anlamanı başa düşmək elə də asan məsələ deyil. Bəzən arzu – istək alınır, lakin bu cismani yaxınlıq aldadıcı, zahiri effekt kimi səciyyələnir, şəhvətin ilahiliyinə dəlalət eləmir. Ona görə ki, qadın və kişi ağlın, təcrübənin yardımından daha çox emosiyaya üstünlük verir. Unutmayaq, belə “oyunu” dörd ayaqlı heyvanlar da bacarırlar. İntim yaxınlığın dərkini: aldığı zövqün nəşəsini yalnız meymunlar şüurla başa çatdırırlar və dişinin bala verəcəyini bilirlər. Meymunların təhlükə vaxtı balasını belində gəzdirməsi də fikrimə təminat verir. Şüur olmayan canlıda çoxalma üçün əks cinslə yaxınlıq instiktivdir.

İnsan cinsləri özlərini “tanıyan”dan (xalq belə adlandırır orqazmın ilk təzahürünü) sonra məhəbbət, sevgi aləmi haqqında fikirləşirlər, ehtiraslarını ram

edirlər, həzz almanın gözəlliyini qiymətləndirməyə başlayırlar və bu yolda bəlalar da, nəşələr də onları qorxutmur, çəkindirmir. Bir şey var ki, "cüt"lərə elə görünür səadətlərini tapmışlar, bu ecazkar aləmdə qalmaq – ömrünü ləzzət almaqla, eşqlə oynamaqla keçirməlidir. İdrakla emosiyanın yerini düzgün bilən kişi və qadın (dominant yenə kişidir) hissi həzzə üstünlük qazandırır və bu nəsnəyə mühərrik kimi baxır, unudur ki, mühərriyin də dayanan, yorulan vaxtı olur. Fikrimcə, hissi ləzzətalma cəhd, yəni aludəçilik həyatın qanunudursa, "cütlər"in yeganə (!) prinsipinə çevrilməməlidir, fəaliyyətin mənbəyi kimi qiymətləndirilməməlidir. Təbii ki, kamilliyə və yaradıcılığa açılan mavi rəngli pəncərədir. Məni o cür başa düşməyin ki, şəhvət – erosa cəhdin əleyhinəyəm – yox, qadın gözəlliyindən həzz və ləzzət duymaq, bədənin hər bir nöqtəsində titrəyən əzələnin qan dövranını ürək döyüntüsü ilə birləşdirməlidir. Ona görə ki, bu Ali müdriklik hissi insanla bərabər doğulur və bunu ilahi bəxşiş kimi qiymətləndirirəm. Erotik daşıyıcı birbaşa qadın gözəlliyinin təsirilə bağlıdır, insanın hərəkətedici enerjisidir: insan onu sağlamlığı ilə mübarizədə, qadına olan itaətkarlıqda, gözəllik qarşısında diz qatlamaqda əldə edir. Erotik səltənət bəşəriyyətə sivilizasiya qazandırmışdır. O cütlər qazanır həzz, ləzzət, nəşə müdrikləşməni şərtləndirir, amma onu da nəzərə alır ki, bu hisslərin rəzaləti istisna edilmir.

**– 0 –**

Gözəllik də onun bir taleyi idi. Aramızdakı ünsiyyətlə mənəvi yaxınlığımız müəmmalı və yox olub gedən ömrün bir parçası idi.

Mənimçün çox həzindir, dostlarım, tanışlarım bu sətirləri oxuyanda göz yaşlarına heyifsilənməyəcəklər, bəbəklərini sıxıb süzülən damcıların taleyini yalnız qadınlar duyacaqlar! O ağır gəlir – taleyini qurmuş insan aqibətinin son qərarını yaddaşına belə gətirmir, bəlkə də vecinə almaq istəmir. Belələrinin sırasında o adamlar təsəlli tapır ki, ölümünə inanmır, baxmayaraq, belə qadın daxiliylə, gücüylə öyünür və pıçıldayır: “Qəlbim, gözəlliyim mənim iftixarımdır, mənim üçün hər şeyi – enerjimin, sevinclərimin və iztirablarımın mənbəyidir. O şeyi ki, mən bilirəm hər kəs bilməz. Belə bir qəlb, ehtiras ancaq məndədir”. Soruşsan belə bir yarı sərt, yarı ciddi “hökm” kimə xasdır – cavabını bəlkə də heç vədə pıçıldamazdım: – Allah sənə rəhmət eləsin, şair Hete. Ulu sənətkar yazmısan ki, dünyanı idarə edən qadınlardır, nədənsə tarixçilər yalnız kişilərin adını çəkir.

Adətən, Şərqdə bir fikir formalaşmış ki, qadınlarımız kişilərlə müqayisədə iradəsizdirlər, məişət konfliktlərində məğlub olurlar, özlərini intiharın amansız kəndirindən asırlar. Son illərin faktları da təsdiqləyir ki, Qadınlar daha çox kişisiz dünyalarına qovuşurlar.

Belə ilğım faciələrlə fiziki mənada barışıram. Qadın axı, İlahidən göndərilən sirdir!

Qadınlar gözəlliyi, qəşəngliyi kişilərdən daha çox sevirlər və bağlanırlar, ünsiyyətin erotik çalarında bu istək dayanır. Kişilərə nifrət də bu hissdən irəli gəlir. Qütbün o biri tərəfində isə onlar həlimləşirlər, bəyazlaşırlar, ilahiləşirlər. Qadınlar həyatı bu dərəcədə sevdiklərindən nə səbəbdən son məqamı rəva görürlər?

Həyat təzadlıdır, öncə, dayaqlı deyil, etibarsızdır. Kimin haçansa hakim və məhkum, kiminsə kölə və sahibkar olacağına zəmanət vermir və bu anadangəlmə xislətinə görə insanlara qəh-qəhə çəkir, bircə yaxşı cəhəti onda olur – istehza ilə gülmür.

Ziddiyyətli təzadların səbəbkarı bəlkə kişilərdir? Məmləkəti idarə edənlər, yaxud başsız Başçılardır, qanunların icrasına məhəl qoymayanlardır? Qəribədir, ən kritik olaylarda iztirablardan uzaqlaşa bilməyəndə qadınların ağuşuna sığınırlar. Sadəlövh məxluqlarsa gözəlliklərinin duyumundan imtina eləmirlər. Və günlərin birində canlarından ayrılmayan sevdikləri həyatını onların üzünə çırparaq ölümün qapısını üzüyü çıxarılmış barmaqları ilə döyəcləyirlər və ölümün səsini həssaslıqla eşidirlər. Ölümsə dabanları, zərif məxluqu süzür o yerəcən – qadın əvvəlcə saçlarını küləyə verir, hər teli bir yaşıl yarpağa qoşur, sonra sinəsini açır, solunda və sağında qar altından çıxan bənövşəyə bənzər döşləri üçün qəribsəyir, gözlərindən süzülən kövrək

izə düşüb dolu ayaqlarına baxır. Dünən bu qoşa baldırlar dünyanı payi – piyada dolaşmağa hazırdı. Bu ayaqlar, bu dabanlar onun bədənini kişilərin bəbəklərindən xilas edirdi. Beləcə, güzgünün qənşərində vücudunu işığın əlindən alıb aparacaq Ölümün yolunu gözləyir. Bu anlarında qadın özünü kişilərdən və ölümündən daha iradəli sanır. Ölümü ilə Həyatın – onun yolunu kəsən ziddiyyətlərini ələ salır.

Ah Zərdüşt! Sənin fikrin necə də ətirlənibdir: "Üzərində bir damla şeh var deyə titrəyən gül tumurcuğu ilə ortaq nəyimiz var bizim? Doğrudur, biz həyatı sevirik, amma yaşamaq üçün deyil, sevməyə alışdığımız üçün".

Bu qənaətə paradoks da yanaşa bilərik: Sevmək, yoxsa yaşamaq?! Olum ya Ölüm?! Hansı bir-birini öldürər, yaxud yaşadar? Bu iki fərqli hislərdənmi intiharın qoxusu gəlir? Bəs intihara səbəb olan qadınlar kişilərin ölümündə özlərini suçlandırmırlar?

İnsan yeri gələndə, gözəlliyin hikmətində özünü itirəndə qadın vücudu əks olunan cansız kağıza da heyranlıqla baxır, baxır ki: Ölüm – nə müəmmadır, dahidən tutmuş sadə adama qədər olub keçən xatirələri sızladır, sevimli afətinin titrək əllərini güclə nəfəs alan, sinəsində yetişmiş meyvəsini itirərək budaq kimi qoxular, ürəyindən nələr keçər ağır saniyələrdə. Məşhur ingilis alimi Arnold Cozef Tayibi qoca yaşlarında ölümə təslim olmaq istəməmişdi, demişdi: "Mənim

şüurum uzun illər yaradılmış obrazlar, fikirlər və biliklər dünyasına, şəxsiyyətin mənasız məhv edilməsinə qiyam qaldırır”.

Ölümdən qaçmaq, mürdəşir sifətini görməmək o deməkdi kişi qadın gözəlliyindəki hikməti itirəcəyindən ürəyi çırpınır, təsəlisini göz yaşlarında tapır.



## "Şəhvət idealı"nın təntənəsi

***Şəhvət hissi Qadını cavanlaşdırır.***
***Müəllif***

Mən, adətən, bir anlayışın, məfhumun yaranma tarixinə varmağı xoşlayıram, çünki oxucuların hamısı eyni səviyyədə olmur. "İdeal"a gələndə elmi səslənir hərçənd. Anlam bizi ideyalar aləminə, nəzəri xaoslara aparır, müəyyən elmi çərçivəyə salır. Mən bu cür düşünmək istəmirəm. İnsanın sənət – peşəsindən, vəzifə – mövqeyindən, dünyaya baxışından asılı olaraq fərdi və ümumi idealı vardır: bunsuz insanın möcudluğu sual altındadır. Ola bilməz cəmiyyətdə ömür sürəsən, nəyə isə cəhd göstərəsən, hansı nəsnə səni qane etməyə... bir təyinatlı ideal barədə düşünmək mümkünsüzdür. İnsan doğulmuşsa özündən asılı olmadan yaşamağa məhkumdur, Allah onu müəyyənləşdirdiyi yaşınacan qoruyur, arzularını qismən yerinə yetirir. Bax, əziz oxucularım, bu "qismən" sözü "ideal" məfhumunu şərtləndirir, ona görə ki, sən nəzərində tutduğun o şeyi tam ödəyə bilməmisən, ya obyektiv, ya da subyektiv səbəblərdən. Hər ikisi təbii proseslərdən yaranır. Beləliklə, varlığıında nigaran qaldığın, arzuladığın, uğrunda çalışdığın həmin İdeal səninlə yaşa dolur.

İdeala dar pəncərədən baxmaq birtərəflilik olardı, açıq, mavi havanı tam qavramaq çətinləşir, halbuki,

bayırda Günəşin zərrin şəfəqləri çırpınır, ağacların yaşıl yarpaqları budaqlarına baş əyir, yetişmiş meyvələr zərif qadın əlləri üçün tələsir. Məhz qəşəng, yumşaq, dodağa həsrət qadın barmaqlarına təslim olmaq üçün.

O yetişmiş meyvənin də idealı budur: kişi qüvvətli və ehtiyatsız əliylə nübar meyvəni əzər, şirəsi dağılar. Axı, qadının (qızın) da yetişməyə tələsən günləri, illəri və ayları olur, həsrətlə öz ovçusunun intizarını yaşayır, payızlaşanacan tələsir bir cavan oğlan onu özünə sahib kəsilsin, süzülən bal şirəsini dodaqlarından qoparsın, bal arısından xəbərsiz. Bu da o cavanın, o meyvənin kamalma arzusunu ödəmir, onun ilahidən gəlmə “sirrinə” nail olsun, mənimsəsin, qoruduğu idealı aşiqinə qurban versin.

Bu mənzərəni gözlərimin bəbəklərinə tutanda içərim işıqlandı, qadın – məşuqədə duymadığım çox nəsnələri gördüm və düşündüm ki, həqiqətən, bir vaxt yazmışdım: “Qadın kəşfə möhtac zərif məxluqdur”: işə bax, bu zərifliyilə güclü, haradasa nəhəng kişiyə sirr vermir, daha doğrusu, kişi(lər) acizləşir(lər). Bəs nədir səbəbi?

Suala bəlkə də az sonra özünüz cavab tapacaqsız! Məncə, biz kişilər bu Sirri tapmaqda acizləşmişik bu məxluqa son nəfəsimizəcən tamarzıyıq, son anlarımızacan İdealımız olaraq qalsın.

Düşünməyin qadına qarşı, onun səhləb çiçəkləri kimi solmayan gözəlliyində maksimalistəm, yox! O,

elə bir məxluqdur, əziz oxucularım, dünyanın ən üzdə olan, bu gün də dahiliyini saxlayan kişilər – məşuqlar haqqında olmuşları təqdim edəcəyəm: bu gün mütaliyəyə maraq texnikaya təhvil verilibdir, gözlərinlə oxu, ürəyindən xəbərsiz. Hər halda ürəyincə olacaqdır. Söz titanları qanuni arvadları və uşaqları olsa da yad qadına vurulmuşlar, nazı ilə oynamışlar, dünya səyahətinə onların iradəsilə çıxmışlar. Hətta məşuqunun qabağında diz çökmüşlər, hansı ki beləsi nə hökumətin, nə hakimin, nə də cəlladın qarşısında əyilməmişdir. Belə simalardan biri də böyük ədib İvan Turgenev idi. Etirafı necə də təbii səslənir: "İcazə verin sizin ayaqlarınızı ehtirasla öpüm, hansı ki ayaqlar mənim bütün ruhumda dolaşır. Sizi bütün qəlbimlə öpürəm və həmişəlik aşiqinizə çevrilirəm... Bir gün mənim əlimdə olan hər şey məhv olub gedəcəksə, mənim böyük əzabla sevdiyim, qadın, sən həmişə mənimlə birlikdə yaşayacaqsan".

Təkcə Turgenevin etirafı deyil, E.Heminquey, A.Çexov, F.Dostoyevski, C.London, E.Zolya – yazıçılar , Bethoven, Şopen, Odinski, Bax, Vaqner – bəstəkarlar, Leonardo da Vinçi, Mikelancelo, Rembrant, Pikasso, Van Qoq, İsaak Levitan – rəssamlar qadınların "şəhvət idealının" əsiri olmuşlar – cəsarətlə deyərdim. Bu şəxsiyyətlərin – aşiqlərin kövrək qadın macəraları arxada qalmışdır, lakin bu məxluqun gözəlliklərindən doğan şəhvət hissi hələ də xatirələrdən bizim əsrə gə-

lib çatmışdır. Əlbəttə, belə bir qeyri – adi ali hissin – erotik düşüncənin fəlsəfəsində sadiqlik – sədaqət, sevgi – vurğunluq, ləzzət – zövq kimi fenomenal istəklər, vərdişlər dayanır. Şəhvət idealı: erotik həvəs, iqtidar enerjisi olmayan insanda həyata maraq, yaşamağa canatma kimi vacib vasitələr vaxtsız olur, xəzəlləşən yarpaqlara qarışır, milçəklər belə onlara yaxın durmur və bunun sübutu üçün elmi canfəşanlığa ehtiyac qalmır. Kişi və Qadın, Qadın və Kişi. Z.Freyddən də, K.Yunqdan da, H.Spenserdən də mexanizmi yüksək səviyyədə dərk edirlər. Onlara mən ona görə inanıram ki, araşdırma aparanda qadınlar dörd bir yanında fırlanmışlar...

Erotik müdriklik daha çox humanitar sahənin adamlarında, yəni emosional təmayüllü, yaxud hissləri həssas olan yaradıcı şəxslərdə qabarıqdır. Qadında zahirdə görünən atributlar əks reaksiya yaradır. Hər bir oxucu, ədəbiyyat həvəskarı bədii zövqü zəminində qadın obrazlarının döyüşkən, üsyankar, cod səslərindən daha önəmlisi olan bu zərif cinslərin boy – buxununa, bədən – vücud cazibəsinə, ayaq – baldır titrəyişinə diqqət yetirirlər. Sadaladığım xüsusiyyətləri yaş prinsipləri "həll" edir, bir də peşə təyinatları. Cavan oxucularda eyni qadının kişi cinsinə təsiri bu baxışdan keçir.

Yazıçı, rəssam, bəstəkar bir andaca (bu "an"lar "saat"lar qədər uzun görünür) qadına sevgisi çırpınır, can atır, yəni onun enerjisi üçün ideallaşır. Evə qayıdır, bir vaxt sevdiyi qadını adiləşir, onunla yatağa girməyə qorxur – "sanki"siz!

Rəssam sevgisi vurulduğu qadının xəyalında surətini coşğunluqla kətana köçürür, bircə əsəb gərginliyi onda olur: qadının bir anlıq görüntüsünü dondurur, əbədiləşdirir. Fəlsəfi – məntiqi yanaşanda heç də belə deyil, o qadını hər dəfə portretdən bir nöqtəyə baxışını görəndə onunla pıçıldaşır, səsi astadan eşidilir, dodaqları yad təmasdan titrəyir.

Bəstəkar vurğunluğu qadını melodiyalarda axtarır və çalışır ki, onu özünə məftun eləsin, mətanətliyini itirsin, parlaq zəkası yalnız bəstəkar haqqında düşünsün. Yaratdığı, onun eşqinə bəstələdiyi melodiyanı eşitsin. İnanır ki, qadının qəlbini ehtizaza gətirəcəkdir.

Maraqlı, bəlkə də qeyri–adi görünən qadın yazıçını öz mahnıları ilə ram etmək, özünə çəkmək böyük bəstəkar Fridrix Şopenə (1811-1850) qismət imiş! Bəs bu qələm sahibi kim idi? Məgər o, sevgisi ilə sakit həyat sürməmişmi? Ərə gedibsə dünyaya uşaq gətirməmişmi?! Suallarımın peşimançılığını çəkməyə bilmədim. Sevgidən doğan vurğunluq belə məişət şeylərə daima laqeydlik göstərmişdir.

Həmkarları isə təəccüblənir, iyirmi yaşlı Şopenin yaratdığı bəstələrinə heyran olurdular, müdriklər, eşqdə paylaşanlar isə dərinə getmirdilər: “Belə qeyri – adi talant yalnız qadın sevgisindən qidalanır”, hər halda bu mülahizə idi. Çünki ağıla gəlmirdi, Şopenə yaradıcı təkan verən təbii qüvvələrdir: cinsi enerji (“libido”) və dahilikdir! Əslində iki dahinin Eşq sınağı, amma fərq-

li. Şopen cavandı və qadın gözəlliyinin ilahiliyini dadmamışdır. Qadın – yazıçı Düpendir, hansı ki romanlarını Corc Sand təxəllüsü ilə çap edən qəşəng simalıdır. Şopenin qadın pərəstişkarları az deyildir, Sandın isə ailəlik buxovunu qıran hələ ki yoxdur, gərək güclü sevgi yaransın, ehtirasların bir qismini əks cinslə yataqda bölüşsün. Belə vəziyyət baş versə o, yaşamağın qaranlıq" üzünü işığa tutar: bir qədər əvvəl isə yazmışdır ki, yaşamaq ən ali səadət"dir: heç bir şeyə baxmayaraq yaşamaqdır.

Şəhvət idealı – son qismət budur, özünü hansı zirvədə hesab edirsən et, gəlib bu Ali müdriklikdə toxdayacaqsan, qadın canını istəsə etirazın olmayacaqdır... Amma bu qovuşmayacan ötürülən impulslar, (təkanlar) mövcuddur ki, xüsusilə, kişini hazırlayır. Məsələn, bəstəkar Corc Sandla görüşməzdən qabaq ilk növbədə qadın kimi məhəbbət əlaqələri, heyrət doğuran ədaları ilə maraqlanır, yayılan şayələri səs – küysüz qarşılayır, amma yazıçının siqaret çəkdiyini, şalvar və frak geyindiyini də görmüşdü. Buna bənzər vərdişlər baxır kim üçün həlledicidir yolların ayrılmasında.

Corc Sand hissiyyatı ilə romanlarında əsas ideyası olan qadın azadlığını təsvir edirdi. Ailəli və iki övlad: oğlu Moris və qızı Solanjı böyüdür, amma xüsusilə, gənc kişilərlə "şəhvət idealı"nı yaşamaq istəyirdi. Bəxtinə Alferd de Müsse, Frederik Şopen, Prosper Merime çıxacaqdı. Bunlar guman son olmayacaqdı.

Qadın – yaradıcının psixoloji durumu, temperamenti obrazları ilə sentimental davranışı Corc Sandı "düz yolundan" çıxartmaya bilməzdi, necə ki bəstəkar Şopenə daha çox yaxınlıq etdi ki, bunun bir səbəbi cavan Şopenin şöhrətiydi.

Məlum faktdır ki, qadını kişilərlə intim əlaqəyə təhrik edən amil sırasında zərif cinsin eqoizmi, rəqiblərinə "göz yanğısı" verməsidir. Bu amillər ən gözəl xanımların beynini qıdıqlayır və yatağa aparır... Dövründə Paris kimi kübar şəhərdə Corc Sanddan belə ovqatı gözləyənləri barmaqla sayırdılar. Çətini yatağa qədər olur, qadındakı cazibədarlıq və füsünkarlıq tarmara çevrilir, dodaqlar bir-birinə yapışır ki, ayrılıq həsrətini çəkməsinlər, yanaqlar allanır ki, kişinin göz yaşları peşiman olmasın, sinəsindən sallanan mirvari boyunbağı döşlərini ayırmasın (Bu təəsüratı mən rəssam Oqust Şarpantyenin çəkdiyi portretdən aldım).

Corc Sandın aşiqlərindən biri Müsse yazmışdır: "Mən bu qadının təsirilə yenidən doğuldum. Nə ona qədər, nə də ondan sonra mən heç vaxt belə sevgi, vəcdlər, sevgi coşğunluğu duymadım".

Görünür, Corc Sandı kişi təması, şəhvətin lirik əyləncəsi qane eləməmişdi, ona cavan Şopenin "yaşlı" təcrübəsi lazım idi.

Bəzən gözəllik həvəskarı kişilər qadın ehtirasını ilk baxışda görəndə üz çevirirlər, axı, qəşəng deyil, o, yataqda da "çirkin" ədalı olar, amma kişi yanılır, Şo-

pen kimi: "Sand nə qədər kifir qadındır. Ümumiyyətlə, qadındırmı? Mən buna şübhə edirəm". Sonra Şopen dilindən çıxan bu sözlərdən peşimanladı və təxminən ilyarımdan sonra yazacaqdı: "San, mən sənin ayaqlarına döşənməyə hazıram. Sənə hər şeyimi verərəm, mənə heç nə həddən artıq görünməz. Yorulanda bir baxışın, təbəssümün, nəvazişin yetir mənə. Yalnız sənin üçün yaşamaq, incə melodiyaları sənin üçün ifa etmək istəyirəm. Görəsən, sən, mənim başıaşağı sevdiyim, çox qəddar olmayacaqsan ki?"

F.Şopen və C.Sand sevgi əyləncələrini sonacan çatdırmağı bacarmadılar, cəmi 39 il ömür sürən bəstəkar nasazlığı, nevrastenik tutmaları (əsəb sisteminin zəifləməsi nəticəsində yaranan və tez yorulma, baş ağrısı, əsəbilik) da öz işini gördü. Ehtimal belə azarlı kişidə şəhvət hissini zəiflədir, ruhdan salır, gözəllərə qarşı laqeydlik əmələ gətirir. Corc Sand kimi bir neçə kişini yatağına salmışa daha Şopen sərf etmir, üstəlik ağır bədii yaradıcılıq əzabı! Ayrıldılar. Corc Sand romanlarını və hekayələrini yazırdı. Fridrix Şopenin barmaqları titrəyən royalda yolunu azırdı, yad notları tuturdu. Daha sevgidən əsər – əlamət qalmadı və böyük bəstəkar keçindi. Corc Sand itirilmiş sevgisinin daşıyıcısını görməyə can atsa da buna maneçilik etdilər. Bu təşəbbüs günlərində Şopen can üstdə idi və uzun illər yaşadığı səadətin əfsanəsini tanıyacaqdı...

Bəstəkar bir dostuna demişdi ki, Mən Sandın qollarında öləcəyəm.

Bu qadın qolları ona, cavan aşiqinə sadiq qaldımı?!

Kişilər – aşiqlər sonradan – evlilikdən illər ötəndən sonra eşqə düşdüklərini gizlətməmişlər: bu etirafı məqbul hesab etməyə dəyər: birincisi, hisslərini gizlətmirlər, qadın gözəlliyindən məhrumluğu kişi sevgisinə sığışdırmırlar. İkincisi, özlərində yeni şəhvət qüvvəsi ("libido"su) duyur və arxayınlıqla can atırlar. Üçüncüsü, canlarında (qanlarında) xəyanət toxumları sərvaxtdır, alıb boşamaq adilikdir. Və sair... Və ilaxır.. Başlıca amilə gəldikdə tarixin yaddaşında qalıb bizlərə gəlib çatan o kişilərin adlarıdır – söz və tişə adamlarıdır, elm və təfəkkür sahibləridir, dövlət başçıları və hərbi rütbə daşıyan iri kolibirli generallar, marşallardır.

***Məntiqlə düşünə bilərik ki,*** özgə (yad) qadına sevgi oyatmaq (bəsləmək yox), onun buraxdığı təsirə aludə olmaq, hisslərilə oynamaq qabiliyyəti, yaxud vərdişi bütün kişilərdə mövcuddur və tarixçiləri sadə adamların eşq macəraları əsla maraqlandırmamışdır! Kənarda gördüyü cavan (yaxud nisbətən yaşlı), eləcə də ərli xanımla sevgibazlıq əyləncələrinə qoşulmaq xüsusilə, yazıçıların adəti olmuşdur, onlar (müəlliflər) romanlarında – qadın obrazlarının axtarışında öz həyatlarına üz tutmuş, canlandırmış fantaziyasında, üslubi – təhkiyəsində oxucularına təqdim etmişlər. Elə qə-

ləm sahibləri yaşamışlar öz surətlərinə "gözü" düşmüşdür, xəyanətinə görə öldürməyə əli gəlməmişdir, taleyi üçün ağlamışdır.

***Məntiqi düşünə bilərik ki,*** ilkin "soyuq" sosial sferada, münasibət, işlə bağlı kontakt, rəisinə, direktoruna, rəhbərinə məişət xidməti göstərməsi həmin qıza: katibəsinə, yaxud qadına qarşı intim mühit yaradır, onun möhürünü verəndə əlinin titrəməsi, hiss olunacaq hərarəti, səsinin tonundakı dəyişiklik, sinəsində bərq vuran medalyonun qızıl balıq kimi arxası üstə çevrilməsi, saçlarının yuxulu olması... baş – beynini dumanlandırır, gözlərini qamaşdırır, gecə yuxularına haram qatır, solunda ərinin intizarı ilə çırpınan arvadına baxmağa çəkinir ki, birdən şeytan onu aldadar. İşdə qoyub gəldiyi o qadına xəyanət edər, halbuki, hələ əlini belə, ona toxundurmamışdır, bir kimsədə şübhə yaratmamışdır.

Məntiqlə düşünə bilərik ki, yaradıcı şəxsiyyətlər eşqbazlıqda ən cəsarətli sənət sahibidirlər, onlar üçün kövrək ehtiyatlılıq (uşaqlarının anası baxımından), sərt münasibət görmək (rəsmilər tərəfindən), mükafatlardan məhrum olmaq (çağdaş qələm adamlarımıza xüsusilə şamildir) və sair əsla maraqlandırmamışdır. M.P.Vaqif, Q.Zakir, Yusif Vəzir, Mirzə Cəlil kimi klassiklərimiz üçün "etibarlılıq" ancaq qələmin əlindən düşməməsidir, istedadlarını xəstəliyinə qurban verməməsidir. Bizim yazarlarımıza məxsus zabitəlikdir.

Eləcə də Dünyanın məşhur yazıçılarından V.Hüqo, O.Balzak, Aleksandr Düma (ata), E.Heminquey, Frans Kafka, Antuan de Sent Ekzüperi, Qustav Flober, Gide Mopassan... kimdən və kimin hakimiyyətindən ehtiyatlanmalı idi? Tarixin gedişatını idrak edirdilər, əsrlər bu hakimləri unudurlar, lakin yazan, çəkən, kəşf edənləri yaşadırlar və bununla tarixi zənginləşdirirlər! Bu siyahıya F.Dostoyevskini, Anton Çexovu, Emil Zolyanı, F.Kafkanı, K.Paustovskini əlavə edərdim. Onların eşqbazlığı müxtəlif nəsillərin zövq duyumuna dönmüşdür, necə də kövrək məqamlar, səhifələr, iztirab dolu həyəcanlar vardır!

Eşqbazlıqda adları hallanan yazıçıların qadın avtobioqrafiyaları həmişə məni maraqlandırmışdır, özümə də bəzən təəccüblü görünür. Ölüb getmiş, haqq dünyalarına qovuşmuş həyatsevər ədiblərin, şairlərin, rəssamların həyat hekayələrini oxuyan Mən nədən onları xatırladım? Corc Sand – Şopenin eşq macəraları ilə oxucularımı agah etdim və çalışdım sətiraltı qadın – kişi münasibətlərinə erotik baxışlarımdan işıq salım. Axı, pərvanələr şam işığına aludə olurlar, nakamlar özlərini bu yolda yandırırlar. Əgər bir aşiq sevdiyi qadında intim hisslərini tapmırsa hansı səbəbdənsə pərvanə taleyini yaşayır. İlahidən göndərilən qadının ürəyini bir yazıçı fəth edə bilmirsə faciə deyilmi? Bu kədəri o qadına da şamil edərdim: bu zərif məxluq kişi ehtirasından qopub hansı aşiqin (!) yatağına istəmədən

düşür və qovrulur: axı, hər ovqat orqazmla başa çatmır, qəlb – ürək, baş – beyin, zövq – həzinlik kimi fövqəl atributlar aparıcıdır.

***Qadın sevgisini,*** onun gözəlliyini qiymətləndirmək, yatağa səsləmək hər qələm adamına nəsib deyil, adi dalandar – xadiməni dahi bir kişi ram edə bilməz onun hissləri yol vermirsə. Yüzlük, əllilik, göy əskinazları sinəsinə səpsən belə, məqsədinə nail olmazsan.

***Qadın sevgisini*** quru bədən xoşlamır, qəbul eləmir, kişinin brilyant üzüklü barmaqları sinəsinə toxunanda sanki atlı qarışqalardır, döşlərinə qısqanır, yaxşı ki bal arıları çiçəklərdə xumarlanır.

***Qadın sevgisini*** gözlər tutur, işıqlandırır və dupduru yaşlara qərq edir, bu yaşlar dəryadan da dərin olur, istər onu boğsun, bəlkə ürəyi sakitləşər, təsəlli tapar, qadın isə biganə qalmaz, onu yatağının qəhrəmanı hesab edər. Axı, mələklər tez aşiq olurlar.

Hələ universitetdə təhsil alarkən ölməz yazıçımız İsmayıl Şıxlı (A.Eminov, “İsmayıl Şıxlının poetikası”, Bakı, 2008, 364 səhifə) dünya ədəbiyyatından bir sıra diqqətə layiq romanlar, povestlər, hekayələr yazmış həyatsevərlərin adlarını çəkər, onları oxumağmızı məsləhət görərdi. Xatırlayıram ki, Hüqonun, Balzakın, Floberin, Mopassanın, Aleksandr Dümanın, Anton Çexovun əsərlərindən ən maraqlı epizodları xatırladardı.

Sonralar mən özüm ali məktəb auditoriyasına ruhən və hüquqi statusla daxil olanda hazırdım. İş elə alındı "Yuxuda dirilən adam", "Qapalı kitab", "Naməlum qadına məktublar", "Payıza qədər" və başqa mətbu romanlarımda gözəl, qəşəng, cazibədar qadınların surətini yaratdım (eləcə də imkansızlıqdan nəşrinə gecikdiyim "Madam Sofa və Qara at", "Kişi, payız gəlir", "Kül olmuş qızılgül", "Rəqqasə", "Balerinanın riski" və digər əsərlərimdə qadın təbiətindən doğan hissləri təsvir eləmişəm), qadının eşq mücəssəməsi olduğuna inanmaq istədim. Və bu "inamı" özümdən başladım.

Gi de Mopassan ən böyük yazıçıdır ki, ən nəhəng dahilərin baş vura bilmədikləri, İlahinin kişilərə bəxş elədiyi sirli məxluqu təbii, sadə, lakin sualına cavab axtaran kişi zövqündə yarada bilməmişləri yazdı. Hərçənd, bu yazıçıların canlı həyatında qadın öpüşləri, ağuşda əsrarəng bir səltənətin məstanəliyi, yataq möcüzəsinin ətrini yaşamışlar. Çün, ən böyük risk qadın həyatına daxil olmaqdır və o quyunun dərinliyindən işığa çıxmaqdır.

Mopassanın sevdiyi Qustav Floberdi. Məşhur "Xanım Bovari" romanının müəllifi. Onun eyni zamanda müəllimiydi, həyat ustadı idi.

Mopassan uğurları yaradıcılıq psixologiyası baxımından onda gətirdi qısa, təbii xarakterdən, mühitdən irəli gələn novellalar qələmə aldı. Və onun nəsr üsulu-

nu formalaşdırdı: macəraçılığa meyilli gənc qadın xarakterində, kişilərə həzin münasibətindən elə inandırıcı və gözlənilməz sonluqla oxucusunu məmnun edir, ürəyindən keçirir ki, o qadının (qızın) yanında olsaydım mənə nəyi yaşadardı?

“Ay işığı”, “Bir yaz axşamında”, “Ehtiras”, “Qadın etirafı”, “Həsirçi qadın” və sair hekayələrində Mopassanın adi əhvalatda necə macəra yaratdığına heyran olmaya bilmirsən. Məsələn, “Ay işığı” hekayəsini gündüz oxumuşdum, təbiətlə “dil” tapmamışdım. Yazıçı duyğusu ilə gecə havasında oxudum, bəzi lövhələrin isti təsirininin həzinliyini yazıya aldım: “Səhərin şəfəqləri yuxudan ayılanları şənləndirmək üçündür, günün istisi məhsulu yetişdirmək, yağış isə sulamaq üçündür, axşam yuxu gətirmək, qaranlıq gecə isə yatmaq üçündür”.

Mopassan kişi qəhrəmanını belə təqdim edir: “Hərdən qadınların ona meyl etdiyini duyurdu. Özünün iradəsinə inansa da qadınlarda daim baş qaldıran sevmək ehtiyacı onu da narahat edirdi”.

Yazıçının fikri: “Tanrı qadını kişiləri sınaqdan keçirmək və yoxlamaq üçün yaradıb. Ona tələyə yanaşıldığı kimi yalnız ehtiyatla və qorxa–qorxa yaxınlaşmaq olar. Doğrudan da qadın kişiyə tərəf açmış qolları və öpüş gözləyən dodaqları ilə tələyə çox oxşayır”.

Mopassan qadınlar haqqında sərt desə də, xanımlar ondan incimirdilər, gizlincə razılaşırdılar, bir də bu

fikri söyləyən qadın xasiyyətinin sərrafı Mopassandır! “Qadınların ürəyində məskən salmış ehtiras kökü kəsilən deyil”, – pıçıldamışdır.

“Kəndə səfər” hekayəsində bir gənc qızın erotik fantaziyasının musiqiliyinə, qüvvətli bir oğlanın “şıltaqlığına” sanki xəbərsiz cavab verməsi boyalarla zəngindir. Yazıçı hadisəni “zora” salmır, avarçəkən yeni qız sərnişininə aludə olmuşdur, amma “qəribə həyəcandan gücdən düşürdü”. Təbiət gözəlliyi qızı məst eləmişdi, yanaqları qızarmışdı, ağaclara dərin məhəbbətlə baxırdı, havanın hərarəti onun canını qaynadırdı: “İstinin qorxusundan heç kəsin görünmədiyi bu kimsiz yerdə, suyun üzündə oğlanla tək qalması da qıza qəribə bir həyəcan gətirirdi, özü də oğlan onun gözəlliyinə heyran olduğunu büruzə verir, baxışları ilə onu öpüşə qərq eləyir, ehtirasdan od tutub yanırdı”. Bu təhkiyədə qadın psixologiyasına birbaşa bələd olan Mopassan Ali müdriklik hissinin təbiətlə, onun gözəlliyilə ahəng təşkil etdiyini, cavanlarda şəhvət idealını oyatdığını incə məharətlə təsvir etmişdir. Lakin bu mənzərə hələ iki əks cinslərin intim labirintini açmaq gücündə deyil.

Oğlan qayığı sahilə bağladı Anriyent Anrinin qoluna söykəndi, onlar budaqların arası ilə irəlilədilər... Onlar sarmaşıq, yarpaq və qamışlarla örtülmüş bir yerə girdilər, bura lap evə oxşayırdı...

Bülbül onların başı üstündəki budaqda idi, ara vermədən cəh-cəh vururdu. O, gah asta, gah titrək səslə

oxuyur, gah da elə zəngülə vururdu ki, elə bil səs üfüqə çatır, çay boyu axır, istidən kimsəsiz qalmış tarlalara, bağlara yayılırdı”.

Bülbül oxuyur, qızı həyəcan alır, bədəni hərarətlənir. Anri başını qızın çiyninə qoyur, birdən qızın dodaqlarını öpür. Deməк, tufanın qopacağına saniyələr qalır. Qız dartınır, əbəs cəhddir: “Oğlan qızın üstünə yıxıldı, bədənilə onun bədənini örtdü. Ağzı ilə qızın dodaqlarını axtardı, qız imkan vermədi, axır ki Anri dodaqlarını qızın dodaqlarına sıxdı. Qız ehtirasdan titrədi, öpüşə cavab verdi, oğlanı sinəsinə basdı, onun müqaviməti elə bir ağır yük altında qalıb çilik-çilik oldu”.

Qadınların dalısınca sürünən yazıçılar və rəssamlar az olmayıb. Eləcə də əksinə. Birinciləri erotik həvəs: qadın bədəninin saçdığı şəhvətin yandırıcı qığılcımları bədənə sancıldısa qaşınma tutur, enerjisini yerindən tərpədir. İkinciləri kişilər üzərində qalibiyyət və şöhrətpərəstlik, belə iddianın bəşəri simvolu Kleopatra idi. Bu məxluq o idi ki, düşmən sərkərdələrini yatağının altına salırdı.

Mopassan isə on üç yaşından özünü kişi cərgəsində hiss edəndə məşuqları qızlar, qadınlar və “qədim peşə sahibləri” idilər. Hər üçü qadın cinsinə mənsub idilər. Lakin erotik mühitdə, yataqda başqa zövq məxluqları olmuşlar. Əbəs yazmamış ki, qadınlar mənim ikinci sənətimdir, mən onları kolleksiya edirəm. Elə

qadınlar var ki, onlarla cəmi ildə bir dəfə görüşürəm. Digərləri ilə on ayda bir dəfə, üçüncülərlə rübdə bir dəfə görüşürük. Bəzən isə bir vaxtlar sevgilim olan qadınların ölüm yatağında tale bizi üz–üzə gətirir. Bəzi qadınlarla da sadəcə, onlar mənimlə nahar etmək üçün israr edəndə görüşürəm".

Mopassan qadınlardan tez-tez sevgi və ehtiras dolu məktublar alır, oxuyur, onların ünvanına öz təcrübəsindən irəli gələn "ayamalar" qoşurdu. Bu isə arvadbazlar üçün təbii sayılır, əslində belə rəylər, təəssüratlar etikadan kənardır, kişi, xüsusilə, qadınların sirrini saxlamağa borcludur. Arvadbazlıq bir sənətdir mənim aləmimdə.

Mopassanın dediyi "qadınların hamısı eynidir" – ifadəsindən xəbərsiz olanda dostlarım arasında söhbətlərdə vurğulamışam: "Qadınları yataqda tanı, bir-birilərindən necə fərqləndiklərinə inanarsan". Bu sözlərimi təxminən 35-40 yaşlarında dilimdən çıxartmışam. Bu gün də israrımda qalıram!

Qadın (gəlinləri, cəfakeş anaları və ərinə sədaqətliləri bu siyahıya daxil eləməyək) taleyini yaşayan və əzabla divarlar arasında çapalayan ilahi məxluqdur, baxır hansı kişinin bəxtinə düşmüşdür. Qadınlar ərləri tərəfindən qayğıya bələnmişsə, onun hisslərinə biganə qalmırsa, kimlərinsə ayaqları altına atılmırsa o, məlakəliyini daima saxlayacaqdır. Bu müsbət fikirlərimi təkzib etməmək şərtiylə əgər o qadının gen yaddaşın-

da, aldığı əxlaqi tərbiyədə, düşdüyü namuslu adamlar arasında "gəzəyənlik" sindromu yoxdursa... bu yaşlarımda da qarşısında diz çökərdim!

Qadın özünə güvənməklə kişinin şövqündə zövq ilahəsidir, bu fikrim pafos deyil, içimdən gələn bir hayqırtıdır.

Mətləbdən ayrı düşmədən qadın təması içində ilk gəncliyimdən ayrılıb, peşəkar qızlar və qadınlar əhatəsində bəxtimdən gileylənməyə haqqım çatmır. Ona görə yox ki, Mopassansayağı "bu mənim sənətim"dir dilimə almamışam. On doqquzuncu əsrdir, sivilizasiyalı Fransadır, onun eşqbaz Napaleon Banapartı hakim olub, Hüqo kimi cavan makinaçısı ilə sevgibazlıq yaşayıb əzablarla üzləşib, Balzak kimi qadınların mikromühitində evliliyin acısını dadıb dərin peşimançılığını gizlətməmişdir. Aleksandr Düma (ata) sayağı bir xanımın izinə düşüb Londonacan yol qət etməmişdir. Flober və Mopassan sevdasında erotik romanlar, povestlər və hekayələr qələmə alınmışdır, yüksək tirajlarla Avropaya yayılmamışdır. Bu yaradıcılıq riskinə aşiq yazıçıların sevgi məktublarını da əlavə edirəm. Çünki bu Məkan Qərbin mərkəzidir, açıq–saçıq gəzib – dolaşan kübarlar diyarıdır, çıl – çıraqlı salonları ilə! Hər bir qadın kimi qanuni arvadı olmasına baxmayaraq ona nəvaziş göstərən kişiyə yumşaq barmaqlarını əsir edir, ətli dodaqlarını öpüşə hazırlayır və belinin sıxılması üçün tələsir. Belə məmləkətdə Flober "Madam

Bovari"ni, Mopassan "Əziz dost"u, "Gombul"u yazmaya bilməzdi. V.Hüqonun, O.Balzakın, F.Dostoyevskinin, Anton Çexovun, Frans Kafkanın, E.Heminqueyin, A.Dümanın (ata) sevgi məktubları yazılmaya bilməzdi, üstəlik də nəşrə gedirdi.

Şərqdə qadına, onun gözəlliyinə pərəstiş yox deyildi, amma əxlaq qanunları buna yol vermirdi, qəzəllərdə, nağıllarda, "Kəlilə və Dimnə"də, "Min bir gecə"də, "Qobusnamə"də yaşanırdı...

Mopassanın çox sayda (300) məşuqu olduğu deyilirsə bu, göstərici deyildir ki, qadınların yataqda eyni ovqatda, ehtirasda, lirik macərada nəfəs almalarında fərq görünmür. Məsələn, yazıçının həyatında Erminanın, Mari Kannın, Qrafinya Emmanuelanın, Jenevyeva Stronun adları daha çox hallanır. Gəncliyindən bu sənətin yolçusu, bədii – ədəbi ürəkli, şöhrətli Mopassan mütəmadi görüşdüyü qadınları yataq səltənətində seçim etməsin, bəlkə o, bir kişi kimi intim yaxınlığa tələbin ödənilməsini əsas götürmüşdür. Qadınla yaxınlıq, erotik münasibəti mən incə sənət kimi qiymətləndirmişəm. Bu gedişdə zəriflıklə qabalıq, yumşaq nəvazişlə sərtlik, yalvarışla xilasolma harmoniya yaradılmalıdır. Əgər belə qarşılıqlı ahəng bir-birini tamamlayırsa... fərqi görməmək mümkünsüzdür. Hətta yataqda çıxarılan hər iki səs "danışır", "yalvarır", sahibəsini "ölümlə" hədələyir. Şəhvani idealın fəlsəfəsindəki sirr budur ki, nə bioloqlar, nə fiziklər, nə də anatomlar üzə-

rində baş sındırırlarsa da... Mən bir yazar olaraq Mopassanın sözlərini qınağa çəkmirəm ki, onda qadınlara qarşı kinayəli, qisasçıxma bir instikt vardı, bu məxluqu reallıqdan çıxarırdı. Düşüncəsinin, qərarının fəlsəfəsində dayanan o idi: bütün görüşdüyü qadınlar onun üçün birində təcəssümünü tapmışdı.

Sələfi Mopassandan qadın sərraflı xasiyyətindən geri qalmayanlardan biri də Frans Kafka (1883-1924) idi, onları birləşdirən qadınlara olan "Şəhvət idealı"nın coşğunluğu, aldığı zövqün tükənməzliyidir. Almanca danışan və yazan yəhudi əsillidir. Onun yaradıcılıq diapazonu, cəmiyyətin idarəolunma fəlsəfəsini dərindən təhliletmə qabiliyyəti digər qələm dostlarından, həmkarlarından üstünlüyü ilə fərqlənirdi. Azərbaycan ədəbi–ictimai mühitində Kafkanı mükəmməl mütaliə edən, qiymətini verən qələm sahiblərindən istedadlı yazıçı, şair Əlisa Nicat və orijinal publisist şair Oğuz Ayvazdır.

İlk gənclik illərindən həyat onu baş əyməyə çağırırdı, o isə qismətə tabe olurdu, ancaq düşüncəsində "həyat bu cür daha xoşbəxt və problemsiz olacaq" – dolaşırdı. O, sonralar mühitin ziddiyyətlərini özünəməxsus xəyalla səciyyələndirib yazmışdı ki, doğru yol yerdən bir qarış yuxarıda dayanan gərgin kəndirə bənzəyir. Ancaq bu kəndir üstündə yeriyə bilmək üçün deyil, yıxılıb pis kökə düşmək üçündür. Onun fikirləri müəyyən dərəcədə məşhur "Çevrilmə" romanında verilmişdir.

Kafka ədəbiyyat meydanına içində saxladığı qadınlara sevgisilə bir atıldı. Bu hiss bəlkə də ona görə güclü idi yaxşı keçməyən (atasını sevməyən), yaradıcılığının qaynarlığını duyan, zahirən təsir oyadan bir gənci “qadınlar səltənəti”nə tullamışdı, bu meydana başayaq da, düz qamətdə də düşmək mümkündür. Onun qadınlar məsələsində bəxti gətirdi, sevgidən uzaq həyəcanlarını söndürmək payına düşdü. Kafkadan yazanlar “Onun ilk sevgisi, sevgililərin sayı filan qədərdir” kimi fikirlər deməkdə tamamilə səhvdədirlər: yalnız ilk sevgi olur və bu, əlçatmazlıqdan sonra gələnlər möhtəşəm “sevgi sarayı”nın kərpicləridir!.. Bu mənada Kafkanın ilk sevdiyi qadın Felice Boyerdir. Əlaqələr əyani olmadığından məktublaşma rabitə yaradırdı. Felicenin həm zahiri, həm də daxili aləmini tarixləşdirən yazıçının dostu Maks Brod idi, belə yazmışdı: “O qadının kim olduğu ilə maraqlanmırdım, onu elə olduğu kimi qəbul etmişdim. Arıq, çəlimsiz görnüşü, anlaşılmazlığı mənasız biri olduğunu göstərirdi. Onu ilk görəndə sarsılmaz bir fikrə düşmüşdüm”.

Kafka ruhən sıxıldığı məqamlarda Milen ona dayaq durdu, dostluqdan başlandı məktublaşmalar. Onlarda bir-birinə sevgi yarandı. Bu işdə ədəbiyyat da bir vasitəyə çevrildi: bu qadın sevgilisinin əsərlərini çex dilinə çevirirdi. Hər şey yaxşılığa doğru gedirdi, amma problem Milenanın ərli olduğu idi. Ağıllı, düşünməyi sevən Kafka tənhalığına üstünlük verdi. Lakin onların

məktublaşmasına və görüşməsinə mane ola bilmədi. Mən bu cür situasiyanı sevgi kimi qəbul etmirəm: özlərinin yatağından çıxıb subay kişinin ağuşuna atılmaq yalnız" Şəhvət idealı"nın tələbi idi. Burada təbii ki xoşagəlmə, əks cinslərin "kəşfləri", yataqda sərbəstlik bioloji, psixoloji motivasiya idi. Bədii – ədəbi simalar romantik – sentimental zərrəciklərə belə, böyüdücü şüşədən baxırlar.

Kafka Milenanın intim həyatında bir obraz idi, çün, bu qadının özü yaradıcı – publisist idi, bədii düşüncəsində Kafkadan nəyisə mənimsəmişdi. Və o, oyundaşı haqqında yazmışdı: "Yox, yox, o, dünyanı anlaya bilməz, o, həyata yaddır. Frans yaşaya bilməz, yaşamaq gücü olmadığı üçün yaşaya bilməz. Xoşbəxtliyə qovuşa bilməyəcək Frans. Çox keçməyəcək öləcək. Sığınacaq, baş vuracaq heç bir kəsi yoxdur. Bizi qoruna bildiyimiz şeylər onda olmadığından darmadağın olur, yıxılır, paltarlı, əyinbaşlı insanların arasında lümlüt biridir o. Çılpaq biridir".

Kafkanın yatağına ərinə xəyanət etmiş bir qadının can atmasından bu sözləri oxumaq dəhşət deyilmi? Belə ehtiraslı xanımlar Kafkalardan istədiyi ehtirasları yaşayandan sonra nə istəsə söylər. Sual edərdim ki, ilk intim yaxınlıqda bəs Kafkanın lüt, kasıb, əyin – başsız olduğunu bilmirdi? Bilirdi, ona görə ki, yatağa yaraşıqlı paltarla girmirlər. Qadınlar oyundaşı ilə sıxı "oyunbazlığa" qovuşanda sağlamlıq barədə fikirləşir,

xəstə vücuddan ayrılmağı qərarlaşdırır. Demək, münasibətlərdə sevgi hissi yoxdur, ancaq erotik mühitə canatma vardır.

Milenanın Kafkaya, keçmiş oyundaşına bəxşişi o oldu Kafkanın məktublarnı qorudu, 1939-cu ildə yaxın dostu Villi Haasa təhvil verdi. Beş ildən sonra dünyasını dəyişdi.

Kafka psixologiyasından, həyata münasibət durumundan irəli gələn "çatışmazlığı"nı qadınlardan alırdı, hələki sağlamdır, həyatda yaşayır, səs – küylü əsərlərini qələmə alır – yaşamağa haqqı çatır. F.Kafka vur–tut 41 il yaşamışdır, ömrün azlığı – çoxluğu nəzərə alınmaqla xeyli sayda əsərlər, yüzlərlə məktublar ünvanlanmışdır yaxınlıq etdiyi qadınlara. Kişidə hövsələyə bax ki, vaxtının sevgili saatlarına heyfi gəlməmişdir. O var ki yazdıqları yaşantıları qələmə alacağı romanların, povestlərin, hekayələrin "bədii layihələri" idi. Yəni o qadınlar gənc istedada yaradıcılıq impulsları vermişlər. Təkcə 1913-cü ildə tanış olduğu Feliceyə 300-ə qədər məktub yazmışdır! Məktubların leytmotivində özünə ümidsizlik, sevginin müqəddəs dəyər olmasından, beynində (təxəyyülündə) yazmaq qoxusunun hələ də məhv etməyi bacarmaması"ndan gileylənirdi. Maraqlı o idi istər Felice, istər Yuliyaya yazdıqları məktublar "eşqnamə" səciyyəli deyildi, gəncin dünyaya baxışının işıqlı və kölgəli cəhətlərinin inikası idi. Kafkanın dediyi kimi: bu qadınların biri onun və-

rəm xəstəliyinə tutulmasına, digəri atasına olan düşmən münasibətinin daha da güclənməsinə səbəb olur, çünki məhz atasının etirazı səbəbindən ikinci nişanlısından da ayrılır.

Qadın məxluquna ifrat meyl, xüsusilə, 25-45 yaş arası kişiləri psixi hala gətirir, depressiya yaradır. Xam adama bəlkə də mənim proqnozum inandırıcı görünməyə bilər, çünki qadından saçan təbii qoxu, onun çevik şıltaqlığı, yataqda davranma sənəti və sairlər Oyundaşını istər-istəməz şəhvətə hazırlayır. Əgər oyundaş hər bir qadını orqazma çatdırmırsa və o xanım yeni Oyundaş axtarışında olur, hərçənd, əsəbləşir, stress halı keçirir.

Yaradıcılığa gəldikdə şair, yazıçı əsəblərini, psixi durumunu obrazlarına ötürür. Kafkanı 41 il yaşadan da əsərləri idi. “Hökm”, “Çevrilmə”, “Kənd həkimi”, “Cəza koloniyası” əsərləri böhranlı illərin məhsuludur. Əlbəttə, yazıçının bədii fantaziyası öz yerində, dil koloriti, üslub yetkinliyi, müşahidə həssaslığı istisna edilməməlidir. Qadınlarla xoş söhbət, onların suallarına kövrək və məntiqli cavab, “daxili nitq” və ilaxır elementlər də yaradıcılıq uğurlarına “imza” atır. Görkəmli yazıçı və ədəbiyyatşünas Y.Nabakov yazmışdır başqa bir rakursdan: “O hüquq və təbiət elmləri sahəsində malik olduğu söz ehtiyatından geniş istifadə edərək onlara ironik dəqiqlik vermiş və eyni zamanda öz hisslərini qabarıq şəkildə göstərmişdir”.

Qadın həyatından ayrılmaq istəməyən, gözəllik ətrindən doymaq bilməyən Kafka öz yaradıcı əməyinə də nifrət bəsləmiş, ölümü ərəfəsində dostundan bəzi nəşr olunmuş əsərlərini yox, ümumiyyətlə, kitablarının yandırılmasını xahiş etmişdir. Dostu Maks Brod vəsiyyətə əməl etməmişdir, məktublarının belə, çapına nail olmuşdur.

Kafka üçün qadınlı həyat davam edir. O, baxça müəlliməsi Dora Diymantla zəngin münasibət qurur, yazıçı bilirdi kişini tənhalıqdan, ruh düşkünlüyündən qurtaran sevgidir, onun çilədiyi əzabdır, yataq yalvarışlarıdır. Dora yazıçı ilə Baltika sahillərində tanış olmuşdu. Mehriban, yazıçı "dilini" anlayan, kasıblığına baxmayaraq ürəyi geniş xanım Kafkaya fiziki və ruhi ağrılarını unutdurmağı bacardı.

Kafka ağır halda başı üstə Doranı görəndə bütün ağrısı ilə həyatın heçliyinə nifrət edirdisə, yaşamaq istəyirdi.

Böyük Kafka öldü və Doranın gözü qabağında torpağa tapşırıldı, amma ona başdaşı qoymaq nəsib olmadı: kimi vardı ki?!



## Coşğunluğun hissi harmoniyası

***Kişi coşğunluq ruhunu itirəndə öz qəbrini axtarar.***
***Müəllif.***

Kişi tayfasının bir fərqli xüsusiyyəti də hövsələsiz, özündən tez çıxan, coşğun olmasıdır, doğulandan belə bir əlamətlər inkişaf edir, sonralar o adamda sadaladıqlarım xəstəliyə çevrilir, sağlamlığını pozur, hətta işgüzar nüfuzuna mənfi təsir göstərir. Həmişəmi belə alınır?

Təbiətdə hər bir canlının hərəkət istiqaməti var: qidalanmaq üçün riskə gedir, özünü qorumaq üçün hücuma keçir, nəhayət, əks cinsini görcək ona yaxınlaşır, qəzəblənmişsə soyuyur, aclığını unudur, dişinin ətrafında fırlanır. Bu "üç"lük bizə diqtə edir ki, heyvanların (qeyri – insan cinslərin) azmı – çoxmu şüuru mövcuddur, tam instiktin nəzarətində deyil. O canlının da cinsi tələbatı, "məzələnmək" həvəsi, arzusuna yetmək istəyi yox deyil. Heyvan cinslərində hətta qısqanclıq sindromu sübuta yetirilmişdir, bir tayını (dişini) dəyişməmək sədaqəti də onlara xas vərdişdir. Qabanlarda birinci, alaqarğalarda ikinci xüsusiyyət qeydə alınmışdır. İnsan bütün bu hərəkətləri davranışında büruzə verir, bu isə (davranış) əxlaqi şüurla bağlıdır: nə etmək, nəyi etməmək. İnsan (kişi) hansı durumda,

deyək ki, qəzəbli olanda, hirsi bədənini saranda, gözləri hədəqəsindən çıxanda onu yeganə sakitləşdirən varlıq qadındır. Təsadüfi deyil, kişi bayırda (xüsusilə, işdə) qəzəb atına minib çapanda bu atın başını evə döndərir, qapını döyür, qabağına həyat yoldaşı çıxır, ərinin titrəyən əlindən tutub içəri gətirir. Həssas qadın ani hər şeyi anlayır, başa düşür ki, işdə möhkəmcə hirslənmişdir. Onlar divanda oturur, qadın geridə qalmış o illəri xatırlayır, divanın şahidliyi hələ beynində dolaşır, ürəyində çırpınır. O vaxt bu cavan aşiq necə də sakit və çılğın idi, əlləri dinc dayanmırdı, sinəsində hər barmağı quş dimdiyi kimi "yem" axtarırdı. İndi həmin barmaqlar əsir, darıxır. Qadın isti qollarını ərinin boynuna dolayır, qapqara saçları barmaqlarına sarılırdı, indi o saçlar günbəgün gümüşləşir: "Eh dünya! Sənə də etibar yoxmuş! Hanı o coşğun çağlar, coşğun bədən ki", – ürəyindən keçirir, qabarıq döşləri yorulmuşdur, ev xalatının yaxasında "büzüşmüşdür" quşu uçmuş yuvalar kimi. Əri sükutu pozur:

– Yaman fikrə getdin, əzizim, – astadan dillənir. – Hə, indi sakitləş. Evə əsəbi gəlmişdim, nə yaxşı qarşıma çıxdın. – Əlini qadının alnına toxundurur, hərarətindən narahat olur, xalatının yaxası açılır.

– Bir dəqiqə, – deyir və mətbəxə keçib çay hazırlayır...

Bu epizod hər istəyib evlənən kişinin başına gələr, evdə belə qayğıdan yüngülləşər. O halda belə ər – ar-

vad qarşılaşması yaxşı mənada adiləşir – aralarında aşiqlik – məşuqluq hissləri solmamışdır.

Kişi aşiqliyində coşğunluğunu qorumağı bacarır, əsəbləri sözünə baxır, iştahası itmir, xəstələnibsə normaldır. Demək o, qadından xoşlanır, həzz alır, bu isə onun tərəf – müqabilinə ötürdüyü siqnallardır. Stress hormonu kortizolun mədədəki qan damarlarını büzüşdürməsini eşq (sevgi) xəstəliyi kimi adlandıra bilərik. Bu narahatedici hal çox zaman qarşıdakı qadının yanında özünü rahat və məmnun hiss edir.

Kişi bəzən özündə ağılagəlməz güc – coşğunluq duyur, bu eşq və qorxu hissinin birləşməsindən qəfil yaranır. Tibbdə "hissi – qüvvə" adlanan bu fenomenin elmi araşdırılması demək olar ki, tam deyil, imkansızdır. Araşdırılmaların gedişində fövqəladə vəziyyətin tədqiqi mürəkkəbdir. Bu "hissi – qüvvə"ni təcrübədən keçirənlər özünü tanıyan yeniyetmələrə şamil etmirlər, aşiq olan adamlarda axtarırlar.

Kişi (eləcə də qadın) aşiqlik çağlarında özünü sakit aparmağı bacarmır, çılğınlaşır, coşur, belə prosesdə o ifraz edilən oksitosin hormonu fiziki ağrıya qarşı dözümlülüyün artmasına səbəb yarada bilir. Qadına xas olan coşğunluğun elementləri az deyil, bəzən kişi bunu hiss etmir, ona adi görünür. Hər birimiz bu vəziyyəti duymadan yaşamışıq.

Bəzən eşq azarına yenicə tutulanlar oturduğu masanın arxasından ora – bura göz gəzdirir, büruzə ver-

məyə çalışmır, ancaq sevdiyi qadının foto – şəklini elə qoyur tez-tez görsün, dodaqlarının biçimini, saçlarından bir əlçim sinəsinə düşdüyünü, gözlərinin dərinliyinə heyranlığını canlandırsın. Bu xəyali təmas arzusu onun beynindəki dopamin ifraz olunmasından qaynaqlanır. Beynində baş verən bu təsir kokainlə eynidir, çünki o da içkidən alınan həzzlə bağlı arzu təsiri oyadır, ürəyi sakitləşdirir. Əgər həmin fotoya alınan məqamlarda kişi qadının yanında olmuşsa, həzin duyum yaranır, sanki o anları yaşayır.

Qadını ilk dəfə görüb "vurulanda" onun qəşəngliyi, gözəlliyi dərhal gözə soxulmur və kişi hələlik öz obrazını yaradır. Təmas mərhələsində kişiyə qarşı bağlılıq az sonra sədaqətə, daima bir yerdə olmağa təkan verir, təbii ki, dərinləşir. bədəndə, canda qeyri – ixtiyari səs tempinin yüksəlməsi, yaxud enməsi baş verir. Səsin dəyişilməsi qadında da baş verir. Qəzəbli, hirsli kişi qadınla görüşəndə, onun nəfəsini duyanda, bədəninin fiqurasını mənimsəyəndə səsdəki coşğunluq öləziyir. Qadın kişiylə söhbət edəndə səs tonu kövrəkləşir, yumşalır. Belə ikili anlaşmada hormonlar dağılır, həm kişidə, həm də qadında testosteron səviyyəsi yerini dəyişir, kişidə yüksəlirsə, qadında aşağı düşür, deməli, burada təsirin gücü özünü göstərir. Müsibət onda başlayır münasibətlər korlanır, dolaşır pişiyin oynatdığı yumaq kimi. Kişi eşqiylə yaşadığı, yatağa çəkmək arzusu ilə vurnuxduğu qadından heç nə əldə etməyən-

də, yaxud ayrılanda, yoxluğunu duyanda təlaşlanır, coşğunluğu səviyyəsindən artır, kortikotropin əndazəsini aşır. Elə alınır, xüsusilə, eşqə, qadın felinə düşən cavan depressiya ilə üzləşir, narahatlıq onu əldən salır, intihara gecikmir.

Belə bir söz də işlədirik: "Ürəyim o qadından qırılıb, bəs səbəb nədir? Müxtəlif rakursdan yanaşmaq da olur: cavan sevgililər bir-birinin bədənini xəyali mənimsəyir, alacağı zövqü fetişləşdirir, amma bu vüsala imkan yoxdur hansı səbəblərdənsə. Kişi təcrübəli eşqbaz xoşuna gəlmiş qadının ətrafında fırlanır, çəyirtkəsayağı bir qadından o biri qadına sıçrayır, hələlik sonuncu əl vermir. Tam əlini üzəndən sonra daha dərindən düşünür, hansı səbəb ucbatından quşu uçurduğunun peşimançılığını yaşamalı olur, stress halı ilə qarşılaşır, tibdə "kardiomiyoratiya" adlanır. Belə böhranlı vəziyyətdə kişilər həssas stress təzyiqinə məruz qalır, ən dözümlü, iradəli aşiq susdalır, sağlam olsa da ürəyi döyünür, coşğunluğunu ram etməyi bacarmır, gərginlik onu infarkta yaxınlaşdırır. Ona görə də "ürək qırılması"na sadəlövh yanaşmaq lazım gəlmir, ehtiyatlanmaq məqsədəuyğundur.

Xoş olmayan təkcə bu deyil: güman, ürəyinizə yatan (həm də ürəyə bəla gətirən) qadını düşünəndə yerinizdə hey qıvrılır, balışı o tərəfə bu tərəfə çəkir, yataqda xəyalən o xanımın yerinə "sürünmürsüz"! Yuxunuz ərşə çəkilir. Belə situasiya əsasən cavanlarda baş verir,

aşiq olan zaman yaranan ilk eyforiya halında kişi özünü səhərlər daha enerjili hiss edir: əgər həmin qızı (qadını) xəyalında canlandırsa, ümidini ehtiraslarına bağlayırsa enerjisi davam edir, pozitiv əhvalını qoruyur, belədə yatmaq çətinləşir. Eyni zamanda hormonlarda yaranan inkişaf gün ərzində görülən işlərə adaptasiya olmağı çətinləşdirir. Münasibətlərin vüsalınacan yaranan coşğunluq (şəhvət idealı) hər ikisində müsbət aura yaradır, mehribanlaşırlar, yataq macərası üçün darıxırlar. Amma bu, uzun müddət davamlı keçmir, xüsusən, qadın tərəfdaş tərəfindən asan başa gəlmir. Müşahidələr təsdiqləyir ki, kişilərin şəhvət istəyi, erotik mikromühitə intizarlığı uzun müddət özünü büruzə verir, qadınlarda isə bir müddətdən sonra bu istək (tələbat) azalır, "libido" (cinsi istək) aşağı səviyyəyə endikcə kişi "erotik fantaziya"ya üstünlük verir. Qadın dünyasına varanda – cinsi münasibətlər yaşananda yataqda lirik macəralara meyl yaranır, gələcək arzular baş qaldırır, erotik həyat barədə xəyali düşüncələrini reallaşdırırlar.

Söz, tişə və fırça adamları ilhamsız sanki "heç nəyə yaramırlar" – həqiqəti var – necə ki sevdiyi, mübhəm arxasınca "süründüyü", "şəhvət idealını" reallaşdırmaq uğrunda "ölüm – dirim" mübarizəsinin mənbəyi olan coşğunluğu qadında tapır: dahiyanə tablolar, şeirlər, heykəllər yaranır. Yaradıcılığın pik nöqtəsi kəşf edilir. Səbəbi isə aşiq kişinin uzun müddət kəsim-

lərinə konstransiya olması, ehtiraslarına bahəm bütöv yanaşması və məqsədə çatması üsullarını dəyişməsidir, yəni eşqi, sevgini, gözəlliyi təravətləşdirir

Söz adamlarının, başqa sözlə, incəsənət daşıyıcılarının şəhadətinə görə, sevgi – eşq coşğunluq yaradır, canı – ruhu daha da dirçəldir, xroniki xəstəliklərin qarşısını alır, dərin sevgi hissləri beyində ağrıkəsici fəaliyyət göstərən hüceyrələri hərəkətə gətirir. Hisslərin coşğunluğu yazan – yaradan qadın sənətkarlara həmişə düşərli olmuşdur, kişi cinsindən enerji almışdır, onu bədbinliyə qapılmağa aparmamışdır. Bu məsələdə qadının möhkəm sevgisi boşa çıxmışsa, ərə getməmişsə bütün yaradıcı enerjisini əsərlər yaratmağa həsr etmişdir.

Psixoloqlar, sosioloqlar, yaxınları o qənaətə gəlmişlər ki, qadın yazıçılar onları sevən ərlərindən impuls almışlar, ruhlanmışlar. Kişi yazarlar üçün "azadlıq" problem yaratmır, eləcə də rəssamlara. Birincilər qeyri–qanuni yaq qadın saxlayır, hisslərini "öldürürlər". İkincilər naturadan qadın portretini çəkmək üçün saatlarla, günlərlə emalatxanasında qadının zahiri görkəmini mənimsəyirlər. Təbii ki, hər iki sənət adamını qadınla cismani yaxınlıq maraqlandırır, bu ümidin, arzunun vəzifəsi hər ikisinin arasındakı məsafəni azaltmaqdır.

Kişilər və qadınlar üçün sevgidə coşğunluq yasaq deyil, əksinə, bu şəhvətlə harmoniya yaratdıqca onlar

bir-birinə daha möhkəm bağlanırlar. Və bu, bəzən "platonik məhəbbətə" çevrilir. Yaradıcı şəxslər bu "bəla"dan qorxmurlar, çəkinmirlər, nə üçün də bu hissdən uzaqlaşsınlar? Belə sevginin filosof Platonla (e.ə. 427-347) əlaqələndirilməsi təsadüfi deyil, bunun bioloji mənası vardır: Platonik hissi sevgidə coşğunluğu inkar etmir, əksinə zəruriliyini aşılayır. Filosofa görə: Hər cür Eros gözəl deyil, ancaq gözəl sevməyə təhrik edən Eros tərifəlayiqdir. Ruha nisbətən bədəni daha çox sevən bayağı aşiq olacaqdır, o, həm də vəfasızdır, ona görə ki, sevdiyi şey, yəni bədən dəyişkəndir.

Platon "Ruha nisbətən" ifadəsini təsadüfən xatırlatmır, bu sözlərdə mənəvi yaxınlığın da çaları vardır və "cismani kontaktı" inkar etmir, "bədəni daha çox sevən aşiqləri" haqlı pisləyir, çüki ifratçılıq kişinin sağlamlığına ciddi ziyandır, yaranan coşğunluqda bədənin bütün üzvləri iştirakçıdır. Unutmayaq ki, "cüt"-lərin münasibətlərini yalnız mənəvi yaxınlıq nəcibləşdirmir, cinsi kontakt daha çox bu davranışı reallaşdırır, hər iki bədən bir–birini tamamlayır, kişidən aldığı enerjini Oyundaşı qiymətləndirir. Amma bu "qiymətləndirmə" hələ sevgi deyil, isnişmədir, adaptasiyadır, reallaşan intimləşmədir.

İlk görüşlərdə coşğunluq daha güclü olur, hər ikisini sehrləndirir və toxunulmaz sərhəd aradan götürülür. Lazım gəlir ki, intim psixoloji məsafə gözlənilsin. Kişi intim münasibətində tərbiyəliliyini büruzə vermə-

yə borcludur, öz ovqatını görüşdüyü qadına zorən qəbul etdirməməlidir: olsun ki, qadın görüşə hazır deyil, bəzi problemlərlə bağlıdır. Məcburi təsir baş tutmuşsa heç vaxt o, yataqda liderlik edə bilməyəcəkdir, intizarla orqazmın baş tutmasını gözləyəcəkdir. Coşğun hisslərin harmoniyası yaranmayacaqdır, yaxınlıq tərzi, rəftar üslubu, ovqatlı ədası formal – Oyundaşı xətrinə olacaqdır, intim etiketləri kişiyə verə bilməyəcəkdir. Halbuki, qadın görüşənəcən münasibətinin evristik mənası barədə düşünür, qəlbi titrəyir, yaz yağışını arzulayır. Hissi coşğunluq birtərəfli olmamalıdır, fiziki ölçülərdən daha çox psixoloji – ruhi ölçülər qadının zəifliyinə, məziyyətliyinə xidmət etməməlidir. İntim – şəhvət ovqatının kamilliyi əxlaqi saflığı şərtləndirməlidir.

Kişilər üçün coşğun hisslər onun ölməz dayağıdır, amma bu, yalnız fiziki üstünlük deyil, psixoloji–bioloji keyfiyyətdir. Qadınla yaxınlığında təmkinlik, iradəlilik, özünəsahiblik də vacib şərtlərdir, qadın oyundaşının şəxsiyyətinə hörmətdir. Biz onu da gizlətmirik cinsi yaxınlıqdan doymayan, beynində hansı kişiylə yatağa girəcəyini formalaşdıran kübar (kasıbın bu meydanda nə işi?) xanımlar az deyil, onlar qamış suya necə pərəstişkardırsa o xasiyyətdədir. Kişi oyundaşının qabağına beləsi çıxmışsa bədbəxt hesab edərdim. Pərdə açılanda səhnədə faciə əsərinin oynanılmasını görür. Deməli, o, özündə daxili qüvvə, yəni o qadını

qorumaq hünəri göstərmir, kişilik streotiplərini qadına təslim etmir.

Qadına olan hisslər təbiidir və eləcə də əksinə. Bu prosesdə qadının emosional duyğularına şərik çıxmaq lazım gəlir, ona hələlik xoşa gəlmək gözüylə baxırsan, bir şərtlə, hisslərə aldanmayasan. Psixologiyada bu ***"empatiya"*** adlanır, latın sözüdür, "hisslərlə yaşama" mənasını verir. Kişi qadına sevgiylə bağlanırsa onun barəsində yaxşılıqla fikirləşir, duymağa çalışır, münasibətlərində "empatiya" ifadəsini tapır. Hər iki tərəfin hünəri olur, aylar və illər ötdükcə ünsiyyətləri adiləşməsin, ümumiləşməsin, onlar yataq üçün darıxsınlar! Emosional adaptasiya öləziməsin! Kövrək çırpıntılar, zərif sızıltılar gücdən düşməsin!

İntim yaxınlıq həyatın ilk yaşantısından bəşəri dəyər kəsb etmişdir və qadın kişiyə mənsub olduğunu iddia etmişdir. Qadında qəribə həssaslıq əmələ gəlir və düşünür ki, oyundaşındakı şəhvət coşğunluğunun səbəblərini nədə axtarsın. Ötəri hissdirmi? Hər görüşlərində kişi onu təmin edirsə münasibətlər daha da bərkiyir və qadın yatağı incəsənət gözündə görür – seksual uyğunsuzluqla qarşılaşmışlar.

Beləliklə, onlar bir-birindən soyumurlar və bu, nə az, nə çox – 25-30 il davam gətirir. Onlar gizli görüşlərində keçmişə tez-tez qayıdırlar.

– Məndə dəyişiklik hiss edirsənmi? – Qadın qanrılıb güzgüyə baxır, çiyninə səpələnmiş saçlarını sinəsində toparlayır.

– Güzgü nə üçün? – Kişi sağ qolunu qadının belindən çəkir. – İndi daha cavan görünürsən. Yadındamı o vaxt dediyin söz?

Qadın yerindən qalxıb dərhal oturur, ani fikirləşir ki, bu sözdə nəyə işarə varmış.

Kişi gülümsünür, atdığı sözün təsirindən məzələnir. Əli ilə qadının saçlarını qarışdırır, bu, onun adəti olmuşdur. Qadın qürurla çiyinlərini oynadır. Susur, fikrindən ayrılmamışdır.

– Demişdin nə qədər sənin hisslərin üstümdədir, bax, beləcə qalacağam: iyirmi üç yaşımda. İndi isə.

– Əli ilə onun dodaqlarını qapayır. O, il məsələsini ortaya atmasın. İllərin qocalmasından yamanca qorxur, yaşın amansızlığından.

– Sən mənim sinəmə aşiq idin, elə indi də. – Qadın xələtinin gümüşü düymələrini açdı, alt köynəyi təsirdən titrədi, sol döşü sahibəsinin yumşaq barmaqları arasında darıxdı, nə yaxşı cod əl onu oyatdı və silkələdi.

– Elədir, bu gün daha təravətlidir. – Kişi sözlərindən qızardı. Başını qadının sinəsindən qaldırdı. – Bu gün mən sənin yox, sən mənimsən.

Qadın divandan qalxdı, tül pərdə pəncərinin işığını tutmuşdu, araladı, dənizdən əsən sərin hava otağa

doldu, qadının bədənini yelpizlədi, o, azca üşüdü, qollarını güllə dəymiş qağayı kimi qatladı, sinəsi göynədi, qəlpə soyumamışdı, yandırırdı. O, baldırlarını istilənmiş əliylə sığalladı və çarpayıya tərəf addımladı...

Fikrimi davam etdirmək qərarındayam: Kişidə və qadında intim tələbat təbii və əbədidir – yaşın təyin olunmamış vaxtına qədər. Cinsi həyat "cüt"lərin digər bioloji funksiyalarından fərqli şəkildə əks cinsdə ünsiyyət sahəsilə bağlıdır. Bu əsrarəngiz aləm münasibətlərin spesifik hərarətini ödəyir, sehrkar ləzzəti yaşadır. Və qarşılıqlı harmoniyadan qidalananda uzun ömür bəxş edir, qadın gözəlləşir, kişi fərəhli saatlarını yaşayır. Bu nəcibləşmə, zərifləşmə, zənginləşmə ötəri hissə çevrilməməlidir, qadınlığın cövhərini üzə çıxarmalıdır. Əlbəttə, qadına münasibətdə, daha doğrusu, söhbət hansı tip, yaxud kateqoriyalı xanımdan gedir. Halal arvadındanmı, yoxsa kənar qadındanmı? Kişi tərəfindən yanaşma müxtəlif olub fərqlidir! Bu məsələ üzərində dayanmaq istəməzdim, oxuduğum dahi fransız Jan Jak Russodan yazdığım iqtibasla kifayətləndim. Pedaqoq və yazıçı J.J.Russo ***"Yuliya və ya Yeni Elioza"*** əsərində yazmışdır ki, ən sədaqətli qadınlar ərlərinin ixtiyarını öz əllərində adətən daha çox saxlayırlar, onlar nə şıltaqlıq edir, nə də ərlərini rədd edirlər. Lakin ağıllı və incə təmkinlik sayəsində öz ərləri ilə çox zərif rəftar edib onları müəyyən məsafədə saxlamağı bacarır və heç vaxt doymağa qoymurlar.

Kənar qadın məsələsinə gəldikdə, onların intim görüşlərində psixoloji və fizioloji – bioloji məqamları birləşir, insan – aşiq olaraq xüsusiyyətləri hər ikisinin bədən harmoniyasını tamamlayır, azad yataq çalarlarında yaşanır. “Cüt”lər bu saatlarında sanki bir-birilərini itirəcəklər, sabah hər şey faş olacaq, elə isə bu faciəyə dözmək necə?

Qadın yazıçılar var: Əsrimizdən çox-çox əvvəl istedadları gedəndən sonra, yaxud eşqbazlığın bəxş elədiyi intimli həyatdan əri zövq almış, yaradıcılıq coşğunluğuna qapılmışdır. Məsələn, Corc Sand və Harriyet Biçer (1811-1896) tarixin yaddaşından silinməmişlər. Corcun bəstəkar Şopenlə sevgisi barədə yazmışıq. Harriyet də maraqlı, amma məişət macəralarını aşkarda yaşamamışdır. Amerikada doğulmuşdur. Yeniyetməliyindən azadlıqsevənliyilə məşhurlaşmışdır. Dini dünyagörüşünə yiyələnmiş, həyatını həzrəti İsaya bağlamışdır. Devizini gizlətməmişdir: “Yazmaq, ərə getmək və yenə də yazmaq”. Məntiqi yozumla yanaşanda yazmaq üçün ona stimul intim həyat olmuşdur, daha bəzi qadınlar sayağı şəhvət əyləncələri yox, qanuni ərilə yataqda gələcək yaradıcılıq layihələrinə can vermək, usanmamaq.

İyirmi beş yaşında özündən doqquz yaş böyük olan professora ərə getmişdir, bu şəxs din xadimi Kalvin Stov idi. O, Harriyetin işvəkar, ədalı və yataqda bütün qayğılarını cinsi münasibətə güzəştə getməyi

bacarırdı, nəticədə dünyaya yeddi uşaq gətirdi. Qəşəng, harmonik bədənli, qıvrım sarışın saçlı, püstə qaymaq dodaqlı, qabarıq sinəli cavan xanım din alimini gözündən kənarlaşdırmadı. Əri bilirdi qadının yazan düşüncəsi, nağıl dünyası və azadlıqsevən təfəkkürü mövcuddur.

Harriyet ilk görüşündən sonra bir qadın olaraq ona bağlandı, maddi çətinlikdən yorulmadı. Kalvin onun istəklərinə cavab verməkdə gecikmirdi, alim kimi şəhvət idealının qadın orqanizminə, onun beyin, fikir sağlamlığına müsbət təsirini bilirdi. O isə gecə əyləncəsindən sonra səhər erkən durur, yazı stolunun arxasına məktəbli qız kimi keçirdi. Beləliklə, "Tom dayının daxması" əsəri çapdan çıxdı və geniş əks – səda verdi. Bədii tamlığı bir yana, ictimai – siyasi rezonans doğurdu. O, bu uğuru üçün kişisinə minnətdarlığını gizlətmədi: "Əgər sən mənim çox sevdiyim həyat yoldaşım olmasaydın, səni yenə də sevərdim", – açıqca yazmışdı.

Yazıçı – qadında hər xanıma nəsib olmayan cəsarət vardı, bu cürət ərindən gəlirdi, maddiyyat bir yana – ruhi – intim təminat mühüm faktordu. Belə ki, ABŞ Prezidenti Avraam Linkoln təəccübünü gizlətməmiş, "Tom dayının daxması"na işarə vuraraq demişdi ki, böyük savaşı başladan kitabı yazan kiçik qadın siz imişsiz?!

Roman köləlik rejimini kəskin tənqid edən, kütləni ayağa qaldıran əsər idi. Əslində bu "kiçik qız" böyük yazıçıydı, sistemi çalxalamışdı. Maraqlı siyasi mübarizəyə start verilmişdi, Şimali ABŞ-da köləliyə qəti etiraz başlandığı halda, Cənubunda əksinə yön almışdı. Beləliklə, vətəndaş müharibəsi ortaya çıxdı. O zaman kəsiyi idi 1850-ci ildə ABŞ-ın əhalisi 23 milyona çatmışdı...

"Tom dayının daxması"nı qələmə alanda Harriyet Biçer südəmər uşaq anası idi, qızı doğulmuşdu. Bu, hələ son deyildi, əsəri də sonuncu olmayacaqdı və yeni əsərini bitirdi, nəşriyyatlardan imtina edənlər vardı, uzaqgörən naşirlər kitab halında üç milyon nüsxəni oxuculara çatdırdılar. Bu əsər "Tom dayının daxmasının açarı" idi... O, bir qadın ehtirası ilə, daxilən təminatlı ovqatı ilə qırx beş yaşında "Dred" romanını yazdı, müəllifinə şöhrət gətirdi. Prezident Avraam Linkoln bu dəfə tarixi zərurətin qarşısında cığallıq etmədi və Harriyet Biçerlə salamlaşdı.

O, ailəsilə Floridaya köçüb orada yaşadı. Üçüncü "Müqəddəs tarixin qadını" romanını qələmə aldı.

Bu hekayəti elə – belə xatırlatmadım. Qadın istedadına güvənib kişidən aldığı "libido"nu – enerjini almadan yaradıcı uğur qazanmaqda problemlərlə üzləşər: bu etiraf unudulmamalıdır...

## Səhləb çiçəyi qədər solmayan

*Yataq qadının azadlığıdır*
*Müəllif*

Qadında yaşamaq qabiliyyəti güclü idi. Özünü təmkinli aparır, fikri məqsədilə ahəng yaradırdı. Ona hazırlıqsız sual vermək risk olardı. O, ayıq – sayıq qalib rəqibdir. Məhəbbətində qapalı idi, öz hisslərini açıb – ağartmırdı. Sual verən tapılarsa ağılla susur, təmkin və müvazinət çərçivəsində iltifatını büruzə verirdi. O, kişi qəlbinin dərinliyini duymağı bacarırdı, bu zaman təəccübünü gizlətmirdi, qısaca çatdırırdı fikrini. Qadın ciddi maraqlandığı məsələni sualla tərəf – müqabilinə çatdırır, dolğun cavab tərzində gözləyirdi. Mütləq təminedici cavab almalı idi. Bəzən onun bu xüsusiyyətini vasvasılığı ilə bağlayırdılar.

Qadın daxili həyəcanlarına qiymət verməyə meyilliydi və belə coşğunluqla ürəyi çırpınırdı, səbirsizliklə döyünürdü.

Kişilər, adətən, qadınların gözəlliyinə və gəlimliyinə diqqət kəsilirlər: qaraşın da, sarışın da, alyanaqlı da olar, amma təsiri fərqlənər. Buna ilk səbəb onun təsir dairəsidir, kişilərdə oyatdığı ehtiraslar aurasını yaratmasıdır. Qadın ətrafında yaraşıqlı (bu, o qədər də vacib, etibarlı sayılmır), qamətli və kürəkli (bu da əsas vermir) kişi üçün darıxmır: bir az sərt, aqressiv, qara-

qabaq kişini görəndə daha şux, qəmzəli, baxışlı rolunu davam etdirir, daha çox hərəkətdə olur ki, əndamı neştərsayağı hədəfə toxunub qıcıqlandırsın.

Dəniz sahilində, baharda, payızda və ya qışda qadın tənha, əlində ağacdan qopardığı kiçik yarpaqlı budağı qoxulayır, boş skamya axtarır. Bircə "qonşuluğunda" uşaq olmasın. Hər dəqiqə yanına qaçıb, "xala", "bibi", "nənə", filan şey necə olur, bu şardan sizin varmı? Mən baxçaya gedirəm, mahnı oxuyuram və sair "hesabatları" ona ünvanlamasın. Adətən, belə yarpaq qoxulayan xanımlar, ər üçün darıxan qızlar və dul qadınlardır. Onlar xəyalpərvər romantiklərdir. Budur, bir qadın ağır-ağır, başı açıq, dənizdən sahilə tələsən mehdən xumarlanır, qalın saçları sivri döşlərində qıvrılır, yara almış quş tək çapalayır, çırpınır. Yellənən donunda kölgə olub sürünür. Sıx, narahat saçları günəş istisindən sönmüşdü, tənhalığını yaşayan sarı yarpaqlı ağacın altında kölgələndi. Budaqların arasından süzülən Günəş şəfəqləri qadının üzündə işıqlandı. Onun gün şüasında yanıb qaralan yanağı solmamışdı. Saçlarını astaca höykələdi və uzaqlara boylandı. Xəyalımı qadını sahilə gətirmişdi, yoxsa yolunu sadəcə buradan salmışdı?

Qadının yanından ötən kişilər məğrur baxışlı, əli budaqlı, laqeyd ədalı bu xanıma baxmadan keçmirdilər. O, titrək nazik belli, zərif başını dik tutan, dalğın gözlü idi. Onu tanıyanlar güman ki, zövq simalı, təntə-

nəli dinclik təsiri oyadan durumuna heyrandılar. Qələm adamı bu qadınla ünsiyyət bağlasa idi, ideal obrazını tapmış olardı (Çalışacağam onu görüm tənhalığına qapılanda – söhbət edim). Xəyali düşüncədə onun dodaqlarında təbəssüm dolaşırdı: bu, ehtirasın pıçıltısı idimi? Gözlərində xoş və təmənnasız itaərtkarlıq cilvələnirdi. Qəlbində həsrət, vücudunda taqətsizlik, sevincək halları müşahidə olunurdu. Hissləri mülayim, sevgi həsrətliydi. Bütün bunlar bir qadında birləşmişsə, kişilər üçün kamillik tacına bərabər dəyərdir və hər iki cinsin ünsiyyət kodunu ideallaşdırır. Ehtiraslara təbii yol buradan başlayır, xoşbəxtliyə gedir və bəşəriləşir. Qaldı xəyanətə: bəzi kişilər qadındakı bu elementləri yaşayanda arxayınlıqa xəyanətin olmamasına inanırlar. Qadın xəyanəti onun qəlbində ağlayan, gözlərində gülən yaşlarıdır. Xəyanətin görünməz üzü – Kişi faciəsinin Ölüm zirvəsidir. Qadında səadət duyğuları, rahatlıq, maddi təminat, dolğun həyat olduğu halda xəyanətdən heyif ki, qaçmaq istəmirlər. Belə səadət timsalını pozan xanımlar sonralar peşimançılığın kənizinə dönürlər.

Xəyanət üfunətdir, acı və gözqamaşdırıcı qatı tüstüdür! Qadın özəl ruhi rahatlığını kişiyə bağışlayandan sonra vücudunda enerji əmələ gəlir dağa qalxsın – edir də, lakin yarıyolda qalır: zirvədə qar qalmışdır, buz bağlamışdır. Bəzi qadınlar – namusuna qapılanlar elə düşünürlər ki, ehtiraslarına son qoymalıdılar, boğmaq

gərəkdir, evlənəndə isə susdurmaq münasibdir – səhvdir. Bu isə o deməkdir kişilər barıt çəlləyilə oynasın, qadınlar gözləri qapanmış kişilərə yaxınlaşsın, qollarını kişilərin çiyinlərindən qopartsın, öpüşlərinə hədd qoysun. Belə olandan sonra qadının əlləri gizildəyir, barmaqlarının ucu – dırnaqlarını yandırır, saçları ölür, gözlərində yaş qaynayır, sentimental əxlaqa yuvarlanır...

Qadının arzusu o idi kişilər ona göz qoysunlar, işdə və evdə oturmasın: o, yaşayacaq, fəaliyyət göstərəcək, kişisinə xeyir – dua verəcək, onun hisslərini cavabsız qoymayacaq, ona “ikinci” həyat bağışlayacaq, ümidsizliyə qapılmayacaq. Qadında elə qüvvə toplanmış ki, kişini mənəvi sarsıntılardan xilas edir və bu gözlənti yataqdan başlayır, erotik fikri xəyalında canlandırmaqdan çəkinmir.

... Qadın dənizə baxır, boş dayanmış gəmilərə, atılıb – düşən qayıqlara, yem üçün qanad oynatmaqdan çəkinməyən qağayılara, gəmi tərsanəsindən bikef qayıdan dənizçilərə qəribə dünyagörüşü ilə tamaşa edir: kişi və qadın işçilərə. Onların əlləri bom – boş idi, qapqara mazuta bulaşmış kobud əlcəkləri qoltuqlarında titrəyirdi. Bu təbəqə də həyatı sevir, rahat istirahət istəyir. Qadın özünə sual verdi: “Həyatın şairanə idealı nədir?” – Son aylar beynində yaranmışdı. Cavabı beləydi: “İnsanların yaşadığı həyat söndürülür, halbuki, uşaqlığından alov görmüşdür, indi neftin yer altından

püskürən atəşini oğurlamışlar, ciblərində yandırmışlar. Xanımlarının tumanlarını gecələr işıqlandırmışlar.

Qadın qəlbini sızladan duyğular elə olurdu onu pessimizmə aparırdı, həyatda xilasedici od yanır, işıq saçmırdı, sönüb getdiyini anlayıb xiffət çəkirdi, peşimanlayırdı daxilindən. Belə yorucu dairədən çıxmaq lazımdır, özünə yol tapmayan işıq qapalı və örtülü qalmışdır, azadlığını itirib sönmüşdür. Bəzən idrakının və qüvvəsinin tələblərinə riayət edir, iradəsilə başa çatdırır. Eyni zamanda gözünün tozunu almaq barədə düşünürdü. Qadın, deməli, sentimental yox, romantikdir və təbii ki, cavanlarla yeniyetməliyin qovuşduğu dövrə çıxırdı. Qızlıq arzularının qanadlarında uçduğu illərə. Bu da onun üçün bir sirdi yaşamışdı: şüurlumu, qeyri – iradlımı? Rastlaşdığı, ilk baxışdığı gənc idimi? Bu, kövrək və sehirli nağıldı: onu görçək gözlərində şüalar oynadı, yanaqları pörtdü, allandı, üzündə xırdaca tər tumurcuqları diyirləndi. Qızın hissləri ağlını qabaqlayan çağları idi, gözəl əxlaq nümunəsiydi və hər baxan kişi tayfasının ürəyi çırpınırdı. Hələ qarşısına vədə dolu bir cavan çıxmamışdı: qızın sağlam düşüncəsini, təbii davranışını, normal kişi hissiyyatına meylini duysun. Kişilərə olan hissiyyatı laqeyd deyildi, söhbətdə dərhal tərəf – müqabilinin “atmacalarını” təhlil etməsə də, evə gələndə yozumlarını aparırdı, nə dərəcədə sözlərin ona aidiyyatını ünvanlayırdı. Dodaqlarını çərtib fikrə dalırdı. Güldanda həmişə tər güllərin, zərif çiçək-

lərin təkini götürüb qoxulayır, ayağının üc barmağını masanın qıçına sürtürdü. Bu hal onun rahatlığını daha da yumşaldırdı. Qız hələ "naz – qəmzə" dərsini keçməmişdi, əzilib – büzülməmişdi. Onun sevgi haqda, kinolardakı çılğın öpüşlər və qucaqlaşmalar barədə təsəvvürü kəm idi. Replikaların müdrikliyini qavraya bilmirdi. Bunun bir günahı bədii kitabları az oxuması idi.

O, az hallarda gülürdü, amma gülüşü ürəkdən gəlirdi, istehzadan uzaq olurdu. Qıza yaxından bələd olanın söyləməsinə görə, elə də gözəl deyildisə qəşəngdir, ağ bədəni və ağ əlləri yaraşırdı ona. Yanaqları və dodaqları bir-birini tamamlayırdı, hiss olunurdu anasından savayı bu qıza dodaq toxunmamışdır. Daxili atəşi hələ ki üzünə vurmamışdır, sevən oğlanı olsaydı daha çox "pərdəarxası" nüansları kəşf edərdi, güman deyərdi ki, qızın çöhrəsi başı ilə harmoniyadır, yaraşandır, çiyinləri bədənilə simmetriya yaradır. Əndamı mütənasibdir və sair və ilaxır.

Qız küsəyən olmasa da arada inciməyi vardı, bu halətdə nazik şehli dodaqlarını büzür, jalə zənəxdanına sızır. Alnına yerləşməyən saçlarını geriyə atır, burnunun ucunu ehtiyatla ovxalayır və düşünür. Gümanlamaq olar ki, gələcək səadəti barədə düşünə bilər, yaşı on səkkizi keçə – keçdədir. Maviyə çalan gözləri yaşını təsdiqləyir. Qaşlarına nə özünün, nə də kosmetoloq əli toxunmuşdur.

Bir gün toy mərasimində qarşı tərəfdə bir cavan kişi oturmuşdu. Fürsət düşcək qıza baxır, haldan-hala düşür, siqaret çəkmək bəhanəsilə ümumi zala baş vurur və qayıdırdı. Bu isə qızı sövqi – təbii təşvişdə qoyurdu, canını hərəkətə gətirirdi. Anası qızının bu təlaşını hiss edib çıxdılar, qapı arxasında rəfiqəsilə rastlaşdılar. Rəfiqə pıçıldadı səni başa düşürəm, bu qızın günahı nədir? Onun bəyənilən, seçilən vaxtıdır. İndi ki belədir, öz yanımda əyləşdirərəm.

O cavan kişidən qıza nə qaldı: baxışların itiliyi və istiliyi, səliqəli geyimi və qara nazik bığlarını hərdən sığallaması. Siqaretin tüstüsünü və dadını yaymamaq üçün bayıra çıxması.

Musiqi getdikcə güclənirdi, xanəndənin oxusu itib – batırdı.

Qızın tənhalığı başlamışdı, ürəyi döyünür, əsəbləri titrəyirdi, gözləri qığılcım saçırdı, qəlbi arzular ümidilə çırpınırdı.

Cavan kişi anasının qızın yerini dəyişməsini gözləmirdi, bu hərəkət xətrinə toxunmuşdu: “Bəlkə qəbahətə yol vermişəm?” – Tərəddüd içərisində qovrulur, musiqi qulaqlarına çatmırdı. Bu dəfə siqaret çəkmək üçün həqiqətən ümumi zala gedəsi oldu, ora – bura boylandı ki, bəlkə dil adamı ilə rastlaşdı, söhbət etsin. Siqareti barmaqları arasında sönmüşdü. Kreslo təkadamlıq idi, yayxandı, xidmətçi oğlandan bir qədəh “viski” gətirməyi tələb elədi, bu sözlərin yerinə düş-

mədiyinə peşimanladı. Oğlan sanki heç nə eşitməmiş-di sifarişdən başqa. Oğlan əlavə bir şüşə "Badamlı" ilə: "nuş olsun" deyib qayıtdı.

Cavan kişi "viski"ni içəndən sonra özünü azca gümrah hiss elədi. Sakitləşib məclisə daxil oldu, baxdı ətrafına. Ana və bala üç sıra qabaqda oturmuşdu. Qızı yaşlı biri çənəsinin altına salıb təngə gətirmişdi.

Hər ikisinin baxışı toqquşdu, bu da bir bəxt idi. Qız təşvişdən təəccübləndi: "Bu kişi necə də cəlbedici-dir" ürəyindən keçdi. Onun saçlarının səliqəylə darağa yatması, gözlərinin axarıcılığı, üzünün gülümsərliyi. Kişinin surəti gözlərində aydın cizgilər yaratmışdı: "Bu adamdan mənim beynimə nəsə keçdi, məndən nə-sə qoparmaq ümidindədir. Bu mümkünsüz cəhddir. Amma yaşlı olsa da xoşagələn kişidir. Ürəyimdə heç vaxt duymadığım sirri aşkara çıxarmaq istəyir. Bilməz ki, bu yaşımda könlümdə hansı sirr olardı". – Bu yerdə qız susdu.

Cavan kişi məqamlardan istifadə edib, qızın sima-sını hafizəsinə "köçürməyi" düşünrdü. Qəşəng üzündə baxışlarını saxladı, gözlərini qapadı, çənəsinin sol ya-nında xalı işıqlanmışdı. Qız da ona nəvazişlə nəzər ye-tirirdi. Bu sıxıntılıq utancaqlıqmı, həyəcanmı – nədən doğulduğunu başa düşməmişdi? Ən uğurlu qənaəti dərkedilməzlikdi? Yeni duyğu idi, ağırlıq yaradırdı. Təhlil etməyin faydası vardımı, olacaqdımı? Belə mə-qamlarda, xüsusilə, qadın hissləri boğucu olur, yandır-

mırsa qarsıdır. Gərəkdir hər iki cins birləşsin, bir dar köynəkdə yerləşsin, “yaxası dar” olsun ki!

Musiqi çalınırdı. Cavan kişi qərar tutmurdu, bu nagahani hissləri qız yaşamaqda idi...



## Kişi şövqünün ilahəsi

***Mən dünyada qadın gözəlliyinə baş əyməyən kişi tanımıram.***
***Müəllif***

O, məftunluqla gözlərini qadının üzündən çəkə bilmirdi, ürəyində və başında baş verən sirrin səsini eşidirdi. Realist fikirləri olmuşdu, əvəzində həyəcanları uçurdu mübhəm məkana. Qadında gücə və sehrə bax ki sıxılır, baxışlarını bir nöqtədə qərarlaşdırmağı bacarmırdı: “Nəfəsim tıxanır, gözlərim qaranlıq alır, olmaya qadına vurulmuşam?” Başını birtəhər qadının oturduğu səmtdən yayındırdı: “Özümü yaxşı hiss eləmirəm ona nəzərim düşəndə”, – pıçıldadı və əlini çənəsindən çəkdi. Bu dəfə özündə cəsarət tapdı, sınayıcı baxışları ilə qadının gözlərinin içinə baxdı. Qadınsa kişinin laldinməz baxışlarını “oxumaq” muştağında idi:

– Ürəyindəkini cüzi olsa da açmaqdan qaçması kişiyə xas xasiyyət deyil. Biz ki üzbəüz oturmuşuq. – Əlini büllur vazaya uzadıb bir alma götürdü.

– Mən hələki səninlə bir kəlmə belə kəsməmişəm. – Kişi birbaşa dilləndi. – Mən saxta diplomatiyadan qaçıram, ürəyimə yalanlar yükləmirəm. “Bu rəyindən incimirəm, haqlısan. Qadınlara o halda inanmırlar – qəsdən yalan söyləyirlər, gözlərindən süzülən baxışla-

rı ilə, süni təbəssümlərilə. Hətta gözyaşları ilə hıçqırırlar. Ali hisslərini kişiyə qurban verən qadın hörmətə layiqdir".

Qadın bu fikirlərini birbaşa ifadə etmədi, çətinliklə üzləşdi, çünki kişiyə qarşı şövqi – təbii hissləri yaranmışdı. Sözlərində bir titrəyiş vardı. Ancaq qadın vəcdə gəldiyindən xəbərsizdi, özündən asılı olmadan "ah" çəkdi, kişiyə baxıb utandı. Söz tapmaqda acizliyini ürəyində etiraf elədi:

– Qadınlar nəticə çıxarmağa tələsirlər. Mən istəməzdim barənizdə... – Susdu və almanın bir dilimini kişiyə uzatdı. Əli toxuncaq titrədi. Dilim çəngəldən sürüşüb stolun üstünə düşdü, şirəsi bir nöqtə yaratdı. Qadın salfetka ilə həmin nöqtəni sildi, milçək işini bilib yerini dəyişdi. Qadının yanaqları qızardı, gözlərinin parıltısı alışdı və yerindən qalxdı, pəncərəyə sarı narın ayaqla yaxınlaşdı. Səadət dolu ehtiraslarını da özüylə apardı, kişini tənhalaşdırdı.

Kişinin həyəcanları açıqca duyulurdu. Qadın bu anlarda çevrilib kişini süzdü. İlk dəfə siqaret götürmüşdü, amma yandırmamışdı, çəkmək istəmirdi, qadına pis təsir göstərərdi, ən uzağı öskürərdi, tüstü tutardı.

Hələ tam yetkinləşməmiş ehtiras şüaları parlayır, qadına qovuşmaq arzusunu yaşadırdı, sönmək bilmirdi.

Qadın da öz halətində buna oxşar həyəcan keçirirdi, bu dəqiqələrdə tərəf –müqabilinin qucağına atıl-

maqdan çəkinməzdi. Həmişə saf kişi ehtirasını arzulamışdısa, taleyi çəkib gətirməmişdi.

Bu iki nəfər zahirən sadəlövh təsiri oyatmışdı, elə bu kiçicik məclisdə də. Amma belə deyilmiş, eyni rəşəylə bədənləri uçunurmuş, gözləri bəbəkdən yaşarırmış, bu hiss sadəcə deyilmiş, neçə il qabaq onların ürəyində oyanırmış, ehtirasın əlamətləri olduğunu duymamışlarmış. Məhəbbət – sevgi mövcud həyatlarında baş qaldırmamış imiş, ehtiras gücünün – enerjisinin ötəri təsirində uyuyurmuş.

Qadın pəncərə qarşısından aralandı və qayıdıb əvvəlki yerindən bir stul kişiyə yaxın oturdu, kişinin gözlərində xoşbəxtlik şüasını sezdi. Gözləri yaşarmışdı. Bu nəydi, sevgiydimi? Yoxsa iki ayrı cinslərin bir-birinə qovuşacağı idimi? Belə "birləşməyə" qadınlar daha həssas olurlar, eşqin daxili təkanını duyurlar, kişinin ağuşuna kəniz olurlar. Qadın əllərinə hərarət axdığını hiss elədi, baxışları yaxın məsafədə görüşdü. Hərəkətsizdi, dəlicəsinə deyildi, ehtiraslı idi. Bəlkə həris kişi ovundan qaçsın? Yox! Qadın ehtirasını itirərsə şikarını qaçıran ovçu kimi "ah" çəkər! Görəsən peşimanlayarmı?! Uşaqlıq xatirələri onu haraya aparır?

Şeir istedadlı şair, hüquqşünas Nurəddin Əliyevə məxsusdur. Gəncliyində qələmə alınmış bu misralar məni də uzaq illərə apardı...

*Axı, nə söyləyim, axı nə deyil,*
*Məndən işıq qədər uzaq getmisən.*

*Sən mənim uşaqlıq xatirələrim,*
*Hardasa əlimdən düşüb itmisən.*

*Uşaqdım, qədrini bilmədim sənin,*
*Özüm öz əlimlə uçurtdum səni.*
*Sən yuva axtaran qaranquş idin,*
*Qəfildən daş atıb qaçırtdım səni.*

*O günlər geriyə bir dönəydi kaş,*
*Sənsiz qəribsəyib çölüm, çəmənim.*
*Bir zaman qəfildən atdığım o daş,*
*İndi ürəyimdən asılıb mənim.*

*Uyuşa bilmirəm özgəsinə də,*
*Neyləyim, neyləyim belə imiş bəxt.*
*Fikirlər içində tamam itmişəm,*
*Kim özü yıxılsa ağlamır heç vaxt,*
*Mənə nə olubsa özüm etmişəm...*

İllər müddətində sevgi və əzab işgəncələri qadının başı üzərinə səpələnmişdir, onu həyəcanlandırmışdır, amma hələlik bu sarsıntılardan özünü qorumağı bacarmışdır, başqa necə olardı? Hiss edirdi ki, sevgisi uğrunda iradəsini və əsəblərini sakitləşdirməyə çalışmış-

dır, orqanizmi sağlam, ehtirası sabit olduğu üçün bacarmışdır. Başa düşmüşdür ki, məqamında ona yabançı olan ehtirasları mübhəm mübarizədə qalib çıxmışdır, baxmayaraq ürəyini ağır yaralar almışdır, ancaq "ah – naləyə" təslim olmamışdır, həyat məhvə doğru getmir.

Qadının xasiyyətində bir üstün cəhət özünə güvənməsi inamı idi, hansısa rəfiqəsi emosiyasına üstünlük verəndə o, ağlını işlədir, sevgidən başını itirmir.

Başqalarını deməkdə çətinlik qarşısında qalıram, amma qadının sevgi hissinin necə təzahür etdiyini əsl məhəbbətmi, yoxsa dostluq, tanışlıq bağlılığı olduğunamı – həssas yanaşırdı. Ona hələlik kimsə təsir etməmişdi, cavan oğlana qarşı səndə bu qədər sevgi vardır, səmimi əxlaq qaydalarını pozmaq arzusunu daşıyırsan. O isə bu cür yanaşmalardan yüksəkdə dayanırdı. O ehtirasla bənd olmuş adamdan ayrılıb kənara çəkilmək fikrinə düşməmişdi və onda sevginin yerinə pərəstişkarlıq anlamı yox idi. Əgər bu pərəstişkarlıq uzun müddətli olsa o, böyük günahla yad kişinin yatağına qaçacaqdır və bu hərəkətini inadla yerinə yetirəcəkdir. Belə gümana dəyərdimi: sevgisi uğrunda mübarizəsi əbədi ola bilər, iradəsi və xarakteri qələbə çalar. Qarışıq, dolaşıq vəziyyət artıq yaranmışdır. Məhəbbət? Sevgi? Suallara ehtiyatla cavab vermək gəlirdi. Qadın qətiyyətsizlik göstərsəydi: bu lal oyundan təzahür edən hisslərini itirərdi, oğlana qarşı duyğularına

cavabı nə olacaqdı? Belə bir töhməti üzərinə götürməyə bilməzdi. Belə bir hissin tapdanması aldatmadan özgə hansı adı özünə şamil edərdi: "Heç zaman mənim ümid etdiyim həyat çiçəkləri solmamışdır". Bəs oğlan nə düşünürdü. Təzə yazmağa başladığı (iki-üç cümləni güclə bir-birinə qoşmuşdu) məktubu kənara qoymaq istədi, fikri dağıldı və unutdu.

Yerindən – kreslodan qalxanda düşündü ki, axşam qaranlığı şəhərə enir, əl – ayaq yavaş-yavaş səngiyir. O, sinəsində sızıltı hiss etdi, içində isə göz yaşları qaynadı, ağlamaq istədi, amma yayındı. O, bu barədə fikrindən daşındı ki, rahat nəfəs alsın. Amma əksinə, oğlan haqqında daha kövrək, özü üçün haqlı qiymətləndirdiyi nəsnələri götür – qoy etmədən təsdiqləyirdi: "O, mənim hisslərimin təmizliyinə şübhə yaratmır özündə. Məni cənnət məkanın bataqlığından çıxarmaq istəyir, yəqin özü də mübarizə aparır, bunu açıb demir. Mən oğlanın həyatında bir kölgə olub keçmək də istəməzdim. Onun yenicə başlayan həyatını qanunsuz ehtirasımla ləkələyə bilərəm. Bu arzuolunmaz ləkə olardı". Və mətbəxə keçib elektrik samovarı şəbəkəyə qoşub qayıtdı: "Mənim uğursuz sevgim də ola bilər", xatırladı. "Baş tutmasa bu xatirələr ömrüm boyu mənə əzab gətirər. Mən isə". – Bu sözdən sonra nə deyəcəyini ürəyində pıçıldadı. Üzünü balkona tərəf döndərdi: "Bir kiməsə ərə getməliyəm, ona qayğıkeşlik göstərməliyəm, bu günümü "sevgi şıltaqlığı hesab edərəm"

– fikrini tamamladı. Amma belə bir sualı da dilinə gətirdi: “Başqa ərsiz qadınlar da bu yolu seçir?” – Sual cavabsız qapandı.

Qaranlıq hakimiyyətini gündüzün əlindən almışdı, darıxmamaq üçün Ayı, onun ulduzlarını çağırmışdı və az ötmədi Ay da göründü, dövrəsində göz vuran ulduzlar da. Qadın özü ilə həmsöhbət olmuşdu: – Mənə hansı hissi təkan – zərbə endirmişdir? Çapalayıram, qəti qərarda tutuluram. – Sözləri labüd etirafdan irəli gələn kədərlə pıçıldadı. – Sual zəruri daxili hisslərimdən doğmuşdu. Başını qolları arasına alıb susmağa üstünlük vermişdi. İztirab içindəydi. Alnını soyuq tər almışdı, ayaqları əsirdi, əlləri titrəyirdi. Ağlı tərtəmizdi, amma daxili mübarizədə idi.

– Bəlkə boşlayasan bu çılğın sevgini? Ailənə qayıdasan, səni barışdırmağa qüvvələr var.

O, gecənin bu çağında görmək mümkün olmayan əsəblərini sakitləşdirmək istədi! Gecə xalatının ətəkləri yelləndi, baldırları güzgünün əksində göründü.

– Mən çalışıram özümü ələ alam, tutqun halda duyur ki, hər ikisi fəlakət qarşısında anlaşılmaz təzyiqlərlə üzləşə bilərlər, daha doğrusu, onun ucbatından cavanın həyatı pozular, halbuki, yuxarı təbəqənin etimadını doğrultmuşdur, əvəzini qazanmışdır.

– Mənim qorxduğum ancaq budur, özümə qalsa ən çətin uçurumun üzərindən adlayıb keçə bilərəm. Mən özümü yığışdırmaq təmkininə malikəm, ancaq sevgim üçün bu necə də çətindir!

Balkona açılan pəncərənin önündə dayandı. Ay xeyli göy qübbəsindən uzaqlaşmışdı, ulduzları kənizi kimi ardınca sürümüşdü, yarıyolda qalanlar da, tabı çatmayıb Yerə pənah gətirənlər də az deyildi. O, taleyilə onların son qismətində oxşarlıq görmək istəyirdi. Ürəyindən keçən bu sözləri eşidiləcək dərəcədə demək istəyirdi, lakin səsindəki titrəyişdən çəkindi. Və bu sözləri deyə bildi: “İlahi, deməli mən günahkaram. Günahım üçün hansı cəzanı göndərsən, imtina etməyəcəyəm”.

Qayibanə səs eşitdi: “Mən sənə kömək edərəm”. Bu kəlmələrin ünvanı yox idi. Qapını açdı, havanı qabaqlayıb balkona çıxdı, köks ötürdü. Gecənin sərin havasını uddu, həyəcanı azaldı tədricən, rahat nəfəs aldı. Küçələrə tamaşa etdi, şütüyən maşınların sarı və qırmızı işıqlarında məna axtardı. O, hansı xüsusda belə fikirləşirdi, düşüncələri sakit dənizin ləpələri kimi sahilə can atırdı, damarlarında qanı da beləcə axırdı. Mən nədən beləcə sakitləşdim, səadət gecəmi gəlir? Məğrur həyəcan bürümüşdü, amma tənhalığı ilə barışa bilmirdi.

**– 0 –**

Şehli bahar mehi, ilk bənövşə ətri, yenicə göyərən kol – koslardan yarıya qədər qırtlamış tumurcuqları yellədir. Şümşad bədəninə yapışmış nazik ipək paltarına əl vurmaq cənnətin qarısına yaxınlaşmaq ümidini

yaradır, həm də sonsuz günah duyğusundan xəbər verir. Hələlik əlim çatmayan qadının yanaqları, sərxoş saçlarının vurnuxması küləyin qismətinə düşmüş. Dəqiqələr ötdükcə onu tanımaq ümidim yaxınlaşır. Bir-iki addım xanıma yaxın durdum. Meh mənim acığıma onun dodaqlarına sığal çəkdi, saçlarını rəqsə səslədi. Boğazına sarılmış şərfini yellətdi, sürüşdürüb sinəsinə buraxdı. Durna boğazından nazik sarı – gümüşü qatlar görünür. Tabım tükənir. Qalxıb pəncərənin açıq layını örtdüm, hiss elədim qadın da rahatlanır. Çün meh ona "ilişdikcə" vücudu uçunur, qadın istəyi oyanır. Ehtiras dolu gözlərindən süzülən baxışları cilovsuz at kimi döyünür: bir kövrək atmaca söyləmək istədim, qorxdum dilim topuq çala, nə dediyimi özüm də anlamayam. Bəllidir, qadınlar yerində oturan sözləri xoşlamırlar, qarşısındakı kişinin nitqinin dolaşdırması ona şans qazandırır.

–Biz tanışıq, zənnimcə. – Astadan dedim və onun gözlərini süzdüm, alışıb yanırdı. Duydum bir təsadüfdə, ədəbi – bədii gecədə yanaşı oturmuşdum, dolaşıq mətləblər uydururdum, sonra sözlərimin mənasızlığını beynimdə təkrarlayanda anlayırdım...

İndi qarşı-qarşıya dayanmışıq. O, tanımışdı, yanaqları qızarmışdı, yəqin ki rastlaşma ürəyincə idi. Mənsə sıxılırdım, ikilikdə olmaq istəyirdim. Bu yer parkın günəş tutan tərəfiydi, ağaclar bu payı almadıqları üçün qocalmışdı. Budaqları aşağı əyilmişdi, kimin

"əli uzunsa" yarpaqları qopartmışdı, hətta asfaltda asta küləkdə saralıb – solanlar atılıb düşürdü. Xeyli aralıda bozarırdı. Coşğun səadətin həsrəti məni vüsala yaxınlaşdırırdı, fəlakətdən uzaqlaşdırırdı. Gəldi – gedər şəhvət hissin üzüntülü nəşəsi məni ağuşunda məsti–xumar etmişdi. Naməhrəm idi o gecə də, bu gecə də, günahsız aləmimdən razı idim. Şəhvani hisslər həmişə kənar adamlar tərəfindən zina hesab olunur, amma mən bu cür düşünməkdən uzaqdım. Belə dəqiqələrin, saniyələrin diqtə elədiyi həyatla ölümün mənə dəxli yox idi, nə çılğın həsrət, nə də qorxu məni tapa bilməzdi. O, məni bağrına sıxdı, titrəyən bədəninin alovunda ciyərlərimi yandırmağa başladı:

– Əzizim, – güclə pıçıldadı. – Səni cənnət gülüstanına qonaq edirəm, tər çiçəklərdən məst ol. Özünü küskün kişilərlə müqayisə etmə. – Dodaqlarını dilinə islatdı və sol əlimi yorğandan qaldırdı, yanaqlarına apardı, nazik, zərif izi qaldı. – Biz üçüncü dəfə görüşə bilməyəcəyik. Sabah təyyarə ilə uçuram xarici ölkəyə, orada məni keçmiş ərim gözləyir.

Mən onun boynunu yastıqdan qaldırıb saçlarını xışmaladım və acgözlüklə öpür, itirəcəyim qadının xiffətindən içimdəki göz yaşımı qurudurdum. Vüsalı itirməyin ilk acısı necə də üzüntülü imiş! Bu gecə qismətimlə ayrılığın son görüşü idi, sevincdən çox kədər yaxalamışdı məni. Solğun işıq kimsəsizləşmişdi, qəmli göz yaşı kimi süzülürdü. Kədərdən məst olmaq idi

bu gecə payıma düşmüşdü. Bəlkə həyatımın payız günü idi. İşıq ləkəsi divara qonmuş kəpənək idimi, yoxsa sapsarı günlərimin içində gizlənmişdi, qara toyuqlarla əylənirdi? Budaqda unudulmuş bir cüt gilənarı axtarırdı tapsın? Yanılmışdı qaratoyuq, o bir cüt gilənar qadının döşlərinin ucunda idi, gecəköynəyindən çıxmaq istəyirdi. Onun allanmış yanaqlarını sığalladım və ürəyimdən keçdi ki, keçmiş ərinin yanına könüllümü gedir? Maddiyyatmı aparır? İlahi, boynu bükülü səadət çiçəklərinin bəxtinə nə üçün daşlı – kəsəkli yerdə bitmək düşür? Belə qadınlar kişilərə yox, təbiətə ruh bağışlayır, belə qadınların mənəvi intizarı təbiətin itirilmiş məsumluğudur.

– Mən kaş, səninlə. – Boğazında səsi çırpındı, dodaqları titrədi. – Qadın doğulmağın mənasızlığı bu qədər inandırıcı görünür? – Onun həniri çəkilməmiş üzünə qonmuş kinayəli təbəssümü hələ uçmamışdı. Hiss elədim o, istəklə ayrılığın arasında çırpınır, bəlkə də tərəddüd edir, qaynar gözlərindən mənalı qüssə süzülür. Saçları qaşları üstündə qıvrılmışdır, qəmli iztirabdan xəbər verirdi.

– İnsanın çox ömür sürməsinə bir səbəb də məhəbbətində, yəni ehtirasında inadkarlığıdı, – deyib onu bər bərk sinəmə sıxdım, bu sözlərimdə mübhəm işarəmi dərhal sezdi və:

– Demək istəyirsən yolumdan qalım? Başıma sənin gül – çiçəkdən hördüyün çələngi qoyum, hər gecə

yatağına girim. Meyvələr qat-qat olmuş sapsarı yarpaqların arasında çürüyür, quşlar da yaxın durmur. Mən gözəlliyimi, bədənimi çürütmək istəmirəm kimsə yaxın durmasın mənə!

O, rəsmi qadınlara məxsus halda cavab verdi.

– Bu, mənim üçün qanlı təşəbbüs olardı. Unutma ki, mən zərif davranışa yad qadın deyiləm, zövq və ehtiras pərdəsinə bükülmüş xanımam, ilk qismətimə sən düşmüsən.

Onun üzündə və gözlərində saxta ləyaqət və özünümüdafiə əlaməti yox idi.

– Mən minnətdaram sənə, ölümə yaxınlaşdırsan da məni, sonda xilas elədin. Təzəcə qırışlar yol almış üzündə səssiz gülüş oyandı. – Əcəlin qüssəli kölgəsində ehtirasını tuşladı, ölüm kabusu da qorxub gözdən itdi. Çünki ayağımın pəncəsi topuğumdan barmaqlarımın ucuna qədər ehtiras idi. Ölüm də cəsarət eləməzdi yatağa soxulsun.

Qadın yatağımda mavi, iri gözlərilə, utancaq təbəssümlə gülümsəyir, sanki yastığımın tən ortasında qızılgülün açıldığını zənn eləyirdim. Mənim son sözüm bu oldu:

– Kişi ölümündən can qurtarmaq üçün yaşamamalıdır.

## Qocalmaq bilməyən eşq mələyi

***İncə məxluq Tanrıdan xəbərsiz Yer üzünə ayaq basan  Mələkdir, Şeytanı yolundan azdırmağı bacaran möcüzədir.***
***Müəllif***

Başlığı oxuyub mənə irad tutanlar az olmayacaq, ona görə ki, həyatda qocalmayan canlı yoxdur: nəhəng fil də, güclü pələng də, yazıq dovşan da yaşa dolur, ona verilən nemətləri itirir, acizləşir. Fil o hala düşür, çaqqallar da onun bol ətinə tamah salırlar. Pələng şikarının ardınca həsrətlə baxır, acı gözyaşı axıdır. Dovşan bayquşu görcək yuvasına can atır. Bəs insan – kişi necə? Çox sadə: bütün enerjini itirir, beli əyilir, adi şeyə irad tutur, ən faciəvisi yanından ötən gözəl qadına baxmağa tənbəllik edir. Bir zamansa hər qəşəng xanımı bəyənməz idi. Əlbəttə, bir vaxt! O vaxt ki, növrəstə qızın eşqindən havalanardı, bütün həmyaşıdlarını özünə rəqib sanardı, Şair Xaliq Rəhimli duyumunda: Dünya, bu dünyanın bir zərrəsi olan qadınlara hakimliyi Kişilər edir! Və yaşının hansı enişindəsə qadınlara da məğlub olur!

Həyatın daha bir paradoksu! Kişiyə və qadına məxsus bu paralellər filosofları və psixoloqları düşündürmüş, bioloqları və fizioloqları məşğul etmişdir. Hər iki elm sahələri arasında kişilər və qadınlar olmuşlar.

Güman edirəm qadınlar özlərini qocalıqdan kənarda aparmışlar, qorxmaya bilməzdilər. Hansı xanım gözəlliyini itirməkdən çəkinməz?! Belə araşdırmalarda sadəlövhlükdən uzaqda dayanırlar. Kişi isə ağına – bozuna baxmadan həqiqəti ortaya qoyur. Hətta yaşlı kişidən başlayır. Məsələn, yaşa dolmuş eks cavanların özlərini uşaq kimi aparmasını müşahidə etmişlər. Qadınlar haqqında bildirmişlər ki, bu məxluq daha tez yetkinliyə qovuşurlar. Hər iki mülahizə – fikir həqiqətə müvafiq gəlir. Faktlara diqqət yetirək:

**Kişilər daha gec böyüyür.**

Məlum olub ki, kişi və qadınların beyni gündəlik həyatda tətbiq olunan eyni qabiliyyətləri inkişaf etdirir. Buna baxmayaraq kişilər funksional şəbəkələrinin uzunmüddətli inkişafında qadınlarla müqayisədə çox vaxt daha ləngdilər.

Məhz buna görə də onların daha gec böyüdüyü hesab olunur. Qadınlarda isə adı çəkilən şəbəkələrin vaxtından öncə köhnəlməsi müşahidə olunur.

**Qadın beyni daha effektivdir.**

Qadın beyninin daha effektiv olduğunu təsdiqləyən başqa məlumatlar da mövcuddur.

Bu qənaətə gələnlərdən biri Meksikanın Milli Muxtar Universitetinin Tibb fakultəsinin fiziologiya və farmakologiya üzrə professoru Eduardo Kalikstodur..

O, bu yaxınlarda dərc etdiyi yazıda qeyd edir ki, qadın beyninin yaddaşı daha güclüdür, onlarda daha çox sinir əlaqələri var, qadınlar rəng və ətirləri xırdalıqlarınadək dərk edə bilirlər. Kaliksto bu göstəriciləri hormonlarla əlaqələndirir.

Beləliklə, hazırda elm sayəsində əminliklə deyə bilərik ki, qadın və kişilərin beyni həqiqətən də fərqli işləyir. Bu isə onların davranışlarının və emosional yetkinlik dərəcələrinin fərqli olmasına səbəb olur.

Görəsən, belə faktlar böyük yazıçı İ.S.Turgenevə məlum idimi, qadınlar? Ədib romanlarında yararlı qadın obrazları yaratsa da... yazmışdır: “Əgər bilsəydim haradasa məni günorta yeməyimə gecikməyimdən narahat olan qadın var, mən öz istedadımdan və kitablarımdan məmnuniyyətlə əl çəkərdim”.

Yazıçı Bernard Şounun ölməz kəlamı daima başımda çırpınır və qisas almaq üçün köklənir. Görün ədibin sağlığında dediyi sözlər nə tufan qoparmışdır: “Qadınlar ona görə çox yaşayırlar ki, onların arvadları yoxdur”. Allahdan sənə rəhmət diləyirəm, Şou! Bu gün dünya səhnəsində şounu şomenlər ayaqlar altında sürtürlər! Bizim teleməkanlarda şitini – şorunu çıxarıblar!..

Yenə sağ olsunlar almlər ki, bu probleme də biganə qalmamışlar. Elmi faktlarla israr etmişlər: kişilərin xanım – qadınlardan az yaşamasının bəzi səbəbləri aşkara çıxarılmışdır.

Kişilər XI cinsi xromosomların dəstinə görə qadınlardan daha az yaşayırlar. Bu qənaətə Avstraliyanın Yeni Cənubi Uels Universitetinin tədqiqatçıları gəlibler. Araşdırmanın nəticələri "Biology Letters" jurnalında yerləşdirilib. Elmi qrup V xromosomların orqanizmi X xromosomlarda gedən zərərli mutasiyalardan qoruya bilməməsi ilə bağlı fərziyyəni yoxlamaq istəyib.

Alimlər 229 heyvan növünün erkək və dişilərində xromosomların toplusunu həyat müddəti ilə müqayisə ediblər. Məlum olub ki, eyni cüt xromosomlu fərdlər orta hesabla 17.6 faiz daha uzun yaşayırlar. Eyni zamanda, heyvanın növündən asılı olaraq, bu cür homogen xromosom dəsti həm erkək, həm də dişi fərdlərdə ola bilər. Belə ki, quşlar, kəpənəklər və pərvanələrin məhz erkək fərdlərini ZZ xromosomları müəyyən edir, dişilər isə ZW xromosomlara malikdirlər. Belə halda həyat müddəti kişi fərdlərdə daha uzundur. Alimlər bildirirlər ki, insanlarda isə məhz qadınlar XX xromosomların daşıyıcılarıdır və buna görə də onlar daha uzun yaşayırlar.

**Qadnlar** axı, nə üçün az yaşmalıdılar? Onlar deyilmi kişi təmasından sonra üzünü baharın ilk gecəsinə tutmuş sərv ağacı tək oyanır və tumurcuqlanırlar.

**Qadınlar** həyatı və gözəlliyi kişilərdən daha çox sevirlər.

**Qadınlar** təmiz ehtirası üçün ömrü boyu ağlayır, amma bu hissi kişilərdən gizlədirlər.

Bəs kişilər?

**Kişi** ehtirası qadının saçlarına səpələnərsə, saçının öz-özünə hörülməsinə şübhə etməzdim.

**Kişi** yataqda qadının sentimentallığını əlindən almamalıdır.

**Kişi** cinsi Ali enerjisini itirəndə öz qəbrini axtarır.

Unutmayaq ki, qadınlar yaşamış, bu gün də var, onlar ərlərinin xəyanətinə, etinasızlığına və məişət zorakılığına baxmayaraq andlarına sadiqdilər, hətta qəlblə etiraflarını gizlətmirlər. İncəliyə bax ki, üzbəüz durmaq istəmirlər, məktublarında hisslərini bildirirlər. Dünyanın ən məşhur yazıçılarının sevdikləri qadınlar, öz xanımları həzin məktublar qələmə alırlar. Və vaxtilə almışlar! Mən dahi ədib Fyodr Dostoyevskinin həyatını təkrar oxuyanda br daha şahid oldum. Zəngin və dəyişkən məhəbbət macəralarının müəllifinə haqlı – haqsız namələr göndərilmişdir. Apollinariyanın məktubundan: "Sən bir dəfə mənə demişdin ki, mən tez könül verə bilmirəm. Mən bir həftənin içində ilk çağırışda, mübarizədə, tərəddüdlə, az qala ümidsizliklə, məni sevdiklərilə ümid bəsləmədən könül verdim. Sən mənə məftun olmağa başlayanda sənə açıqlanmaqda mən haqlı idim. Sən belə güman etmə ki, mən özünü məzəmmət edirəm, lakin demək istəyirəm ki, sən məni tanımırdın, heç mən özüm də özümü tanımırdım. Əlvi-

da, əzizim". Qadın sonralar Dostoyevskilə mehmanxanada görüşürlər və başqa birisini, yəni tibb məktəbinin tələbəsini sevdiyini israrla bildirir...

Məktubla qadınların hissləri toxdayır, rahatlanırlar. Hər halda sevgi barədə, baş tutmayan məhəbbət haqqında yazılanların taleyi onda gətirmiş (nə olsun cansız kağızlardır) ki, aşiq və məşuqların qəzəbinə gəlməmişdir, cırılmamış, yaxud oda atılmamışdır. XX əsrdə də məktublar dəbdən düşməmişdir, yazılmışdır. Ədəbiyyat tarixin – yazı taleyi baxımından dünyanın ən kədərli vida məktubu kimi yaddaşlarda qalmışdır.

Məşhur ingilis yazıçı Virciniya Vulfun ərinə yazdığı vida məktubu qısa olsa da kədərlidir. Məktub o qədər duyğu ilə yazılıb ki, onu oxuyarkən Virciniyanın yaşadıqlarını hiss etmək çətin deyil. "Əzizim, əminəm ki, mən yenidən dəli oluram. Hiss edirəm ki, bu dəfə öhdəsindən gələ bilməyəcəyik. Və bu dəfə düzəlməyəcəyəm. Mən səslər eşitməyə başlayıram. Fikrimi bir yerə cəmləyə bilmirəm. Buna görə də doğru olduğuna inandığım çıxış yolunu seçmişəm. Səninlə, şübhəsiz ki, xoşbəxt olardım. Sən mənim üçün arzulayacağım hər şey oldun. Düşünmürəm ki, hansısa iki insan bizim birgə olduğumuz qədər xoşbəxt ola bilər. Amma qorxunc xəstəliyim bizim xoşbəxtliyimizi əlimizdən aldı. Mənim mübarizə aparmağa gücüm qalmayıb. Bilirəm ki, həyatını məhv edəcəm. Sən mənsiz bacararsan, bilirəm. Görürsən, heç düzgün sözləri seçib yaza

da bilmirəm. Sadəcə, istəyirəm biləsən ki, həyatım boyu yaşadığım bütün xoşbəxtliklərdə sənə borcluyam. Sən mənə qarşı çox dözümlü və inanılmaz dərəcə mərhəmətli olubsan. Bunu hamı bilir. Məni xilas edə biləcək biri olsaydı, o, mütləq sən olardın. Amma artıq gecdir.

Hamı gedib. Sənin məhəbbətinə olan inamımdan başqa heç nəyim qalmayıb.

Həyatını daha artıq məhv edə bilmərəm. Mən bu fikirdəyəm ki, bu dünyada bizim ikimizin birlikdə olduğu qədər kimsə xoşbəxt olmayıb".

Qadını qocalmağa imkan verməyən yeganə dayaq, təməl Kişidir, baxmayaraq özü qocalır. Amma bu yaşa qədər eşq atəşində qızınırsa, yanıb külə dönmürsə, niyə də hisslərilə güləşməsin

Qadın üzündəki ifadənin rəngini görmək, yuxudan ayılıb hələ özünə gəlməmiş əhvalının necə olacağını sezmək marağında idi. Kişinin qollarına, qabarmış sinəsinə baxdı və gülümsündü. Kişi heyrətdənmi, zərurətdənmi, yoxsa təsadüfdənmi təəccüblə nəzərlərini təhlil etmək həvəsinə düşdüyünü yersiz bildi, əməlli – başlı düşündü ki, bəzi qadınlar kişiyə görüşqabağı hiyləgərliyə əl atırlar, sanki qisas alırlar. Məişət "şıltaqlığında" nazik, mehə tabsız parçadan tikilmiş donunu qoxulamaqdan həzz alırlar. Sonra belə kişilər gileylənirlər yamanca vaxtsız qocaldım...

Qadın bicliyi (yaxşı mənada) ehtirasları aparıb pula bağlayır, özü duymadan dövriyyəyə buraxır, müvəqqəti yaşamağa təminat alır. Bu pulla qadın donunu dəyişdirir, uzaq məsafəni seçmir, kişinin halalca yatağına şərik çıxır, zövq verir, qan isə birbaşa onun ürəyinə axır. O, belə yaşanmış dəqiqələri, saatları saniyələrə ayırır, yataqda onu "ayıltmış" şüaların içində kişinin yenilməz obrazını görür. Vay o hala ki, Oyundaşının "sevgi" təntənəsinin söndüyünü duyub qüssələnir, ancaq inamını itirmir. Ehtirasların saflığından doğan hisslər onu aldatmır, əksinə, duyğularını alışdırır, oyanmış, parlaq gözqamaşdırıcı qığılcımları itmir, şama vurulmuş pərvanələr kimi vurnuxur.

O qadın rəhmdilliyi, hər şeyə gözyaşıyla cavab vermirdi, bu anlarda göz yaşları quruyurdu ki, qəlbinə təsir eləməsin. Amma elə olurdu dilindən acı kinayə nidası səslənirdi, diqqət yetirsən arifanə işarə idi. Bəzi qadınlar bu xüsusiyyətlərin qonağı olsalar da nə istədiklərini anlamırlar, süstlük göstərirlər: "Filan şey mənə lazım deyil, filan hadisəyə reaksiya nəyə lazım" və sair laqeydlik baş verir, tərəddüd etmirlər, necə deyərlər, "beləsinin qaşları yay kimi düz dayanır". Qadın kişiylə söhbətlərində, ərkyana mübahisələrində başqalarının sezmədiyi nüansları görməyi bacarır, sözlərin mənasız olmadığına müsahibini inandırır.

Amma özəl həyatında baş vermiş sevgi macəralarından danışmağı xoşlamır. Belə məqamlarında təbii

ki həyəcanlanmaq olar, o, bunu büruzə vermir, yorğun baxışlarını başqa səmtə ötürür. Qadının kişilərə qarşı fikri sabit olmurdu, həyat məsələlərinə qarşı ilk gəncliyindən ayıqdı və bu xüsusiyyətinə görə rəfiqələrindən fərqlənirdi. Kişilərin şirin dilinə onda bir inamsızlıq yaranmışdı, çox vaxt laqeydliklə yanaşırdı, ona ünvanlanan məsələni fəzilətlə təhlil etməyə çalışırdı, amma sevgiyə bir inam yox deyildi, bəzən yanılsa da. O, bir qadın kimi ülviyyətə pərəstiş edir, onun hüquqlarının ayaqlar altına atılmasına dözmürdü, kübar cəmiyyətində, seçilmiş mühitdə baş verən hərcmərcliyə qarşı dözümsüzlük nümayiş etdirirdi, lakin tək olduğu üçün başı divara dəyib geri otururdu. Bu mühitin qadınları və kişiləri utanıb – çəkinmədən hərcayi davranışa yol verirlər. Neçə il qabaq bir qadınla tanışlığı onu belə bir məkana gətirdi. Cavanlığını dadmaq istədi, bir bəhanə ilə görüşü başqa günə təyin elədi və biryolluq uzaqlaşdı. Bu kədərli xatirə ona "dərs" oldu...

Qadın kişilərin xoşu gələn xanıma iltifatla yanaşmasına pis baxmırdı, lakin bu, nəzakət və həqiqi ehtiras naminə olmalıdır, qadına deyilən xoş söz bağırtılarda çatdırılmamalıdır. Kişi qadın aləmində Oyundaşını bir cəvahir gözündə sevməlidir, öz yüksək vəzifəsini, yaxud, pulunu ortaya atmamalıdır "tuz" kartı kimi! Kişi qadını ələ keçirmək naminə ləyaqətini, şərəfini uduzmamalıdır, bu hal ağıllı qadına iztirab gətirir və onu soyudur. Ehtirasını buza döndərir. Və özünü ləkəli

hesab edir. Pozğunluğa bulaşmış qadınlar bu murdar davranışı atmaq üçün kişilərlə yaxınlıq etməyə meyillənirlərsə. Di gəl ki, ünsiyyət bağladığı kişilərdə nə incəlik, nə də mehribanlıq axtarmaq həvəsinə düşmürlər. Ehtiras məgər qadının donunu çıxarıb əsəblərində döşəməyə atdığı bir şeydir? Qadının səhvi, bəlkə də səhvlərindən biri sevgisini sınağa çəkməməsi olmuşdur: bu, onun gənclik qüsuru idi, ölçüb – biçmək gərəkdi. Ona görə də ağ yanaq üzündə göz yaşlarının izi qalmışdı, buna tamamilə əmindi, səbəbsiz deyildi: şirin mürgüsündən ayılmamışdı, eşqin qaydalarını öyrənməmişdi, həyatından məmnunluq duymaqda idi. Unutmuşdu ki, nə qədər uğursuz sevgisi üçün ağlamışdır, gələcək həyatının əlvan rəngləri solmaqdadır, səhər əsil rəngini və təravətini saxlamışdır. Sonra iqtidarı çatmamışdır, özünü məhv etməkdən qorumağı bacarmışdır. Vicdana ləkə salmadan ehtiyatlanmışdır. Yaxşı ki, bu düşüncələrindən sonra şüuruna aydınlıq gəldi.

Qadın yeri gələndə zirəkliyini və fərasətliliyini büruzə verirdi, müsahibinin hər bir xırda hərəkətlərinə göz yetirirdi.

Qocalmaq bilməyən qadın, Özün barədə açıqlama verəcəksənmi? Çox qürrələnmə, öz bədənin haqda çox az bilirsən!

Ali müdrik hisslərini kişisinə qurban verən qadın qocalığa layiq deyil!

**– 0 –**

Titrək belli, çiyinləri bərabərliyində başını dik tutan, dalğın baxışlı qadın. O, zövq ilahəsi təsiri bağışlayırdı, kişilər üçün göndərilmiş ideal qadın. Hər bir kişi bu qadını öz zövq və ehtirası müqabilində təsəvvür edərdi, sonuncu ər – arvad yatağında təbii qoxulu bir qadın. O, öz arzusu ilə yatağa tələsmişsə, dodaqlarında təbəssüm oyanmışsa, saçları sinəsini iynənin ucu kimi sancırsa, taqətsizlik yoxsa, əvəzində sarsıdıcı həyəcana bələnmişsə, deməli, qocalmamaq mümkündür. Kim isə bu qadını məşuqsuz təsəvvür etmək istəmirdi, çünki əzəldən belə qəbul olunmuşdu kişi tələskənliyində. Kim isə bu qadını utancaq və məğrur, qayğıya möhtac qiyafəsində düşünürdü, Kim isə yataqdan sonra da bu, qadın məsumluğunu, gözütoxluğunu, məlahətli baxışlarını saxlamış bir eşq ilahəsinə bənzədirdi.

Mən bir yazıçı olaraq bu qadını görsəydim və ayrılsaydım uzun on illərdən sonra belə, israrımda yanılmadığıma özümü inandırardım, onun baxışlarında, gözlərində məlahətini, işıq saçan işvəkarlıq parıltısını axtarardım.

Qadını qocalmağa qoymayan, gözəlliyini rövqləndirən yalnız ehtirasdır böyük hərflə. Ehtiras təkcə poeziyanın predmeti olmur, o, həm qadın, həm kişi cütlüyünün məhəg daşıdır, hər iki oyundaşın gizli vəzifəsinin fəlsəfəsidir: dinclik deyildir, hərəkətin dinamikası-

dır, öpüşlərin ifadəsidir, hissiyyatın tüğyanıdır. Ehtirasın bunlarda həddi sayılmır, ehtiras vücuddan uzaqlaşanda hər iki cins qocalmağa başlayır, ona görə də ehtiras dünyanın əşrəfisi hesab olunan insanı cavanlaşdırmaq və qocaltmaq gücünə və qüdrətinə malikdirsə o, fenomenaldır, təkrarsızdır, möcüzəli qüvvədir, fitri enerjidir. Ehtiras tükənəndə tüfəng açılmır, ov qorxmur, əksinə tüstü aləmi bürüyür, səadət qaçır özgə, yad yatağa!

Ehtiras qadından çəkinir tələm – tələsik – insanın cinsindən asılı olmadan sehrli yatağa dartır, bəzən isə sürüyüb aparır, bədbəxtlik də bu” sürümək”dən başlayır, yaxşısı budur qadın ehtirası əvvəlcə gözlərilə, sonra təması ilə və bədəniylə söndürsün, bununla barıt çəlləyi partlayacaq, tüstüsü gözü qamaşdıracaq, bu zaman pəncərələri taybatay açmaq lazımdır, dənizmi, dağmı, çaymı, meşəmi görünsün.

Qadının ehtirasdan boğulan gözəlliyi yorğanın altında güclə nəfəs alırdı, boğulurdu nəvazişimdən. Qəşəng pörtmüş üzü razılıqla gülümsüyür, həzin pıçıltı ilə məni yuxulamağa qoymurdu. Gecənin bir vaxtında oyanıb qadına baxdım, işığa bələnib uyumuşdu. Həyatımda nadir görüşlərdən idi, hələ belə həyat tərzinə alışmamışdım, bu ecazkar həyatı filmlərdə görmüşdüm. Mən günahsız adam idim, bu gecə məni fəsadlardan xilas eləmişdi. O isə zərifliyin, gözəlliyin təmsilçisi rolunu oynamışdı, hələki əyyaş pullu kişillərin

Oyundaşına çevrilməmişdir. Adətən, belə yaşda olan qızlar mehmanxanaların bədbəxt “sakininə”yad idilər, onları belə sehrli otaqlara dadandırmamışlar. Bilirəm ki, bir neçə ildən sonra bu qız da ər düşkünü olacaq, kiminsə məşuqəsi olaraq ərə gedəcəkdir. Bu cür əlverişli kişilərə belə gözəl və təravətli xanımlar sərf edir. Bəziləri isə eyş – işrətdən xoşu gəlmir, yataqda könülsüz davranır, lakin naəlaclıqdan “baş” rolunu oynayırlar. Axtardıqları birgə məhəbbət əyləncələri ölür, hərçənd, bahar kəpənəkləri kimi təzə tər çiçəklər, güllər xəyalını yaşadırlar, nə edəsən ki ehtiyac ucbatından yırtıcı quşlar bu kəpənəkləri ovlayırlar. Günəşli günlərdən pay istəyirlər. Belələri emosiyasını cilovlamağa çalışır, meşşan həyatından qaçmaq istəyir, həyatının son nəticəsi olacağını dumanlı şəkildə duyurlar. Mən o əsrarəngiz gecədən müəyyən şeyləri öyrənməyə çalışdım: ən zərif və çılğın hisslərin fəlsəfəsinə varmağı düşündüm, yeni məhəbbətdən hali olmaq eşqinə düşdüm, lakin ləzzət almağa və yaşam tərzinə nifrət bəsləməyi ağlıma yerləşdirməyi təsəvvür etmədim, “bacarmadım” deməyi daha ədalətli bildim. Ona görə ki, belə qadınlar qüssə dolu həyatları üçün mənim kimi kişilərə “borclu” qalırlar. O gecə o xanım sinəsini yorğandan çıxarıb qoşa döşlərinin titrəməsinə aludəçiliklə mənə musiqidən, muğam ricətlərindən hərarətlə danışırdı, arabir mızıldanırdı. Bəlkə də qadın ehtirası və tələbatının diqtəsiydi onu riqqətə gətirmişdi. Mən qadının as-

taca zümzüməsindən ilk dəfə valeh olmuşdum. Onu bu dəqiqələrində süzürdüm: yumşaq oxu ləhcəsi, danışan qəmli gözləri fikirlərimin altını üstünə çevirmişdi. Mənim itirdiyim nə isə vardımı?

Qadın əllərini yuxarı qaldırdı, başladı saçlarımı dolaşdırmağa, hər bir telinə bal arısı qondu qəfildən və saçlarımın şirəsini sorur, sərbəst buraxırdı. Sonra isti hərarətdən yanan dodaqlarını öpüşlərə qurban verirdi, rahatlanmaq əvəzinə dediyi sözləri dilində əzirdi. Yadıma oxuduğum Eros allahı düşdü, onun insanlara göndərdiyi ehtirasları xatırladım. O ehtiraslar və həvəslər bürclər kəhkəşanından süzülüb gəlirdi və vücudum dayanırdı, ürəyim vurmurdu. Sinəsində "dinc" durmayan döşlərində tərli çay çiçəkləri kimi axara tab gətirirdi.

O məhəbbət dolu gecə mənə nəyi vəd edirdi? Özümə də möcüzəli idi, amma əmin oldum ki, bu gecə mənimdir, onu canavarların qanlı dişlərindən qoparmışam, bu məsum xanımı qoruya biləcəyəmmi? Belə məsumlar, gələcəyin bədbəxtləri itib – batır, yox olur, yaddaşlardan silinir, yataqların qurbanlarına çevrilir. Ömürləri arzularının əfsanəsinin qəhrəmanı ola bilmir, ulduzlarsayağı Ayın qucağında sönüb gedirlər. Təəssüf ki, vüqarını, zənginliyini itirirlər, miskin heçlik ağuşuna alır. Qadınların yataq ustalığının ayrı zövqü olur, eşitmişdim, onlar bədəninin yalnız sevən məşuqəsinə bəlli olan sirli gözəlliyini nümayiş etdirirlər.

Bunu haradan bilərdi təcrübəsiz adam O əsrarəngiz gecədə. Qəribə o idi mənim üçün qadının bədənini, saçlarını, dodaqlarını, öpüşlərinin ləzzətini duymuşdum və bu şəhvət aurası mənə qəribə gəlməmişdi.

**– 0 –**

Mən qadın məlahəti və məharəti haqqında yazdığım bu kitabın sonuncu dəfə əlyazması variantını oxuyanda ehtirasımın keşiyində durdum: Müdrik qadınlar var – kişilər onlara qibtə ilə yanaşırlar, ona görə ki, düşünüb – daşınmağı, yıxılıb – durmağı, ərinin ən ağır dəqiqələrində ürək – dirək verməsi və ilaxır əxlaqına malikdirlər, cəmiyyətə övlad gətirirlər. Qaldı bu məxluqda kişi hissiyyatını duymaq, qəşəngliyini əsirgəməmək, rəhbər vəzifədə hökmranlıq həvəsi... Bu sonuncu kaş onların taleyinə düşməyəydi! Qadına xas sənət, peşə mövcuddur ki, Allah – Təala bunları onlar üçün buyurmuşdur!

Bu gün Dünya biologiya və sosiologiya elmlərində maraqlı mübahisə gedir, bu işə ən görkəmli alimlər, mütəxəssislər qoşulmaqdadır. Bir cəfəngiyyat (!) isə. Kişi və Qadın cinslərinin düşüncə və davranış tərzi, həyat ideallarına münasibət... məsələsidir. Biz adət etmişik ki, “qadınlarsız həyat yoxdur”, “qadın kişinin azadlığıdır”, “qadın Eşq timsalıdır” və s. Bu barədə söhbətimə başlamaq istəyəndə az qala ruhdan düşmüş-

düm, səbəbi isə Amerikadakı Ayova Universitetinin əməkdaşı Kamilla Benbaunun pessimist qənaəti olacaqdı: “Mühitdə 15 il cavab tampaq üçün qadın və kişilərin riyazi qabiliyyətlərindəki fərqlərin təhlil edən alimin bu cəfəngiyyatından əl çəkdim”.

Birdən xatırladım ki, K.Benbaunun həmvətəni Canet Hayd ən güclü cinsi streotiplərdən biri qadınların riyaziyyat sahəsində kişilərdən fərqliliyilə məşğul olarkən gəldiyi nəticəsi daha optimaldır: “Kişi və qadınlar arasında riyazi qabiliyyətlərdə fərq hazırda sıfıra yaxındır”.

Lakin müasir diaqnostik aparatlarının köməyilə beyin fəaliyyətinin tədqiqi belə bir müqayisəni nəzərə çarpdırır: Kişi və Qadınlar oxuyarkən və istirahət edərkən müxtəlif neytron qruplarından istifadə edirlər. Qadının beyin hüceyrələrində kədər, kişilərin başındakı boz maddəni isə ali riyaziyyat misalları qıcıqlandırır. Lakin müəmmalar sırasında həqiqətlər yox deyil. Fransız araşdırıcısı Pol Brok qadın beyinlərinin həcmini ölçmək üsulu ilə mülahizələr söyləmişdi və əsas da budur ki, kişilərin qafatası həcmcə böyükdür, təbii onlara daha geniş dairədə və dərindən düşünmək imkanı verir. Pol Brokun eksperimentinə “qulp” qoyuldu: sən demə o, ölmüşlərin yarılmasına əsaslanmış. Yenə də qənaət optimal idi. Bu, o demək deyil kişilərdə beyin daha yüksək intellektə malkdir. Görəsən, K.Benbaun və P.Brokun hələ 1880-ci ildə britaniyalı

cərrah Ceyms Kripton Braunun elmə bildirdiyi kişi və qadınların beyin anatomiyasındakı cüzi fərqlər olduğundan xəbərləri vardımı? Cərrah göstərirdi ki, qadınlarda neytronlar yığımı öz həcminə görə kişilərinkinə nisbətən 23 faiz çoxdur. Bu neytronlar iki yarımkürəsinin ünsiyyət kommutatoru xidmətini görür. Bu, alimləri belə bir acınacaqlı fikrə gətirmişdir ki, bəşəriyyətin güclü yarısında, obrazlı desək, heç vaxt sağ yarımkürə sol yarımkürənin nə iş gördüyünü bilmir. Qadın yarımkürələri isə tam harmoniyadadır və usanmadan dedi – qodu ilə məşğuldur. Həqiqətlərə yaxınlaşsaq, əksi – təkamül nəzəriyyəsinə görə, qadın və kişi davranışındakı özünəməxsusluq bədənin düşdüyü mühitdən və fiziki inkişafından asılı olaraq fərqlənir. Məsələn, kişilər şahmatı daha yaxşı oynayırlar, qadınlar gimnastik hərəkətləri daha elastik və mütəhərrik icra edirlər. Kişilər təsərrüfatçıdır, qadınlar evdarlıqda misilsizdir. Kişilər qadınlarla münasibət məsələsində çoxmu fikirləşirlər, yoxsa, əksinə qadınlar? Sualımın cavabı üçün tələsməyək və bu məsələdə bir az ehtiyatlı olaq ki...

Məşhur rus yazıçısı İ.Buninin ehtiyatsız dediyi sözlərə ehtiyatla yanaşaq: Qadınlar adama oxşayan və adamlarla yanaşı yaşayan varlıqdır”. Dahi Z.Freyd isə başını aşağı salıb demişdi: “Qadın olması səbəbincə yarımçılıq kompleksindən əziyyət çəkir”. Hər iki dahinin öz mülahizəsi var. Amma inanmıram onlar qadın

müdrikliyini inkar etsinlər. Və bu qənaətlərdə məşhur Kiplinqin "Mauqli" nağılını xatırlamaq pis olmazdı: heyvanlar arasında ən müdriki hansıdır? – Bakira adlı bəbir: dişisi. Qadın! O, ən müdrik və ən hiyləgər heyvandır. O, qadındır.

Nağılda sehrlə yanaşı həqiqət olmurmu? Qadın özü ağırlığında ziddiyyətlərlə zəngindir, müdrikliklə axmaqlıq, sadəliklə hiyləgərlik, ədalətlə yalan qovuşur. Hələ şıltaqlıqla məkrliyi xatırlatmırıq. Bütün bu paradokslara baxmayaraq qadın istedad və bacarığından lazımınca və lazımi məqamlarda istifadə etmir.

Psixoloji araşdırmalar göstərir ki, müasir təhsilli qadınlar "müqayisələr və həqiqətlər"labirintində düzgün cavab verməkdən yayınırlar. Qadın kişinin güclü, cəsur, işgüzar, həssas, dözümlü, mehriban və s. cəhətlərini alqışlayır. Bu istək heç də dünyamızın məhsulu olan kişilərin yox, hansısa bizim qüvvətli və zəif xarakterimzin hər iki tərəfinə müvafiq gələn transseksuallıq arzusu ilə bağlıdır: yəni o, həm Ata, həm də Ana olmalıdır. Qadınlar öncə, kişilərdən fərqli şəkildə tərəf – müqabil kimi psixoterapevtik yardım göstərməlidirlər.

Kişilərlə qadınların bioloji fərqləri inkaredilməzdir. Sosioloqlar təsdiqləyirlər ki, qızlarda təbəssüm oğlanlara nisbətən çoxdur, kişilər fikirlərini qadınlardan fərqli olaraq tez-tez dəyişirlər. Kişilərdə xorultu qadınlardan üstündür. Qadınların səsləri kişilərlə mü-

qayisədə zəifdir, zərifdir. Daha kədərlisi odur ki, kişilər qadınlara nisbətən tez qocalırlar. Ona görə yox ki kişilər sərtdir, ömrün yolu tez başa çatır, unutmayın ki, dünyanın və günün əzabı, intizarı, qayğıları kişilərdə toxtayır. Bu ömrün fərqini Bernard Şou belə səciyyələndirmişdir. Qadınların borcu bu qısa (əlbəttə, müqayisədə) kişi ömrünü özünün kövrək məhəbbətinə, sağlam ehtirasına bələsin, onu qadın əməyinə cəlb etməklə öyünməsin. Heyif ki, Qərb qadınlarının kişilərlə bərabər hüquqlu olmaq uğrunda mübarizəsi bizim qadınlarımızı da "xəstələndirməkdədir". Unudulmasın ki, bəşəriyyəti fiziki – bioloji və mənəvi – sosial baxımdan yaşadan yeganə varlığın – insan nəslinin dünyaya gəlməsi kişilərin intim iqtidarından asılıdır və bu gün İlahiyyat elminin diqtə elədiyi bu Tanrıqovuşmasından utanıb çəkinməyə lüzum qalmır. Lakin kişiləri məhz bu iqtidar üçün ideallaşdırmaq lazım gəlmir. Unutmayaq ki, peşə – məişət stressləri ən çox qadınları tapır. Doktor Soli Bensabat araşdırmalarında maraqlı nəticələr çıxarmışdır. Belə ki, qadınlarda stress onların ikiqat yükü ilə bağlıdır: işdə də ev qayğılarını düşünür, narahatlıq keçirir. Kişilər isə işdən sonra idmanla, yaxud mütaliyə ilə stressi aradan qaldırırlar. Qadınlara vaxt azlıq edir, nəvazişə möhtac duyur və bunun üçün stresslə üzləşir. Doktor Soli Bensabat xüsusilə "rəhbərlik stressini" fərqləndirir. Rəhbərdirsə, nəyisə qabaqcadan görməlidirsə, qərar qəbul etməlidirsə "rəhbərlik stressindən" əziyyət çəkməli olur.

Ümumiyyətlə, XX əsrin qadınlar üzərində spesifik həmlələri vardır, bu həm onların rəhbərlik iddiaları, həm də tabeçilik sıxıntıları ilə əlaqədardır. Birinci haqlı olaraq müsəlmançılıqda da məqbul sayılmamış, qadağan olunmuşdur. İkinci isə əsasən ehtiyac ucbatından yaranmışdır. Görünür, əsrlərlə hər iki prosesin mövcudluğu indi kişilərin, qadınların əxlaqında, davranışında iddialar irəli sürmək psixologiyasını planlaşdırmışdır.

Görkəmli şəxsiyyətlər də qadınlar barədə müdrik sözlər demək məcburiyyətində qalmışlar.

Tibbi müşahidələr təsdiq edir ki, tabeçilik əhvalı mənəvi – sosial prizmalarda qadınların reaksiyalarının boğulmasına gətirib çıxarır və nəticədə orqanizmdə kortikol və bir o qədər az katekolamin hasil olur. Bu isə qadınlarda psixoloji təzyiqi gücləndirir və onlarda nisbətən az cinsi hormonlar yaranır, bu da menstrualın pozulmasına imkan verir. Kişilərlə qadınların intellektual və əxlaqi davranışının müqayisəsində şişirtmələr yox deyil, həqiqətlər isə istisna olunmur. Rusiya sakinləri arasında ictimai rəyin nəticələri maraqlıdır. Təəssüf ki, son dərəcə dəyərli olan bu tipli sosioloji sorğular respublikamızda unudulmaqdadır və bununla biz konkret tarixi – sosial şəraitə qiymətverməni nəzərə almırıq. Nə isə... Qadın nöqteyi – nəzərdən kişi idealı (faizlə) ağıllı 62, əxlaqlı 60, vəfalı 38, evdar 33, qayğıkeş 29, zahizrən cəlbedici 16, qəlbən 12, dözümlü 15, müstəqil 7, yüngül xasiyyətli 6, ehtiraslı 4.

Kişi nöqteyi–nəzərindən ideal kişi: ağıllı 71, əxlaqlı 53, vəfalı 23, evdar 32, qayğıkeş 12, zahirən cəlbedici 11, qəlbən 6, dözümlü 28, müstəqil 24, yüngül xasiyyətli 4, ehtiraslı 3. Rəqəmlərə baxdıqda aydın olur ki, kişilər özlərinə məxsus olan müstəqillik, dözümlülük xüsusiyyətlərini şişirdirlər və qadınların üstünlük verdiyi vəfalıq, qayğıkeşlik, zahiri cəlbedicilik xüsusiyyətlərinə istənlən dərəcədə əhəmiyyət vermirlər.

Kişi və qadınların istər düşüncə tərzi, istərsə də davranış manerası onları birləşdirən və fərqləndirən xüsusiyyətlər istisna edilmir.

Belə ki, müasir diaqnostika cihazlarının köməyilə müəyyənləşdirilmişdir ki, beyində baş verən proseslərdən beyin fəaliyyətində izotoplarla şüalanmış qlükoza beyin qidasından istifadə olunur. Və qlükoza orqanizm tərəfindən müəyyən işi icra edən neytronlar yığımına doğru yönəldilir. Nəticədə kişi və qadınlar oxumağı öyrənən və ya istirahət edən zaman müxtəlif neytron qruplarından istifadə etməli olurlar. Qadın beyin hüceyrələrini kədər, kişilərin başındakı boz maddəni isə ali riyaziyyat misraları "qıcıqlandırır".

Tədqiqatçıların apardıqları təcrübə göstərmişdir ki, insan ümumiyyətlə düşünməyə bilməz, ona görə də kişilərin beynində qeyri – ixtiyari olaraq qadınlar və futbol barədə fikirlər doğarkən, bu güclü hissiyyatın yaranmasına gətirib çıxarır. Qadınlar isə ərlərilə mü-

bahisəni və ya rəfiqələrilə bitməmiş söhbətləri başa çatdırarkən, bir daha natiqlik məharətlərini nümayiş etdirirlər.

Qadınlarda hissin güclü olması şəksizdir və buna inanmaq üçün nə təcrübə, nə də eksperiment lazımdır. Amma elmi dillə desək, qadınlarda hisslərə cavab verən beyin zonası kişilərə nisbətən 8 dəfə böyükdür. Qadınların kişilərə nisbətən psixi düşkünlükdən 2 dəfə çox iztirab çəkmələri də məhz bu səbəbdəndir. İncəliyi və həssaslığı ilə seçilən qadınlar həyatın anlaşılmazlığına çətin tab gətirirlər. Kişilər isə...

Bizim ecazkar təbiətli qadınlarımızın düşüncələri və hissləri dünyasını ötəri başa vurmamız heç də ona haqq qazandırmır ki, hansı məxluq hansı məxluq barədə daha çox fikirləşir, qayğı yükünü çəkir. Və müəllifin məqsədi də o deyil, üstünlüyü hansı tərəfə versin. Amma söhbətimin mərkəzində qadın dayandığı üçün həmişə cavan – qocalmayan qadın olaraq qalmaq – qənaətini cavabsız qoymaq istərdim.

Qadın(lar) daima təravətli, cəlbedici və qəşəng görünmək istər, bu arzudan kim imtina edər? Ağlıma sıxışdıra bilmirəm qadın on illərlə bir yastığa baş qoyduğu ərinin gözündə yaşlaşdığını boynuna alsın. O, istər kişisinin qadını olaraq yatağını sazaq almasın, ağ saçlarında qırışmış barmaqları dolaşmasın. Gecənin hansısa vaxtında ərinin “xorultusuna” oyanmasın. Bu həqiqəti xatırlayanda adamı üşütmə tutur. Kişinin ürə-

yindən o keçir qadını həmişə xanım olaraq qalsın. Qadının ürəyindən o keçir kişisi cavanlığına qayıtsın. Müəllifin xəyalında o nüans vurğulanır hər iki qəhrəmanı ruhdan düşməsin, ümumiyyətlə, qadın məxluqunun bioloji – sosioloji (ayırmıram) xüsusiyyətləri bəlli olsun, alimlərin araşdırmaları, gəldikləri nəticələri və bu sətirlərin müəllifinin müşahidələri özünü doğrultsun.

Mən bu "üçlüyə" inanmışam.



## "Soyuq kişi"nin isti ünsiyyəti

*Qadın və kişidə bir-birini cəzb edən güclü hisslər çatışmırsa, onlar suda boğulmuş balıqlar kimi yeyilməz.*
***Müəllif***

Əvvəlcə xeyli tərəddüd etdim: "Soyuq qadın" məfhumuna vaxtilə "Payıza qədər" romanımda (1990) toxunmuşdum, bəzi səbəblərə aydınlıq gətirmişdim. Amma bu anlayışa tam adekvat olan "soyuq kişi" deyəndə nəyi nəzərdə tuturam? Bədəni paltarın içində də üşüyən, ətrafı ilə davranışında laqeyd, etinasız, soyuqluq ifadə edən kişinimi? Sadaladığım əlamətləri mövcud olan insan həmişə rədd olunmuşdur fərdlər və cəmiyyətlər tərəfindən. Soyuqluğun daha bir xüsusiyyətini qadına qarşı münasibətindən bəlkə də xəbərsizik! Dərinə varanda bu cür kişilər yaşadığı mikromühitdən, doğulduğu ailədən və qadın məxluqundan çəkindiyindən, utandığından, tanış olduğu zənəndən heç bir impulsiv reaksiya almadığından (və başqa səbəblərdən) da yaranır. Sonuncu amili iki fakt (çəkinmə və utancaqlıq) yaradır. Bir həqiqət var ki, kişinin xarakterində (xasiyyətində, davranışında) kök salmış fiziki çatışmazlıq onu qadından uzaqlaşdırır. Beləsi təbliğat nəticəsində ailə qururlar. "Açılışmaya" gələndə yazıq

gəlin nələr çəkir! Əsil beş-altı illik coşğunluq, istilik, ehtiras fota gedir.

Görkəmli Britaniya həkimi Emil Piters 1908-ci ildə intim oyun işığında qürrələnib demişdi ki, diribaş və ehtiraslı qadın kişiyə ziyan vura bilər, az əsəblərini sona çatdırar. İndiyədək bu qənaət yoxlanılmamışdır: kim ziyan çəkib bəlli deyil. Amma qorxulu nəticə ümid yeri qoymur. Sənin ağuşunda ehtiras qığılcımlarında sönsün, ora – bura sıçrayan çınqının közərtisini unutsun. Mən lirik və sərt mövzuya qayıtmaq istəməzdim, vaxtilə bu məsələyə ayrıca toxunmuşdum. Oxucu tənqidçilərimin israr etdiyi: "Müəllif öz başına gələnləri yazmışdır", – fikrin subyektivliyini dərd sanmadan pıçıldamışdım: "Başa düşən səviyyəli oxucu yalnız sevinər". Müəllif bilavasitə duyduğu hissləri yaşadığını qələmə almışdır ki, nadan tənqidçini bu qədər narahat edir. Saysız ünvanlı və ünvansız məktublar, zənglər məhz "Soyuq qadın"ın ən ağrılı, əzablı başadüşülməzlik və sair və ilaxır etiraflarını sıraladı. Yaxşı yadımdadır: Bir 25-30 yaşlı qadın hətta hıçqırığını vəzifə nömrəli telefonumda boğmağı bacarmadı. "Vallah müəllim, ərə getməzdən də əvvəl özümə inanırdım ki, ərimi bir qadın kimi razı salacağam, mənə bağlanacaq. Axı, mən daxilimi, temperamentimi başa düşürdüm. İş o cür oldu, ilk günlərdən mən "açıla" bilmədim" və bu iş uzandı bir neçə il. Daha öz temperamentimə qayıtmaqda risk eləmirəm. Qorxuram ki, son sözündə tele-

fonda qadının hıçqırıqları yazıqlaşdı, kimsəsizləşdi və öz içərisində yox oldu.

Mən: "Alo! Alo!" nidasını təkrarladımsa telefon susdu. Bu nə idi, bir qadının özünü anlaya bilməməsimi, yoxsa özünü fəda verməyi bacarmamasımı?! Xeyli götür – qoydan sonra yazdıqlarımı təkrarən oxudum. Daha "operativ tənqidçimin" bəsit, şəxsi mülahizələrinə qayıtmamaq qərarında bir sual üzərində düşünmək qərarına gəldim: Soyuq qadın Oyundaşının məhəbbətini alışdırmaq qabiliyyətinə rast gəlmirsə, Kişinin özü qadının intim "detallarına və ştrixlərinə" varmaq istedadından məhrumdursa... Günahmı axtaraq, yoxsa müşahidələri xırdalayaq?! Elə bu məqamda Jan de Labyerin fikrini əlüstü xatırladım: "Hamının soyuq hesab etdiyi qadın sadəcə olaraq, onun ali hisslərini oyadan kişiyə rast gəlməmişdir".

Hazırda müqəssir axtarmaq üçün əl yeri tapmaq dəbdədir və bu cür peşəkarlar mövcuddur. Yataqda – İlahinin bəxş elədiyi ən ülvi və sarsıdıcı qovuşmada – cütlərin birləşdiyi yataqda İntim oyunun hansı tərəfdənsə məğlub vəziyyətinə düşdüyü fikirdən uzaqlaşmaq. Soyuq qadının fizioloji – genetik, psixoloji taleyindən söz açmaq məqsədindən uzağam, yaxşı tibb mütəxəssislərimiz günbəgün çoxalır, ancaq birisi əlboyda kitabı azərbaycanca yazıb gənc – yeniyetmələrimizin ixtiyarına buraxmır: ya çəkinirlər, ya da "abırların"da gizlədirlər. Onların istedadına inanıram, boş

səs – küydən qaçmalarına da şübhəm yoxdur. Tənqid etmək qəhrəmanlıq sayılmayıb və bunun üçün V.Q.Belinskiyə “Allah rəhmət eləsin” deyən bir rus ağıllısı tapılmamışdır. Sadəcə yazmaq, sübuta yetirmək, məsləhət vermək onların peşə borcudur. Bizsə, əhval – ruhiyyə baxımından məsələyə yanaşırıq. Heyif ki, nə tibb təhsilim, nə də laboratoriyam vardır. Soyuq qadın ilk ünvanını özündə axtarmalıdır, daha doğrusu, o anadangəlmə İntim oyunun təsir və əks təsir mexanizmindən xəbərsizdir, yoxsa zahiri isinişmə, qaynarlıq, həyalılıq hissləri “ağ yolun” yolunu kəsir. Birinci hal artıq sekspotoloqları da uzun illərdir maraqlandırır. Həqiqi cinsi soyuqluq anadangəlmə də olur: bu isə istər aktiv, istərsə passiv cinsi instiktin olmaması orqazmın baş tutması ilə şərtlənir. Belə bir cinsi soyuqluq qadının psixi və osmatik sferasında bu və ya digər normadan kənara çıxmaların qeyri – mümkünlüyü şəraitində cinsi həvəsin azalması daha çox nəzərə çarpır

Bu vəziyyət qızlarda açıq müşahidə edilir. İlkin psevdofrikidliyi doğuran səbəblər qızların uşaq vaxtlarında baş vermiş şüuraltı iz buraxmış, seksuallığın normal inkişafına maneçilik törətmiş sarsıntılardır. Belə bir mənzərə ilə qarşılaşa bilər: Gözünün qabağında cinsi akt prosesi baş versin. Bu vaxt o dərin hissi – fizioloji stress halını yaşayır və özündən asılı olmadan qadınlıq xəzinəsindən qiymətli incinin itirdiyinin fərqinə varmır. İntim oyunun bilavasitə müşahidəsi onun

həm qızlıq həyatını kobudcasına pozur, həm də cinsi aktın acı və şirin həyəcanlı ilğımı özü yaşamadan şüuruna həkk edilir. Zorlamaya cəhd, mastrubasiya üçün sərt cəza və s. günahlar da bu qəbildəndir. Xüsusilə, mastrubasiya barədə şərqli qızların lazımi informasiyaya yiyələnməsi də günahımız sayılmalıdır. Bu prosesdə qızların keçirdiyi stress – sarsıntı psevdofrikidliyə zəmin yaradır. Bir həqiqətdir ki, normal seksual inkişaf vərdişinə yiyələnmək qəbahəti ətrafında heyif ki, bu gün də yersiz miflər mövcuddur və "intellektual nadanlar" (bu termini bu sətirlərin müəllifi bir ziyalıya cavabında işlətmişdir) seksuallığı qəbahət, nəsilartımı kimi damğa vurmaqla məşğuldurlar. Bəli, hər bir valideyn qızının psixiseksual inkişafı qayğısına qalmalıdır. Gənc qızlar və qadınların qaranlıq mühitin doğurduğu "günah hissi"nə qapılmağın vaxtı ötmüşdür. Belə bir "mənfi təqib"ə də ehtiyac duyulmalıdır: Unudulur ki, gənc qız, yaxud təzəcə ailə qurmuş qadın anadandoğulma cinsi əlaqə hissinə və buradan da kişinin isti ünsiyyətinə qoşulur, onun gələck taleyi, bir qadın – insan kimi həyatdan zövq alması, ərinə bəxtiyar dəqiqələr bağışlaması kimi zahirən adi "məişət şıltaqlığı" əslində dünyaya övlad gətirmək müqəddəsliyinə təminat verir.

**Təbib və filosof.**

Əbdülhəq Həmid yazırdı ki, qadınlıq məsuliyyətin həmşirəsidir. Cocuqlar birinci tərbiyəni qadınlardan

iqtibas edir. Gənclər birinci fəaliyyətə onlardan müzhir olur. İxtiyarlar son təsəllini onlarda bulur.

Cinsi ehtiras, həvəs qadının yataqda son məqsədi olmalıdır. Lakin bu o demək deyil partnyorlar arasında güzəştə, gizli narazılıq və s. yaransın. Əmələ gəldikdə təbii ki, İntim oyun musiqililiyini itirir, duetlərdən müşayətçi kənar xallar vurur, musiqi nömrəsi sadəcə ifa olunur. Və bu hal təkrarlananda, vərdişə çevriləndə təhlükəli streotip konfliktlə nəticələnir, ixtilaf baş verir. Əslində İntim oyun məyusluq, məcburi vəzifə icrasını ödəyir və xüsusən, kişi tərəf – müqabilinin sönük rolunu ona güzəştə getmir. Bu vəziyyət hələ qadının ruhdan düşməməsi deyil, psevdrofrikliyin qarşısını almaq, hissiyyatın ölməməsi üçün kişi cəhdi özü göstərməlidir. Qadının erogen zonasını “hakimiyyəti”altına almalı, əvvəlcə qeyri – şüuri – hiss elətdirmədən oxşamalı, mələyin ilkin reaksiyasına qarşı həssaslıq göstərməlidir. Qadın əsasən bu əzizlənməyə mənfi yanaşmır, bu qısa (əlbəttə, qısa) müddətdə özündə ehtiras oyanmasını, bədənində boşalma getdiyini, hətta özündə uçunma yarandığını hiss edir, istəmədən hərəkətləri mənimsəyir. O, cavab reaksiyaları verir, öz növbəsində partnyorunu alqışlayır, tamam başqa əhval – ruhiyyə ilə Oyuna qoşulur. Belə qadınlar xoşbəxtlikdən soyuqlaşmamışdır, temperamentini dərhal üzə çıxarmağı bacarmışlar. Erogen üzvləri qadın ehtirasının rabitə siqnallarıdır, hər bir səs, pıçıltı aydınca eşidilir, xəttin

o başındakı şəxs tapşırığı qəbul edir. Bir şeyi unutmayaq ki, Soyuq qadın məsələsində qadının psixo – fizioloji çatışmazlığında iş, mühit qayğıları, yorğunluq və s. mühüm rol oynayır və qadını yatağın səltənətindən məhrum eləyir. Çarpayıda qadın özünü səmadan qəfil düşmüş şəfəqli, kövrək, tezəriyən meteor parçasına bənzətməli və bunu özündə aşılamalıdır. Yaxşı olar ki, bədəni ağrıyırsa, dizlərində sızıltı gəzirsə onu yatağa qədər unutsun və çarpayı cırıltı ilə "nəfəs alanda" içərisindəki iniltini, boğulan "ahı" diriltməlidir. O, olub – keçənləri (hətta ərli qadınsa) həyat yoldaşı ilə gileyini, söz – söhbəti unutmalı, əbədi həyatın səsinə məhz yataqda dinləməyə nail olmalıdır.

Bir qadının etirafından "Payıza qədər" kitabımın tənqidçilər üçün acı, müəllif üçün xoş, oxucular üçün şəkər vaxtında növbəti zəng oldu. Qadın idi, məlahətli danışıq tərzi vardı. Əsərdəki "Soyuq qadın" hissəsi barədə söz saldı, dedi ki, neçə illik həyatımda, lap tələbə vaxtımda da çox oxumuşam, ancaq bir azərbaycanlı müəllifin, televiziyada uzun illər "Ziya" verlişini aparan yazıçı – alimin bu mövzuya toxunması təəccüblüdür, sadəcə bir-iki gün əvvəl qəzetlərin ikisində birdən tənqidi məqalə oxumağım vadar elədi Sizə zəng çalım. Xülasə, Soyuq qadın bədbəxtlikdir, taleyin qarğışıdır. Mən birinci şəxsin diliylə yazdığınız təəssüratı oxuyanda özümə acığım tutdu. Niyə gözəl, bədənli bir qadın kimi soyuğam yataqda, özümdən asılı olmur. Sev-

məsəm də özüm seçib ərə getmişəm. Yataqda sıfıram, bağışlayın, heç nəyəm. Onu da çaşdırıram ki, yazıq hey istəyir ehtirasla yaşayım, bacarmıram. Hər gecədən sonra evdə tək qalanda güzgünün qabağında özümə heyranlığım gəlir. Nə olsun ki. Məsləhətinizə ehtiyacım var.

Naməlum qadın son cümləsini elə yazıq dedi. Pis vəziyyətdə qalmışdım. Əvvəla, həkim, sekspatoloq deyildim, ikincisi, telefonda...

– Neçə yaşınız var, xanım? – Sualım qeyri – adi səslənə bilərdi, adətən, qadının yaşını soruşmazlar. Bir az narahat oldum sualım üçün.

– Otuzu bir ildir keçmişəm. Ərə isə üç ildir getmişəm.

Sonra verəcəyim suala da birbaşa cavab verməsi məni ruhlandırdı və həmsöhbətimin heç də bayaqkı gileyi onun sadəlövh olmadığını sığortalaya bilərdi.

– Yəqin ki, ərinizlə top – tüfənglə yola gedirsiz? Xahiş eləyirəm, hər şeyi olduğu kimi danışaq. İş yerimdən də narahatçılıq keçirməyin. Mən birinci şəxsəm, katibəm də bu gün işə çıxmayıb. Məni düzgün anlayın. – Son cümləm quru səslənmədi. Səsimdə həyəcan vardı.

–Fəhminiz güclüdür, artıq o, mənimlə yaşamır, bir uşağımızın xatirinə rəsmiləşməmişik. Unutmayın ki, mən qadınam, özü də bədbəxtindən. Bəli, mübaliğəsizdir sözlərim. Biri var kişi üçün həsrət çəkəsən, bir

də var başının altında olmuş kişini haqlı olaraq qaçırasan. Mən sizə başqa niyyətlə zəng çalmamışam. Deyim ki kitabınız adi qadını sarsıtmaq təsirinə malikdir. – Bu vaxt qəhqəhə çəkdi. – “Tələni” mənim üçün qurmazsız ki?! – Yenə güldü. Dupduru səsi telefonda ağ – sarı işığa qarışıb beynimdə toxdadı.

Bu nəydi, işin sonunda yolumu başqa cığıra salmaq məqama yetişir. Bu nə sirdi, bir qadın məni sorğu – suala tutur, ürəyindən nə keçir, özü bilər. Amma sözlərində qeyri – səmimiyyəti artıq sezmişdim.

Telefon dəstəyi qulağımda, bir-iki addımlıqdakı pəncərəyə yaxınlaşıb iki gözünü açdım. Şam ağacına pənah gətirmiş iki qumru quşu səsdən diksindi.

– Yaxşı, evdə təksizmi, bu qədər? – Sözümü tamamlamadım. – Mən dediyim kimi idarədə özüməm. Bir də ki mən daha 3-4 saat tək işləməyə adət eləmişəm. – Eyhamı atmalı idim. – Axı, bayaq dedim ki, sizdə fəhm güclüdür. Mən otağa baxdım, ağ divarlardan bir yorğunluq axırdı. Bayırda isə səs – küy öz işində idi. Bu, hər bir istəkli məmuru ruhlandırmaya bilməzdi.

–Açıq danışmağım Sizi mətləbinizdən ayırmamış ki? – Sualın eyhamı dərində deyildi. – Bircə bir şeyi düzgün deyim, yoxsa söhbətimiz alınmayacaq. Unutmayın ki, mən həkimlikdən uzaq adamam. – Gülümsündüm. – Söhbətim rəsmi şəkil almasın. Çünki bizim yaxşı mənada tanışlığımız. – Sözümü kəsdi.

– Başa düşürəm, ey cadugər müəllif. Bu, nə epitet idi, ilk dəfə eşidirdim. – Mən söylədim ki... – Susdu. – Sualınızı oxudum. Mən rəsmi ayrılmışam, məhz soyuqluğum üçün. Sizin terminlə desəm, "Soyuq qadın" olduğum üçün. – Səsi titrədi, hıçqırığa bənzər xırıltı qulağıma dəydi. – Namuslu kişilər ərli qadınlara onların qaş – gözü olmazsa tamah salmırlar. Görünür, siz belə kişilərdənsiz. Mənim sizə təklifim də yoxdur, bu niyyətlə də zəng çalmamışam. Həqiqətən, Soyuq qadın gözəl qadının ünvanında qərarlaşıbsa o, neyləsin? – Hıçqırdı. Belə hallar ehtiraslı qadınlara xas olur. İtirilən kişi nəfəsi onu tərk eləyəndə yazıqlaşır, kimsəsizləşir. Onun sözlərindən birini seçdim.

–"Qərarlaşmağınıza" bu qədər əminsiniz? Hələ siz özünüzə "vida" deməzsiz, axı! Heyif görməmişəm, boy–buxunuz mənim üçün müəmmadır.

– Mən dolu normal bədənliyəm, sinəm genişdir, saçlarım uzun və sıxdır, baldırlarıma kişilər qibtə eləyir, ey cadugər! – Səsi nikbin çıxdı.

– Harada və necə oturmusuz. – Adətən, mən belə sarsıdıcı sualdan istifadə etməyi xoşlayıram. Amma baxır kimin ünvanına. Sözüm bu dəfə də yerinə düşmüşdü.

– Divanımız var, oturub televizora da burdan baxıram. İndi də, xüsusilə, ayrılandan sonra çətin odur mənimçün. Ev xalatındayam, yaxamı açmışam. Saçım

hələ tam qurumayıb. Baldırımı da... Boyy. – O, çaşqın halda sözünü tamamlamadı. Bağışla, – dedi.

– Əgər Sizin yanınızda olsa idim, Siz də bağışlayın, – dedim. – İcazənizlə qoy saçınızı öpüm, döşlərinizi əzişdirim. Hə, xalatınızı son düyməsinə qədər açın. Hə, açdınız? Əlimi özünüz aparın. Bax, beləcə. Siz əsirsiniz, nəfəsiniz tıxanır?  Qəsdən susdum, cavabını gözlədim. O isə əvvəlcə reaksiya vermədi, telefonda susdu.

– Başınızı sol qoluma qoyun, öpüm dodaqlarından. Of, necə qalındır, dodaqlarınız?

– Hə, hə nə bildiniz. – Sözümü təsdiq elədi.

– Xalatı yuxarı çəkin, qoy baldırınıza toxunum. Yox, qucağımda otur. Hə, beləcə, belimi qucaqla.

Səsim sözümə baxmadı, xırıldadı, özümü saxlamağı bacarmadım.

– İndi, sən də məni öp, oxşa. Döşümü sıx, möhkəmcə, necə qüvvətlisən, bilməzdim.

– Toxdayın, xahiş eləyirəm. Döşümü buraxın, sol döşümü. – Səsi yazıqlaşmışdı. – Qoy xalatımı çıxarım. İcazə ver, tam. – Səsi kəsildi bir neçə saniyə. – Çıxartdım, saçımı da aşağı tökmüşəm. Belə vəziyyəti xoşlayırsan, eləmi?

– Üzü o tərəfə otur, dizim üstə. Bax beləcə, əllərimi özün apar döşünə. Başını çevir, bir də dodaqlarını əmim. Necə şirəlidir, İlahi!

Bu anda hıçqırdı, səsini haqsız gülləlеdilər sanki. Sonra hıçqırdı.

– Bu nədi, niyə ağlayırsan, olmaya?

– Mənim bədənim əsir, istiliyim qalxıb. Mən. Mən axı. Yox, əlini çəkmə. Divana uzanım ki, rahatlanım sənin üçün.

– Yox, hələ tələsmə. Mən ki hazır deyiləm.

O, susdu, qadının içərisində gizlənmiş duyğu hissi hələm-hələm özünü təzələmir. Mən bir neçə saat əqdəm adi oxucu marağı ilə söhbətləşdiyim qadında daha çox gözlənilmədən qadınlığını reallaşdıran səsin sehriylə əlləşirdim. Çıxılmaz vəziyyət alınmışdı. Birdən ürəyimdən keçdi ki, nəyisə bəhanə edib son zənglə söhbətimizə yekun vurum. Elə bu an O, səsinin uzaqlığı ilə dilləndi:

– Özümü peşimançılığım üçün boğmaq istəyirəm. Bu nə səhvdir, nəyi, nəyimi itirmişəm? Özümü itirmişəm? Axı, Soyuq qadınam.

Onu qınamıram, hansı hissləri keçirmişdi, onu da yaşayırdı bu dəqiqələrində. Yataqda ”xəcalət çəkmiş” bir qadın hər şeyi qiyabı həmsöhbətinə danışırdı.

Hiss elədim təbii yaranmış qiyabi intimli ab–hava öləziyir, ola bilsin ki...

– Yaxşı. – Pıçıldadım. – Soyunmasınmı? – Risklə dedi, – Mənim üçün çətindir. Sənin üçün necədir? Bəlkə...

Onun hönkürtüsü məni dondurmuşdu.

– Ünvanınızı deyin, yalvarıram. Gözləyin. Eşidirsiz?

– Eşidirəm...

Mən olmuş əhvalatı “zəngin” təcrübəmlə bağlı danışmaq fikrindən uzaqdım, yenə haçansa “nadan” tənqidçilərə hədəf olaram. Lakin mən o qadınla görüşlərimdə, xüsusilə, telefon azarkeş olmasından çox mətləblərin müşahidəçisi oldum. O, tez isnişdi, oyandı. Lakin mən o qadınla görüşümü “seyf”də saxladım, bir şərtlə ki seyfin açarını haradasa unudum...

Soyuq qadın məfhumuna mütləq yanaşıb mütləq qiymət verməyi düzgün saymıram. Psixi, psixo – fizioloji çatışmazlıq varsa onun ünvanını gözləyən daş binalar, taybatay açılan pəncərələr, diplomlu həkimlər... vardır. Lakin Soyuq qadın ömrü ehtiraslı kişi həyatından keçir. Kişi bu prosesdə müdriklik atına minməli və bu atı sürətlə çapmalıdır. Kişi qadınla günahlarında bu günədək cəzadan yaxasını qurtarıbdır? Bəlkə də qurtarıblar. Aristotel realist fəlsəfi düşüncəsini romantikləşdirmək, buraya sirli qadın aləmini qatmaq istəyəndə də hissiyyata qapılmamış və yazmışdı: “Təbiətin yaratdığı yüksək sinfin məziyyətləri aşağıda duran sinfin məziyyətlərindən daha alicənabdır. Buna isə kişinin ləyaqəti qadının ləyaqətindən daha alicənabdır”.

Soyuq qadın özünü, ehtirasını necə tapmalıdır? Suala qayıtmaq istəməzdim, amma məsələyə bir neçə yönümdən yanaşmaq ehtiyacı duydum:

Birincisi: Soyuq qadınla "soyuq" kişinin qarşılıqlı bir-birini duymaları, başa düşmələri. Birinci tərəfin payına bəlkə də soyuqluq qismət olub, ancaq yuxarıdakı xatirə işığında bu heç də belə deyildir. Onlar hər şeydən əvvəl, yaşadığı illərdə boşluğu başa düşməli və müəyyən nikbin ovqatla barışmalıdılar. Soyuq qadın özünü "alışdırmağı" bacarmamışsa, partnyorun ustalığı və səriştəsiylə intizara son qoyacaqdır. Əlbəttə, həyatda ağırlığın dirəyi kişidir və hardasa onun "eksperiment" aparmaq imkanları məhdudlaşmır...

İkincisi: normal yaşayış tərzidir ki bəzən bu, soyuqluğu şərtləndirmir, yenə də birinci tərəf günahlandırılır. Əgər qadın məişət və peşə şəraitindən yorulursa, müəyyən sarsıntılar, ruhdandüşmə stress keçirirsə, şübhəsiz, onun İntim oyunda əli gətirmir, ya oyuna vaxtsız qoşulur, ya da vaxtından qabaq təslim olur. Qadın ona çalışmalıdır ki, həqiqətən, İntim oyunun rolunu öhdəsiniə götürübsə bütün qeyri –normallığı unutmalı, özünü tordan tullanmış və bilərəkdən balıqçı qırmağına düşmüş qızıl balıq yerinə qoymalıdır. Ovçu – balıqçı üçün ilk cəhddə hətta ən dəyərsiz balıq da həyəcan doğurur. Az keçmir, səhər alatoranında, quşların səhər nəğməsində dupduru suda qırmağa hansı balığın ilişməsi maraqlıdır.

Qızıl balıq sudan çıxarılır, onun ağzı polad dəmirdən qurtulur və nəhayət balıqçının ovu kimi atılıb – düşür. Bax, bu prosesdən fəal qüvvə balıqçıdır, balıq onun ovudur.

Üçüncüsü: fiziki – mənəvi sağlamlıqdır ki, soyuq qadının taleyini həll edir. Qadın özünə sirr qalan xəstəliyinin ağrısına tab gətirməli, qayğılarına "bükməli" və hər şeyi unutmağa çalışmalıdır. Ağrı bədəni sarır, bütün damarlarda qana vahimə gəlir və vəziyyətə "hesabat" verir. Ağrı ümumiyyətlə bütün qadınların yol yoldaşıdır və qaçılmazdır. Amma intim oyun prosesində mənən özünü kökləməli, ruhunu tarıma çəkməli, eşqinə yenidən qayıtmalı və müəllifin bilmədiyi daha neçə "metodiki" hazırlıqdan sonra öz mübhəm həyatını yaşamalıdır. Kişi əsla hiss etməməlidir partnyoru sızıldayır, ağrıyır və hansı tərəfin qələbəsi sual altında qalır.

Dördüncüsü: hörmət hissidir yalnız Şərqə məxsus əxlaqi kateqoriyadır. İlk günlərdən kişi anlayır ki, Soyuq qadınla ünsiyyətdədir və bu, o qədər də güzəştlik tələb etmir. O, qadının bütün şəhvət atributlarını duymalı və özünü orada "dəfn" etməlidir. Baxır bu prosesdə kişi və qadın paralelindəki cinsi yaxınlığın harmoniyasına. Müşahidələr göstərir ki, mühitin yaranmasında qadın qadınlıq borcunu yerinə yetirmədiyi vaxtı lazımınca qiymətləndirir və qatarın artıq vağzaldan son vaqonunu da çəkdiyini fit səsiylə acı-acı müşayiət

eləyir. Bu, hər halda ötüb – keçən qatardır, dəmir relsləri döyəcləyə-döyəcləyə keçmişdir. Soyuq qadın isə dəmir yola yox, kişi yoluna çıxmış və istəyir buradan ötüb keçsin stansiyaları. Soyuq qadın hələ də son vaqondan bayıra boylanır, onu atıb – tutan vaqonun "nənnisini" başa düşmək istəmir.

Soyuq qadın yırğalanır kupedə, unudur ki, Oyundaşı bunun bu "xidmətini" qatarın ayağına yazır.

Beşincisi: kişinin incəliyidir bu hissə qəbillər, ömürləri boyu "günahlarının" altından məharətlə çıxırlar. Soyuq qadının yataqda güvəndiyi yeganə həmfikri kişidir ki, onun nəvazişi, əzizləməsi... mübhəm örtüyü yırtar və hər şey yoluna düşər. Tərsliyə bax ki bu ünsiyyət ya şüurlu, ya da qeyri – iradi gözlənilmir və nəticədə soyuqluq oyundaşlara yalnız orqazmın baş tutması faktını ödəyir.

Biz o fikirdə də qətiyyət göstərmirik kişi ehtirasının Zirvə yolunda yataq şıltaqlığını mənimsəsin, özünün hazırlığını ona qurban versin. Xeyr: Kişi yüksək Cinsi ehtiyatının zərrəbinlə görünməyən belə incilərini üzə çıxarsın və Soyuq qadının temperamentini ödəsin. Soyuq qadın xaraktercə də zəifləyir, özünü kimsəsiz sayır, sanki hamının yanında aciz məxluqdur. Hətta o təsir yaranır ki, Kişi (əri) onun üçün lazımlıdır, onun nöqsanlarını görməyə çalışmasın. Halbuki, elə bu məsul anlarında o, sənin qüsurlarında özünü dolaşdırsın, sənin axmaqlığına şıltaqlıqdan uzaq bir şey "hiyləni

ağıl, sadəliyin müdrikliyi" kimi başa düşsün. Yox, kişini ağıllı və genişürəkli sayırsansa səninlə: "Yorğunsan, əzizim, özünü ələ al. Mən bu gün tez yatmaq istəyirəm", – deyə eyhamla danışırsa, özünü ələ al və ruhunu oyatmağa çalış. Qəti bildirmə özün-özünü lazımınca oyatmağı bacarmırsan. Ancaq bir incəlik var ki, Soyuq qadını kişilər rəhmdillik psixologiyası ilə qiymətləndiririrlər. Əlbəttə, baxır hansı prizmadan. Əgər kişi uzun illik ünsiyyətində qadında İntim oyunun mikromexanizmindən irəli gələn proseslərə diqqətlidirsə, yaxud bu onun üçün maraq doğurmursa rəhmdillik ön plana keçir və bu psixoloji yanaşma qadına sərf edir. Lakin qadın qadın kimi yaşamaq, zövq almaq... zəmanətiylə Oyuna daxil olursa rəhmdillik qiymətində utanır, bəlkə də özünü bu prizmada hiss etmək istəmir. Rəhmdillik Soyuq qadın üçün zərif bir örtüyü xatırladır və nə qədər ki özünü, özünün qadınlıq temperamentini büruzə vermək iqtidarından məhrumdur – şəfqətlidir və "ailə kişisini" bu, qane eləyir.

Soyuq qadın yeri gələndə rəhmdilli olmalı və bu keyfiyyət qadını müşayiət etməlidir. Fağırlıq, boynubüküklük hələ "Soyuq qadın" möhürünü təzələmir, çünki soyuqluq qadını havanın istisində titrədir, bir küncə aparır. Belə məqamlarda rəhmdillik və dedi–qodunu bacarmaq pis nəticə vermir, necə ki araşdırmalar məsələni duruldur.

"Fağırlıq" sərt, amansız adamın dil məhsuludur və aralarında canıyananlıq olmayan qadın – kişi məhsuludur.

Yanımcıllıq, yazığıgəlmə alçaltma deyil. Bu ürəkdən, mənəvi səxavətdən irəli gələn impulsdur. Əgər qadın yanımcıl olmağa, zəifin qolundan tutmağa qabil deyilsə onu qadın saymaq olarmı? Qadının qəlbində canıyananlıq, rəhmdillik ən gözlənilməz nüanslar doğurur, bu rəhmdillik çoxcəhətlidir, qadının şəfqəti bəzən başqası üçün izahedilməz olur, elə qadının özü üçün də bu hiss gözlənilməz şəkildə təzahür edir.

Kənardan başqasının ailəsinə nəzər yetir və sən qeyri – iradi olaraq nəticə çıxaracaqsan ki canıyananlıq, şəfqət və rəhmdilliyin hökm sürdüyü ailələrdə xeyirxah, mehriban, lakin heç də hər şeyi bağışlamayan uşaqlar normal psixika ilə böyüyürlər. Bütün canlı aləmin canına yanmaq qabiliyyətini saxlamaqla onlar sərt və amansız insanlar olmayacaqlar. Nə uşaq baxçası, nə məktəb, nə də İnstitut bunu öyrətmir. Yalnız ana, həm də yalnız ailədə öz körpəsinə rəhmdillik, şəfqət öyrədir.

Hansı qadın özünü dedi – qodu ləzzətindən kənarda tutur. Belə deyilsə, demək o, sadəcə qadın deyil. Lakin dedi – qodunu da bacarmaq gərəkdir.

Ağlı üstündə olan qadın həmişə dedi – qodu ilə məşğul olur, lakin onu dedi – qoduçu adlandırsan, heç kəs inanmayacaq. Nə üçün? Ona görə ki o, nə vaxt la-

zımdır o vaxt danışmağı bacarır. Ona etibar edirlər, o isə əvvəlcə bu sirri bərk-bərk qoruyur o vaxtadək, ona ürəyini açmış rəfiqəsi özü öz sirrini açıqlasın. Ona görə öz sirrini açıb danışacaq ki – özü qadındır. Sirrin etibar edilmiş olduğu ağıllı qadın bu vəziyyətdə özünü necə aparacaq. Əgər bu "sirri" artıq ona başqaları açıb danışırsa o, yalnız dinləyir və onun söhbətdə iştirakı bununla ifadə olunur ki, bəzən söz tullayır, həmsöhbətinin sözünü yarımçıq kəsmir, guya bu söhbətdə heç iştirak da eləmir, həmçinin diqqətlə dinləməkdədir. Özü heç vaxt başqasının sirrini yaymaqla məşğul olmur, amma söhbətin sonunda o özünü münsiflər məhkəməsi kimi aparır: əvvəlcə baş vermiş hadisəni (sirri) təhlil edir, sonra bunun baş verməsindən ötrü nə cür hərəkət etməli olduğu barədə nəticələr çıxarır. Bu, baş vermişkən indi özünü necə aparmalıdır, Bu, təkrar olunmamaqdan ötrü hansı tədbirləri görməlidir. Söhbətin lap sonunda o, bu işin başına gəlmiş olduğu adam haqqında yalnız yaxşı danışır, ona görə də son sözləri həmsöhbətinin yaddaşında özünə daha möhkəm yer edəcəkdir və bu ağlı üstündə olan qadının hörmətinə xələl gəlməyəcəkdir.

Belə qadın çox ədalətli: həm cəzalandırmağı, həm də əfv etməyi bacaran hesab olunacaq. "Müdhiş" sirləri ona etibar edəcək, şəxsi dərdlərini ona açacaq, öz həyatlarında yalnız ona təsvir edəcək.

Bir də ki danışmaq arzusunu dedi – qodu adlandırmaq olarmı, axı, heç nə uydurulmur, sadəcə kiminsə həyatında baş vermiş hadisə müzakirə edilir, lakin bu müzakirə nəzakətlə aparılır.

Daha bir neçə kəlmə. Əgər könlünüzə dedi – qodu ilə məşğul olmaq düşübsə, onda bir-birilə tanış olan adamlar haqqında "dedi – qodu" etmək lazım deyil. Bunun üçün yaxşı olar birdəfəlik və həmişəlik bir nəfəri seçəsiniz. Əriniz daha münasibdir. Bu ideal variantdır, lakin dedi – qodu edərkən özünüzü gözəl aparmağınız lazımdır, müzakirə obyekti seçdiyiniz adamın haqqında vaxtında yaxşı danışın və ədalətli fikir söyləyin.

Soyuq qadın əsasən bütün qadınların payına düşmür, anadangəlmə xəstəliklərə düçar olanlar istisna şərtiylə. Bu isə onun özünə bəllidirsə: "Qadın yalnız özü ədalətsiz olduğu zaman bağışlayır". Necə ki, bir az əvvəl əhvalatı ötərincə danışdım ayırıb – filan eləmədən. Hətta o, çox sonralar da öz təşəkkürünü bildirməkdən çəkinmədi, nə qədər zəngin qadın olduğuna inanandan sonra da ciddi oyanış yarandı.

Kişi məsuliyyəti məhz yataqdan başlayır. Bircə O hökmə tabeçiliyinə dəyər ki, azadlığından hələ yeniyetmə yaşlarından uzaqlaşmaq həvəsinə düşür və hansı "həbsxanaya" düşəcəyini də yaxşı bilir. Kişi də bunu incə şəkildə duyur və dədə boyu verməklə daxilən hey gülür. Məşhur modelyer Pyer Kerden yamanca hiss et-

mişdir: "Ərə getmə qadın üçün ən yaxşı həbsxanadır. Bu, gözəl boyunduruğa girməkdir". Yəqin ki "gözəl boyunduruğu" da incə məxluqları ruhdan salmamaq naminə işlətmişdir. Kişi evləndikdən qabaq soyuqluğu nə duya, nə də kəşf edəmməz. Qızlar bəlkə də bu çatışmazlıqdan xəbərsizdirlər. Lakin ərli vaxtı soyuqluq süni yolla, təcrübəsizlik nəticəsində baş verirsə kişilər xeyli iş görməlidir – bir məsum qadını itirməmək naminə. Əlbəttə, qeyri – hüquqi yolla qadın – kişi münasibətlərində bu, asan başa gəlir: hər iki tərəf sərbəst hərəkətlərlə, zövqün qulu olmaqla soyuqluğu aradan qaldırmağı bacarırlar. Soyuq qadın təbiidir ki, özünütərbiyə ilə məşğul olmalı, hər şeyi kişinin öhdəsinə buraxmamalıdır. Lakin kişi də bütün incəliyi, məlahətliyi, xoşqılıqlığı və sairi İntim həyatın psixologiyasına qurban verməməlidir. Ehtiras, temperament naminə ağuşunda öz soyuqluğuna bələnmiş bir mələyin taleyinə balta çalmamılıdır. Barı, qadının qəlbinə, ürəyinə daxil olmalı, onun böyüklüyünə, ürək genişliyinə sədaqətini gizlətməməlidir.



## Ehtirasların məstanəliyi qədər kədərli

*Qadın ehtiraslarını alovlandırmaqdan çəkin, yoxsa yanğını həyatın boyu söndürməli olacaqsan.*
*Müəllif*

Ehtirasın insan bədənində yaranışından imtina olunmamışdır, çün bu "qəzəbli" və "dağıdıcı" qonaq ruhun gücüylə bağlı fenomendir, fiziki – mənəvi fəaliyyətin sağlam təzahürüdür. Ehtiras müəyyən məkanda müəyyən məqamlarda özünü büruzə vermirsə, demək, sağlam orqanizmə şübhə yaradır. Ehtiras bu baxımdan həm kişidə, həm də qadında inkişaf edir, uzunömürlüyə zəmanət verir, üç hissi: iztirabı, məhəbbəti və nifrəti şərtləndirir. Bu "üç"lüyün qolu – qanadı həzzdir, nəşədir, ovqatdır. Bir sual doğulur: Ehtiras(lar) bir fərddə bu qədər məstanəlik yaradırsa o idarə olunurmu? Tarix boyu insan bu sualın cavabını axtarmışdır və ikili cavabı ilə razılaşmışdır: idarə edilir və bunun əksi yaranır.

**Birinci vəziyyətdə** fərd (insan) özünü xoşbəxt sanır, aldığı həzzin (ləzzətin) baharını yaşayır.

**İkinci vəziyyətdə** ləzzətin (həzzin) payızına çatır, "olmuşa", "baş vermişə" əlvida deyir! Hər iki halda insanın düşüncəsi: çıxartdığı qərarı əsas amilə çevrilir və müsbətlə, yaxud mənfi ilə nəticələnir. Yetərli idrak

(dərketmə), ağıllı mühakimə məntiq belə məqamlarda vacib hakim hesab olunur. Bu hakim – ədalət qüvvəsi iki yola işarə vurur: ya cənnətin qapısını açmalısan, mələklər səltənətinə varid olmalısan, ya da cəhənnəmin qara daş – divarlarına sığınmalısan, iblislərlə dostluğa qoşulmalısan. Birinci səadət gətirir, ikinci bədbəxtlik. Hərçənd, ehtiras qabaqcadan "dilə" gəlir və öz rolunu pıçıldayır: "Sonra anlayacaqsan, hər şeyi başa düşəcəksən, amma gec olacaqdır. Dünyanın ən böyük fatehləri, şahları, prezidentləri ehtirasının qurbanına çevrilməmişlərmi?! Onlar yaşamalarını, həyatın mənalarını ehtiraslarında görməmişlərmi?! Qüdrətli hakimlər səadəti, xoşbəxtliyi xeyirxah əməllərində görməkdən vaz keçməmişlərmi?! Onlarda çatışmayan nə idi: oturuşmuş ağılın (zəkanın) məhdudluğu, şərin yerini düzgün gəstərməmək idi".

Antik filosofların müdrik fikirlərini oxumamaq idi! Yalnız klassik hikəmtçilərmi – xeyr! Orta əsr pedaqoqlarının, deyək ki: Russonun, Montenin, Didronun, Con Lokkun, Spinozanın, Kantın, Lessinqin... əsərlərinin üstündən vaz keçmələri. Qoca filosof Dekart deməmişmi: "Xoşbəxtliyə (səadətə) yol ağıldan, fikirdən və düşüncədən keçir! Bu nemətlərdən (dəyərlərdən) məhrumlar, hisslərini qadında axtaranlar və bu gözəlliyin aludəçiləri ehtiraslarının quluna çevrilirlər, azadlıqlarını itirirlər!" Azadlığın idrakı insan ruhuna sakitlik gətirir, sevinc mənbəyini qidalandırır.

Ehtirasın mənfi qütbü insana heç vaxt sərvət, hakimiyyət və şöhrət bəxş etməmişdir. Heyif ki, tarixən də, bu gün də elə insanlar olmuş və mövcuddurlar – sərvət isə şöhrəti ideal saymış, ehtiraslarını bu “iki” amilə bağlamışlar.

Ruhun çılğınlığı, bədənin (canın) ehtizasa gəlməsi bir-birini tamamlayır, biri digərini, yəni ehtirası inkar etmir. Ehtiras temperamentdən asılıdır, bu isə kişi ilə qadının (oyundaşların) tipi kimi səciyyələnir, bu o deməkdir ki, onlar arasında psixoloji uyuşma yaranır. Ehtiras temperamentlə bağlıdır, hər iki cinsin bir-birinə olan tələbatı ehtirasların oyanmasını əmələ gətirir. Kişinin, yaxud qadının şəhvani istəyi (tələbatı) – bunu əxlaqa aid ediriksə – tərbiyənin məhsuludur, davranışın stixiyasıdır. Temperament isə insanın – fərdin sinir sisteminin müəyyən xüsusiyyətləri onun davranışında (rəftarında) ehtirasın əlamətləri kimi özünü büruzə verir. Bu gedişidə emosiyallıq fəaliyyəti aktivləşdirir.

İfrata varmayan ehtirasların təbiətində (sosial baxımdan yox), yəni qadınla kişinin intim yaxınlığında həzzalma, ləzzətduyma fenomeni dayanır, bu da bir nemətdir, hər iki cinsin sağlamlığına, əhval – ruhiyyəsinin normallığına yardımçı olur. Ehtiraslar intim oyunun mahiyyətinin bir atributudur, qadın və kişiyə sevinc bəxş edəndə nemətə çevrilir, fayda gətirir. Lakin ehtiraslar insana (fərdə) məxsus həyat – məişət qaydalarını pozanda xoşbəxtliyə ziyan vurur. İnsan nə qədər

sağlam və güclü olsa da o, müəyyən miqdarda qıcıqları qavramaq imkanına malikdir, əks təqdirdə insan orqanizmi öz ritmini itirir, bir növ pozulur cinsi fəaliyyətində.

Ehtirasların düzgün tənzim olunması xoşbəxtliyin açarıdır, – desək yanılmarıq, ona görə ki, bu hiss olaraq insanın xasiyyətindən (xarakterindən) asılıdır, onun, xüsusilə, kişi və qadının mahiyyətinin təzahürüdür. Məşhur fransız filosofu və psixoloqu Holbax ehtiraslardan danışarkən yazmışdır ki, insan ürəyinin bütün hərəkətlərinin məqsədi özünümühafizə və xoşbəxtlikdir, lakin bunların – zəka ilə (ağılla) idarə olunması ön plana keçməlidir: "Bütün insan ehtirasları təbii olsa da, insan öz ehtiraslarında ağlın rəhbərliyinə istinad etməlidir. Ağlın rəhbərlyi olmadan özünüməhəbbət, şəxsi mənafe, xoşbəxtliyə cəhd hər vaxt kortəbii meyillər olub, nəticədə özümüzə və başqalarına zərər vurur. Haçan ki özünüməhəbbət ağıllıdır – onda bu, fəzilətlə nəticələnir"...

Filosofa görə, özünəməhəbbət pozulmuş, xəyala, təsəvvürə istinad edir – insan ehtirasların predmetinə çevrilir, bir sözlə, özünəməhəbbət rəzalətlə nəticələnir. Ehtiraslar şəhvət hissindən ifrat dərəcədə qidalananda "cüt"lər sosial və mənəvi mənafeyini itirir, yaşamağın estetikasını bu mötivlərdə görür. Unutmayaq ki, mənafe insan davranışının yeganə motivi hesab olunur. Məgər insan kişi və qadın varlığı nümunəsində

özünü sevmək, özünü qorumaq, fikrini paylaşmaq instiktindən məhrumdur? Biz demək istəmirik insan ehtiraslardan qaçsın, uzaqlaşsın – əgər o bioloji – fizioloji sağlamlığı daşıyırsa intim mühitə biganə qalmamalıdır, qadın (eləcə də kişi) gözəlliyindən, kişi iqtidarından zövq almalıdır. Bu prosesin özü insanın özünümühafizə etməsidir, həzz almasıdır. Sağlam ehtirası xoşbəxtliklə bağlamaq daha ədalətli səslənir, çünki onun fəlsəfəsində – əxlaqında fəzilət dayanır. Fəzilət anlamı o deməkdir insan öz vəzifəsini ifadə edir, onu bəd əməllərdən kənarlaşdırır və cəmiyyətin faydasına yönəldir. Ehtiraslar yatağa çıxanda "cüt"lər sanki indicə doğulmuşlar, bayırda lopa-lopa qar yağırsa onu yasəmən ağacının budaqlarından qopan çiçəklər gözündə görürlər. Yataq mavi sularda yellənən qayıqdır – onları atıb – tutur. Sahilə can atmırlar. Qadına elə görünür: stulun başından tələsik asdığı məmədanı yorulmuş quşdur, gecədən unudulmuş bu canlının qanadlarıdır yellənir...

Ehtirasın gəlişinə və gedişinə bu əhvaldan baxmaq – yanaşmaq gərəkdir.

Yenə təkrar edirik: ehtiraslar idrakla, ağılla, zəka ilə tənzimlənəndə qüdrətli hərəkətverici qüvvə kəsb edir: "Ağıl insana ehtirasları məhv etmək üçün verilməmişdir, ağıl ehtirasların müstəbidi deyil, məsləhətçisidir", – deyən filosof – pedaqoq Helvetsi haqlıdır. Alman filosofu Nitşe aqressiv mövqedə dayanan olsa

da, ehtirasların roluna düzgün yanaşmış, “Zərdüşt belə demişdir” əsərində üç “şər”dən: ehtirası, hakimiyyət hərisliyi və öz mənafeyini güdməyi fərqləndirmişdir, güclü şəxsiyyətin yaradılmasında bu “üçlüyü” xüsusi qiymətləndirmişdir. Ehtiras haqqında yazmışdır ki, ehtiras indini gələcəklə əlaqələndirir, insanın zəifləməsinin və həyat eşqinin azalmasının qarşısını alır.

Ehtirasların dolayısı ilə olsa (bu anlam son dərəcə geniş və dərin məfhumdur) da faydasını qeyd etdik, bir şərtlə ki, insan yolundan sapmasın (o, axı, ehtirasın mənbəyi və daşıyıcısıdır), düzgün idarə olunsun, əks təqdirdə o (ehtiras), iblisin rolunu məharətlə oynayır, şeytanla bağlılığa – əlaqəyə girir. Maraqlı odur ki, ehtiraslarının subyektini və məkanını dəyişik salan kişi və qadının faciəsi başlayır. Tarixin səhifələrini vərəqləsək görərik ki, dünya şöhrətli şəxsiyyətlər ehtiraslarını o qədər ifratla xərcləmişlər – məstanlikdən qoparmışlar, divanəliyə bağlamışlar. F.Dostoyevski, L.Tolstoy, V.Hüqo və b. həyat tərzini – etiraflarını romanlarında, memuarlarında, məktublarında qələmə almışlar. Məsələn, dahi yazıçı Lev Tolstoy “İblis” romanında sanki öz “keçmiş” obrazını təsvir etmişdir. Ədəbiyyatşünas Fərid Hüseynin təqdimatına əsaslanıb məsələyə toxunuruq: “İblis”də oxucu iki sonluqla tanış olur. Birincidə: “Evli qəhrəman onu yoldan çıxaran, fikrini vaxt – bi vaxt məşğul edən qadından əl çəkə bilmir və nəhayət anlayır ki, daha o, ixtiyar sahibi deyil, öz-özünü idarə edə bilmir – iblisin ixtiyarındadır”...

İnsan daima aliliyə can atır, o nöqtəyə çatmaq istəyir, saflığını itirən insan özündən daha güclüyə – iblisə nifrət bəsləyir. "Dərk etmək insanı səcdə etdiyi İblisə heyran olmağa qoymur. Əks mövqedə, yəni İblis də insana özündən güclü baxır deyə nifrət edir".

İnsan iblisdən uzaqlaşanda belə, onun əsiri, köləsi olduğunu unuda bilmir, əlac "tövbəyə" qalır – həmin iblisli günlərlə əlaqəsini qırır, ona – insana elə gəlir o, yenidən dünyaya göz açmışdır, İblisin şeytan xislətindən canını qurtarmışdır.

İkincidə: qəhrəman vaxtını yola verdiyi qadını öldürür və həbs olunur, qayıdanda o, artıq əyyaş idi, bu isə o deməkdir ki, insanlığını itirməkdədir, münasibətlər qurmağı bacarmır. Belə bir iddiaya gəlmək səhv olardı ki, "birinci" sonluqda "günahkar Tolstoydur", "ikinci" sonluqda "dindar Tolstoydur". Lev Tolstoyun xüsusən, cavanlıq dövrü sakitlikdən, ifrat ehtirasdan uzaq olmamışdır, məxsusi şəhvət aləminin içində dolaşmışdır. Yasnaya Polyana malikanəsinə atla gələndə, altı – səkkiz yaşlı uşaqlar onun qarşısını kəsirdilər ki, müdrik kişi onlara şirin konfet verib sevindirəcəkdir. Bu Yasnaya polyanalı oğlan uşaqlarının gözləri xırdaca, yanaqları qırmızımtıl, burunları əyriydi – eynən Tolstoysayağı!

Bu günahı yaradan ədibin ehtiraslarının məcrasından aşması idi. Belə ki, bu məkanda Lev Tolstoyun Aksinya Bazingina, Domnaya adlı xanımları vardı.

(Görəsən böyük yazıçı Mixail Şoloxovun “Sakit Don” romanındakı ehtiraslı Aksinya Lev Tolstoyun Aksinyasının qan nəslindəndir?)

Lev Tolstoy maraqlı insan idi və mücərrəd məşğuliyyət aləmində yaşayırdı, razı idi bu özəl həyatından. Yazıçının bu baxımdan həyatı saf ehtiraslar üzərində qurulmuşdu, “sadəcə bu həyat yox idi, o yalnız ovda və yeni fikirlər, gələcək yazının müzakirəsi üçün zəruri olan tənha gəzintilərdə özünü göstərirdi”, – yazan arvadı haqlıydı. Bir xasiyyətində israrlı idi ki, gəzintiyə tək getməyi xoşlayırdı. Təklik yazıçı psixologiyası üçün səciyyəvi haldır, ədib yazmışdır ki, adam tək gəzəndə hər çiynində bir mələk oturur. İkilikdə gəzəndə bir mələk oturur, üçlükdə gəzəndə iblis oturur. Görəsən bu İblis Tolstoyun qadınlara olan ifrat ehtiraslarından doğulmuşmu?!

Söhbət filosoflardan, psixoloqlardan, pedaqoqlardan getmir, hərçənd, biz onlara istinad etməkdən çəkinmədik. Bu siyahıya yazıçıları da daxil etdik, onlar bədii əsərlərində istər qadın, istərsə kişi olsun – ehtiraslarını nümayiş etdirmişlər. Əlbəttə, biz ədiblərdən ehtiras fenomeni haqqında elmi informasiya almağa haqq vermirik, onlar ehtiraslı surətlər yaratmışlar, bəziləri isə ehtiraslı olmuşlar. Mopassan, Flober, Aleksandr Düma (ata), Dostoyevski, Balzak bu siyahıda öndə gedirlər. Yaxşı ki, hisslərini gizlətməmişlər və özlərindən soruşmuşlar: – Ehtiraslar nə imiş ki?! İnsa-

nı cinsindən asılı olmadan hara aparmaq qabiliyyətinə malikmiş?! Yaşından və nüfuzundan, vəzifəsindən və sənətindən, ərindən və Oyundaşından çəkinmədən ehtiraslarının kənizinə çevrilmişlər?! Ehtiraslar bu imiş?! Ehtirasların bəxş etdiyi həzz, ləzzət, şənlənmənin doğurduğu məstanəliyin sonu bu qədər kədərli imiş?!

Vaxtilə, hətta eramızdan qabaq yaşamış kişi alimlər də şəhvət mühitinin sehrinə biganə qalmamışlar. Müdrik Qalenin yumorlu qənaətini xatırladım: "İntim yaxınlıqdan sonra yalnız iki cins sevinirlər: qadınlar və xoruzlar!"

Görünür, ona görədir xoruzlar çəpərin başına hoppanıb oradan toyuqlara baxıb banlayırlar, səsləri lirik notla yayılır.

Oxucularla bölüşdüyüm fikirlərim davamlı olardı, lakin yaşadığım hissi həqiqətlər yenə də zəmanət vermir nöqtəni yazım. Ona görə ki, insan yaşamaq qüdrətini itirməmişsə Ehtiraslar neçə-neçə suallara cavablar axtaracaqdır. Müəllif də belə bir suala: – Etiraflar, Ehtiraslar, nə imiş ilahi? Bu hissiyyatın acısını yaşamağa dəyərmi?



## Ehtiraslar... nə imiş?!

Ehtiras psixoloji – fizioloji anlayışdırmı, yoxsa sosial  ictimai proseslərə qarşı dayanan bir anlamdır? Birinci yanaşma şübhəsizdir və insanın bütün hissləri onun mənəvi enerjisinin məhsuludu. İkinciyə gəldikdə, qəribə də olsa insanın fəzilət uğrunda mübarizəsinin qənimidir. Başqa sözlə, xoşbəxtlik, səadət insan təbiətinin mahiyyətindədir və daima buna can atır. Hətta arzu və istəklərin ödənilməsində ehtirasın da yeri saxlanılır.

Vaxtilə məhrum filosofumuz professor Z.Göyüşov belə bir fikir söyləmişdir ki, səadət, həyatın məqsədi təbii istək, arzu və ehtirasları ən dolğun surətdə yerinə yetirməkdən ibarətdir. Hərçənd, ehtiras insanın mənəviyyatını hakimiyyətinə alanda o, mənfi emosiyaya çevirlir. Bunun qarşısı alınmaq məqamı gələndə və ehtiraslar üzərində qələbə çalınanda xoşbəxtlik növbə gözləmir. Əlbəttə o şərtlə ki, insan həzz, nəşə almaqdan ötrü Aristotelə görə ən alçaq hiss ehtiraslardan qorunmalıdır, bunun vasitəsisə ağıl – zəka – idrakdır. İnsan rütbəsi və maddi təminatından asılı olmayaraq mənfi ehtiraslarını yaxına buraxmamalı və üç şərtə əməl etməlidir. Yaddaşlarınızın təzələnməsi üçün bu “üçü” xatırladıram. İnsan: 1)tam inkişaf etməli, kamilləşməlidir, 2)sağlamlığa, firavanlığa və digər nemətlər bolluğuna malik olmalıdır, 3)dövlət işlərində iştirakını təmin etməlidir.

Məsələnin mahiyyətinə sosial – iqtisadi və siyasi aspektlərinə varanda ehtirasların bu gün daha yüksək dərəcədə mənfi səciyyə daşıdığını görürük və Aristotel konsepsiyasına biganə qalırıq.

İnsan xoşbəxtlikdən usanmamalıdır, ona görə ki, bu azadlığa yol açır. Epikürün belə bir yanaşmasında da ehtiras mənfi qarşılanır. Lakin böyük etik Ziyəddin Göyüşovun yanaşması maraq doğurur və yazır ki, lakin bu azadlıq (xoşbəxtlik – E.A.) ehtirasdan və həzzdən yaranan azadlıq deyil, ehtiras və həzzin azadlığıdır, qoy sənin ağlın yaxşı ehtirasları pislərdən düzgün ayırd edə bilsin, yaxşı toxumu pisindən ayırmağı bacarsın.

Ehtirasa bu yanaşma fransız filosofu Rene Dekartda inandırıcı qoyulmuşdur. Və insan varlığının əsası kimi götürülmüşdür. “İnsanın bütün fiziki və mənəvi həyatının, o cümlədən, səadətin əsasını ehtiras təşkil edir. Ehtiras ruhun vəziyyəti və hərəkətidir. Ehtiras xarici mühit hadisələrinin və daxili orqanlarının təsiri altında yaranır”.

Ehtiras sonralar – insanın fərdlərlə və mühitlə təmasında yaranmır, yəni sonralar qazanılmır. Bu hiss insan doğulandan mövcuddur və tədricən vaxt kəsiyində diferensiallaşır. Maraqlıdır ki, ehtiras elə bir libidoya – enerjiyə sahibdir, insan bununla öz həyatını qoruya bilir və daha da inkişaf etməsi üçün ondan bir vasitə kimi bəhrələnir. Aparıcı qüvvəyə malik ehtiras ifrat

qüvvəyə, dağıdıcı effektə çatmadıqda səadətin təminatçısı olur. Əks halda, ehtiras həzz və iztirabdan, məhəbbət və nifrətdən doğur. İnsan vücudunu bir an rahat buraxmır, didib – parçalayır. Yerdə qalan ehtiraslar ramedilləndir, ipə – sapa yatandır, hətta işin yüksək və tez icrasında yetərlidir. Xüsusilə, yaradıcılıqda, sənətkarın daxilində normal, məkrsiz ehtiras yarananda yaratma alınır və deмək olar ki, əziyyətsiz başa gəlir...

Mən xeyli günlərdi məhz bu mövzuda yazmağı qərara almışdım, ədəbiyyatları vərəqləyirdim, qeydlərimi aparırdım, lakin oturub yazmaq həvəsim çatışmırdı. Bilirdim ki, bu həvəs ehtiras hissinə çevrilməzsə... Nəhayət, istəyimi yetişdirməyi bacardım. Bəli, R.Dekart insanın mənəvi dünyasında ehtirası yüksək qiymətləndirməklə həm də göstərmişdir ki, insanın yalnız öz ehtiraslarını idarə etməyi bacardıqda azaddır, əks təqdirdə o, quldur, kölədir.

Beləliklə, ehtirasın çılğınlığına, ifrata varmağına şərait yaratmaqda yeganə yolu ağlın – zəkanın – idrakın xidmətindən istifadə etməkdir. Belə çıxır ki, ehtiras maddidir, ona görə də qəddarlıq xəsislik və sair mənəvi xəstəliklər də maddidir? Məşhur Roma filosofu Seneka qeyd edir ki, ehtiraslar üzün ifadəsini dəyişir, alnı qırışlanmağa, üzü gülümsəməyə, qızarmağa məcbur edir, bədəndəki bu cür dəyişikliklər materiya ilə bağlı deyil? Əgər ehtiraslar maddidirsə, onda xəsislik, qəddarlıq kimi mənəvi xəstəliklər də maddidir. Se-

nekanın yaxınlaşmasına diqqət kəsilsək, Dekartın "qul"a, "kölə"yə qiymət verməsi azca şübhə altına düşür. Senekada: Kim zənn edirsə köləlik insanın bütün cəhətlərinə şamildir, o, səhv edir. İnsanın yalnız cismani varlığı tabedir, öz ağasının quludur. Ruh isə özözünün ağasıdır, yalnız bədənin taleyi ağasının əlindədir, istəsə onu alır, istəsə satır. İnsanın daxilini alver vasitəsinə çevirə bilməz.

Elə isə ağıl – zəka – idrak da maddidir və insanın mənfi hisslərinin qarşısını almağa qadirdir. Dekart üçün mükəmməl zəka – ağıl insan ehtiraslarının hakimidir: bu mənfi müdriklik həyatda ən yüksək nemət, ağıl isə əxlaqın meyarıdır. Təbiidir ki, insan səadətinə, xoşbəxtliyinə səylidirsə bu, ilk növbədə hiss və ehtiraslarında təzahürünü tapır. Spinoza bu prizmadan hiss və ehtirasları pisləməyin əleyhinə çıxır və bu cəhdi insanın səadət və meylinə qarşı çıxmaq kimi dəyərləndirir, amma bunlar ağılla – zəka ilə idarə olunmalıdır. Ehtirasın fəsadı və fəziləti əxlaqda təzahür edir, əxlaqın əsasında dayanır: deməli səadətin, xoşbəxtliyin də mahiyyətində ağıl dayanır. Spinoza yazır ki, hiss və ehtiraslarımız bizə ancaq o zaman həqiqi xoşbəxtlik gətirər ki, bunlar ağılla, zəka ilə idarə olunsun. İnsan təbiəti elədir dünyanı və özünü dərk etməyə cəh göstərir və buna naildirsə özünü bir o qədər azad hesab edir. Ona görə ki, ehtiraslarının kölgəsinə çevrilmir. Mənfi ehtiraslarını lazımi dərəcədə nəzarətdə saxla-

mağı bacarır. Dünyanın, xüsusilə, ziddiyətlərini başa düşür və öz mövqeyini bildirirsə – onun ruhu sakitləşir. Antik filosof Empedokl bir şeirində demişdir:

***Yalnız ruh mövcuddur...***
***müqəddəs əzəl.***
***Gəzir fikir kimi o, kainatı...***

İnsanın əxlaqi fəaliyyəti: hərəkəti, davranışı tələbatının o cümlədən, arzu və ehtiraslarının ödənilməsində apardığı mübarizədir. Əgər buna naildirsə, deməli, o, nemət qazanmışdır. Hegel nemətin qazanılmasına ayrıca qiymət verərək yazır ki, nemətə yiyələnməkdə, arzu və tələbatın ödənilməsini nəzərə almadan xoşbəxtlikdən danışmaq mənasız bir şeydir. Biz bu atributlar sırasında ehtirası fərqləndirməliyik. Deyək ki, arzu və istək bir-birinə yaxın və bir-birini tamamlayan anlayışlardır. Şübhəsiz, hər ikisinin məna tutumundan çox şey asılıdır. İnsan – fərd daha böyük, əlçatmaz şeylərə nail olmağı ürəyindən keçirə bilər, amma bu, mümkünsüdür. Yaxud, nisbətən əldə etməyə səy işləri arzular. Bunların reallaşmasında həm sosial, həm də psixoloji amillər əsas şərtlərdən sayılır. Ola bilsin birinci imkan xaricindədir. Yuxarıda Aristotelə istinadən üç şərtdən biri də insanın dövlət işlərində iştirakının vacibliyidir. Bu isə elə asan arzu da deyil. Əlbəttə, qarşıya məqsəd qoymaq və buna cəhd etmək qadağası

yoxdur. Lakin 99 faiz bu, qeyri – mümkündür. Hətta bu “bir faiz” üçün hər cür mənfi emosiyalara əl atmaq, ehtirasları işə salmaq – boş stimuldur və əxlaqi borcu tapdalamaqdır! Ehtiras içəridən insanı bütün mənəvi dəyərlərdən məhrum edir, onda konkret bir nemətə – səadətə, xoşbəxtliyə çatmaq imkanlarına qarşı sərvət, şəhvət, nəfs və s. hisslərini çıxarır. Tam əxlaqsızlıq kompleksi yaradır. Belə hallarda J.J.Russoya görə ehtiraslardan tamamilə imtina etmək lazım gəlmir. Böyük pedaqoq yüksək əxlaq naminə ehtirasların ram olunmasını məqsədəuyğun sayır: ehtiraslarımız bizim özümüzümühafizəmzin əsas alətidir, – deyir. Görünür, J.J.Russo bir pedaqoq xarakteriylə ehtirasların insan hərəkətlərində roluna ehtiyatsızlıqla, ümidsizliklə qiymət vermir və hətta təbiətin ecazkarlığına necə baxırsa eləcə də ehtirasların gücünə inanır və fikrini davam etdirərək: hiss və ehtiraslara nəzarət etmək, təbiətə nəzarət demək olardı, bu isə qeyri – mümkündür, – yazır. J.J.Russo “ehtiras” məfhumuna radikal mövqeyindən yanaşmaqla öz konsepsiyasını müdafiə edir və ümumən insan xislətində eqoizm, təkəbbürlük kimi pis əlamətləri görmək istəmir və ruhla vicdanın səsi arasında eyniyyət görməklə: ruhun səsilə ehtiraslar arasında antoqonizm yoxdur, ehtiraslar bizim temperamentimizdən asılıdır. Temperamenti isə dəyişdirmək olmaz, çünki əks halda bütün daxili təşkilimizi dəyişdirmək lazım gələrdi, – deyir.

J.J.Russo çox yerində olan risklə ehtirası insanın özünə məhəbətində görür və bu sonuncunu da ilkinlikdə, anadangəlmədə axtarır. Ona görə ki, bu hiss insanın təbii tələbatı ilə əlaqədardır. Və bu məsələdə digər filosoflar kimi, tələbatla xoşbəxtlik, səadət arasında bilavasitə bağlılığı təsdiqləyir. Əlbəttə, bu “bağlılıq” doğru yön almamalıdr, amma insanın bir xisləti də odur ki, ictimai durumu, mədəni səviyyəsi inkişaf etdikcə tələbatları mütləqləşir, çoxalır, genişlənir, ciddiləşir və ehtirasa çevrilir. Belə vəziyyətdə ehtiras sosial sferanın “tapşırıqlarını” yerinə yetirməyə yönəldilir və o fərd bütün insani keyfiyyətlərindən uzaqlaşır. Artıq o fərdin gözü önünə həzzalma, nəşələnmə, sərvət toplama, şəhanə həyat və ilaxır. Hansı ki, bunlar bu gün bəzi təbəqələr üçün adiləşmişdir – zərurətə çevrilir. Hətta belə fərd iztirab, əzab çəkmək hisslərini yaşamaq istəmir, qonşusunun məişət problemlərini belə görmək istəmir, küçədə yaşamaq uğrunda mübarizə aparan qaşışqa milçək nəzərində qiymətləndirir. Bu isə J.J.Russonun dövrü üçün (XVIII əsr) kəskin dediyi bir fikri yada salır: “Bunun arxasınca həzz, onun arxasınca isə böyük sərvət uğrunda mübarizə başlayır, təbəqələr, sonra qullar yaranır, onda bir dəqiqə də dayanıb dincəlməyə, sərbəst nəfəs almağa vaxt qalmır, süni tələbatlar insanı məhv edir”.

Ehtirasların çılğınlığı, cəmiyyətin dərinliyinə kök atması istər-istəməz “kütlə” məfhumuna əlyeri qoyur:

bəli, kütlə yaranır. Alman filosofu Y.Karl belə bir məqamı tutmuşdur: "Kütlə təbliğat və təlqin predmeti olub fərdiyyətdən məhrumdur, varlığın aşağı pilləsindədir. Nə zaman ki, adamlar dəyişir, hökmə tabe olur, öz aləmindən məhrum olur, onda kütlə də əmələ gəlir".

Tələbatdan doğan ehtiras daha bir yeni tələbat doğurur və bu da kimisə, kimlərisə asılı edir özündən. Marks vaxtilə yazırdı: "Xüsusi mülkiyyətin çərçivəsi daxilində hər bir adam o biri adamda yeni tələbat oyatmağa çalışır ki, onu yeni bir asılı vəziyyətə salsın".

Ehtiraslar fərdin (beləsinə "insan" deməyə adamın dili gəlmir) həzzalmasına, nəşələnməsinə cavab verdikdə fəsad doğurur, çünki həzz o zaman nemət olur. – İnsanın sağlamlığına, düşüncəsinə, amalına xidmət edir. Əks təqdirdə, yalnız ehtirasların tələbatını ödəmiş olur. "Ehtiras" bir məfhum statusunda insanın varlığındadır, onun məzmunundadır, müsbət və mənfi rol oynaya bilir. Fransız filosofu Holbax bu baxımdan fikrini açıqlayır: "Ehtiraslar insanın mahiyyətini təşkil edir və onun üçün zəruridir: insana sevinc və xoşbəxtlik gətirdikdə bunlar nemətdir və faydalıdır. Lakin ehtiraslar insanın həyat qaydalarını pozub onun sağlamlığına və səadətinə xətər yetirdikdə şərdir, zərərlidir. Məsələn, insana qida zəruridir, o, aclıq, yəni yemək ehtiyacı duyur. Lazımınca qidalanmadıqda xəstələnir. Lakin ifratı yemək də insanı xəstələndirir və ölümə düçar edir".

Holbax ehtiraslar barədə fikrini davam etdirir və insanın xoşbəxt yaşamasında ehtiraslara müsbət yanaşır və J.J.Russo ilə birləşir. O, göstərir ki, hisslər və ehtiraslar insan təbiətindən doğur, irəli gəlir, insanın mahiyyətindəndir, ona lazımlıdır. Bir şərtlə, ehtiraslar insana sevinc, xoşbəxtlik bəxş etsin ki, onun üçün nemət olsun. Ehtiraslar firavanlığa, azadlığa xidmətlidirsə, faydalıdır. Hisslər və ehtiraslar ağılla, idrakla tənzimlənməlidir. "Bütün insan ehtirasları təbii olsa da, o öz ehtiraslarında ağlın rəhbərliyinə istinad etməlidir... Nə vaxt ki özünəməhəbbət ağıllıdır, onda bu, fəzilətlə nəticələnir, nə vaxt ki özünəməhəbbət pozulmuş təsəvvürə əsaslanır. – İnsan öz ehtiraslarının predmetinə çevrilir və bunun nəticələri haqqında mühakimə yürütmək qabiliyyətini itirir – özünəməhəbbət rəzalət olur".

Bütün bu mühakimələrində, qənaətlərində insan fenomenal qüvvə – hiss kimi nəzərə çarpır və o, insanın içərisindədir, mahiyyətindədir. Və törətdiyi fəsadlar bir nemətdə – həzzdə yekunlaşır. Həzzə, nəşəyə, nəfsə, nəyə nail olmaqda insana təkan verən ehtiraslarıdır. Bu psixoloji – fizioloji hiss insan ruhunu ələ alır, özündən asılı edir. Sanki o həzzə – məqsədə çatmaqda insanın gözlərindən, beynindən fışqırıb irəliyə can atır, ta ona qədər – artıq həzzin ödənilməsi təmin olunur. Belə ehtiraslılar yaddan çıxarırlar ki, həzzi almaq da, itirmək də mümkündür. Varlıq bir bəladan qurtulur və az sonra hiss ediləcək ki, nə yaxşı belə alındı. Antik Roma siyasi xadimi Siseron buna sakitcə yanaşır və

özünə inamla deyir: “Həzzdən məhrum olmağa gəldikdə isə dünyada bundan yaxşı vergi ola bilərmi? Vətənə xəyanətdən tutmuş hər cürə cinayətə səbəb bu deyilmi? Hər cür şöhrətpərəstliyin, rəqabətin, düşmənçiliyin, tuğyan edən hər cür ehtirasların baisi ləzzət deyilmi? Bunu da bil ki, ondan məhrum olan bu itkini qətiyyən hiss etmir”.

Ehtiras beləliklə insanın hansı hisslərinə məxsus fenomendir? Ona yiyələnməyə və onu itirməyə dəyərmi? Axı, ehtirassızlıq vücudu keyləşdirir, daxili potensialı öldürür və insan sanki tənhalaşır, yazıqlaşır. Ehtiraslılıq isə varlığı dirçəldir, hissləri oyadır, azadlığa yaxınlaşdırır. Bu ikililik olmazsa insan digər canlılardan fərqlənməz, yalnız yemək üçün yaşadığına heyifsilənər.

Lakin hər ikilikdə ehtiras(lar) insan səadətinə, xoşbəxtliyinə xidmət göstərməlidir. Və idrakın nomenklaturasında özünü diktə etməlidir. Bəli, idrak əbədidir, ölməzdir. Sonda ruha qovuşub Təbiətdə nəyisə, nəyinisə axtarır. Mən dahi şair Mixail Lermontovun məşhur şeirindən bir beytiylə “gəzişmələrimə” nöqtə qoymaq istərdim:

***Ehtiraslar nə imiş,***  
***sönüb – gedəcək gec – tez,***  
***İdrakın qarşısında boş xəyyallarmış.***

Son misranın sonunda sual işarəsini yazmağa dəyərmi?..

## Nə xaldır belə düzdürmüsən

***Kişi hər şeyi idrak etməyə çalışan tipdir, qadın dərk olunmaq həvəsinə düşməyən şıltaq cinsdir.***
***Müəllif***

Bu sözlərə qoşulan mahnını gəncliyimdən eşitmişəm, o vaxt mənasını yozmaq barədə düşünməmişəm, yəqin ehtiyac duymamışam. Məgər ehtiyacım vardı qadında məni cuşa gətirən xal axtarım? Amma sövqi – təbii bilirdim ki,dillərə düşən xal qadının yanağında olur. Xanımlar da fərqinə varmamışlar ki, ərləri xalın aludəçisidir, hətta qoşasının. Təəssüf edirəm ki, xala aludəçi bəzi kişilər qadının zahiri gözəlliyini duyub mənimsəmək instiktindən məhrumdur! Halbuki keçmiş kişilər, xüsusən, şairlər, musiqiçilər, rəssamlar yüksək zövqə malik olmuşlar, qəşəng qadın üçün dizüstü ona tərəf getməyi özləri üçün qəbahət saymamışlar: şeir uydurmuşlar, mahnı qoşmuşlar, gözəlliklərini fiquraya etibar etmişlər. Bu yanaşmalar qadın(lar) üçün sirr sayılır ki, rəqibləri üçün "fakt" verməsinlər: "Filan qadın kişi(si) zövqünü bədənilə oxşayır", "Filan xanımın kişisi onun saçlarının pərəstişkarıdır", "Filan gözəlin yanaqlarındakı xalın vurğunudur". O qadın bu sirri ilə rəqibi qarşısında öyünür, qürurlanır...

Belə xasiyyətli qadınlar təkcə yaşadğımız əsrlərin (XX və XXI) payına düşməmişdir – qeyri – adi və sə-

mimi – kövrək məxluq əsrlərcə sirrini qorumuşlar (eyni zamanda kişilərin). Bəzən isə açıqca deyirik: "Qadın sirr saxlamağı bacarmır". Tamam paradoksdur: Qadın çılpaq həqiqəti ilə bəşəriyyətə ən məkirli, iradəsiz, ruhsuz bir varlıqdır. O, əxlaq dərsindən "iki" alan şagirdə bənzəyir" – inandırıcı fikirdir, amma əsəbi deyilmişdir!

Etiraf yerinə düşür ki, kişi qadınsız yaşaya bilmədiyi təqdirdə dillərini dinc qoymur, ancaq kənardan baxıb dərindən köks ötürür: – Qadın gözəlliyi bir möcüzədir ki, kişinin əriyən ömrünü yalnız bu məlahət saxlar. Yaxud: – Qadın döşlərinin sinəsində par-par yanması qaranlıq gecədə bədrlənmiş Ayın saçdığı işıq tonqalına bənzər...

Mən qadına, onun nadir varlığına ehtiyatla yanaşmışam, çünki dilimdən qaçan sözü tutan tapılar. Axı, kişilərin də dilinə "açar" salmaq lazım gəlir! Kişilər sözləriylə öz hisslərini ifadə etməli olurlar, təsəvvür yaradırlar. Buna görə də onların dilində hisslərinə aid nəsə səslənirsə qeyri – dəqiq də ola bilər. Unutmayaq ki, qadınlar öz əzabları və iztirabları barədə kiminləsə fikirlərini bölüşdürərkən inam qazanmağa çalışırlar. Onlar işgüzar məsələlərdə "daxili pıçıltıları"nı ifadə etmək qabiliyyətində həmişə üstünlük qazanmışlar. Qadından sirr qoparmaq istəyən kişi unutmamalıdır ki, incə məxluqlar əzizlənməyi xoşlayırlar, nəinki onlardan sirr qoparasan!

Dünya işığı boyunca bir-birinə qovuşmaq istəyində çapalayan əks – cinslər üzlərini yana çevirsələr də, bir-birini "kəşf" etmək arzusundan əl götürmürlər. Yəni məsələ bu qədər çətindir? – Sualına fransız filosofun sözləriylə cavab verəcəyəm: "İnsanları öyrətmək, onları öyrənməkdən çətindir". Düşüncələrimin mahiyyətində yenə qadın şıltaqlığı dayanır və "şıltaqlıq" – qəlb yaxınlığı xoşladığı kişini məftunetmə həvəsindən irəli gəlir. Məşhur rejissor Maksimilian Şell demişkən: "Qadınlar onları mühasirəyə alıb qəlblərini ovlamağı sevirlər, onların üzərində daima kiminsə sahib olmasını istəyirlər".

Bu fikir etirafmı, yoxsa sirmi?

Əvvəlki fikrimə qayıdıram. Şairlər hər dəm qadın gözəlliyinə aşiq deyillər, misralar yol gəlməlidir ki, bir-birinə əl versinlər, bütövləşsinlər. Aşıqlar isə necə ki, sinəyə qovuşdururlar, necə ki, baxışları qadına ilişdi – misralar doğulur, işıqda vurnuxan pərvanələrə qısqanır. Məclis uzunu həmin qadının bütün vücudunu mədh edir, halbuki, bu aşıq padşahı belə tərifə "qonaq" etməmişdir! Amma bir gözələ ən gözəl şeirlərindən sonuncusunu pıçıldamışdır ki, rəqiblər duyuq düşməsinlər. Belə aşiq aşıqlardan biri Molla Cuma idi. Şeiri təhlil etmək mərhum şair – aşığın ruhuna toxunar, çünki hər qadındakı zahiri gözəllik yüksək qiymətləndirilmiş, hər bir oxucunun şəxsi zövqünə hesablanmışdır. Və "Ox sənin" adlanır.

***Ox sənin dodaqların abi – həyat bulağıdır,***
***Ox sənin danışdığın kəlməsi cana yağıdır,***
***Ox sənin bir cüt gözün zülmət evin çırağıdır?***
***Ox sənin o ləblərin qəndi – nabat, baldı, Nigar.***

***Ox sənin sərvi boyun hündüsmüdür, ərərmidir,***
***Ox sənin Ay qabağın on beş günlük qəmərmidir.***
***Ox sənin şahmar telin qızıl, gümüşmü, zərmidir?***
***Ox sənin qoynundakı bir cüt narın kaldı, Nigar.***

***Ox sənin üzün görən öz başına açar kələk,***
***Ox sənin tayın olmaz ya bir huri, ya bir mələk.***
***Ox səni necə yaradıbdır çarxı fələk?***
***Ox sənin göyçəkliyin məni dərdə saldı, Nigar.***

***Ox sənin yanaqların uca dağın laləsidir,***
***Ox səni görən deyər Humay quşun balasıdır.***
***Ox sənin Molla Cuma dildən-dilə salasıdır,***
***Ox sənin Ayşə Xatın kəndi çoban quldu, Nigar.***

Qoşma Molla Cuma təbib – bioloq səviyyəsində qadına məxsus zahiri atributları sadalayır və bunların yalnız Nigarında görür, içindən "ah" çəkir. Bu gözəl Nigarda biz bir şeyi – "xalı" görmürük. Aşığa "O xal nə xaldır, qoşa düzdürmüsən" sözləri bəlli olmaya bilməzdi, hansı ki, xanəndələrin dilindən düşməyən mahnının sözləridir. Ehtimal etmək olar ki, Nigar qadına

seçimlik gətirən, barı, bir xalı var – qoşası vacib deyil. Yaxud, yanaqlarına düzdürməsin. Molla Cumanın: aşıq – şairin zövqsüzlüyünə dəlalət eləmir, lakin qadının gözəgəlimliyini, qəşəngliyini şərtləndirən xal həmişə diqqət mərkəzinə düşmüşdür, şairləri, xüsusilə qıcıqlandırmışdır. Və xal barədə bəzi yarı poetik, yarı elmi səciyyə daşıyan informasıyanı oxuculara çatdırıram:

Deyirlər dünyada heç nə səbəbsiz olmayıb, təsadüfən baş vermir. Hətta saçımızın, gözümüzün rəngi, nəyə görə məhz atamıza, yaxud anamıza oxşamağımız da elə – belə deyil. Ürəyimizdən keçən dəli bir istəyin də arxasında nəsə bir qanunauyğun haqlı tələb durur.

Yəqin müxtəlif inancların, etiqadların, totemlərin, sitayişlərin yaranması, meydana çıxması da zahirən təsadüfə, mənasız və boş şeyə oxşayan məqamlarla, daşdan keçən sınaqlarla bağlıdır.

Uzağa niyə gedirik... Lap elə götürək bəzimizə sonsuz yaraşıq verən, bəzimizi əsəbləşdirən xalları. Hərdən fikirləşirəm, görəsən, yanağı, buxağı, topuğu xallı gözəllər olmasaydı, şairlər daha kimlərə şeir qoşardılar? Amma öncəgörənlər, münəccimlər xala, təbabət dili ilə desək piqment ləkəyə heç də poetik rəmz kimi baxmırlar. Deyirlər nabələd insanın xasiyyətini, onun taleyindəki mühüm məqamları xalın harada yerləşməsi ilə də öyrənmək olar. İnanmırsız? Əgər inanırsınızsa, bu yazının davamını oxuyun, inanmırsınızsa, öz işinizdir...

Alnının sağında xalı olan adam ona şöhrət və sərvət gətirəcək intellekt sahibidir.

Alnın sonundakı xal zəif iradəyə, zahirən hamıdan seçilmək cəhdinə işarədir.

Gözün bayır bucağı ilə yanaşı düşmüş xal təmkinli xasiyyətdən, sadəlik və qənaətçillikdən xəbər verir.

Sağ qaşın yanındakı xal xoşbəxt və çox güman erkən nigah əlamətidir.

Sol qaşın yanındakı xal uğursuz nigah deməkdir.

Qulaqda xal ağılsızlığa işarədir.

Sağ yanağı xallı adamın həyatda, ən çox da nigahda bəxti gətirər.

Sol yanaqdakı xal həmin adamın çətinliklərlə qarşılaşacağından, mübarizə aparmalı olacağından xəbər verir.

Buxağı xallı olan varlı adamla ailə qurar, onun şöhrətpərəst planları həyata keçər.

Boyundakı xal həyatın dəyişikliklərlə zəngin olacağı, həmin adamın gözlənilmədən miras alacağı, gəncliyində əzab çəkib, yaşlananda xoş günlər görəcəyi deməkdir.

Biləyində, əlinin üstündə xalı olan adam hərtərəfli qabiliyyət yiyəsi sayılır.

Sağ qolda dirsəkdən aşağıdakı xal müvəffəqiyyətə, sol qoldakı xalsa maliyyə çətinliyinə işarədir.

Çiynindəki xal mürəkkəb və çətin güzəran deməkdir.

Sağ döşündə xallı adamın uğurları ilə uğursuzluqları bir-birinə qarışır.

Kişinin sol döşündəki xal uğur və xoşbəxtlik əlamətidir.

Qadının sol döşündəki xal isə onun coşğun ehtiras sahibi olmasına işarə vurur.

Sinənin tən ortasında xal olan adam çox varlanmasa da, həyatda heç nədən korluq çəkməz.

Bundan başqa, xalın insanın taleyinə təsiri onun ölçüsündən asılıdır.

Əgər dəridəki xal azacıq şişkindirsə, gətirəcəyi uğur böyük, uğursuzluqsa əhəmiyyətsiz olar.

Əgər xal uzunsov, yaxud itiucludursa, onun daşıdığı yaxşı cəhətləri heçə enəcək, uğursuzluqlarsa faciəyə çevriləcək.

Xalın tünd rəngdə, yaxud tüklü olması da yaxşı əlamət sayılmır.

Bir cavantəhər (zahirən) kişi ərkyana yox, ciddi şəkildə üzünü mənə tutub dedi:

– O qadın şərab dadı verir.

Mən sözlərinin orfoetik tələffüzünü tutmayıb soruşdum.

– Sual idi sözlərin, yoxsa həqiqətən şərab içən qadından danışırsan.

O, özünə xas təbəssümlə pıçıldadı – ehtiyac yox idi, ucadan da demək mümkündü.

– Bir qəzetdə kişi imzasıyla oxumuşam: “Şərab dadlı qadınlar” adlı məqaləsindən.

– Tutmamısan mənanı: Şərab dadı verən qadındır, yoxsa şərab verdiyi dadı, tamı, acılığı ifadə edən qadındır? Hər ikisini bir kişi yazıbsa: “Sirr qoruyan qadına təşəkkür düşür, nəinki qadın sirrini saxlaya bilməyən, bacarmayan kişi!

Qısa, amma geniş mənalı və çalarlı cümlənin daşıdığı fikri çözələmək istəməzdim. Müsahibim isə xudahafizləmədən getdi.

Hansısa vərəqin ucuna yazdığım cümlənin mənasına varmaya çalışdım. Axı, şərabın rəngi, dadı, təsiri bəllidir. Şərab dadmayan kişiləri ancaq barmaqla göstərmək olar. Bəs qadına şərab içməyi ağlına və dilinə gətirən kişinin məqsədi nə imiş? Şairlər, ədiblər, filosoflar şərab haqqında maraqlı ibarələr işlətmişlər Ömər Xəyyamdan:

***Saqi, çəmənləri bəzəmiş bahar,***
***İncə çiçəklərdə nəşə, sevinc var.***
***Şərab iç, seyrə dal, gül – çiçək qopar,***
***Sabah bu çəmənlər olar tarümar.***

Fəlsəfi fikirdən qaçırıq, amma qadına şərab içib orda – burda “şərh” verən kişini töhmətləndirməyə dəyərmi? “Sirri qorumağa iradəsi çatmayan” kişini necə?

Şərabla qadının üz-üzə dayanması və ikinci adamın – kişinin iştirakı ilə nə ilə nəticələnər? Qadının şəraba meylini yaxşı qəbul eləmirəm və kişilər bu səhvi üçün tarixdən üzr istəməlidir. Hərçənd, şərabın dozasında içilməsi əhvalın kövrəlməsidir, haradasa sərt informasiyaları unutmasıdır. Qadın isə... Onun şəffaf şüşə rənginə bələnmiş dodaqlarının şərabın qəribə qoxusuna təslimini təsəvvürə gətirmirəm. Bəs niyə "qadın şərab dadı verir" kəlamını xatırlayırıq? Olmaya kişilər əbədi can atdığı və ömürlük sehrində çapalayan qadına belə ayamanı yaxınlaşdırmaqla qisasını çıxır? Belə düşünməzdim. Bir qadının "gündəliyi"ndən: "Elə cavan da deyiləm. Yaşımın "ləzzətli" vaxtındayam. Həyatımda kişilər olub, ürək qapıma qıfıl salanlardan yalnız biri ömürlük yaddaşımdadır (O, artıq həyatda yoxdur). Onunla bağlı xeyli xatirələrim, epizodlarım vardır. İlk tanışlığımızın bir görüşündə şam edəsi olduq. O, məclidə şən zarafatı xoşlayırdı, dərin mənalı sözləri bədahətən söyləyirdi. Sifariş etdi. Al – qırmızıya çalırdı. Mənim diqqətimi onun rəngi özünə çəkmişdi. Bakalları doldurdu, əvvəlcə özü götürdü, sonra mənə təklif etdi, ixtiyarsız qaldırdım. O, tamam içdi, mən iki suyun arasında qalmışdım. İçməsəydim xətrinə dəyərdi, axı ilk gündən bu adam xoşuma gəlmişdi və mən onun bütün təklifinə hazır idim, tərəddüdsüz. Həm də həyatımda dodağım şəraba toxunmamışdı, baxmayaraq, elə cavan da deyildim. Yarıya qədər içdim. Başım azca

fırlandı, içərimdə nəsə yandı. O, alma dilimini mənə uzatdı, yedim. Beləcə, daha iki bakalı yarıya qədər içdim. Sonra maşına oturub azad mənzilə yollandıq...

Hələlik qeydlərin ardını oxumağı burada saxladım. Həm istəmədim oxucularımı yorum, həm də həzin bir qadının şərabdan sonra, yaxud şərabın təsirində hərəkətini əyanilәşdirməyim. Təxminən, bilirəm nə baş verəcəkdir, əlbəttə, Oyundaşdan çox asılıdır. Mənim fikrimcə, onların arasında yaxınlıq baş veribsə bu, adi haldır və şəraba ehtiyac bir o qədər önəmli deyil. Əgər hər şey sonradan olacaqsa... Şərabın içilməsinə ehtiyac duyulur. Bir cəhət maraqlıdır ki, qadının Oyundaşı məhz şərab təklif etmişdir. İçməyə dəyərdimi?

Bir dəfə bir qadına təklifim olmuşdu ki, iştahı çəkirsə dadına baxsın. Hərəkətində ciddi, qadın – Oyundaş kimi bənzərsiz olan bu qadın kinayəli zarafatla dedi:

– Məgər şərabsız məndən narazısan? Vücudumda şərab təsiri həmişəlikdir. Mən özüm şərab dadı vermirəm? – Gülümsündü və təklifin səmtini dəyişdim... Qeydlərdən ayrılmaq çətindir, istəyirəm hər şeyi olduğu kimi görək, uydurma – filansız. Qadın yaşadığı hissləri köçürüb, sağ olsun bir günlüyə olsa da tanışlığıma şərait yaradıbdır. “Gündəliyin” ardından: “Qapını tələsik açdı, sanki kimsə bizi izləyirdi, ya da kimsə məni onun əlindən alacağından xoflanırdı. Çox sonra-

lar anladım ki, kişilər qadınla təkbətək qalmaq üçün saniyənin yüzdə bir anını da itirmək istəməzlər. Yorulmuşdum: əlbəttə şərabın təsiriydi. Partnyorumsa gümrah görünürdü. Divanda oturmağımla üstümdən ağır yükü götürdülər, toxdaqlıq duydum. Bircə pis tərəfi düşünürdüm: Şərabın qoxusu gəlirdi, ona necə təsir edəcəkdi. Partnyorum gözlərimdə əzəmətli idi, eyni zamanda vahimə almışdı bədənim: İntim oyuna ilk dəfə başlamaq bir qadın kimi mənimçün asan olmayacaqdı. Yəqin ki, onun təcrübəsi vardır. Lakin əzizlənmək istəyirdim. İntim dünyanın çətin və xoş yolunu çoxdan keçmişdim...”

Bu ara iş telefonum zəng çaldı. Şənbə günü adətən, məni “yoxlayan” bir o qədər olmur. Xeyirli idi, tanış qadının səsi kefimi durultdu, ancaq qadının “gündəliyini” başa çatdırmalı idim. Yoxsa ev qayğılarının yağışında islanmağım vardı. Təkliyimi soruşdu və cavabımdan razı qaldı.

– Məni unutmamısan ki?! – Səsində yalvarış dolu amiranəlik duydum.

– Bacardığın iş olmazdı. – Özünə xas qəhqəhə ilə könlümü aldı. – Ümidim yox idi işindəsən. Evə zəng çalan deyiləm. Havadan necə, xəbərin varmı? – Başını yenə yazıya qarışdırmısan, dəqiqdir bu. – Təsdiqlədim. – Ürəyimə bilirsən nə düşüb? Desəm doyunca güləcəksən – qəhqəhəsiylə az qala dəli edəcəkdi məni. Çünki bu qadını başdan ayağa mənimsəmişdim, bu çətin işi bacarmışdım.

– Ürəyin nə istəsə hazıram, qonorar da almışam. O, heç vədə “pul” sözünü işlətmir, əvəzində “qonorar”ı iştahla tələffüz eləyir.

– O, bir o qədər də gümrahlaşdı:

– Şərab istəyir ürəyim. İlk dəfədir ki...

Görüşdük, həqiqətən, bu tanışlığımız müddətində onun dilinə şərab dəyməmişdi. Bir şüşə şəraba mənimlə şərik çıxdı. Qorxurdum ki, pis təsir eləyər, təcrübəsizdir. Təxminən bir saat ötmüşdü, dəyişiklik hiss elədim: bu, gözlərində baş verdi, səsi məlahətləşdi.

– Bu dəqiqələrdə gözlərimdə qeyri–adi görünürsən. İstəyirəm mən Dezdimonasayağı boğulam əllərində. Yox, kefli deyiləm, amma təsir altındayam, harayasa aparmaq istəyirlər, əlindən alarlar məni! – Qəhqəhə ilə sözünü tamamladı. – Özün götür məni, – pıçıldadı...

Saya üzündə tər damcıları giləlönmişdi və dümqara saçından bir-iki tel ilişmişdi, elə bil qara iz salıb sahibini xilas eləmək istəyirdi. Əlləri ovcumda titrəyirdi və bu təngənəfəslik birbaşa ürəyimdə toxdayırdı. Əllərini sinəsinə apardı, bu, özündən ixtiyarsız baş verdi. Çünki peşimançılığını büruzə verdi: – Tək qalmaq istəyirəm – dedi. – O şərtlə yanımda olasan. Üşüyürəm, çiynimi bir şeylə ört. – Səhvini düzəltdi, əllərini ovcumda gizlətdi. Mən mütənasib bədənini özündə tapmayan çiyinlərini əllərimlə örtdüm. Saçlarını qoxulayıb dişlərimə doladım. Qəribə təbii qoxu burnumu qı-

cıqlandırırdı. O, başını yana çevirib dodaqlarını yaxınlaşdırdı. Əlbəttə, istəyinə əməl etməliydim. Bu an şərabın dadından yaranmış qoxu məni vurdu. Və ilk dəfə ona qarşı qəzəbim tutdu. Bəlkə də, heç vədə belə vəziyyətlə qarşılaşmamışdım, onun üçündü. Axı, qadının içərisindən gələn xoş və ehtiraslı qoxu – ətir əvəzsiz mükafatdır. O, məni bundan məhrum eləmişdi. Büruzə vermirdirsə, bədənim əsirdi: niyə onun xahişini yerinə yetirmişdim? Əslində günah mənimdi.

Maşında onu evinə ötürdüm. Oxumaq ovqatım ölmüşdü. "Gündəlik" qarşımda saralmış payız yarpağına bükülmüşdü. Kövrəldim, axı onun müəllifi – sahibi bütün varlığı ilə qadınlıq missiyasını ödəyən bir vücuddur. Etibar eləyib mənə verib, mən isə...

"Gündəliy"in son cümləsi vərəqdə qərib-qərib boynunu bükmüşdü. Olmaya saralmış vərəqlərə şərab çilənmişdi?!

Erotik aləminin qəribəlikləriylə tanışıq və zövqümüz, dünyagörüşümüz sərhədində az-çox məlumatımız var. Xalın kişilərdə olmasına heç zaman fikir və məna verilməyib. Hətta bunu məqbul saymayıblar. Həqiqətən, kişinin sifətinə, əllərinə xal "yapışıbsa"... məyusluq qaçmır bizdən. İllah ki həddini aşa. Amma qadında xalın, ingilislərin təbirincə desək, gözəllik ləkələrinin olması yaxşı əlamətdir? Bizim hər birimizin ingilis təşbehinə ehtiyacı yoxdur, çünki qadınlarda xal gözümüzə sataşanda yaxşı əlamət sayılır. Hətta bədə-

nin hansı yerində varsa onu da yozuruq. Hər halda bu şərqlilərə məxsus inamla, nikbinliklə bağlıdır. Xalın qadın üzündə görünməsi, xüsusilə, münasib biçimli görnüşü daha ovqatlı zövq yaradır, erotikadan öncə, gözəlliyin bu əlaməti kimi qiymətləndirilir. Uzağa getməyək. Klassik saz və söz ustalarımızın ilham mənbələrindən biri də xal deyilmi? Ömər Xəyyam zövqündən yan keçməyib:

***Lalələr bitirən, hər laləzardan,***
***Laləsi qanıdır, hər şəhriyarın.***
***Torpaqdan göyərən, incə bənövşə***
***Xalıdır, bir gözəl dilbər nigarın.***

Bu deyim təbiidir, ilhamı "kökləyən" bir zəriflik, gözəllik duyumunun poetik səsidir. Çox-çox qədimlərdə xalların bir cəhəti də məlum idi, beləcə də yanaşılırdı: Xallarda erotikanın (şəhvətin) rəmzi ifadə olunur. Rəvayətə görə, xallı qadını əcinnə gözüylə yandırırdılar... Şərqdə belə rəvayətlər gəzib – dolaşır və sözsüz buna bənzər "gözəllik qənimi"nə təsadüf edilsəydi... söz sərraflarının dilindən yaxasını çətin qurtarardılar. Maraqlıdır, son illərdə sivilizasiyalı ölkələrin alimləri, təbiblər və b. xalların daşıdığı rəmzi və erotik fantaziya mənasına hətta elmi yanaşırlar. Xarici ekspert Saşa Fenton xalları ən cazibəli seks rəmzi hesab eləmişdir. Bu, bizə aydın oldu, bəs xalların rəngi necə,

onundamı rəmzi, yaxud real cazibə gücü mövcuddur? Xalın rəngi qaradırsa və qadının bədəninin erogen hissəsindədirsə, onda gələcəkdə coşğun məhəbbət macəraları xal sahibini gözləyir. Əks təqdirdə: "Gələcəkdə romantika və hissiyyatla bağlı məğlubiyyətləri olacaqdır. Xal kişidə şəhvət hissinə impuls verirsə, xalın – kəpənəyin "qonduğu" yerin də rolu az deyil: Ən erotik yer dodaqların qırağıdır. Fentona istinad eləyək: "Bu, adamın coşğun seksuallığını göstərir, hərgah sizin tərəf – müqabiliniz həmin yerindədirsə, onda özünüzü gözləyin. Bu, sevgi obyektinin tez-tez dəyişməsini göstərir. Görünür, hissiyyatın coşğunluğu Riçard Giri Sindi Krouford məkanına can atmağa sövq etmişdi.

Sol böyürdə yerləşən xal təkcə aşiqin, yaxud məşuqun qızğınlığını göstərmir. Belə xala malik qız, yaxud oğlan həm də xoşbəxt izdivaca ümid eləyə bilər". Xalların erotik obrazı ilə tanışlığa dəyər! Bu obrazı əlin altındakı vasitələrlə həyata keçirmək lazım gəlir.

Gözün qırağındakı xal ehtiraslılıq əlamətidir. Bunu büruzə vermək lazımdırsa, ən münasib yerdir və qadına məlahətlilik bəxş eləyir. Kişilər heyrətlə baxır, ürəklərindən nələr keçir, bir özlərinə bəllidir. Öpüşlərə meyillidir.

Ağzın üstündəki "gözəllik ləkələri" də öpüşə meyilli olmaqdan xəbər verir. Bu cür dodaqlar hərəkət etməyə qabildir. Bu cür xalınız olanda dodaqlarınızı bir–birinə sıxaraq özünüzü Merlin Monro kimi təsəvvür

edin. Digər ehtiraslı xallar kimi o da adama böyük cazibə bəxş eləyir. Diqqətinizi dodaqlarınıza verin. Axı, bütün işləri onlar görəcəklər. Dodaqlarınızı nəzərə çatdırmaq üçün qələmdən, zövq verən qırmızı dodaq boyasından, dodağa parlaqlıq gətirən maddədən qaçmayın.

Yanaqla burun arasında yerləşən "gözəllik ləkələri" sizin işvəkarlığınızdan və həyatsevərliyinizdən xəbər verir. Siz könüllər dürdanəsisiz. Hər bir məclisin məftun olduğu qadınsınız. Hamı sizi sevir, siz hamını sevirsiniz. Siz bəxtiyarlıq içində coşub çağlayırsız. Sifətiniz təravətli görünməlidir. Buna görə də sifətə nazik makiyaj eləmək lazımdır. Xalınız balaca, zərif, lakin nəzərə çarpan olmalıdır. Əgər saçlarınız çox qaradırsa xalı qara kosmetik qələmlə çəkin. Əgər saçınız açıq rənglidirsə qəhvəyi, yaxud tünd qəhvəyi qələmdən istifadə edin.

Alt dodaqdakı xal sizə təmkinli və adama yovuşmaz görkəmi verir. Sizdə Hollivud ulduzunun ədası var, görkəminiz pıçıldayır: "Mən buraya gizlicə gəlmişəm. Siz yaxşı–yaxşı baxın. Bəlkə məni tanıdınız..." Bu adamın çöhrəsinə sirli çalar verən çox eleqant görkəmdir. Dodaq boyasının tünd rənglərindən istifadə etməklə əsas baxışlarınızı dodaqlara verin. Bu qəbilli rəqiblərinizdən daha aydın şəkildə nəzərə çarpdırmaq olar. Bu xalı çəkərkən rahat olmaq üçün dilinizi dodağınızın altına salıb dərinizi qabardın.

**Nazlıdır.** Dodağın qırağındakı “gözəllik ləkələri” göstərir ki, siz işvəkarlıq etməkdən uzaq deyilsiz. Özünüzü qoruyun, oğlanlar! Bu cür qızla sizin xirtdəyədək problemləriniz ola bilər: bu cür xalın yiyəsi o qədər də sadə adam deyil. Atəşin baxışlardan istifadə edə-edə istənilən vəziyyətə düşüb çıxa bilərsiz. Gündüz, gecə vaxtı sizin əhval – ruhiyyəniz qoy sifətinizə hansı ifadə verməyi diqtə eləsin: qayğısız görkəm almalı, yaxud qarşınızdakını qılınc kimi doğrmalı. Əsas diqqəti gözlərə verin. Titrək kipriklər uzun və qara olmalıdır. Buna görə də keyfiyyətli tuşdan istifadə edin. Kosmetik qələmlə baxışların şəhvətini nəzərə çarpdırın.

**Şəhanə Kurtizian.** “Gözəllik ləkələri” müxtəlif forma və biçimdə ola bilər. Fotrdən xırdaca ürək və xaç kəsərək kipik yapışqanı ilə onları sifətinizə yapışdırın.. Unutmayın onlar yalnız sifətə yapışdırılır. Bu, kurtizian qadınların üslubudur. Şəhanə üslubdur. Fon çox solğun makiyajla stilizə edilməlidir. Qaşların qara formasını nəzərə çarpdırmaq şərtilə dodaqlar tünd qırmızı, çəhrayı rəngdə olmalıdır. Qadını səmaviyyətə, mələklərin xəyallarına bənzədən Əbdülhəq Hamid görünür, bu məxluqdan xəbərsizdir, hər halda “Ən böyük şairlərin ən gözəl şeiri qadındır”, – demişdir. Bəli, ona qarşı zərrəcik belə kobud rəftar eləmək səviyyəsizlikdir. Kişilər bu iki qütbün arasında dayanırlar: pərəstiş və nifrət etmək. Məşhur estrada müğənnisi Tell Savalas dilindən qaçırmışdır ki, mən qadınların pərəstişka-

rıyam, onları ərköyünləşdirirəm, istədiklərini yerinə yetirirəm. Lazım gələndə kötəkləməyi unutmuram.

Bu sonuncu olmasa yaxşıdır!

Ziddiyyətli və bir-birinin üstünə düşən qənaətlər, yanılmalar az deyil, günü – gündən baş alıb gedir. Bir məsələ var ki qadın varlığı fiziki görümdən ecazkar gözəlliyə malik məxluqdur, onun ayaq barmaqlarından tutmuş saçlarının ucuna qədər zövq mənbəyidir, cazibədarlıqdır. Ona görə də qadının təkcə üzü yox, gözləri, dodaqları, saçları yox, sinəsi, əlləri, dırnaqları da kişinin eşq təşnəsidir. Maraqlısı odur ki, hər bir kişi bu nişanələri öz zövqündə xoşlayır, qiymətləndirir. Gizlin deyil ki, qadın səhər erkən yuxudan oyanıb güzgü qabağına keçərkən, gözü önünə yalnız kişi tayfasını gətirməlidir: Ərinimi, sevdiyi oğlanımı, əyləndiyi kişinimi?! Bu zövq və canlı xəyaldan, həqiqətdən sonra özünü qiymətləndirmə başlayır. Qadın küçəyə çıxdımı, o hissləri keçirməlidir ki ətrafı əks cinslərin baxışlarında, qibtəsindədir. Əks təqdirdə qadın günbəgün solur, təravətini itirir, vaxtsız xəzəl yarpaqlarına çevrilir, ehtirasını itirmiş soyuq yatağına girib, lal – sükuta bələnir. Qadın həmişə öz gözəllik təravətini saxlamağı bacarmalıdır. Təsadüfi baxmamalıyıq. Amerika alimləri ideal qadın sifəti axtarışında bu gün də var. Onlar Hollivudun bütün gözəllərinin sifət cizgilərini kompüterə vermişlər. Bu super maşın da öz növbəsində həmin cazibəli və gözəl qadınların ən zərif, incə cizgilə-

rini əbədiləşdirir. Odri Xopperinin gözlərini, Mişel Pfayfferin qaşlarını, Şaroun Stounun yanaqlarını, Bricat Bardonun dodaqlarını, Meq Rayanın çöhrəsini seçmiş və ideal qadın portretini çəkmişdir.

Bu axtarış təbii ola bilər, lakin bizim fikrimizcə, hərtərəfli xoşbəxt qadın kişilərin tamamilə rəğbətini qazanmaqda uduzar. Hər bir kişinin və qadının öz zövqü, temperamenti mövcuddur. Super maşın bu vasitəni də sınaqdan keçirsə pis olmazdı. Yəni belə “texniki zövqlər” qadınları ruhdan salmamalıdır. Bir qadının gözlərindən axan baxışları, bir qadının ətli və şirəli dodaqları, qalın və uzun saçları, bir qadının sivri və yumru döşlərinin asıldığı nəmli sinəsi, dupduru suyun toxdadığı göbəyin sağında və solunda bitən lalə çiçəyi, bir qadının səsi kişini dəli edər və bu “dəli” o qadını bütöv çeynəyər və içərisində “həzm” edər.

Qadınlar kişilərdən azca ehtiyatlı olsunlar. Şərait bir balaca dəyşib, kişilər ehtiyatını əldən verməməlidirlər. Alman filosofu Nitşe gülümsəyib demişdir: “Qadın yanına gedirsənsə, qamçını götürməyi unutma”.

Qadın bütün portret cizgilərinə sahibdir və bu xüsusiyyətlər ona gərəklidir. Lakin qadın ömrü boyu bir suala cavab axtarmalıdır:

– Qadın ürəyi varmı?

Niyə tələsirik bu sirri açmağa. Qadının taleyində kədərli, bəlkə də özündən asılı olmayan məqamlar, keçidlər olur. O, kişi ehtirasında soyuyur. Bəlkə bundan sonra.

## Saçın ucun hörməzlər

***Taleləri elə gətirdi növrəstə xanımlar qısa saçın "çağırışına" aldandılar.***
***Müəllif***

Mən bu başlıqla bağlı başqa ovqatda düşünürdüm: çox sadə və özümə sual verirdim bu neçə gündə. Cavan və gözəl qızlar on illərdir nə üçün saçlarını qayçının ağzına verirlər? Aynaya baxanda nə fikirləşirlər, hansı qərara gəlirlər? Axı uzun saçların hər bir teli bir-birinə hörülüb qoşalaşır, hörük olub kişilərə "divan" tuturlar! Bu mənzərə mənim yeniyetməlik illərimdən hafizəmə həkk olunubdur. Yaxşı ki, folklorumuzda, rəqslərimizdə, miniatürlərimizdə bizə gəlib çatmışdır.

Qoşa hörüklər subay (lap evli) oğlanları valeh eləmiş, ruhlarına ecazkar qüvvət gətirmişdir. Bu, bir yana, oğlanlarda evlənməyə həvəs oyatmışdır. Qoşa hörüklü qız – qadınların yerişi kişi tayfasına zülm eləmiş, dodaqlar qurumuş, sapsarı ərik kimi ikiyə "parçalanmışdır". Deməli, qadında gözəlliyin təsir gücü onun bədənindəki, üzündəki hansısa bir fiziki əlamətlə də şərtlənir. Məntiqlə desək, vacib deyil qadının bütün əzaları yerində olsun, seçilsin. Deyək ki, yanaqlarında xal görünsün, sinəsi qoşa məmələri "kirayə" saxlasın, zənəxdanı "gizlənsin", ləbxəndənin səsi eşidilsin, məxbur baxışları yolunu azsın, ətli və harmonik bal-

dırları ipək donunun altında nəfəsi təngisin... bu saydıqlarımdan bircəciyində kişinin gözü olarsa kifayət edər. Təsadüfdümü Vaqif, Vidadi, Zakir, Vahid qadında heç bir eyib axtarmaq fikrinə düşməmişdir.

***Sərv boylum, bir çıx görüm boyunu,***
***Onda qurban edim canı mən sənə.***
***Qaşlarının tağı qibləgahımdır,***
***Fəda qılım din – imanı mən sənə.***

Yaxud:

***Sənin təki siyah telli, gül üzlü,***
***Bu cümlə cahanda mən görməmişəm.***
***Ağzı nazik, qaşı uzun, qəddi düz,***
***Bir belə qabağı gen görməmişəm.***

Və yaxud:

***Geyibsən əyninə gül pirəhəni,***
***Camalın şöləsi tutmuş dövrəni.***
***Nagahdan gözlərim görəndə səni,***
***Qalmadı canımda ixtiyar, gəlin!***

Bu misralar Molla Pənah Vaqif üçün abi – həyat qədər şəfaverici, Afitab qədər hərarətli, Dilbər simalı sevgili, Gülab kimi dadlı, Şeyda məhəbbətli ki, ömrü-

nün neçə illərini qadın gözəlliyinin tərənnümünə həsr etməkdən yorulmamışdır. Belə qəşənglik, gözəgəlimlik və vurğunluq bədənlə məhdudlaşmır, bir özünəgüvənc xanımın musiqi sədalarının sehrində rəqsi – oynaması da kişilərin zövq ünvanını məkanlaşdırır.

Hər bir on-on beş illik zaman kəsiyində oyun havaları rəqsi özünə tabe edir və bu, davamlı olur. Məsələn, ötən əsrin 30-cu illərində "Qəşəngi" havası qadınların sümüyünə ən çox yatan rəqs olmuşdur. Unudulmaz musiqişünas Firidun Şuşunski xatırlamış ki, əmim qızının toyunda bizim qonşuluqda olan Şirniçi Yunisin qızı Qəməri oynatdılar. Qəmər "Qəşəngi"ni oynamaqda birinci olduğu kimi, gözəllikdə də Qarabağda birinci sayılırdı...

Təsəvvürümüzə gətirək ki, meydanda Qəmər "Qəşəngi"ni süzür, qollarını qu quşunun qanadlarısayağı yelpizləyir, musiqiçilərin fikrini sapındırır, bədən yırğalanır, sinəsində gizlənən məmələri tab gətirə bilmir, ayılır, dabanları yerə dəyib bədəni titrədir. Musiqiçilərin sol yanında əlində qaval tutan Xan Şuşinski Qəmərdən gözlərini götürmür. Qəmər dodaqaltı zümzümə edir, cavan Xanı məsti – xumar edən rəqqasəyə ruh, ikinci can verir. Burada iki zövq bir-birinə heyran durur. Allah bilər onların ürəyindən nələr keçirmiş! O bəllidir ki, Xan Şuşinski Qarabağ gözəlinə bədahətən şeirlə bərabər mahnı qoşur.

Mən bu hadisəni eşitməmişdim, oxumamışdım. Firidun bəyin "Şuşa" kitabından oxudum:

***Saçın ucun hörməzlər,***
***Səni mənə verməzlər,***
***Əyil üzündən öpüm,***
***Qaranlıqdır görməzlər.***

***Ay Qəmərim, Qəmərim,***
***Körpəcə Qəmərim, Qəmərim,***
***Şirin Qəmərim, Qəmərim,***
***Qəşəng Qəmərim, Qəmərim,***
***Denən gəlsin, balam gəlsin,***
***Yarım gəlsin, Qəmər gəlsin.***

***Bu dərə uzun dərə,***
***Baxdıqca uzun dərə.***
***Burda bir bağ salmışam,***
***Qəmər gələ üzüm dərə.***

Bədii əsərlərdə müəllifləri oxucularla ülfətə çağıran insana (təbii ki) məxsus atributlar sırasında saçın misilsiz rolu şəksizdir və buna layiqdir. Adicə həyatda gözə, qaşa, əllərə, boğaza, ayaqlara, sinəyə buruna və sairə ayama yapışdırırıq: gözləri çəpdir, qaşların çatma deyil, əllərinin dərisi qırışdır, boğazı çiynınə batıqdır, ayaqları sağa – sola vurur, sinəsi qısıqdır, – deyirik. Buruna gələndə gülürük və Xudayar bəyin – Mirzə Cəlilin obrazını xəyalımızda canlandırırıq.

Yazımıza məşhur yazıçı Qoqolun "Burun" povestini gətirirk. Xalq əbəs deməyib, hər yerə burnunu soxma! Amma burunun ən qiymətli rolunu xatırlatmırıq: təbiətin ən gözəl, faydalı nadir predmetlərinin iyini, qoxusunu bizə ərmağan edən məhz burundur, hərçənd, insanı zahirən formalaşdıran dizayner bu vacib üzvün yerini düzgün müəyyənləşdirməmişdir. Burun kişilərə qadın bədənindən süzülüb yayılan ətri çatdıran vasitədir. Xüsusilə, romançılar insanda olan bədən üzvlərini təsvir etməkdə fərqlənirlər və oxucusunu "sakitləşdirirlər. Məsələn, ***qadının hər şeydən yapışan əlləri vardır, barmaqları incə deyildi, kobudlaşmışdı, tutduğu şeyi sıxırdı, işi ağırlaşanda misilsiz pak ürəklə vəzifəsini başa çatdırırdı.*** – Bu təsvirdə bir neçə üzvlər (əllər, barmaqlar) iştirak edir və yazıçının təsvirində əksini tapır. Kişilərə məxsus üzvlərin təqdimində qadınlardan fərqlənir: ***Kişinin göyümtül ensiz xırdaca gözləri, qalın qaşları altında ovunu gözləyən pişiksayağı yumulub açılırdı, ətli yanaqları çənəsinə doğru sallanırdı, sarışın bığları altında bic, fəndkir təbəssüm sezilirdi.*** Hər halda kişilər üçün səciyyəvi olmayan əlamətlərdir və etiraza ehtiyac qalmır. ***İsti çürüntü qoxusu onun alma burnunu qıcıqlandırırdı, gözləri dəniz ilbizlərinin qabığına oxşayırdı, nəfəsi kəsilmiş siçan səsi verirdi. Onun bozumtul qaraçı sifəti his çəkmiş dəri rənginə çalırdı.*** – Bu müəllif yozumunda qeyri – substansiya şeylərin dəyişən təsviri vardır. Deyək ki,

insanın sifətindəki burun o adamı cazibədar göstərir, gözlərinin işığı yanaqlarını allandırır.

Qadında dodaqlar, ağzının zərif xətti, saçları əks cinsdə ehtiras duyğusunu oyadır – baxmır hansı məkandır, saatdr – təki gözəlliyi tamamlayan əlamətlərin işığı parlasın. Məsələn, ***Qadının üzü dəyirmi, dodaqları dolu, ağzının cizgisi düz idi. Gözləri şabalıdı rəngdə idi. Saçları günəşdən yanan buğda zəmisi kimi qızılı rəngə çalırdı. Tumanı yuxarı dartılmışdı, kök baldırları açıq qalmışdı, tarım köynəyinin altında döşləri titrəyirdi.*** Bəlkə havanın özü çaşbaş qalmışdı – titrəyirdi?..

Bir təsadüflə keçmişə qayıtdım, başımı qaldırıb küçənin adını və taxta qapının sıra nömrəsinə baxdım. Sağa döndüm, öz əlimlə basdırdığım tut ağacını tanımadım. Qocalmışdı, başına yığışan quşlar seyrəlmişdi, asfaltda izi qalan tutun yerlərini saymaq da olardı. Darvaza əvəzi qapı azca aralanmışdı, içəri göz gəzdirməyə cəsarət edimmi?

Tələbə vaxtı məşhur yataqxanada beş il yaşamışam, Bakıxanov küçəsində idi, beşmərtəbəli. Pedaqoji İnstitutun idi, onun tələbələrinə verilmişdi. Bu, qonura çalan iki korpuslu binanın xudmani bağçası vardı. Fasadda – girəcəkdə solda Leninin, sağda Stalinin büstləri qoyulmuşdu. “Lenin” tərpədilmədi, Stalini isə gözümüzün qabağında iri ağır çəkiclə əzməyə hazırlaşan fəhləyə bir tələbə yalvarırdı ki, dəyməsin, büstü apara-

cam, heyifdir, bəlkə kəndimizə yolladım kolxozun maşını ilə. Maraqlanıb öyrəndim ki, həmin "xahişnaməli", "minnətnaməli" tələbənin babası Stalin repressiyasının qurbanı olub, oğlunu da xeyli incidiblər...

İstidən qorunmaq üçün tut ağacının kölgəsini seçdim. Ağacın dili və şüuru olsaydı budaqları ilə məni ağuşuna alar, bir ovuc tuta qonaq edərdi! Aspiranturaya qəbul olunmuşdum, kirayə mənzil sorağında bu həyəti tapdım. Yaşlı qadın mehriban qarşıladı və dedi ki, üç ailəyik, oğul, dünyanın düz vaxtı babalarımız bax bu geniş həyətdə məskunlaşıblar, mən dünyaya gəlməyən vaxtı. Hələ də mehriban yaşayırıq. Həyətdə bir rəssam da qalır, subay deyil, ev növbəsindədir, bu gün – sabah olacaq, hələlik ailəsi rayonda yaşayır. Maraqlı adamdır. İki tələbə qızı mən axtarıram, yəni yolunu gözləyirəm. Səni – əlini girəcəkdəki otaqlara uzatdı. – Orada yerləşdirər, işdədir ev kişisi, qayıdanda məsələni yoluna qoyaram. Həm də münasibdir sənin üçün, yazı – pozu adamısan. Sabah bu vaxtlar gələrəsn, şənbə günləri işləmir.

Həyət Surə arvadın dediyi kimi mehriban ailələrmiş, ayağım düşdü, iki institut tələbəsi qonşu oldular. Müxtəlif ixtisaslı məktəblərdi. Səhər növbəsində təhsil alırdılar. Biri ağbəniz, iri qaragözlü, kirpikləri hərəkətə gələndə sanki qaranquş qanadlarıdır, işığı tutur, çırpınırdı. Yerişini ayaqları nizama salır, astagəllik edirdi. Rəfiqəsinin də özgə gözəlliyi vardı: Qarayanızdı,

arıq, türk qızlarının baldırları kimiydi. Saçlarını qısaltmışdı, boynunu gizlədirdi yeriyəndə. Məni "birinci" qız cəlb edirdi, nə gizlədim: nə orta məktəbdə "gündəlik" eşq elan eləmişdim, nə də institutda qızla maraqlanmışdım. Oxucularda müəyyən təsəvvür yaranar və məni bağışlayaralar ki, "qızların bol vədəsində" əliboş beş ilimi itirmişəm. Amma təəssüflənmirəm, indi "sevmək sezonum" çatıbdır, deyəsən ağbənizi gözüm tutubdur. Xüsusilə, qoşa hörükləri beynimi çalxalayır, həyətdə oturanda hörükləri sinəsində darıxır, gah arxaya atılır, gah sahibəsinin biləyinə dolanır, gah da hörüyün ucu hörülür, elə bil hər telinin ucunda şimşək çaxır. Elə paltar geyinir ki, ağzının sarısı getməyən quş balaları kimi nigarançılığı görünmür, yalnız donundan "dimdikləri"nin xamlığı hiss olunur. Qız dərhal xəyalını "yığışdırıb" sinəsini hörüklərinin ixtiyarına buraxır, insafı çatmır ki, məmələrinin havasızlıqdan bağrı çatlıya bilər.

Rəssamla tez dostlaşdıq, zövqü bir yana, şeiriyyət həvəskarı idi, soruşanda dedi ki, fəlsəfə müəllimimiz rektor idi, akademik və şair Aslan Aslanov. O, bəzən fəlsəfi mühakimələrini şeirlə bağlayırdı və açırdı. Mən Aslan müəllimlə sıcaq münasibətim olduğunu xatırlatmadım...

Rəssam da bu geniş həyətin sakinləri qədərində maraqlı adamdı. Xüsusən, heyvanlar barədə dərin məlumatı vardı, onların bir-birinə sevgisindən inandırıcı

danışırdı və bir gün sərgidə üç tablosunu hopdum normal qiymətə xarici turist almışdı, dedi ki, bizim bu həyətdə akvarium quraşdırmaq fikrinə düşmüşəm. Danışmışam. Balıqların həyatı sevgisi, suda "şıltaqlığı". İşdən sonra akvariuma tamaşa etmək. Bu həyətdən gedəndə aparmayacam, yadigar qalsın məndən. Arada yolunu bu həyətdən salarsan. Hələlik üç ilin balansındadır, aspirant oğlan. Rəssamın akvariumu qonşuları da təəccübləndirirdi, sahə polislərini də.

Diqqət yetirirdim hörüklü qıza: həm səhər dərsə gedəndə, həm də axşam çağı balıqları heyran-heyran süzür, onların "davranışlarını" izləyirdi Bəzən ehtiyatsızlıqdan hörüklərin biri ayrılıb akvariumun ağ – mavi şüşəsi üzərinə düşüb, balıqları qıcıqlandırırdı, kölgəyə dözməyib yerlərini dəyişirdilər.

–Balıqların da vətəni olur. – Rəssam sözünə başladı. – Akvarium onların vətənidir, heyif ki, kürü tökmürlər. Məsələn, Somon balığının balası illərlə dənizdə qalandan sonra öz doğma vətəni olan suya qayıdar, həm də doğulduğu yerin böyük çaya töküldüyü sahəyə. Bu balığı, eləcə də digər növünü dəqiqliklə əvvəlki yerinə gətirən onlardakı instiktiv duyğudur. Əgər bu balığı – Somonu eyni çaya tökülən başqa yerə qoysalar, dərhal səhv yolda olduğunu hiss edər, təkrar geri qayıdar və əsl çayına çıxar, sonra çayın axdığı istiqamətin əksinə çevrilərək doğulduğu yerə tərəf yola düzələr.

Bu vaxt hər iki tələbə qaldıqları otağın girəcəyinə iki kətil çıxarıb oturdular, qısa saçlı qızın əlində kitab vardı. Qoşa hörüklü qız birbaşa akvariuma tərəf getdi, ayaq saxladı və balıqların üzgəclərinə baxır, barmaqları ilə şüşəni döyüb qoşalaşan cütləri diksindirirdi. Sən demə, bu mənzərə rəssamın nəzərində imiş. O, güldü və susdu. Bu dəfə rəssamın susması diqqətimdən yayınmadı, soruşdum ki, tələbənin belə hərəkəti onun yaşına uyğundur, "cütlərə" qısqanır. Sevənlərin adətidir.

Rəssam ayağa qalxdı, üzünü akvariumda balıqlarla əylənən qıza çevirdi, nəsə deмək istəyirdi, qəfil içəri keçdi, blaknotla qayıtdı, ayaq üstə qızla balıqların görüşünü cızmağa başladı, beş-on dəqiqəyə şəklin əsas konturları çəkildi. Əlindəki kitabı qatlayıb bizə yaxınlaşdı, üzündə müəmmalı təbəssüm işardı, dodaqları büzüşmüşdü, mənasız cizgilər əmələ gəlmişdi. Xam və həris dodaqları tikan gülü kimi əsirdi. "Bəxtəvərin bəxtinə bax, rəssamın diqqətindən yayınmayıb" – pıçıldadı kimsə eşitməsin, amma mənim qulağım almışdı: "Deməli, lal – dinməz tələbənin ürəyi atlanıbdır, rəfiqəsinə qısqanır" – ürəyimdən bu sözlər səsləndi. Duydum ki, qıza kinli utancaqlıq, ürəkdən xoş gülmək yad deyil. Belə qızların taleyi gələcəkdə necə olur? – Sualı beynimi qıdıqladı: "Kədərli qadın sevgisi ağır kişi nəvazişiylə üz-üzə gələrsə"... Qızın nəmli dodaqları məsumanə titrədi və o, kətili götürüb içəri keçdi. Məni rəssamın "balıqların da sevgisi olur" fikri gö-

türmüşdü, məqam axtarırdım soruşam ki. O, mənim qolumdan tutub akvariuma sarı apardı. Deyim ki, akvariumun uzunluğu iki metrə, eni yarım metrə idi. Sakinləri bu həcmin nisbətincə idi. İki balıq qapqara idi, əsasən "ağappaqlardan"ayrı üzürdülər. Belə düşündüm ki, onların cinsi – nəsil şəcərələri "ağlarla qaraların cinslərinə fərq qoyulana gedir, – özümə pıçıldadım: "Neçə dəfə baxmışam, qarışmırlar. Həm də sevgilidilər". – Bu dəfə ucadan dedim. Rəssam maraqlı fikir söylədi ki, balıqlarda sevgi qəribə olur, dişilərin hansı əlamətinə görə onlara yaxınlaşırlar. Düşündüm və dilləndim ki, insanlardan götürüblər belə zövqü? Və sualımdan özüm şübhələndim. "Bəli, məsələn, müşahidə aparmışam ki, filan bığlı balıq filan balığın iri qırmızı – sarı rənglərə boyanmış sinə süzgəclərinə aşiqdir, həmişə onun arxasınca süzür. Qara balıqları həndəvərinə qoymur. Müşahidə edib inanarsan. Cavan – yeniyetmə vaxtında belə bir həvəsim vardı. Bəlkə eksperiment edək?" – Ciddi halda sözləri dedi.

Mən akvariumdan ləzzət alırdım. İnstitutdan evə gələndə yorğunluğumu bu yolla çıxarırdım. Gecəyə az qalırdı, axşam toranlğı həyətin sakinlərini öz evlərinə çəkmişdi, televizorun qarşısına toplamışdı: futbol gedirdi. Rəssam əlində qayçı akvariuma yaxınlaşdı, işığı söndürdü, balıqlar çaşbaş düşdülər. Rəssam dişi balığın sinə süzgəclərini kəsib əlindən suya buraxdı və işığı yandırdı.

Futbolun qalan dəqiqələrinə baxmaq üçün televizoru açdım...

Səhər yeməyindən az sonra həyətin sakinləri öz qapılarından azca aralı oturub söhbət edir, şəhərdə baş vermiş hadisələri yozurdular. Surə arvad xəbərləri dəqiq aydınlaşdırırdı. Xəstəlik əldən salırdı. O, təxminən yarım saatdan sonra ərinin və özünün yerlərini qızlara verdi.

Mənim intizarım "balıq sevgisində" idi və rəssamın fikrini eşitmək istəyirdim. O, məni akvariuma baxmağa apardı, anladım. Barmağı ilə həmin balıqları göstərdi, uzun bığı suda üzən nazik ilana oxşayırdı, sinə süzgəcləri kəsilmiş dişi balıq kənara çəkilmiş, tərpənməz – bikef dayanmışdı, sanki soyuqlamışdı. Rəssam əlini erkək balığa uzatdı və astadan dedi ki, erkəyin sevgisi də kəsdiyim qəşəng süzgəclə getdi, buna aşiqmiş və sevirmiş! Bax ona, erkəyə, o da biganələşmişdir. Qorxuram cütlər bir gün.

Rəssamın səsi ahəngini dəyişmişdi, danışmağa tənbəllik edirdi:

– Qorxuram cütlər... – Yenə susdu və oturduğumuz yerə qayıtdıq. O, içəridən çəkdiyi portreti gətirdi, üzərində işləmişdi. Diqqətimi ilk cəlb edən qızın hörükləri oldu. Əlavəsi o idi, hörüyün biri akvariumun üst şüşəsinə düşmüşdü. Qara balıqlar hörüyün altında qoşalaşmışdı. Erkəyinin burun pərələri açılıb – yumulur, sürətlə nəfəs alırdı, ağzını açıb hörüyü qoxulamaq istəyirdi. Bədbəxt canlı nə biləydi onları şüşə ayırır.

Mən rəssama sirr gəldim ki, hörüklü qızla özümdən asılı olmadan maraqlanıram, hörükləri ona yaraşır, yerində tutmusan, ürəyimi oxumusan. Rəssam sözlərimdən güldü, sevindi.

– Onun üzündəki cizbə – sızaq hələ çəkilməmişdir. Onun sevilən vaxtıdır, rəfiqəsinin də.

– Amma rəfiqəsinin gözü hey səndədir, – risklə ürəyimdən keçəni çatdırdım. – Qızlar sevdikləri kişiləri həmişə subay nəzərində görürlər.

Sözlərimlə razılaşdı və balıq məsələsilə mövzunun yönünü dəyişdirdi:

– Erkək balıq dişinin al – əlvan lent kimi süzən, ona gözəllik bəxş edən pərləri sevirmiş, onu da mən... – Səsi boğazında tıxandı. – Biz insanların xislətidir, istədiyimiz fikrin sübutu naminə sevgiyə də mane oluruq.

Rəssamı ilk dəfə pərişan halda görürdüm. Bahar sularının gətirdiyi balıqla “cüt” gəzirlər, daşa–kəsəyə ilişsələr də ayrılmırlar, onladan Soman balıqları belə tiplərə məxsusdur. – Rəssamın yaşıl gözlərinin kənarında yaş giləlndi, titrədi, dodaqları əsdi.

– Sən sevgini itirmə, qoşa hörüklü qızı sev, xasiyyətinə bələd ol...

O yadımdadı, hörüklü qız sezmişdi ki, onunla ötəri yox, ciddi maraqlanıram və bir neçə dəfə dəniz sahilinə gəzintiyə getmişdik, sərbəst söhbətlərimiz olmuşdu. Rəssam yeni evinə yığılmışdı, yəqin cavan ailəsini rayondan gətirmişdi. Telefon əlaqələrimiz davamlı idi...

Tut ağacının altından qalxmaq həvəsim yox idi, elə bil qoşa hörüklü tələbə ilə vədələşmişdim, dərsdən qayıtmasının intizarını çəkirdim. Bir dəfə Xəzərin sahilində ağacın kölgəsində oturmuşduq, imtahandan "əla" qiymət almışdı, kefi də əlaydı, incə şıltaqlıq edirdi. Hörükləri sinəsində pərt cütləşmişdi, asta və həzin külək hörüyünü üzümə çırpır, xoşallanırdım. Cəsarət edib əlimi nə saçlarına, nə də yanaqlarına toxundururdum, adam sevəndə çox əfəlləşir, cürətsizləşir. O, məndən gözləmədiyim suala cavab almaq istədi:

– Mənim nəyimi xoşlamısan? Adi kəndçi qızam. Sən isə gələcəyin alimisən! Və qara gözlərini üzümə zillədi. Oxumaqdan gözlərinin altında balaca çəhrayı çuxurlar hərəkətə gəldi. Bədəninə dar gələn donunun altında bədəni sıxılmışdı, əl toxunmamış məmələri titrəyirdi, yuxarı dartınırdı, sivri gilələri təzəcə tikilmiş düyməni xatırladırdı. Xam aspirant olaraq ilk dəfə təsəvvürə gətirirdim ki, gilələri bal arısıdır, barmaqlarımı toxundursam sancıb uçacaqdır, yanıldığının peşimançılığını çəkib gül – çiçəklərə hopacaqdır.

O, hövsələsizlikdən narahatdı və sualının cavabını gözləyirdi. Mən nəhayət koftasının yuxarı düyməsini açdım, məmələri görünməsə də titrəyişinə vahimə qoşuldu. Meh havası sinəsinə doldu, boğazını qıcıqladı, üzüaşağı sallanan qalın hörüklərinə nədənsə təşvişlə baxdı. Nə cavab verəcəyimi fəhmlə duyub yerində qurcalandı, dənizin havasından xoşallandı, skamyadan

qalxmadı, tənbəllik elədi. Qəhərlənmişdi, göz yaşları yanaqlarında bərq vururdu. Yorulmuş dənizdən sərin nəfəs qalxır, yayılırdı. İntizar atəşi qızın üzünü yalayır, sığallayır, qurumuş dodaqlarını bir-birinə sıxırdı. Mən nəhayət, cavabı açıqladım:

– Hörüklərinin vurğunuyam, – dedim. – Sənə sevgimin bir atributu da saçlarındır. – Sözlərim elmi dildə çıxsa da anladı.

– Hə, belə? Hörüklərim hakimmiş məhəbbətində? Sən mənim yenicə çiçəklənmiş hisslərimi tapdaladın, duyğularımı külə döndərdin, boğazımda tıxanmış “ah”ımı boğdun, ürəyimə soxulan tutqun nəfəsimə heyfin gəlmədi.

Sol döşündə titrəyən hörüyünü əsəbiliklə ovcunda sıxdı, işıqlı üzü qaraldı. Cavabıma peşimanlamadım, bu qızdan belə üzü gözləmirdim. O, məgər qadın məxluquna hörüyün necə yaraşdığını bilmir, təsəvvür eləmir?

Hava dəyişdi, yovşan qoxusu verən ılıq meh əsməyə başladı, buludlar qıvrılıb toqquşdu. Ağ-boz buludlar qara – qonur buludların zərbəsinə tab gətirməyib ovuc-ovuc dağıldı, üzünü Cənuba sarı çevirdi, bənövşəyi nazik dumana qoşuldu. Ağacın budaqları bu dumandan çıxdı, yarpaqları xışıldadı, qızın çiyinləri çılpaq olduğundan bal arısı həşirdə idi, xəfif küləyə tab gətirir, qızın dövrəsində vızıldayır, ətli çiyinləri arını həvəsə gətirirdi.

Külək payıza tələsən ağacın yarpaqlarını çevirir, həzin xışıltısı arını təşvişə salırdı. Az sonra külək bərkidi, qağayıları sahilə qovdu, ağacın kölgəsində bitmiş sarmaşıq otunun kasacığını kölgə aldı, qüruba enən günəşin şüasını oğurladı.

Mən rəssamın xahişiylə, doğmalaşmış həyətimiz naminə akvariuma özüm baxırdım, balıqların yaşamasını təmin edirdim. Sevmək istədiyim tələbə qızın rəfiqəsini hərdən görürdüm – rəssam köçəndən. Rəssam isə həyətə bir dəfə gəlmişdi, Surə arvada baş çəkmişdi. Soruşdum ki, həyat yoldaşını gətirmisənmi? Dolaşıq cavab aldım. Necə deyərlər: "dalağım sancdı", çaşıb saçı qısa qızla alış – verişləri olar!

Məni maraqlandıran qızın ədalarını qabarıq nəzərə çatdırması, akvariumdakı balıqlara ləzzətlə tamaşa eləməsi, hörüklərini açıb boynu arxasında yığması idi. Çiyinlərinə səhər-səhər saçının səpələnməsi idi. Belədə də saçları ona yaraşırdı. Heç bir iradım yox idi. Sahildəki söhbətimin üstünə gəlmirdi, elə bil bir neçə dəfə görüşməmişik. Bu ədası xoşumca deyildi, bir halda sevdiyimi demişdim. Sözarası işarə vurmuşdum ki, hörük sənə yaraşır. Cavabı ikibaşlı olmuşdu: "Olmaya hörüklərimə görə sevirsən?" Mənim birbaşa: "Bu da mümkündür", – cavabını almışdı. Beləcə, dialoqumuz başladı:

– Gələcək taleyi qız hörüklərinə bağlamağı təsəvvürümə gətirmirəm. Sən oxumusan, alimsən, birbaşa

bildirirsən... – Fikrini tamamlamadısa, başa düşdüm deyəcəyi iradı.

– Bu gün hörüyünü qayçının ağzına verən qız sabah... – Sözlərimi yarımçıq qoydum, “dərinə” varmadım. O, ayıq qızdır, bəlkə də yaraşır.

– Rəfiqəmə qısa vurdurulmuş saçı onu pis göstərir? O, elə də sadəlövh deyil, şəhərə bir ilə əvvəl gəlib məndən, İncəsənət İnstitutunda oxuyur. Əslində rəfiqəm məsləhət bildi ki. – Susub nə söyləyəcəyini dilində saxladı. Bəlkə də mənimlə açılışmaq istəmədi. Və nə düşündüsə mövzunu balıqların üzərinə gətirdi.

– Balıqların neçə gündür kefləri yoxdur. Zənci nəsillilər əzəldən ağ irqlilərə qarışmırlar, onların davranışları qəribədir, neçə aydır eyni məkanda yaşayırlar, necə də mehribandılar. Marağım üçün balıqlar haqqında məqalə oxudum, heyrətə gəldim. Təkcə balıqların yox, heyvanların stixi hərəkətləri.

Müdaxilə elədim.

– Hər şeyə ateizmdən, inkardan başladığımız üçün həqiqətlərə inanmaq istəmirik. Razılaşarasan mənimlə.

– Hə,heyvanlar həyatlarının mühafizəsinə, nəsillərin davamına lazımlı şeyləri, qidaları öyrədilmədən də bilirlər. Quşlar möhkəm yuvalarını qururlar. Köçərilərsə səfər üçün müəyyən gündə toplanırlar. Oxuyanda heyrətə gəldim ki, ilan balığı balalayacaqları vaxt dünyanın hər tərəfində göllərdən, çaylardan gəlib Bermud adaları yaxınlığındakı dərinliklərdə balalayıb ölürlər.

– Heyvanlar belə həyat tərzinə təsadüfi gəlməmişlər. Bu söhbətimizin gününü xatırlamıram, amma payız qədəmlərini atmışdı, biz sahildə gəzişirdik. Nəhayət, sakit yer tapıb oturduq, qızın sözlərinə əlavə etdim ki, heyvanların şüur tərəfindən istiqamətləndirilməsi Allahın varlığının, qüdrətinin, ilahi əzəmətin açıq – aşkar sübutlarından sayılır. Bu dəlilləri bəşəriyyətə nümayiş etdirməklə kimin həqiqəti görüb haqqa təslim olacağını, kimin də gözünün qarşısındakı möcüzəli təcəllilərə baxmayaraq haqqa, ədalətə qarşı kor olduğunu ortaya çıxarır.

Tələbə qıza maraqlı olayları açıqlamaq fikrim vardı, mən elmi mübahisə açmaq istəmirdim, səviyyəsinə müvafiq boşboğaz da adlandırardı. Heyvanlar bir-birinə uyuşurlar, soyuq suda, dənizin alt qatında isnişirlər, bir–birindən ayrılmırlar, doğub – törəyirlər. Bəs biz ali şüurlu insanlar necə? Belə istər-istəməz ilin fəsillərinə bənzəyirik davranışımızda. Budur, çox sevdiyim payız gəlib, yarpaqlarla "davasından" başlamışdır, asfaltdan silib – süpürür, toparlayıb künc – bucağa dürtür. Səmada buludlar ərköyünlük edir, dənizlərin, qayaların üstündə oynayan külək balıqları sahilə qovur. Bəli, payız qəmli üzünü tez göstərdi, səmada süzən buludların kölgəli örtüyü harayasa tələsir, köçəri quşlar nizamsız qatarla üzü cənuba uçur. Kənddə – yamacda otlar saraldığından başlarını torpağa əymişlər, karsızlaşmışlar.

– Belə çıxır balıqların da bir-birinə sevgisi var ki, soyuq və buzlu sularda nəsil artımını unutmurlar. Bu möcüzəyə inanmaq çətindir. – Qız fikrində qəti olduğunu gizlətmədi. – Biz ali şüurlu adamlarda sevgi – məhəbbət qadın cinsindəki bir elementə bağlıdırsa. – Çiyinlərini çəkdi, haraya daş atdığını bilirdi və oğlanın reaksiyasında maraqlı idi. Məsələn, – sözünün məğzini gizlətmək istəmədi. – Mənim saçlarımın, konkret hörüklərimin bu dərəcədə qiymətini anlamamışam. – Sözlərindən yanaqları qızardı, başa düşdü ki, səhvə yol verdi, onlar təzə-təzə isnişirlər, alışırlar, sevişirlər. Aspirant oğlan onun xoşuna gəlmişdir ki, görüşə çıxmış, oradan –buradan söhbətləri baş tutmuşdur. Oğlan yaşca böyük olsa da sevməmişdir, əli qadın biləyindən tutmamışdır. Ürəyindən keçmiş ki, onun ətrini duysun, saçlarını sığallasın, dodaqların. – Cümləsinin ardını dilinə gətirəndə cüt qağayıların qıyıltısı hər şeyi alt – üst elədi. Qağayılar qida üstündə çəkişmirdilər, sevgi üstündə məzələnirdilər. Qağayılar yenidən qayıtmışdılar. Onların sağlam səsləri başqa quşları da tərpətdi. Bir də onu fikrindən yayındıran yanlarından ötən qadının hörüyünün aralanıb arxasında yellənməsiydi, sallaq dodaqlı kişi qadına çatmaqda idi və ayaq saxlayıb onu süzdü, gülümsəyib ötdü, hiyləgər baxışlarını sezdi.

Mən qıza işarə elədim ki, qadının hörüklərinə baxsın ki, ona yaraşır, kişi də tələsir çatıb otursunlar, keçmiş cavanlıq günlərini yada salsınlar. Əri arvadına çatmaq üçün özünü gücə salmaqdan çəkinmir.

– Həvəslə baxdın. – Mən sükutu pozdum. – Onlar bir-birinə möhkəm bağlanmışlar, fəhmim bunu sezir. Xatırlatmaq istərdim ki, ərindən ayrılmaq – dünyanın sahibi qismətinə düşməyən gözəl nemətlərdən birini itirməkdir, bir qəlbinin sınmasıdır. – Sözlərimin təsirini sınamaq istədim. O, əlini dənizə uzatdı, bayaqkı cüt qağayını axtarmaq fikrini tutdum, boş xəyala düşdüyünə təəccüblənmədim.

– Sən başqa, sevgidən uzaq qağayını ara, – deyib qumru quşunu göstərdim. Qumru asfalta çökmüşdü, qanadları ilə özünü yelpizləyirdi. Bir nadürüst qağayı aşağı enib quşun vərdişinə mane oldu, zavallı qumru dərhal ağacın budağına qondu, güman canının qurtardığına sevinirdi.

– Bu qağayı bayaqkı qağayı tərbiyəsi almamışdır, əminəm, – dedim. – Qumru nəcib heyvan cinsindəndir, özü öz qidasını tapır. Bu qağayıda sevgi duyumu yoxdur, öncə kübarlığı çatışmır. Kübarlıq ağaclarda da olur, bayaqdan altında oturmuşuq, bir sarı yarpaq budaqlarından qopub çiynimizə qonmamışdır. Payızın küləkli çağında yarpağını silkələsə də budaqlarından ayrılmamışlar, möhkəmcə yapışmışlar. Ağaclarda kübarlığa bax ki, sısqa, soyuqdan üşüyən çəlimsiz ağacların da budaqları yarpaqlarını saxlamağı bacarmışdır. Bax, ağaclar, qoca nənələrimizin damar atmış əllərinə oxşamırmı?

Rəfiqəsindən küsülü hesab etdiyim proqnozum özünü doğrultmadı: Sevdiyim tələbə – qız dedi ki, o, həyətdən başqa yerə köçür və bu hərəkəti Surə arvadın möhkəmcə xətrinə toxunub, dünya görmüş Surə xala birbaşa rəfiqəsinə bildirib ki, həyət adamlarından, məndən inciməyib, o rəssam zavalına gəlib, asta-asta mığırlaşırdılar. Bəlkə rəssam təzə mənzilinə arvad – uşağını yox qısa saçlı tələbə Arəstəni arəstə-arəstə aparıbdır. Sözlər qızı yamanca tutmuş, təsir göstərmişdir: "Qızım, o kəsik saçlı rəfiqən altdan-altdan eşqbazlıq edirmiş!" – Gileylənmişdir.

Məsələni uzatmağa dəyməz. Rəssamın həyətə ayaq basmamasının, akvariumla maraqlanmamasının gizlin səbəbləri bu imiş? Mən ötəri sevdiyim (bəlkə sevəcəyim?) tələbə qıza məsələni qandırdım, inanmadı, oxuduğu institutun yaxınlığında ev kirayə etdiyini dedi. Daha bu söhbətdən ay yarım ötdü, akvariuma rəssamın əmanəti gözüylə baxırdım. Balıqlara qulluğum yerində idi. Bir gün... Akvariuma yaxınlaşdım, gördüyüm mənzərədən halım çöndü, sinə pərəcikləri, gözəllik, cazibədarlıq bağışlayan dişi balığın halsızlığı bir yana – can verdiyini gördüm. Həyatımda, uşaqlığımdan üzü bu günə suda balığın ölümünü görməmişdim. Balığın burun pərləri açılıb – yumulur, güclə nəfəs alırdı. Hərdən çevrilir, solmaqda olan gözlərilə ətrafını süzürdü. Ömrünü əziyyətsiz yaşayan balıqlar üçün akvarium nəhəng dənizi andırırdı, onlara elə gəlirdi elə

bu dupduru suda, mamırlı – yosunlu okeanda doğulmuş, sonra bu məkana gətirmişlər. Gündüzlər asudəliklə üzür, bir yerə toplaşır, işarələrlə danışırlar. Necə ki, qaranlıq çökür bu dənizə – fərdlər taylarını tapır, cütləşirlər. O cüt qara balıqlar "ağlarla" dil tapmırlar, özlərini yad yerdə hiss edirlər, ona görə də qaynayıb – qarışmırlar. Amma heç də belə olmadı: suyun səthində qəfildən halı pisləşən ağ rəngli balığın pərləri kəsilmiş görəndə erkəyin ondan aralı üzməsinə dözmədilər, ona yaxınlaşdılar (Bunu təsadüfən mən müşahidə etdim). Və geri qayıtdılar.

Mən erkək balığı axtarırdım ki, hansı tərəfdə üzür, hansı balıqla qoşalaşmışdır, nəhayət, onu gördüm. Burnunu şüşə divara dirəyib asta-asta nəfəs alırdı, sanki indicə yad sudan gətirmişdilər, balıqları indicə görürdü. Yadında cüt qara balıqlardan savayı. Mənim bayaqdan akvariumun qarşısında sakit dayanmağım Surə arvadın gözündən yayınmamışdı. Tələsik şalını çiyninə salıb yanıma gəldi. Baxışlarını akvariumda çapalayan, son gücünü toplayan pərləri kəsilmiş dişi balığı süzür, başını bulayırdı. Balıq əvvəlki yaraşığını itirmişdi və bunu qadın kimi Surə arvad hiss etmişdi. Üzünü mənə tutub:

– Bəs erkəyi hanı, – pıçıldadı. – Ölübmü? – Hərarətdən gözləri sulanan Surə xala soruşdu, mən başımın işarəsilə "yox" demək istədim.

O, başını ağır-ağır tərpətdi, hələ canı üstündə olan balıqdan gözlərini yığdı.

– Erkəyi, sevgillisi ondan gen üzdüyü üçün xiffətindən bu hala düşmüşdür. Erkək hansıdır? – Soruşdu.

Mən əlimlə həmin balığı Surə arvada göstərdim. Balıq özünü yosunun içərisinə vermişdi, yanında cavan balıq hərlənirdi, qorxusundan kənarda yellənirdi.

– Erkəyi qınamıram. – Surə arvad dilləndi, sanki o, ali şüurlu adam haqqında fikrini söyləyirdi. – Erkək dişi balığın kəsilmiş pərlərini, ona qəşənglik verən süzgəclərini sevirmiş. Balıqlarda əlavə hissdir. Bəs oxumamısan ki, dənizin uzaq, dərin yerində olan kit, nəhəng balina dişisinin nəfəsini duyub özünü ona çatdırır! Hünəri çatmaz axtarıb tapmasın. Cinsləri birdir də! Bəs balığı bu vəziyyətə hansı naşı salıb? – Sualı konkret qoymadı və dərhal əlavə elədi ki, o qısa vurulmuş tələbənin işi olar, özünün saçına bənzədib.

– Özünü saxlamadı. Ax, qırdı – qaşdı qız! Rəfiqəsini də öz gününə salacaq. Hörüklərinə heyifim gəlir.

Balığın mənə elə gəlir taqəti yoxdur, başını bizə tərəf, işıq süzülən yerə döndərə bildi. Gözləri qapanmışdı, istərdim açıb baxsın ki. Bu saniyənin içində erkək balıq bir təkanla özünü yetirdi, bunu Surə arvad gördü. Balığın can verməsinə dözməyib dedi ki, suda ölməsin, günahdır. Suda ölən balıq murdardır, onun nədir günahı! Əlinlə çıxart onu. Dərhal akvariumun qapağını aralayıb əlimi balığa çatdırıb toxundum, bə-

dənim gizildədi. Balıqdan gözləmədiyim hərəkət möcüzəydimi? Ona elə güc, enerji gəldi – göyə sıçradı, – əlimdən çıxmışdı. Erkək balıq sanki müqavimət göstərmək istəyirdi ki, ey insan, əlini çək. Bizim sevgimizi məhv etdiniz, sevgilimin qəşəngliyini kəsdiniz.

Ürəyimdən keçən yozumumu unudub fikrim dağılmışdı. Dişi – sevgili sıçrayıb erkəyin yanına düşmüşdü, ölməmişdi. Onu çıxarıb akvariumun üstünə qoydum və bir neçə saniyədən sonra canını tapşırdı.

Surə arvad qolunun ətəyilə göz yaşını sildi, əliylə balığı sığalladı və:

– Oğul, – dilləndi. – Ölümün ünvanı birdir, ya insan ölsün, ya qarışqa, nə bilim hansı heyvan. Baxın, balıqlara əyan olubdur onun ölümü, vidalaşırlar. Balığın ölümündən sevdiyim qız xəbərsiz idi, dərsdə olmuşdur, günortadan sonra evə gələndə Surə arvaddan eşidir, qəhərlənir. Həmin gün, yəni axşamı həyətə varid oldum, elmi konfransda – gənc alimlərə həsr edilmişdi, çıxışım vardı. Öz otağımda televizora baxırdım. Yazıçı fantast Aslan Qəhrəmanovun teletamaşasının ardına. Aktyorlar Yaşar Nuri və Firəngiz Mütəllibovanın oyunlarına valeh olmuşdum.

Soyuducuda kotlet, kolbasa, mer – meyvə və qeyri – ərzaqlardan çıxarıb süfrə açdım. Həm şam etməmişdim, həm də səhəri Gəncəyə ezamiyyətə çıxmalıydım öz elmi işimlə bağlı. Dissertasiyam Orta əsrlərin XII-XV minilliklərində Azərbaycan mədəniyyətilə əlaqə-

dar idi. Gəncədə arxivlərdə saxlanılan bəzi sənədlərlə tanış olmalı idim. Marksın “Din bəşəriyyətin tiryəkidir” biz nəslin də beynini iflic vəziyyətinə gətirmişdi. Marks ya bilərəkdən, ya da kortəbii İslam dininin mövhumatın əleyhinə çıxdığını dilinə gətirməmişdir. Məhəmməd Peyğəmbərin: “Elm Çində də olsa oraya gedib öyrənmək gərəkdir” fikrini oxumaya bilməzdi. Peyğəmbərimiz alimləri “İntibahımızın açarı” adlandırmışdır. Xatırladıram ki, Marksın vətəni Almaniyada əhali çadır qurmağı bacarmayanda İslam ölkələrində elmin bütün qolları inkişafda idi. Nizami və Tusidən neçə əsr qabaq Buruni, Əli Kindi, İbn Sina, Əl Fərabi, Bəhmənyar, Məhəmməd Xarəzmi, Sührəvədi və digər dühalar yetişmişdi. Bir sözlə, fərziyyəmin bünövrəsində: “Almaniyada əhali çadır qurmağı belə, bacarmayanda İslami ölkələrdən xalqlar memarlıq abidələri yaradırdı” dayanır... Belə bir informasiyalar gənc nəslə çatdırılmalıdır. Yadıma düşür ki, hər şeyi kişi zövqüylə hazırladım, stolun arxasında əyləşdim. Otağımın giriş qapısı tələbə qızların qapısı ilə bir xətdə idi, işıq yananda, deməli, mən varam. Surə arvad gecə yarıda qaldığım otaqda işığı görəndə yazığı gəlirmiş mənə. Qızlara deyirmiş ki, aspirant oğlan yazır – pozur , siz ilk axşamdan “bay-bay” edirsiz. Mən işıqlara arxayındım  sevdiyim qız mütləq gəlcək, ona deməliyəm ki, sabah Gəncədəyəm, beş günlük elmi ezamiyyətdə olacağam.

“Ürəyə daman başına gələr” deyənlər yanılmırlar: O, əlində kitab gəldi, xalatda daha qəşəng təsir oyatdı məndə. Nə gizlədim, “Şampan” şərabını açmışdım, bir qarınlı qədəh içmişdim. Mehriban ovqatla əlimdən tutdu, silkələdi, yaxınlaşdı ki, üzümdən öpsün, görünür, risk etmədi, boş stulda oturdu, təsəvvürümə gətirdim süfrənin təsadüfən açılmadığını yəqinləşdirmişdir. Etika naminə “Şampan” içməsini təklif etdim, xalatın içində “oynayan“çiyinləri dartındı, baxışları gözlərimə zilləndi və qədəhə süzdüm, bir sağlıq dedim, içdik. Lazımsız – yeri olmayan söhbətə başlamışdım, sevdiyim qızın fikrini tutdum ki, xoşuna gəlmədi, yersiz bildi. Onu da yəqin elədim ki, yazıq tələbə dərsdən gəlib, dilinə heç nə vurmayıb, rəfiqəsizdir! Kotletdən çəngələ keçirib boşqabına qoydum, almadan bir dilim kəsib ona uzatdım. Utanmasaydım dodaqlarına aparacaqdım. O, bunu gözləyirmiş: biləyimdən ustufca tutub dodaqlarına apardı: “Quba almasıdır, yerlisini tapıbdır”, – pıçıldadı, mənə tərəf əyildi, sağ döşündən sürüşən hörüyü üzümdə çırpındı. Qıvrım saçlı başı geriyə sallandı. Xoşbəxtliyə qapı bu axşamdan açılacaqdı, bu fürsəti mənim kimi cavanlara ilahi verməmişdir, bir dəfə də əllərim qız – qadın məxluquna uzanmamışdır. Lazım idi ki, daxili ehtirasını müdhiş kosmik afətlə birləşdirim. Şeir söyləyim, lirik improvizasıya qabiliyyətini qıdıqlayım. Otağın istisindən qızın sifətindən al rəng səpələnirdi, ağzından isti nəfəs çıxırdı. Xatırlayı-

ram ki, mənim barədə yaxşı qərar verməz, əfəl, indiki dünyadan bixəbər hesab edər, ona olan sevgim daşa toxunar. İstər – istəməz barmaqlarım onun ucu açılmış hörüyünə toxundu, vallah, məndən asılı olmadı, qızın canı xalatin altında titrədi. Məmələrinin ucu nahamar nar çiçəkləriydi sanki, əl vursam ləçəkləri töküləcəkdi. “Şampanın” təsirindən xumarlanmışdı, alnında tər damcıları parlayırdı, üzünə baxanda elə bil cücü dişləmişdi. O, özünü unutmaq məstanəliyinə çatmışdı, kənddən gələndən azca ətləşmişdi, bədəni yayxanmışdı. Mən boynuma alıram ki, qızın alışmaqda olan nəvazişli gözlərinə baxmağa cürətim çatmırdı, bu gözlər unudulmaz idi həyatımda, hələ də yaddaşımı cızır. Onu tövşüyən sinəsilə ağuşuma aldım, özümə sıxdım, islanmış can köynəyisayağı. Hönkürdü xam qız səsiylə, acı göz yaşları yanaqlarını islatmışdı, sövqi – təbii hörüyü ilə sildi, bu hərəkətini bəyənmədim. Qız sanki qəsdimə durub o biri hörüyü burnuma yapışdırdı və “qoxula sonuncu dəfə” deyəndə diksindim, “nə deyir sevdiyim?” Sualı ürəyimdən keçdi, keflilik əlaməti hesab eləyib toxdadım. “Mən sabah yola düşürəm Gəncəyə”, – dedim və qızın reaksiyası ilə maraqlandım. “Elə belə?” Soruşdu və elmi işimlə əlaqəli olduğunu bildirdim. “Neçə günlükdür, həftəlikdir?” Yenə reaksiyasını gözlədim. Sinəsində qıvrılan hörüyünü ovcunda sıxıb: “Qoxula” – dedi. “Barmaqların yazmaqdan incələşib” – irad tutdu. Və sağ əlini əlimlə yanaşı qoy-

du, güldü, çəkib xalatının cibinə saldı. "Deməli, neçə gün həyətdə olmayacaqsan! Bəs balıqlara kim baxacaq?" "Surə xala" deyib ayağa qalxdım.

Divar saatının kəfkiri aramsız irəliləyirdi. O, yerindən tərpənib qapıya yaxınlaşdı, əlini mənə uzatdı ki, ovcumla sıxım: – Aspirant oğlan, bu axşamkı görüşümüz sirr qalsın, – güclə eşidiləcək səslə dedi. Mən cavabımda: – Sirr böyüklər üçün də, kiçiklər üçün də eynidir, – deyib indi əlini sıxdım...

İllər dolandı yaddaşımda: sevdiyim tələbə qızın eyhamını Gəncədən qayıdanda anladım ki, hörüklərini qayçının ağzında kəsmişdir, müasirləşmək üçün. Qrupda yeganə hörüklü qızı gözügötürməyən bəzi rəfiqələrinin güdazına saçını qurban vermişdir. İlk irad tutan ingilis dili müəllimi olmuşdur, orta yaşlı qadın onu lövhəyə çağırmış, başını bulamış, pisləmişdir: "Güman edirəm, səni sevən oğlana bu, yaxşı təsir etməyəcəkdir. Sizlərdən gizlətməyə hacət görmürəm. Bilirsiz – bilmirsiz deməyə çətinlik çəkirəm. Mən hörüklərimi kənddən bu şəhərə gətirdim. İnstitutda barmaqla göstərirdilər. Qrup yoldaşım vurulmuşdu mənə. Yalvarırdı qısa saç saxlamaq dəbdədir, onun – bunun feylinə uyma, hörüklərinə qayçı vurma, hörük olmasa da saçların qalsın. Sözlərdən qürur duydum, amma nankor çıxdım sevgimə. Oğlan qış semestrini başa vurub institutdan çıxdı, zavoda işləməyə üz tutdu. Yoldaşlarıma qoşulub minnətə getdik qayıtsın. Əlaçıdır,

inadından dönmədi. Mən rəfiqələrimdən çəkinmədən onun qarşısında diz çökdüm, göz yaşlarımı axıtdım. Sevdiyim oğlan inadında qaldı. Mənlə ailə qurmaq istəyənlərə mənfi cavab verdim. Səhvimdən beləcə qisas aldım, əziz tələbələrim”, – sözləri deyib stulda əyləşdi, dən düşmüş saçları çiyninə səpələndi. Handan-hana stol arxasından qalxdı, gözləri yaşarmışdı: “Təsadüfmü, cavanlıq dəliqanlığımı – beləcə taleyimin qapısını öz əlimlə bağladım”, – deyib qıza üz tutur: “Mənim bəxtimi sənə arzulamıram. Bu addımı əbəs yerə atmısan, qızım”.

Bu əhvalatı sevdiyim qız məktubunda yazmışdı, onu bağışlamağımı xahiş edirdi. Bir damla göz yaşı vərəqə hopmuşdu, ləkə salmışdı. Məktubun son abzası belə yekunlaşmışdı: “Sənin həyatdən getməyin, balıqlara baş çəkməyin Surə xalaya pis təsir etmişdir, arvad xəstələnmişdir. Üç ailəyə narahatçılıq gətirmişdir. Akvariuma hələlik yazıq Surə xala və mən baxıram, başqa yerdə mənzil tutmuşam, köçməyə hazırlaşıram. Mən ölən balıq “əhvalatını” səndən eşidəndə başa düşmədim, nəticə çıxarmadım. Sonrakı peşimançılıq isə...

Mən nə zamansa bu həyətə qayıdacağammı? İnanmıram! Nə yaxşı səninlə o axşam söhbət etdim, o vaxt hörüklü qız idim. Aspirant oğlan, bir də sənin sevginə qayıdacağammı?” “Zəmanə ildən-ilə pis gəlir” deyiblər, mən bunu nə çörək qıtlığı, nə evsizlik problemi, nə də insanların bir-birinə etimadsızlığı ilə bağlayıram,

səbəbi yaşımızla, qocalığa doğru gedişimizlə əlaqələndirirəm. Yəni qayğılarımız aybaay, ilbəil artır. "Ötən günlər necə də ləzzətli imiş" heyifsilənirik.

Cəmi: vur-tut üç il ötmüşdü, dissertasiyamı müdafiə edib bir qədər rahat nəfəs alırdım. Elmi rəhbərimi prorektor təyin eləmişdilər, ili bir-birinə calamadan məni o institutа müvafiq kafedraya "baş müəllim" götürdülər, müsabiqə yolu ilə. Maddi vəziyyətim yaxşılaşmışdı. Qərar verdim özümə köhnə həyətə baş çəkim, ötən çağlar bir yana – Surə arvad necədir, sağdırmı? Aspirant vaxtı mənə yeri gələndə əl tutub, xüsusilə, təqaüdüm gecikəndə. Həmin küçəyə gəldim, taxta darvazanı əvəz edən qapı açıq idi, havada istilik vardı. Həyətdə səs – küy şübhələndirdi məni, həyəcan keçirdim Surə arvad sarıdan. İçəriyə boylandım, rahat nəfəs aldım. Ustalar: daşyonanlar, sement düzəldənlər, qumdaşıyanlar göründülər. Cəsarətləndim, həyətə girdim nəhayət. Akvarium yerli – dibli götürülmüşdü, onun yerində iş gedirdi: "Deməli, Surə arvad"... – Ürəyimdən bəd fikir keçdi: "O, sağ olarsa kimin nə həddi akvariumu apara", – düşündüm. Elə bu vaxt darvaza – qapıdan rəssamın həyətə girdiyini görüb ona tərəf qaçdım, qucaqlaşdıq, ustalar bir anlığa əl saxladılar.

– Sən xoş gəlmisən! – Rəssam sevincini bu sözlərlə ifadə elədi. – Surə xala ilə görüşmüsənmi? – Əlavəsi bu sözlər oldu. Ürəyim yerinə düşdü.

– Yox! Sənin qabağınca gəlmişəm. Səni şad xəbər görüm, – deyib rəssamı süzdüm.

Saçları xeyli ağarmışdı, üzü qırxılmış olardı həmişə. Adətindən qalmamışdı. O da baxışlarını məndən çəkmirdi. – Təəccüblənmə, aspirant oğlan (həyətdə qonşular məni belə çağırırdılar), akvariumdakı balıqların şərəfinə kiçik heykəl yapdırıram, layihəsini özüm vermişəm. Mənə Surə xala bir-birinə aşiq olan balıqların ölümünü nəql edib. Onun göz yaşlarını görəydin. Öz gözləriylə şahidi olub. Rəssamı bir də qucaqladım, həyətə, onun sakinlərinə sadiq olduğunu həm ürəyimdə, həm də sözümdə alqışladım. Qulağına pıçıldadım ki, indi pulum var, xərcinin bir qismini mənə həvalə elə.

O, hirsləndi, siqaret qutusunu çıxarıb bir giləsini damağına qoydu, alışdırdı, ağ qoxulu tüstü burnundan bayıra burula-burula çıxdı. O, gözucu tələbə qızların qaldıqları mənzilə baxdı, həvəslə qullab vurdu.

– O qızları xatırlayırsanmı? – Ehtiyatla xəbər aldım, “ehtiyatlığım” sevdiyim qızın rəfiqəsiylə bağlı idi, axı, şübhələnmişdim...

Rəssam öskürdü, siqaretə bir neçə qüllab vurub yerə atdı, ayaqqabısının ucuyla söndürdü, kötüyündən acı tüstü asfaltda süründü və söndü.

–Unutmaq? Nə danışırsan? O qısa saçlı qız. – Bir də öskürdü, əlini pencəyin cibinə atdı siqaret qutusunu

çıxarsın, əlini saxladı. – Surə xalaya dəyəcəyik, siqaret iyi onu vurmasın.

Rəssam prorabı yanına çağırdı, tanış elədi mənlə, qısaca ötən vaxtlardan danışdı, abidənin şəklini mənə göstərməyini xahiş elədi. O, dəri portfelindən rəssamın çəkdiyi şəkli çıxartdı, baxıb xoşladım. Üzümü proraba tutdum.

– Bu iki balığın ölümü gözümün qabağında baş vermişdir, ikinci şahid Surə xaladır. Yəqin görmüsən.

– Bəli, xəstə – xəstə bizim qayğımızı əksik eləmir, Allah şəfasını versin, – deyib fəhlələrin yanına döndü.

Biz söhbətimizdə ikən üç yaşlı qız rəssamın yanına qaçdı və : “Nənəm sizi çağırır, səsinizi eşidib”, – deyib uzaqlaşdı.

Mən təəccüblənmədim, Surə arvad səsimizdən tanımışdı bizi.

İndi yadıma gəlir ki, Surə arvad yatağından xalatda necə qalxdı, Allah bilir. Mən ona yaxındım, üstümə atıldı, boynumu qucaqladı. İsti göz yaşlarını saxlaya bilmirdi, əti qaçmış əllərinin istisi son enerjisini verirdi, canında saxlamaq istəmirdi. Bu anlarda nəvəsi nənəsinin yanına qaçdı, xalatının ətəyindən yapışıb: “Nənə, rəssamı öp də”. – Ucadan səsləndi. – Gülüşdük. – Surə arvad: – Onu görürəm, həyətə tez-tez gəlir, – izah elədi.

– Mənə əyandı sən bu həyəti yaddan çıxarmamısan. Bircə o nadürüst tələbə qızları görmürəm. Amma

başıaşağı idilər. – O ki “xarici dillərdə” oxuyurdu. – Susdu, nəvəsi stəkana qrafindən su süzmüşüdü, Surə arvada uzatdı: – Nənə, iç boğazın quruyub, – astadan dedi və həyətə qaçdı. Mənə elə gəldi uşaq atasının gəlişini duymuşdu.

– Bircə o hərəkətindən möhkəmcə incidim qoşa hörüyünü bir günün içində kəsdirdi, aspirant oğlanın evdə olmamasından istifadə etdi.

Rəssam gözlərini mənə zillədi, yəqin irad tutmaq istəyirmiş ki, günah səndədir, belə qızı əldən buraxdığın üçün. Ürəyimdən o fikir də keçdi ki, günahkar o idimi, məndimmi?

Neçə ildən sonra hərəkətimi təhlil edib, “düzgün eləmişəmmi? Sualına cavab axtardım. Surə arvad məni isti göz yaşı ilə qucaqlayanda xalatının cibinə əl boyda konvert qoymuşdum. O, hərarətdən yanırdı (İçində dəyərə dəyən pul vardı).

Biz həyətdən birgə çıxdıq, rəssam maşınını aralıda saxlamışdı. Beş-altı dəqiqəlik söhbətimizdə dedi ki, sevdiyin qızı sevmədiyi oğlana ərə verdilər, toyunda olduq rəfiqəsiylə. – Yenə dilim gəlmədi deyim ki, “rəfiqəsiylə” sənin getməyini açıqla da! Məntiqlə yozumumda qalmışdım...

Başımı o vaxt qaldırdım: yaşım qırx beşə dirənibdir, nə vaxt gəlmişəm? Bilmirəm, amma necə gəldiyim yaddaşımdadır. İnstitutda (indi institutlar unversitetlərə çevrilibdir) çalışmağımın iyirmi ili də bir göz qırpı-

mında gəlib çatdı. Hörmətimi ilk dərs günümdən qorumağı bacardım, bu da bir hədiyyədir taleyimdən. Minlərlə tələbələrimlə öyünürəm, qürurlanıram. Bircə cavanlaşmıram! Səhv etiraf deyil.

Seminar məşğələlərimdə bəzən “ötən illərə ekskursiya” (nə münasib başlıqdır xatirələrini qələmə alasan) edirəm, cavanlar yönəldirlər, onları çağdaş olaylar o qədər də maraqlandırmır nəinki arxada qalan illərin acısı da, şirini də.

Məşğələmin cədvəl vaxtı üçüncü gündür qrupda – birinci kursu nəzərdə tuturam. Lövhə qarşısına üçüncü sırada oturan qızı çağırdım, fəal tələbəydi. Şeir yazmasa da şeir söyləməyin həvəskarı idi. Səsi xoş gəlmişdi mənə, sualıma yerində cavab verəndə hiss eləmişdim. Mövzusunu sərbəst seçim üzərində qurmuşdu, amma şəxsi müşahidələri əsas götürmələrini məsləhət görmüşdüm. Əlavə bildirmişdim ki, fikrinizi sevdiyiniz şeirlə tamamlayın. Yaşından hündür və ətli – qanlı görünən həmin qarasaç qızı dəvət elədim, yorğundum, muhazirədən çıxmışdım. Səsindən ovqatım yumşalacaqdı. Deyilən sözlər düz imiş, səsində kövrəkliklə təmizlik birləşmişdi, musiqilik yaratmışdı. Bir xeyli öz fikirlərini bildirdi, əsaslandırdı: “Şeir yazmayasan, şair kimi, müəllif kimi danışmağı bacarasan” – düşündüm və maraq üçün tələbəmi süzdüm. İlk dəfə saçları diqqətimi çəkdi, nə gizlədim: iki hörüyü sinəsindən sürüşmüşdü, sağa və sola ayrılmışdı, hərdənbir hörü-

yünün birinin ucunu barmağına keçirirdi. Nəhayət, şeiri şərhsiz – filansız söyləməyə başladı:

***Səni ötürməyə gəlmədim, qardaş***
***Yolladım dalınca gözümün yaşın***
***Yuyub suya çəkdi günahlarımı***
***Anamın yasına qarışan başım.***

***Bir gün də qardaşım beləcə getdi.***
***Bir əlim gözümdü silirəm daha***
***O yolun yolunu əzbər bilirəm.***
***O yolun dilini bilirəm daha.***

***Üzünə gülmədi bu gələn bahar,***
***Əllərin dərmədi açan çiçəyi.***
***Sənin oralarda nə ölümün var?***
***Qayıt, yetim qoyma kəndi, kəsəyi.***

***Əvvəl yay gələcək, sonra payız, qış,***
***Məzarın üstünə ələnəcək qar.***
***Niyə uzanmadı ömrün bir qarış,***
***Qayıt, oralarda nə ölümün var.***

***Mənə elə gəlir qayıdacaqsan,***
***Dost-tanış inanmır ölən gününə***
***Səni ötürməyə gələ bilmədim,***
***Gələcəm qayıdıb gələn gününə.***

Şeir tələbə yoldaşlarını da tutmuşdu – sehrləmişdi. Qızın tərtəmiz üzü işıqlanmışdı. Güman öz səsində bir qəribəlik sədası duymuşdu, hətta diqqətlə dinləyən müəlliminin sağında, ayaqüstə dayandığını belə görmürdü.

Şeiri bitirdi, üzünü indicə mənə tərəf çevirdi, özü susmuşdu, ürəyindən keçəni yalnız özü pıçıldayırdı səssizcə.

– Şeirin müəllifi kimdir? – Sualına cavabını gözləmədim: "Sevən qız olubdur, sevgisini nədənsə itirmişdir". – Tələbəmin gözlərinə nəzər yetirdim, kövrəlmişdi. – Hə, bu şeir əhvalımı yerindən oynatdı. Eh, ötən günlər! – Səsim xırıldadı.

– Bağışla, müəllimim. – Tələbənin gözlərində yaş qurumuşdu, elə göründü. – Anamındır, adı Fərqanədir. Soyadı Mehdiyevadır. Xarici Dillər Universitetində təhsil almışdır. Bu, anamın son şeiridir. Soruşdum ki... Peşimanladım, eşitdiyim xəbərdən:

– Keçən il... – Hıçqırdı, üzünü pəncərəyə tərəf çevirdi.

Oxucularım, söylədiklərim hekayət deyil, vaxtilə sevdiyim qızın hörüklərinin qayçıya verməsinin faciəsi də deyil, – ondan üz çevirdim. Tale qismətimə bir bəhanə hesab edərdim. Axı, nə üçün qızlara xüsusi qəşənglik təsiri yaradan, subay oğlanların hisslərini, duyğularını təzələyən gözəllik nişanəsindən uzaqlaşdırırsız. Vallah, dilimə gəlmir uzun saçlarını kəsdirib qısal-

dan qızları, qadınları kişi tayfasına oxşadım, yazmağa da əlim gəlmir. Unutmayın, bəxtinizə düşən, yeniyetməliyinizdən qulluq etdiyiniz, saya, sarışın, qıvrım saçlarınızı hörüb qoşalaşdırırsınızsa əhsən! Tənbəllik göstərməyib güzgünün qarşısında durub baxın, baxın və o dəqiqələrdə görkəminizin qədrini qiymətləndirərsiz!

Oxuyun nağıllarımızı, dastanlarımızı, xanımlarımızın saçlarını necə həvəslə, hövsələ ilə qulluq etdiklərindən zövq alacaqsız, inanıram!

Təsadüfi deyil aşıqlarımız və aşiqlərimiz öz zərif gileylərini misralarda ifadə etmişlər.

***Saçın ucun hörməzlər,***
***Səni mənə verməzlər.***
***Əyil üzündən öpüm –***
***Qaranlıqda görməzlər...***

O halda görər aşiq – ağ sinənin sağında və solunda qara saçlar hirsindən çapalayır...



## Son söz yerinə: Zərif ürəyin çırpıntıları

Vaxtilə qadınların əhatəsində vəzifə pillələrinə yüksəlmiş və yavaş-yavaş enmişdi, daha doğrusu, diyirlənmişdi, iradəsi hesabına yıxılmamışdı, dizindən zədə almamışdı. Buna səbəb olaraq qadınlar barəsində iç yanğısını söndürəməyə taqəti çatmamışdır. Şövqünü və zövqünü saxlayan bu adam rabitəsiz söyləmələrdən ləzzət alır, maraqlı "açıqlamalar" verirdi. Heyifsilənən çağlarında gözlərində ehtirasları zəif işıq saçırdı, sanki gileylənirdi taleyindən: "Kaş bir də vəzifə qismətimə düşəydi, zərif qadınların yox, sərt xanımların ürəyilə oynayardım. Belə qadınlar necə də maraqlı olurlar! Amma biz kişilər zəif və zəriflərin yanında nəfəs almağa alışmışıq".

O, sözünü kəsdi, fikrini tamamlamadı. Handan hana üzümdə baxışlarını qorudu: "Sən şeir həvəskarısan. Bir şeirlərdən de fikrim dağılsın, itirdiyim sevgilərim üçün ağlayım," – deyib, həqiqətən kövrəldi, təsirləndi.

Bu ovqat mənə sevgili günlərdən xəbər verirdi. Və müsahibimin halı dəyişirdi. Yaddaşımı "aşağı" – "yuxarı" çevirirdim. Vaxt olub qadın haqqında aforizm ruhlu sözlər də işlətmişəm: "Qadının intim naləsi həzin deyilsə, toz içində bitən çiçəklər kimi solar" – sözlərinə qarşı: "Qadın kişi təmasından sonra üzünü baharın ilk gecəsinə tutmuş sərv ağacı kimi oyanır, tumurcuqlanır" – pıçıldamışam.

Xatırladım şairə Nigar Arifin "Qadın" şeirini.

***Qarşıda ömrünü yedilər sənin,***
***Özünə bir tikə gün də qalmadı...***
***Fil boyda yükünü daşıdın yenə,***
***Qarışqa qədrini bilən olmadı...***
***Ömrünün dibini sıyıran qadın,***
***Sən ki ümidlərə bel bağlamışdın.***
***Sən ki kədərinə gülüb astadan,***
***Sən ki sevincinə gün ağlamışdın?..***
***Ümidlər belində gedirsən indi,***
***Torpağın səbirsiz, daşın səbirsiz.***
***Bəlkə də, bəlkə də bilmirik, qadın,***
***Torpaq da xəbərsiz, daş da xəbərsiz,***
***Getdiyin ölümün barmaq ucunda,***
***Yeyilmiş ömründü gözləyir səni,***
***Gözləyir sakitcə, səssiz – səmirsiz...***

Lakin kişi(lər) qadın ömrünü səssiz necə qarşılaya bilər? Təsəvvürümə gətirməkdə çətinlik çəkirəm və bu əhvala düşməyi mümkünsüz sayıram. Adətən, kişi tayfası çox vəziyyətlərdə qadın ürəyini başa düşməkdə çətinliklərlə üzləşir: bir aşağı baxır, bir yuxarı – bir-birinə zidd görüm. Öncə bu sərt və zərif məxluqun ağlı, emosiyası, həssaslığı nəzərdə tutulur. Nizami XII əsrdə şifahi sözə etibar etməmiş ağ vərəqlərə ürəkdən gələn misralarını köçürmüşdür.

***Gəl, abi – həyat sən sanma asan,***
***O, cana ağıldır, ağılasa can.***
***Can çıraq olarsa, ağıl ona yağdır,***
***Əql ilə, can ilə bədən də sağdır.***

Misralardan sonra O, sanki ötən illərin xatirələrinin əl – ayağını yığdı: – Ekzestensialist fəlsəfəsində Dünyanın ötəriliyi, ölümün labüdlüyü məsələsi, həyatın müvəqqətiliyi qoyulmuşdu. Nizami Gəncəvi məhz bu problemə toxunmaqla qadın hissiyyatı, qadın ürəyinin istəyi baxımından insanları və söz adamlarını xəbərdarlığa çağırmışdır:

***Şadam ki, Dünya evi darısqaldır,***
***Qəm gedir, şadlıq gəlir əzəldən adi haldır.***

Biz bir-birimizi anlayırdıq. Mühafizəkarlıq ola bilsin onun psixologiyasında mövcuddur, lakin həyatında oturub – durduğu qadınların qəlb aləminə, onların sirli dünyasına bələdliyi məsələsi mənim üçün maraq doğururdu. “Bu ürək həqiqətən anlaşılmazdır?” Sualımı yersiz hesab etmədim və marağıma cavab verməsi hissi ilə susdum. Və belə bir əhavalatı asta-asta, siqaretinə qüllab vurmaqla danışdı. Mən ilk baxışda müsahibimin belə söhbətcil, kövrək və sərt həyat yolu keçdiyini duymaqda acizlik göstəmişdim. Xəyalpərvər olan bu adam sözünə “Kama Sutra”dan bir kəlamla

başladı: “Qadın həmişə dilənçi büdpərəstlərin, əxlaqsız və fırıldaqçı qadınların, falçı və cadugərların kampaniyasından qaçmalıdır”. Əgər bu deyilənlərdən qadın məxluqu yaxasını çəkirsə, onda ürək – qəlb hərarəti, ağıl – zəka soyuqluğu vardır. Amma qadınları kişilər anlamağa borcludurlar. Quranda yazılmışdır ki: “Ey iman gətirənlər! Qadınlara zorla varis çıxmaq Sizə halal deyildir. Açıq – aşkar qəbahət bir iş görməyiblərsə, onlara verdiyiniz (mehrin) bir hissəsini özünüzə götürməklə onlara əziyyət verməyin. Onlarla xoş rəftar edin. Onları istəməsəniz (bilsin ki) Allah istəmədiyiniz şeylərdə də ola bilsin ki böyük xeyir nəzərdə tutur”.

Müsahibimin Qurandan gətirdiyi bu kəlam məni ruhlandırırdı. Onun barəsində fikrim durulurdu. Quranda ər – arvad münasibətlərinə həssaslıqla qiymət verilibdir, “Sevgi – mərhəmət məsələsi qoyulubdur, bir münaqişə baş verərsə mütləq çalışmaq lazımdı onlar barışsınlar”: “Onların ayrılmasından qorxarsınızsa, o zaman kişinin camaatından bir münsif göndərin. Əgər onları barışdırmaq istəsələr Allah da onlara kömək edər. Yaxud: “Əgər qadının kişinin kobudluğundan və ya üz döndərməsindən qorxarsa, onların öz aralarında barışıq yaratmalarında heç bir günah yoxdur”.

Barmaqlarına sıxdığı siqareti yandırdı, qüllab vurdu, dalğın baxışlarını güman ki uzaq xatirələrdən çəkib gətirdi, bəlkə də həyatında olub – unudulmuş qa-

dınlı əhvalatı yenidən çözdü, ancaq Qurandan gətirdiyi kəlam fikrimə o qədər də uyğun deyildi: – Qadınlara ən çox ayrılıq məqamlarında da ləyaqətli olmaq gərəkdir: “Qadınlarınız boşadığınız və onların gözləmə müddəti başa çatan zaman onları xoşluqla saxlayın, ya da xoşluqla azad buraxın, haqlarına təcavüz edib zorla saxlamayın. Kim belə edərsə, özünə qarşı haqsızlıq etmiş olar”.

Mən çoxdan bəri beynimdə gəzdirdiyim, yuxarıda ixtiyarınıza verdiyim soyuq qadın məsələsində qadındakı bəzi xəstəliklər, psixi – fizioloji çatışmazlıqlar istiqamətində söhbəti gücləndirmək istəyirdim. Bir də İslamın ən müqəddəs kitabına istinadən dediyi sözlər də çox şeyi dəqiqləşdirirdi. Ondan soruşdum ki, qadınla kişi arasındakı İntim mühitin kölgəli çalarları – birinci tərəfin istəyinin alınması, ikinci tərəfin sadəcə bacarmaq qabiliyyətindən məhrumluğu fəsadlara gətirib çıxarır. Məncə, İslam da buna tutarlı cavab hazırlamışdır.

Müsahibim sönməkdə, tüstüsü tükənməkdə olan siqaretinə son qüllabı vurdu. Son nəfəsini buraxmaqla siqaret sanki son anını da itirdiynə acıyırdı. Tüstüsü aşağıya, torpağa deyil, havaya qalxırdı və əriyib gedirdi. Deməк, adi siqaretin səmada, hələ də bizim üçün sirli o aləmdə yeri vardır. Nə isə, özüm də düşüncəmdən qırıldım. Səbəb müsahibimin şərhiydi:

– Qadında... – Susdu. – Bilirsiz, onlar məxluqdur, bir nöqtə belə qüsuru, naqisliyi olmamalıdır, çünki onlar bizlərə Tanrı qismində göndərmişdir. Gəl ki xəstəhallıq baş verəndə hər iki tərəf itirir. Burada güzəşt də, barışmazlıq da mümkündür, xəstəlik və sair hallarda kişinin qarşısına 3 yol çıxır, Quranda deyildiyi kimi: Biri alicənablıq göstərməklə real vəziyyətə güzəştə getməlidir, o biri arvadını boşamaqla onun tənhalığını təmin etməlidir, özü təzədən evlənməlidir, digəri xəstə arvadını tamamilə himayəsinə almalı, istərsə başqa birisiylə ailə qurmalıdır.

O, ayağa durdu, var-gəl elədi, sözlü adam əhvalı ilə vəziyyətlə barışmadığını hiss etdirdi:

– Mən. – Daha bir siqaret yandırdı. Bir-iki addımlıqda yem həvəsli qoşa qumru quşu onun diqqətini çəkdi. Sonra siqaretinin tüstüləndiyini unudub yenidən yandırmaq istədi. – Qadın qəlbi, qadın ağlı barədə tam əmin olmasam da qərarım müsbətdir, bir şərtlə, qadınlar öz funksiyalarının icrası qayğısına daim qalmalıdır. Qoy geniş ürəyi, zəkası olsun, lap kəşflərin sahibi olsun, fərqi varmı? – Üzünü mənə tutdu, ondan çox şeyi öyrənmək fəhmimi hiss eləyib ruhlandı. – Fərqi yoxdur, qadındır, özünü kişi ağuşunda tapması ilə öyünməlidir ki, Allah – Təala ona kişi məxluqu göndərib. Lap ürəkdən Siz deyəndir, razıyam. O, özünü İntim mühitdə tapmırsa. – Dostum susdu, siqaretinə qüllab vurdu. – Dahi Ziqmud Freydi tanıyırsız, onu hələ oxu-

maq, oxumaq gərəkdir min dəfə. Yazır ki, qadın özündə kişi cinsi əlaqə alətinin olmaması ona göndərilmiş cəza kimi izah elədiyi birinci cəhddən sonra özünə gələn təkin, belə mühüm cəhətdən xali olan cinsə nifrəti kişilərlə birlikdə bölüşdürməyə başlayır.

Güldü qəhqəhəylə, gözüylə bayaqkı qumru quşlarını axtardı. Quşlar xeyli uzaqlaşmışdılar. Buna qəribsədi şübhəsiz və hələ çəkə biləcəyi siqareti ayağı ilə söndürdü.

– Freyd, həyatının 40 ilində çox qənaətlərə nail olub, möhürünü də vurub, eləyə qalsa qadınlar barədə adını unutmuşam, Amerikanın Texas ştatının senatoru nə desə yaxşıdır: “Bilirsinizmi Allah nəyə görə qadınları yaratmışdır? Ona görə ki, qoyunlar makinada çap etməyi bacarmırlar”. – Sözlərimdən ürəyincə güldü, başını buladı.

–İfratavarma qadınların payına daha çox düşüb. Mən sakit, lilli ömrümdə qadınlarla dostluqlarım çoxdur, yaddaşım da qoruyub nə yaxşı. Ötərisi də var istədiyin qədər, məgər beləlóriylə qadına qiymət vermək olarmı? Yox, həyatımda ürəyinin böyüklüyü ilə ömrümü zinətləndirən qadınlara heykəl yapardım. Mənim yaralarımı təzələməyə dəyərmi? Haralara gedib çıxaram, bilirsənmi? Yaşamışam əzabını da, xoşunu da. Az olmayıb siz dediyiniz ürəkli qadınlar. Küçədən keçirəm, bəlkə də onlar məni oxşadırlar özümə, ancaq onları tanımıram, diqqət yetirmədiyim üçün. Qadın sö-

zü, qadın nəfəsi ürəyindən çıxmırsa, üzr istəyirəm: bioloji tələbatı ödəməkdən başqa nəyə lazımdır onlar. Amerika senatoru vardır, bilmirəm ölüb, ya yaşayır, ölübsə Allah rəhmət eləsin, Mark Hentfild 1974-cü ildə kinayəli demişdi ki, əksər qadınlar kimi mənim də arvadım başı ilə yox, badamcıq vəziləriylə düşünür.

Ürək ayrı şeydir, xüsusilə, qadınlarda olanda daha zəngindir, kişilərə nisbətən. Mübaliğə üçün demirəm. Zərif, həssas, hissiyyatlı qadın ürəyi kişilərə əvəzsiz nemət, təkrarsız həyat bağışlar və bir daha o, təkrarlanmaz.

Müsahibimin səsi xırıldadı, yaraşıqdan düşməmiş sifətini sığalladı, çal bığlarını dodağı ilə islatdı. Cəsarət elədim əvvəlcə, amma onun məhz bu dəqiqələrini müşayiət eləmək istəyirdim. Maraqlı odur, Mark Tvenin dahiyanə qiyməti yadıma düşdü: “Qocanın üzündəki qırışlar onun cavanlıq çağlarının təbəssüm yerləridir”. Hələ onun sifətində qadın nəvazişinin kövrək izlərini görürdüm, ağarmış saçlarında qadın öpüşünün istisini duyurdum. Hələ barmaqlarını demirəm. Bircə özünü ələ alsın, hıçqırıq onu boğmasın.

Siqaretim qurtardı, bu zəhrimarı 40 ildir çəkirəm, amma xeyri zərərindən çoxdur! – Ovqatla dilləndi.

– Daha bəsdir, sizinlə söhbətimdən istifadə edib hələ çəkməyəcəyəm.

– Həyatımda onlarla qadın cərgəsində yalnız bir qadın (“böyük hərflə deyirəm” qiymətini işlətdi) qarşı-

sında ömrüm boyu günahkaram. O özündən asılı olmadan əlini cibinə apardı, siqaret axtarırdı. – O qadını anlaya bilmədim, başa düşmədim. Təsadüfən tanış olmuşduq. Məndən beş-on yaş kiçik idi. Əzəmətli və məlahətli səsinə vurulmuşdum. Vəzifəm, xidməti maşınım. Qorxu hissi vəzifə sahiblərini buraxmırdı. Onunla görüşəndə "zaparoşest" maşınına əyləşib aparırdım – tanımasınlar. İki-üç ay idi ürəkdən sanatoriyaya düşdüm. Birdən onu sanatoriyada gördüm, yaşadığım mərtəbəyə liftlə qalxmaq üçün gözləyirdi. Salamlaşdım, həyəcansız əlini uzatdı. Otağımda oturduq, zəhmət çəkib mənə yoluxmağa gəldiyi üçün təşəkkür elədim. Nə desə yaxşıdır: – Mən də sanatoriyaya putyovka almışam. Ailənizin buraya gəlməsinin əleyhinəsiz, ürəyiniz isə... Məni düzgün başa düşün. Xeyli söhbətləşdik. O, bir qadın kimi saxtakarlıqdan uzaq idi, tez alışdıq bir-birimizə. İki həftəlik sanatoriya həyatı məni cavanlaşdırdı, gümrahlaşdırdı. Onun ürəyi bambaşqadır, güclü fəhmi var, oxuyur sözün həqiqi mənasında. Lakin anadangələmə kobudluğum baş qaldırırdı, yersiz xətrinə toxunurdum. Bəlkə söhbəti qurtaraq. – Müsahibimin səsi xırıldadı, öskürdü, üzünü yana çevirdi. – Onun əvəzsiz İntim münasibətinin dəyərini qiymətləndirməyi bacarmadım.

Ayağa qalxdı, əlini qoynunda daraqladı. – Ayrılandan üç il sərasər mənə zəng vururdu, vəzifəm bir pillə aşağı düşmüşdü. Hətta bir dəfə görüşüb ondan üzr

istəməyi qərara almışdım. Bağa getmək qərarına gəlmişdim. Darıxmışdım, heç bir qadın vücudu onu əvəz etmək üçün yaranmamışdır. Son sözü bu oldu: – Mənim ürəyimi elə qırmısan. Mən ömrüm boyu sənin ürəyin üçün yaşamağı qərara almışdım. Sən mənim üçün maraqlı adamdın. Bağışlayın, daha. – Hıçqırdı, ilk kərə idi ağlayırdı, bu tanışlığımız müddətdə onu ağlayan görməmişdim. Bəli, hıçqırırdı. Dəstəyi asmışdı. Müsahibim həyəcanlanmışdı, söhbətə həvəsi qalmamışdı, vaxtilə həyatında böyük rol oynaya biləcək qadını itirməsinin ağrısını yaşayırdı.

**– 0 –**

Qadın həyatının sirləri bəlkə də bu məxluqun özünə də bəlli deyil. Gah məişət səviyyəsinə enir, gah şairləşir, gah da iri dairəvi və qara gözləriylə qılınc axtarır. Ona görə də sənətkarlar qadın qəhrəmanının dolğun obrazını yaratmaqda acizliyini etiraf etmişlər. Bir tərəfdən qadın mənəviyyatının psixologiyası, qeyri – adi ruhu, digər tərəfdən iradi keyfiyyəti, nəhayət zəif və zərifliyi. Tibb elmində qadın ürəyini anatomik – psixoloji xüsusiyyətləri az-çox araşdırılmışdır, daha doğrusu qadın orqanizminin ürək – damar sisteminin anatomik – fizioloji xüsusiyyətləri çox məsələdən xəbər verir, kişilərlə müqayisələr də aparılır. Belə ki, qadınların ürək yığılmalarının sayı kişilərinkindən 8-10 dəfə

çox olur, qadın ürəyinin çəkisi kişi ürəyindən 10-15 faiz azdır. Qadın ürəyinin həcmi 581sm$^3$ olduğu təqdirdə, kişinki 735 sm$^3$-dir (orta hesabla). Əzələ qatının qalınlığı da azdır.

Qadın ürəyi (idmançılarda) hər dəfə vurduqda 99 mm, 1 dəqiqədə 5.5 l qan vurur. Kişilərdə bu rəqəm müvafiq şəkildə 120 ml və 7-8 l-dir.

Deməli, qadın ürəyi incədir, kövrəkdir, zərifdir. Hər şey bu məxluqu qabalıqdan qorumaq, kişilərə əbədi həyat vermək üçün yaratmışdır. Qadın orqanizminin kövrək məqamları nə vaxta təsadüf edir? Sual maraqlıdır. Müəyyənləşdirmiş ki, qadın ürəyinin təkamülündə fizioloji – bioloji xüsusiyyətlər həlledici olub, cinsi yetişkənlik dövründə təsadüf edir. Lakin bu dövrdə xoşagəlməz vəziyyətlər, dəyişmələr və s. baş verir ki, bunları lazımi dərmanların köməyilə aradan qaldırmaq mümkündür. Xüsusilə, cinsi yetişkənlik prosesində düzgün qidalanmamaq, idmandan uzaqlaşmaq, sinir sisteminə düşən gərginlik zəifliyə gətirib çıxarır və məhz bu yaşın ürəyin sağlamlığında rolu həlledici ola bilər, lazımdır ki, ürək – damar nevrozların qarşısı vaxtında alınsın. Ürək nahiyyəsində uzun müddət ağrılar baş verir, bədənin hərarəti qalxır, elektrokardioqrammada Miskard infarktına bənzəyən dəyişikliklər olur. Belə vəziyyətlərdə diaqnozun düzgün qoyulması, müalicə vasitəsilə xəstəliyi yoluna qoymaq mümkün ümiddir. Təsəlliverici cəhət odur kövrək, həssas, zərif

qələmə verdiyimiz (əslində belədir) qadının ürək – damar sisteminin təhlükəli xəstəliklərinə qarşı davamlıdır.

Xəstəliklər qadın ürəyinə kişilərə nisbətən daha asan yol alır: bəlkə də onun üçündür qadında dözümlü, ağrını göz yaşı ilə çıxarmaq kimi keyfiyyətlər bəllidir. Unutmayaq qadın ürəyi "Soyuq qadın" xislətinin şəffafverici dəyəridir.

İnsanda ürək məsələsi bioloji baxımından da problem yaradır, dünya səhiyyəsi, tibb elmi bu dərəcədə inkişaf etsə də, əl boyda ət parçası şıltaqlıq edir, bəzən isə yersiz çırpınır. Sevgisində daşa dəyəndə adını "dəyişdirib" qəlb qoyur, daha aşiqə ürəyim ağrıyır" – pıçıldamır, "qəlbim sinəmə sığışmır", – deyir. Qadın isə ürəyinə bel bağlamır, o qədər kövrəlir ki, tabı sarsılır, zəifləşir və hətta babalı gəlir. Amma dözümlü qadın ürəkləri mövcuddur ki sevgisində, ona tuşlanan haqsızlıqda dəyanət göstərir. Orta əsr şairlərindən İmam Qəzzali (1048-1111) və başqaları insanın – fərdin ürəyilə bədəni arasındakı münasibətdən yazanda heç də özlərini xoşbəxt hesab eləmirlər, məhəbbət üçün iztirab çəkirlər. Ömər Xəyyam başını meyə nə qədər qarışdırsa da Eşqi unutmadı:

***Mənəvi aləmin tövhəsidir eşq,***
***Gəncliyin dilrüba nəğməsidir eşq,***
***Ey eşq dünyasından xəbərsiz olan –***
***Anla ki, həyatın nəşəsidir eşq!***

Maraqlıdır ki, Nizami Gəncəvinin sələfi olan İmam Qəzzali insanın ürəyi və bədəni arasındakı münasibətdə fikirlər söyləmişdir.

“Bil ki, bədən ürəyin məmləkətidir və bu məmləkətdə ürəyin müxtəlif qoşunları vardır. Ürəyi axirət üçün yaratmışlar, onun işi səadətini axtarmaqdır və onun səadəti Allah – Təalanı dərk etməkdədir. O, Allah – Təalanın yaratdıqlarını da dərk edir ki bunların hamısı hiss dünyasına aiddir. Aləmin qəribəliklərinin dərkinə o, duyğular vasitəsilə nail olur. Bu duyğular isə bədənin sayəsində mövcuddur. Beləliklə, idrak ürəyin ovudur, duyğular onun torudur (tələsidir), bədən onun atı və torunun daşıyıcısıdır. Deməli, bədən ona bunun üçün lazımdır.

Bədən, su, torpaq, hərarət və rütubətdən ibarətdir, buna görə də zəifdir, daxildən aclıq və susuzluqdan, xaricdən odun, suyun təsirindən, düşmənlərin, yırtıcıların və s. hücumundan məhv olmaq təhlükəsi vardır. Aclıq və susuzluqdan onun yeməyə və içməyə ehtiyacı olur. Bunun üçün o, iki qoşuna möhtacdır: biri zahirdə – əl, ayaq, diş, ağız, mədə, digəri batində – yemək və içmək istəyi. Xarici düşmənləri dəf etmək üçün də onun iki qoşuna ehtiyacı vardır: biri zahirdə – əl, ayaq, silah və s, digəri batində – qəzəb və ehtiras kimi. O, bir şeyi görməsə, istəməz, düşməni görməsə dəf edə bilməz, buna görə də onun duyğulara ehtiyacı olar. Duyğuların bir qismi zahirdədir və onlar beş hissdir:

görmə, eşitmə, iybilmə, dadbilmə və lamisə. Digər qismi isə batindədir, onlar da beşdir və onların məskəni beyindir: qavrama qabiliyyəti, fikirləşmə qabiliyyəti, yadda saxlama qabiliyyəti, yada salma qabiliyyəti və təxəyyül qabiliyyəti.. Bütün bu zahiri və batini qoşun ürəyin fermasına tabedir, ürək onların hamısının əmri və padşahıdır".

Nizami də Qəzzali kimi, ürəyi bədən məmləkətinin padşahı və sultanı sayır, bütün bədən üzvlərini onun xidmətçisi bilir. Şair "Sirlər xəzinəsi"ndə ürək ölkəsinə səfərini və onun qoşununu poetik obrazlar vasitəsilə belə təsvir edir.

**Sətri tərcümə:**

*(Ürək) qapısının halqasını vurdum. Dedi: "Bu vaxt kimdir?"*
*Dedim: "Əgər qəbul etsən, adamdır"...*
*Sarayın ən xüsusi hərəmindən*
*Səda gəldi ki: "Nizami, içəri gəl".*
*Orada işıqlı bir saray gördüm –*
*Pis göz ondan uzaq olsun.*
*Yeddi xəlifə bir otaqda (əyləşmişdi).*
*(Elə bil) yeddi hekayə bir dastanda (cəmləşmişdi).*
*O yarımisti Nəfəsabad (diyarında)*
*Günorta şahı başda oturmuşdu.*
*Qırmızı bir atlı ədəblə onun qarşısında (dayanmışdı),*

*Ləl geyimli bir cavan ov üçün gəzişirdi,*
*Ondan aşağıda xılt yeyən bir qara (qul durmuşdu).*
*Bir kəmənd atan pusquda dayanmışdı.*
*Bir tunc bədənli (pəhləvan) gümüşdən zireh taxmışdı.*
*Onların hamısı pərvanə, ürək isə şam idi:*
*Onların hamısı dağınıq, ürək isə cəm idi.*
*Mən qənaətlə ürəyin mehmanı oldum.*
*Canımı ürək sultanına peşkəş etdim.*
*Ürək qoşununun bayrağını tapan kimi*
*Aləmdəkilərdən üz döndərdim.*

Burada şair insanın ağ ciyərlə aldığı nəfəslə qızınan və "abad olan" daxilini göstərir. "Başda əyləşmiş günorta şahı" (Günəş) ürəkdir (ruh) mənasında. Onun xidmətində duran daxili üzvlər isə bunlardlr: "Qırmızı atlı ürək, ləl geyimli əsgər – qara ciyər, acıqlı ovçu – öd kisəsi, qara qul – dalaq, kəməndatan – mədə (onun kəməndi isə bağırsaqdır), tunc bədənli pəhləvan – böyrək.

Nizami və Qəzzalinin hissləri insan həyatındakı rolu barədə baxışları da olduqca yaxındır.

Qəzzali "Kimiyayi – səadət"də yazır ki, insan məhz ürəyi (ruhu) olduğu üçün digər canlılardan üstündür. Bu məsələni Nizami də "Sirlər xəzinəsi"nin birinci ("Adəmin yaradılması haqqında"), altıncı ("Varlığın etibarı haqqında") və yeddinci ("İnsanın digər canlılardan üstünlüyü haqqında") məqalələrində irəli

sürür. Nizamiyə görə, insan bu yüksək məqamına layiq olmalı, ürəyə bəndəlik etməli, ürəyin ardınca getməlidir, çünki yalnız ürək Allaha doğru yolu insana göstərməyə qadirdir. Ona görə insanın başlıca vəzifəsi ürək həqiqətini dərk etməkdən ibarətdir. Birinci məqalətdə şair insana müraciətlə deyir:

***Sən ürəyin qasidisən, şeytanın ardınca getmə,***
***Sən əmirin şirisən, gözətçinin iti olma!***

O, altıncı məqalətdə yenə bir məsələnin üzərinə qayıdıb yazır

***Dünyanın səndən yaxşı kirəkeşi yoxdur,***
***Yer quşunun səndən yaxşı dəni yoxdur...***
***Sənin bünövrəni bu torpaqla qoyan (Tanrı)***
***Canın Kəbəsini ürəyin sarayında düzəldib.***
***Qəbul naxışını işıqlı ürəkdən al,***
***Bədənin qara (çirkli) kiliminin tozunu alma.***
***Bədən dediyin bir ovuc torpağın töküntüsüdür,***
***Yalnız ürək, yenə də ürək, çünki söz ürəkdədir.***

***Qəlbin qulu ol ki, sultan olasan.***
***Ağlın ağası, canın padşahı olasan.***

Ürəyin həqiqətini dərk etməyin yolu, Nizamiyə görə, riyaziyyat və mücahidə, yəni nəfsi cilovlamaq, ehtirasları tərk etmək, xəlvət və təcrid yoludur. Şair bu barədə fikirlərini "Sirlər xəzinəsi"nin on üçüncü ("Dünyəvi əlaqələrdən əl üzmək haqqında"), on dördüncü ("Qəflətin məzəmməti haqqında") və on yeddinci ("Pərəstiş və təcrid haqqında") məqalətlərində aydın şəkildə bəyan etmişdir. Yeddinci məqalətdə oxuyuruq:

***Ürəyin qədrini və canın rütbəsini***
***Yalnız riyazət vasitəsilə dərk etmək olar.***
***Ünsürlərin gümüşünü riyazətə tapşır ki,***
***Riyazət onu təbii qızıla çevirsin.***
***Riyazət yolu ilə (yüksək) bir məqama çatarsan.***

**Ürəyi qoruyaq,** bunun üçün ürəkli olmaq gərəkdir, ürəkli adam bütün çətinlikləri aradan qaldırmağa nail olur və bundan sonra gümrahlaşır.

**Ürəyi qoruyaq,** bunun üçün xeyirxah, inayətli və cəfakeşlik əsas şərtdir, bu "üç"lüyün icrasından sonra adam qürur duyur ruhunda – canında.

**Ürəyi qoruyaq,** bu qəlb qadınları yaşadır, onları uzunömürlü edir, fərəh doğurur və dünyaya sağlam uşaq gətirir, böyüdür, necə lazımsa tərbiyə edir.

***03.01.2021 – 03.07.2021***
***Bakı.***

Çapa imzalanıb: 26.04.2024
Format: 60x84 1/8.  Qarnitur: Times.
Həcmi: 29.5 ç.v.

ADMİU-nun mətbəəsində çap edilmişdir.

**Ünvan:** Bakı şəhəri, H . Zərdabi küç. , 39a
**Telefon:** (+994 12) 434-50-04